NAZİF QƏHRƏMANLI

Azərbaycan Xalq Cümhuriyyətinin
90 illiyinə həsr olunur

# NƏSİB BƏY NÜMUNƏSİ

## MƏKTUBLAR, MƏQALƏLƏR, ÇIXIŞLAR VƏ HAQQINDA YAZILAR

4628

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI
«Nurlan» - 2008

Rəyçilər: **Aydın Abi Aydın**
*filologiya elmləri doktoru, professor*

**İslam Ağayev**
*filologiya elmləri doktoru*

Elmi redaktoru: **Xaləddin İbrahimli**
*Tarix elmləri doktoru, professor*

**Nazif Qəhrəmanlı.**
**Nəsib bəy nümunəsi.**- Bakı, «Nurlan», 2008, -

Bu kitabın vəzifəsi Azərbaycan Xalq Cümhüriyyətinin (AXC) əsas yaradıcılarından biri,, 1920-ci ildə Gürcüstanda daşnak güllləsi ilə şəhid edilmiş Nəsib bəy Yusifbəylinin (1881-1920) həyat epizodları, "Tərcüman" qəzetində çap etdirmiş olduğu məqalələr, AXC Parlamentindəki çıxışları ilə oxucunu tanış etmək, ilk respublikanın 90 illiyində böyük xidmətləri olan bu mütəfəkkir insanı, böyük siyasi şəxsiyyəti xatırlamaqdır. Kitaba N.Yusifbəylinin haqqında M.Ə.Rəsulzadənin, M.Əliyevin, N.Mustafanın və başqalarının məqalələri də daxil edilmişdir.

Rus dilindən olan məktubların tərcüməsi, türk dilində olan məktubların azəri türkcəsinə uyğunlaşdırılması, ərəb əlifbası ilə olan məqalələrin transliterasiyası filologiya elmləri doktoru Nazif Qəhrəmanlınındır.

$\frac{4702000000}{N-098-2008}$

© «Nurlan», 2008

**I. Nazif Qəhrəmanlı**

## Nəsib bəy nümunəsi

### Ömür və tale yolu

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri olmuş Nəsib bəy Yusifbəylinin həyatı, yaradıcı fəaliyyəti, maarifçilik xidmətləri, ictimai və siyasi çalışmaları, yenilməz və qüdrətli şəxsiyyəti ibrətamiz nümunədir. M.Ə.Rəsulzadə başda olmaqla bir çox mübarizə və istiqlal yoldaşları onu Azərbaycan siyasi istiqlalının siyasi düsturu kimi qiymətləndirirlər. Nəsib bəyin Azərbaycan milli hərəkatında qeyri leqal fəaliyyəti, "Tərcüman"qəzetində guşə yazarı kimi fəaliyyəti, 1917-1918-ci illərdə intensiv siyasi fəaliyyəti, Cümhuriyyət dövründə Azərbaycan maarifinə və dövlətçiliyinə etdiyi töhfə xüsusi tədqiqatların mövzusudur.

Nəsib bəyin ulu babalarının Gəncəyə hələ XVII-XVIII əsrlərdə Cənubi Azərbaycandan gəldiyi güman edilir. Artıq XVII əsrin sonunda Nəsib bəy və Usub (Usuf) bəyin burada xüsusi mövqe tutduqları, böyük torpaq sahələrinə malik olduqları qeyd edilir. Bu dövrdə həmin nəslin nümayəndələri öz mövqelərini möhkəmləndirmiş, Usub bəy Gəncə xanı Cavad xanın vəziri olmuşdur. Bu ailənin övladı Şükufə xanımın Cavad xanın ilk zövcəsi olduğu söylənilir (xanın digər qadını Şəki xanının bacısı Mələknisə bəyim idi).

Nəsib bəy nəslinin Gəncə şəhərində də daimi malikanəsi olmuşdur. Fərrux Əhmədovun "Gəncənin tarix yaddaşı" kitabında (1998) göstərilir ki, N.Yusifbəylinin əsas yaşayış yeri Səfərabad məhəlləsi idi. Şəfiqə xanım Qasprinskaya da xatirələrində Səfərabadda iki otaqlı mənzildə yaşadıqlarını qeyd etmişdi.

Professor Sadıq Şükürovun "Gəncəli Cavad xanın hekayəsi" kitabında (1992) Cavad xanın həyat yoldaşı Şükufə xanım nədənsə adi kəndli qızı kimi təqdim edilir, 1780-ci ildə Cavad xana ərə getdiyi, qarşılıqlı anlaşma ilə yaşadıqları, üç oğul anası

(Uğurlu, Hüseynqulu ağa, Əli ağa) olduğu vurğulanır, 1812-ci ildə vəfat etdiyi qeyd edilir. Əsərdə Şükufə xanımın çox təsirli və canlı obrazı yaradılmış, onun Gəncə məscidinin həyətində, Cavad xanın ayağı altında dəfn olunduğu göstərilmişdir. Əsərdə Cavad xanla Şəmşəddin sultanı arasındakı münaqişə dolayısı ilə Gəncə xanlığında vaxtilə olmuş qarşıdurmaların milli birliyə xələl gətirdiyini və nəticə etibarilə Gəncənin süqutuna gətirdiyini göstərməkdədir. S.Şükürov Nəsib bəy Sultanla Cavad xanın münaqişəsinə də işıq salır, bu hadisəni Cavad xanın məğlubiyyətinin əsas səbəblərindən biri sayır (səh. 31). Lakin S.Şükürov qeyd edir ki, Şəmşəddin mahalının tarixən Nəsib sultana dəxli yoxdur, vaxtilə bu ərazi A.Bakıxanovun fikrincə Zülqədər oğullarına mənsub olmuş, Nadir şah tərəfindən gürcü çarı Teymuraza bağışlanılmışdır. Bunun səbəbi odur ki, Gəncə xanı Uğurlu Nadiri şah kimi tanımaqdan imtina etmişdi...

Tarixçi Fərrux Əhmədov yazır ki, Şəmşəddil mahalı "Cavad xanla şəxsi düşmənçilik aparan Nəsib Sultanın dövründə ixtilaf almasına çevrilmişdi (Gəncənin tarix yaddaşı. s. 44). F.Əhmədov 120 yaşlı İsrafil babanın dilindən Cavad xanın Nəsib Sultana məhəl qoymayaraq Şəmşəddili zorla Gəncəyə birləşdirdiyini və bəzi günah işlər gördüyünü də qeyd edir (s. 85). Şübhəsiz çar hakimiyyəti kimi güclü bir düşmənlə üzbəüz qalan Cavad xan Nəsib Sultanla münaqişəsini dinc yolla həll etməli idi, amma təəssüf ki, bu baş vermədi...

Nəsib Sultanın Yusifbəylilər nəslinə qohumluğu ehtimalı da var.

Bir həqiqət var ki, Nəsib Sultan Rusiyanın da düşməni idi. Belə ki, o, Gəncənin alınmasından bir neçə il sonra Qafqaz canişini Yermolovun göstərişi ilə həbs edilmiş, uzun müddət sürgündə yaşamış, erməni mənşəli general V.Madatovun əli ilə 1819-cu ildə Kazanda və ya Xarkovda öldürülmüşdü.

Nəsib bəyin ata-babalarının malikanələrinə məxsus tikililər Tovuzun bir sıra kəndlərində indi də qalmaqdadır. Onların əsas malikanəsi Yuxarı Öksüzlü kəndində yerləşirdi. Bu nəslin nümayəndələri burada imarətlər və körpü tikdirmiş, məktəb açmışlar. XIX əsrin 1874-cü, 1885-ci və s. illərində tikilmiş imarətlər burada indi də qalmaqdadır.



Lakin onların Gəncədə, Hacıkənddə və s. yerlərdə də malikanələri və torpaq sahələri olmuş, əkin-biçin ilə məşğul olmuşlar. 1998-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə Gəncədə ezamiyyətdə olarkən vaxtilə Nəsib bəyin yaşamış olduğu binaya da gedib baxdıq. Hazırda orada Nəsib bəyin bacısı Xanımın nəvələri Nüsrət və Rafat Cuvarlılar ailəsi ilə yaşayır.

Nəsib bəy Yusifbəylinin 1900-cü ildən başlayaraq Gəncədə bütün ictimai, siyasi, mədəni və xeyriyyətşilik tədbirlərində iştirak etdiyi yaxşı məlumdur. O da atası Yusif bəy və qardaşı Həmid bəy kimi dövrün çalxantılarından kənarda qalmamış, ən gur hadisələrə qatılmışdı. "Difai" partiyasının yaranmasında fəal iştirak edən Nəsib bəy eyni zamanda mədəni-kütləvi tədbirlərin əsas təşkilatçısına, təşkil etdiklərini kitabxananı işini siyasi kluba çevirməyə müvəffəq olmuşdu. Xarizmatik bir lider olması, təşkilatçılıq məharəti, siyasi qüvvələri bir araya gətirmək sayəsində kitabxanada təşkil olunmuş klub sonradan "Adəmi-mərkəziyyət" adlı güclü bir milli partiyaya çevrildi.

Onu qeyd etmək vacibdir ki, onun fəaliyyətinin bu dövrü sosial demokratik hərəkatla bağlı olmuş, az sonra milli hərəkata bağlanmışdır (bu barədə Şəfiqə xanış Qasprinskayanın xatirələrində də kifayət qədər məlumat vardır).

Uzun müddət çar senzoru işləmiş Mirzə Şərif Mirzəyevin "Qafqazda türk mətbuatının tarixinə dair xatirələr" kitabında Qafqaz canişinliyi Şurasının üzvü V.N.Osetskinin canişinə belə bir gizli məlumatı-dosyesi təqdim edilmişdir: "Poladzadənin dediyinə görə panislamist təbliğat Pişnamazzadə tərəfindən onunla qohum və tanış olan şəxslərin dairəsində aparılır. Bu cəmiyyətin başında Krımda nəşr olunan "Tərcüman" adlı tatar qəzetinin redaktoru İsmayıl bəy Qasprinski durur. Pişnamazzadənin xalası oğlu Nəsib bəy Həsimbəyov (Mətndə Həşimbəyov əvəzinə Həsimbəyov yazılmışdır – N.Q.) onun (yəni İ.Qasprinskinin- N.Q.) qızına evlənmişdir. Krımda yaşayır və onun tövsiyələri ilə Zaqaf-

qaziyaya və İrana Konstantinopolda təhsil almış şəxslər göndərilir.

Nəsib bəyin doğma qardaşı Həmid bəy Yusif bəy oğlu Həsimbəyov bir müddət Yelizavetpol şəhər idarəsində xidmət etmiş, bu yaxında Tiflisdən sürgün olunmuş, hazırda Konstantinopoldadır.

Nəsib bəy və Həmid bəy qardaşlarının atası Yusif bəy Yelizavetpolda "Kitabxaneyi-Osmanlı" adlı kitab mağazası saxlayır. Görünür, bu kitab mağazası mədrəsələri panislamist ədəbiyyat və qəzetlərlə təmin edir. Bu kitabxana Həsimbəyovların öz adına deyil, onların bu kitabxana açmaq xahişinə rədd cavabı verilmişdi". (Respublika Əlyazmaları İnstitutu, inv. № 301, s. 168).

Yusifbəyli qardaşlarının Gəncədə böyük maarifçilik işi apardıqlarını bir çox mənbələr, habelə Nəsib bəyin yazmış olduğu "Təslim" hekayəsi təsdiq edir. "Tərəqqi" qəzetinin 30 iyun 1909-cu il tarixli nömrəsində Həmid bəy Yusifbəylinin "Mədrəsə kitabxanası" adlı elanı diqqəti cəlb edir. Elanda qeyd edilir ki, "Gəncədə mədrəsə adlı bir kitabxana açılmışdır. Kitabxanədə Türkiyə, Rusiya, İran, Misir nəşriyyatından türkcə, rusca, ərəbcə, farsca hər dürlü məktəb və oxu kitabları bulunacaqdır. Ədəbiyyat və fününa dair ciddi əsərlər satılacaqdır." Elanın müəllifi olan H.Yusifbəyli sifariş kitabları üçün İstanbula məxsusi adam göndərildiyini və müxtəlif kitablar üçün sifarişlərin qəbul edildiyini qeyd edir. Bir çox dövrü nəşrləri alan bu kitabxana Gəncədə maarifin yayılması işində mühüm rol oynamışdı. (Nəsib bəy Yusifbəyli də Şəfiqə xanıma bir məktubunda "Tərcüman"ın bir neçə aylıq nömrələrinin almadıqlarını və "Serkovnoye pravo" qəzetini göndərməyi xahiş edirdi).

Nəsib bəyin Gəncə həyatı onun "Təslim" hekayəsində çox səciyyəvi detallarla təsvir olunmuşdur. Əsər Molla Mahmud adlı birisinin həyatından bəhs etsə də bu dövrdə Gəncədə təhsilin vəziyyətindən, yeni məktəbin açılmasından, məktəbin müəllimlərindən də söz açır. Molla Mahmud təhsildə və həyatda köhnəliyin, cəhalətin və sxolastikanın rəmzidir. Hətta onun oğlu hadisələrə daha yetkin, daha gözüaçıq baxır. Təhsildə baş verən yenilikər köhnəlik mücəssəməsi Molla Mahmudu pis vəziyyətdə qoyur və o, yeni qayda və qanunlara "təslim" olmağa məcbur olur.



Hekayədə yeni məktəbin qayğıları, müəllimlərin yaşantılarına da mühüm yer verilmişdir. Yeni mədrəsə, yeni "üsuli-cədid"köhnə mədrəsə ilə toqquşur. Burada Nəsib bəyin prototipi olduğu Rza bəy adlı müəllimin obrazı da iştirak edir. Həqiqətən Nəsib bəy həmin məktəbdə bir müddət rus dili müəllimi işləmiş, maarifin təşkili ilə yaxından məşğul olmuşdur. Bu məqamda hələ Odessada tanış olduğu türk ziyalısı Akif bəyi Gəncəyə dəvət etməsini Şəfiqə xanım da təsdiq edir. Türk müəllimlərinin əsas problemlərindən pasport problemi olduğundan Nəsib bəy bu məsələni də həll edir, müəllimlərin İran pasportları ilə təmin olunması ilə yoluna qoyurdu. Çox ehtimal ki, əsərdə Nail bəy adı ilə təmsil olunan personaj elə Akif bəydir. Hekayədə əlifba müəllimi Abbasın da adı çəkilir ki, bu çox güman ki, yeni məktəbdə müəllim işləmiş Mirzə Abbas Abbaszadədir.

Hekayənin sonunda yeni mədrəsə müəllimlərinin iclasında Molla Mahmudun köhnə mədrəsədən çıxarılaraq başqa bir məktəbə müəllim keçirilməsi məsələsi həll olunur. Molla Mahmud buna etiraz etsə də onun razılaşmaqdan başqa yolu qalmır.

Şəfiqə xanımın yazdığına görə Nəsib bəy "Tərcüman"da 1906-1912-ci illər arasında işləmişdir. Bu dövrdə o, qəzeti idarə etmiş, digər qəzetlər haqqında xülasə və icmallar yazmış, Vıborq bəyannaməsini "Tərcüman" mətbəəsində çap etdirmişdi. Dünyagörüşünə gəldikcə Nəsib bəy əvvəlcə solçu olmuş, yəni sosialist ideyalarına uymuş, tədricən İsmayıl bəy Qasprinskinin təsirilə türk millətçisi kimi formalaşmışdı. Şəfiqə xanım bu barədə yazırdı: "Nəsib "Tərcüman" qəzetində çalışarkən çox vaxt atamla münaqişə edərdi, atamdan daha başqa görüşləri vardı, fikir ayrılığı vardı. Bu yalnız ilk 1-2 il sürmüşdü. Sonradan tamamilə atamla birləşdi. Bu da özünün dediyi kimi bir Gəncə dönüşü idi: "Rüşdə çatdım artıq, amma çox qafasızlıq göstərdim",- demişdi. Bağçasarayın gənc ziyalıları və yarı ziyalı gənclərilə Nəsib tez tanış oldu, birləşdi. Təbii ki, özünü də sevdirə bilmişdi".

Nəsib bəyin İstanbulda olması ilə əlaqədar müxtəlif fərziyyələr vardır. Bəzi fərziyyələrə görə o, 1908-1911-ci illər arasında İstanbulda olmuş, bəzi fikirlərə görə bu səfər çar polisinin təqibləri ilə əlaqədar həyata keçmişdi. Şəfiqə xanımın fikrincə Nəsib bəyi İstanbula İsmayıl bəy Qasprinski özü aparmışdır. Bu, 1909-cu ildə olmuş və Nəsib bəy orada bir ildən çox qalmamışdır. İsmayıl Mirzəni qarşılayan və müşayət edən Əhməd Seyidəhməd Krımər Nəsib bəyin türk gənclərinə güclü təsir buraxdığını qeyd edərək İsmayıl Qasprinski haqqında kitabında yazır: "Nəsib bəyin sözləri bizi o qədər sarsıtmışdı ki, İsmayıl bəyə hörmətimizi belə unutmuş, Nəsib bəyi coşqun bir tərzdə candan alqışlamışdır... Biz ruhən Nəsib bəyə bağlanmışdıq."

Qəzetə edilən təzyiqlər və təqiblərə baxmayaraq N.Yusifbəyli "Tərcüman"da milli-azadlıq hərəkatı ilə bağlı proqram məqalələr də yazmışdır. Onun çap etdirdiyi məqalələr əsasən Rusiyada çıxan türk dilli mətbuatın icmalıdır. Amma yeri gəldikcə o başqa dillərdə çıxan qəzet və jurnalların mövzularına da toxunur və öz münasibətini bildirir. Onun yazıları Rusiyada və ucqarlarda vəziyyət, milli məsələ, o cümlədən erməni - azərbaycanlı münaqişəsi, insan hüquqları, mədəniyyət və maarif sahəsində gerilik və başqa problemləri əhatə edirdi.

Qəzet icmalı N.Yusifbəyli jurnalistikasının aparıcı istiqamətini təşkil edir. Onun icmal verdiyi qəzet və məcmuələr arasında Bakıda çıxan "Həyat", "İrşad", Rusiyada nəşr olunan "Ulduz", "Ülfət". "Bəyani-həqq", "Voljski kuryer", "Vəqt", Türkiyədə çıxan "Rum eli", Misirdə çıxan "İctihad", "Türk", Avropa ölkələrində çıxan "Tribuna", "Lurker" və s. qəzet və dərgilər var idi. "Həyat" qəzetinin 1906-cı il 47 və 71-ci nömrələrində Əli bəy Hüseynzadənin bir məqaləsinə həsr etdiyi yazısında müəllif Tiflisdə erməni və müsəlmanlar arasında gedən bir münaqişəyə münasibətini belə bildirirdi: "Peterburqda və İstanbulda millətlərə ədalət, hürriyyət və müsaviyət bəxş və təmin edən gərmi və mətin bir qanuni-əsasi, bir hökuməti məşrutə müəssisanı təsis etmədikcə nə Qafqazda, nə Ararat dağının məvrasında, nə də Makedoniyada, Balkan ətəklərində atəşin tezliklə sönəcəyinə ümid istəməməlidir."



Nəsib bəyin məqalələrində Rusiya hökumətinin irqi və dini ayrıseçkilik siyasəti, üstəlik çarizmin erməni-müsəlman və yəhudi qırğınları təşkil etməsi, Qraf Vitte və Durnov, general Trepov və başqalarının bu işdə mənhus rolu açıqlanır, artıq Rusiyanın idarəolunmaz bir hala gəldiyi vurğulanırdı. 1905-1907-ci il inqilabının hər bir epizodu "Tərcüman"ın guşə yazarı tərəfindən düzgün qiymətləndirilir və deyilirdi: "Bu gün Rusiyada cərəyan edən vüquat öylə bir haldadır ki, yarın nə olacaq sualına cavab vermək pək müşküldür."

N.Yusifbəylinin Türkiyə və İran mövzularında da məqalələri çap olunmuşdur. Həmin dövrdə İranda məşrutə hərəkatı alovlandığı kimi Türkiyədə də Gənc türklər inqilabı ərəfəsi idi. Məqalə müəllifini qayğılandıran təkcə Osmanlı imperiyasının dağılması deyildi, bu proses nəticəsində Osmanlı dövlətinə, metropoliyaya da dəyən ziyan idi. Avropa var qüvvəsini bu ölkənin dağılmasına və onun gücünün tükənməsinə yönəltmişdi. Düşünürük ki, belə bir çətin anda İsmayıl bəy Qasprinskinin və Nəsib bəy Yusifbəylinin İstanbula gəlişi təsadüfi olmayıb ümumtürk həmrəyliyindən, "İttihad və tərəqqi" partiyasının siyasətinə dayaq olmaq istəyindən doğurdu.

Nəsib bəy "Tərcüman"da ədəbiyyat və sənət məsələlərinə dair yazılar da çap etdirmişdir. O, Azərbaycan ədəbiyat tarixinə dair əsər də yazıb qoymuş, lakin bu əsəri ehtimal ki, çap etdirə bilməmiş və həmin əsər itib batmışdır.(Əsər haqqında ilk məlumatı tədqiqatçı Mövsüm Əliyev vermişdi – N.Q.) N.Yusifbəylinin Firudin bəy Köçərlinin "Azərbaycan türklərinin ədəbiyatı" əsərini də çap etdirmək təşəbbüsləri də baş tutmamışdı. O, yeri gəldikcə M.F.Axundzadə, "Molla Nəsrəddin" jurnalı və s. haqqında da qiymətli mülahizələr söyləmiş, rus və dünya ədəbiyyatına yaxından bələd olmuşdur. Onun Gəncə məktəblərində rus ədəbiyyatından dərs verməsi, Əhməd Cavad, Mirzə Məhəmməd Axundov, A.Sur və b. ilə yaxınlığı təsadüfi olmayıb milli ideallara bağlılığının nəticəsi idi. Belə hesab edirik ki, görkəmli tənqid-

çi və publisist Abdulla Suru da "Tərcüman"a yazmağa N.Yusifbəyli sövq etmiş, bu qəzetdə A.Surun bir sıra məqalə və yazıları çap olunmuşdur.

1910-1918-ci illərdə də Nəsib bəy Yusifbəylinin fəaliyyəti çox geniş və vüsətli idi. Bu dövrdə onun "Adəmi-mərkəziyyət" partiyasını yaratması, yerli idarəçilik və xeyriyyəçiliklə məşğul olması, bir çox siyasi konfransların işində iştirakı, "adəmi-mərkəziyyət"in M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavatla" birləşdirilməsində uzaqgörənliyi, Azərbaycan Milli Şurasında və Zaqafqaziya Seymində iştirakı onun Cənubi Qafqaz regionunda ən xarizmatik liderlərdən birinə çevirmişdi. Nəsib bəy özü öz yüksəlişini təsadüfi hesab etsə də, fələklərin ayağına yazsa da bu yüksəliş və zirvə təsadüfi deyil, böyük istedadın, zəhmətin və məqsədyönlüyün nəticəsi idi. Batum sülh danışıqlarının təşəbbüsçülərindən biri olan N.Yusifbəyli bu ərəfədə etdiyi çıxışında bütün Cənubi Qafqazda dəhşətli anarxiya və hərc-mərcliyin sürdüyünü qeyd edərək, Türkiyəyə kömək üçün müraciəti ən vacib və əhəmiyyətli vasitə hesab edirdi. O deyirdi: "Türkiyənin gözünə cəsarətlə baxmaq, gələcək hadisələrin əlamətlərini ayırd etmək və vaxtında zəruri tədbirləri görmək lazımdır. Bu halda biz hadisələrin belə bir xoşbəxt kəsişməsinə sevinməliyik ki, bura gəlməli olan xarici qüvvə bizə dost və qardaş olan Türkiyədir. Bəlkə də, bu bizim qonşularımıza xoş gəlməyəcək, ancaq başqa çıxış yolumuz yoxdur. Qorxunc anarxiya qarşısında qonşularımız da bizim kimi gücsüzdürlər. Onlarda olan hərbi qüvvə də anarxist əhvali-ruhiyyəlidir, qanun-qaydanın dayağı rolunu oynaya bilməz."

Nəsib bəy Yusifbəyli Azərbaycan Xalq Cümhuriyyətində bir ilə yaxın maarif naziri, bir o qədər də baş nazir olmuşdur. Onun maarif naziri olduğu vaxt Azərbaycan təhsili sistemində köklü islahatlar keçirilmiş, yeni məktəblər açılmış, kurslar təşkil olunmuşdu. Artıq 1919-cu ilin əvvəlində Azərbaycanda dövlət vəsaiti hesabına 637 ibtidai və orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Bakı Dövlət Universitetinin açılmasında Nəsib bəy böyük qüvvə və enerji sərf etmişdi. Müxtəlif ixtisaslar üzrə 1920-ci ilin



yanvarında Avropa, Türkiyə və Rusiyanın müxtəlif universitet və ali məktəblərinə 100 nəfər gəncin təhsil üçün göndərilməsi də N.Yusifbəylinin maarif təşəbbüslərindən biri idi. O, Azərbaycan ərəb əlifbasının latına keçmək işinin tərəfdarı, Azərbaycan milli rəmzlərinin işlənib hazırlanmasının təşəbbüskarı kimi də daim çıxış edirdi.

"Onun ilk tədbirləri maarif sahəsində yüksək vəzifələrə azərbaycanlı kadrları irəli çəkmək olmuşdur. Məsələn, 1918-ci il avqustun 4-dən 21-dək azərbaycanlıların sıx yaşadığı Gəncə, Şuşa, Cavanşir, Qaryagin, Zəngəzur qəzalarının maarif nazirləri işləyən milliyyətcə erməni və rusları işdən azad etmiş, onların yerinə milli kadrları yüksək vəzifələrə qəbul etmişdi" (A. Rüstəmli, Ədəbi istiqlalımız, Bakı, 2004, səh. 39)

Nəsib bəyin ilk Azərbaycan Respublikasının baş naziri kimi fəaliyyəti geniş bir tədqiqatın mövzusudur. 1919-cu il aprelin 14-dən 1920-ci il aprelinədək iki dəfə baş nazir seçilən N.Yusifbəylinin amalı Azərbaycan dövlətini möhkəmləndirmək, onun daxili və xarici siyasətini daha da gücləndirmək, düşmən qüvvələri istər diplomatik, istərsə də hərbi güc yolu ilə neytrallaşdırmaq məqsədi daşıyırdı. Hakimiyyətdə olduğu müddətdə strateji Ələt - Culfa dəmir yolunun çəkilməsi, Gürcüstan respublikası ilə hərbi ittifaqın yaradılması, Denikin təcavüzündən və daxili təxribatçı ünsürlərdən qorunmaq üçün ölkədə hərbi vəziyyət elan edərək Dövlət Müdafiə Şurasının yaradılması, xarici hərbi missiyaların başçılarının dövlət səviyyəsində qəbul edilməsi, erməni tərəfi ilə aparılan sülh danışıqları və s. N.Yusifbəylinin məqsədyönlü apardığı dövlət quruculuğu siyasətinin tərkib hissələri idi.

Bu görkəmli şəxsiyyətin Parlamentdə etdiyi çıxışlar və verdiyi bəyanatlar da onun siyasi fəaliyyətinin önəmli göstəriciləridir. Nəsib bəy istər xarici, istər daxili siyasətlə bağlı əksər problemlərə öz münasibətini bildirmiş, sosial, siyasi və mədəni problemləri vaxtında çözməyə və həll etməyə çalışmışdı. N.Yusuifbəyli çıxışlarının birində söz, mətbuat azadlığını, sosial və demokratik prinsipləri müdafiə edərək deyirdi: "Azərbaycanda görülən bu hürriyyətlər dünyanın heç bir tərəfində mövcud deyildir. Höku-

mət təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, nerədə ictima edirsə etsin. ***Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül edilməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir.*"** (kursiv bizimdir – N.Q.)

Nəsib bəy daxili problemlərə də vaxt ayırır, sosial, mənəvi, mədəni, təhsil və s. məsələləri diqqət mərkəzində saxlayırdı. Məsələn, o, parlamentin 36-cı iclasında (12 may 1919-cu il) müəllimlərin maaşları ilə əlaqədar çıxışında deyirdi:

"Möhtərəm məbuslar! Müəllimlərini maaşlarını nə qədər artırsanız yəqin ediniz ki, bundan bir şey qeyb etməyəcəksininz. Çünki, bizim varlığımız və istiqbalımız ancaq müəllimlərin əlindədir. Nə qədər müəllim ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbəttə ki, o müəllim bir şey verə bilməz və o məktəbdən də bir şey çıxmaz."

Nəsib bəy Yusifbəyli əslində romantik, idealist və xəyalpərvər insan deyildi; o, realist, praqmatik, özü demişkən gələcəyi görən və onun detallarını də dəqiq düşünən bir siyasətçi, geniş diapazonlu bir mütəfəkkir idi. Onun əvvəlcə Azərbaycana milli muxtariyyət, sonra da siyasi istiqlal tələb etməsi onun dahiyanə uzaqgörənliyinin nəticəsi idi. Nəsib bəy həm də idealları düşmən gülləsilə qırılmış ilk böyük və qüdrətli şəhidlərimizdəndir. Təəssüf ki, bu dahi şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi üçün ya heç nə etməmişik və ya çox az şey etmişik.

Nəsib bəy dərin düşünən fədakar ziyalı, Prometey ruhlu insanlardan olmuşdur. Şair Əliağa Vahid xatirələrindən birində onun müsavat dövründə ordudan məhz Nəsib bəy Yusifbəyli tərəfindən azad edildiyini qeyd edir. Çünki o çox gözəl başa düşürdü ki, şair orduda deyil, cəmiyyət içində çox xeyir verə bilər. Əhməd Cavadı xeyriyyəçiliyə cəlb edən, Məhəmməd Hadi kimi səfil şairlə dostluq edən, Yusif Vəziri Türkiyəyə diplomatik işə göndərən, şair Əli Yusifi dövlət işinə cəlb edən və sonra da onu Fransaya ali siyasi təhsil almağa göndərən də Nəsib bəy Yusifbəyli olmuşdur.



XX əsr Azərbaycan passionarlığı, dövlətçilik və milliyyət hissi çox parlaq bir tarix örnəyi - Nəsib bəy nümunəsini yaratmışdır.

## Sevgi və qayğı dolu məktublar

Nəsib bəy Yusifbəylinin - Azərbaycan Demokratik Cümhuriyyətinin əsas yaradıcılarından birinin xidmətləri haqqında az da olsa söz açılmışdır. Lakin onun siyasətdən kənar fəaliyyəti, təhsili, əlaqələri, bədii və publisistik yaradıcılığı, ailə həyatı və s. diqqəti çəkən və bəzən olduqca maraqlı məqamlarla zəngindir. Xüsusilə, bu şəxsiyyətin şəxsi həyatının işıqlandırılmasına və öyrənilməsinə böyük ehtiyac duyulur.

Budur, onun hələ 1904-1910-cu illərdə (yüz il bundan qabaq) gələcək həyat yoldaşı Şəfiqə xanım Qasprinskiyə yazdığı məktublar qarşımızdadır. Bu məktublar sevgi, qayğı və inqilab həyəcanları ilə doludur. Bu məktublarda Nəsib bəyin nəinki tüğyan edən hissləri, habelə Şəfiqə xanıma kövrək və həzin münasibəti, təhsil qayğıları, intim məqamlar, siyasi məqamlar öz əksini tapmışdır.

Köhnə dostum, jurnalist Xanlar Bayramovun Türkiyədən, Nəsib bəyin övladlarından alıb gətirdiyi bu məktubları birnəfəsə oxudum. Bu məktublarda böyük bir məhəbbət dastanının ayrı-ayrı epizodlarını görmək mümkündür.

Bəli, yazıldığı kimi Şəfiqə xanım Odessa universitetinin onu sevən iki azərbaycanlı tələbəsindən (N.Nərimanov və N.Yusifbəyli) yalnız birini - Nəsib bəyi seçdi. Nəsib bəyin böyük zəkası, duyğu və düşüncələr aləmi bu məktublardan aydın görünməkdədir. Bu duyğu və düşüncələr təkcə sevən bir gəncin deyil, ziyalı və mütəfəkkir bir gəncin dövrə verdiyi qiymət baxımından da maraqlıdır.

Nəsib bəyin ömrü bəlli olduğu kimi, 1920-ci ildə respublikanın süqutundan dərhal sonra bir daşnak gülləsi ilə qırıldı. Nəsib bəylə Şəfiqə xanımın 12-13 illik birgə ailə həyatı başa çatdı. Şə-

fiqə xanım türk mühacirləri ilə bir sırada oğlu Niyazi və qızı Zöhrə xanımla Azərbaycanı tərk edib Türkiyəyə mühacirət etdi. Nəsib bəy sağ qalsaydı, Azərbaycan mühacirəti daha mütəşəkkil, daha məhsuldar, daha məqsədyönlü olardı.

Məmməd Əmin Rəsulzadənin 1929-cu ildə "Odlu yurd"da yazdığı hərarətli sətirlər yada düşür: "...O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik mümәssillərdən (təmsilçilərdən) biridir. Elə bir mümәssil ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur".

Nəsib bəy Yusifbəylinin məktubları çox təsirlidir. İlk məktublar 23-28 yaşlı bir gənc tərəfindən doğma bir insana - Şəfiqə xanım Qasprinskayaya yazılmışdır. Bu məktublardan biz XIX-XX əsrlər Azərbaycan ictimai-siyasi fikrinin ən görkəmli nümayəndələrindən birinin fərdi keyfiyyətləri, hiss və duyğuları, şəxsi ideal və amalları haqqında bilgi ala bilirik. Bu məktublar Nəsib bəyin bir qüdrətli şəxsiyyət olaraq, mütəfəkkir insan olaraq zəngin daxili aləmindən xəbər verməkdədir. Bu cizgilər o qədər aydın və seçiləndir ki, bütöv portret təsəvvürü yaradır: "Mən boşboğaz deyiləm, mən dili qarnında olan adamam və öz məhəbbətim, istək və arzularım haqqında danışmağı sevmirəm".

"Nə etməli ki, əzab çəkmək üçün yaranmış insanlar var və biz belə insanlardanıq. Ən başlıcası ruhdan düşməməkdir, qalanları boş şeydir. Axı xoşbəxtlik bizim özümüzdədir. Əgər biz razıyıqsa demək xoşbəxtik, əgər razı deyiliksə demək əksinədir".

"Mən həmişə bir şeyi aydın və dəqiq təsəvvür etməyi xoşlayıram, hər cür qeyri müəyyənlik mənim üçün ölümdür..."

Bu fikir və düşüncələr Nəsib bəyin xarakterini qabarıq ifadə edir, onun məqsədyönlü, aydın, əqidəli, həyatın çətinliklərinə sinə gərməyi bacaran, nikbin bir şəxsiyyət kimi tanıdır. Belə olmasaydı o, Azərbaycan Demokratik Cümhuriyyətinin yaradıcılarından biri olmazdı. Onun şücaəti, qətiyyəti, güzəştə getmək bacarığı Ədəmi - Mərkəziyyət Partiyası ilə Müsavat Partiyasının birləşməsində öz təcəssümünü tapdı. Azərbaycanın siyasi birliyinə yol məhz bu andan başlayaraq açıldı.



Nəsib bəy istila və istiqlal qurbanı oldu. Tələt paşa, Fətəli Xan Xoyski, Behbudağa Cavanşir kimi o da arxadan vuruldu. Xalqımızın düşmənlərinin törətdiyi bu cinayət XX əsrin ən dəhşətli terror hadisələrindən biridir. Xalqı düşünən başlardan məhrum etmək kütləvi soyqırımdan heç də az qorxulu olmayan bir təcavüzdür.

Bütövlükdə, Nəsib bəy 39 il, Şəfiqə xanım 89 il yaşamışdır. Şəfiqə xanım öz mühacir ömrünü 1975-ci ildə Türkiyədə başa vurdu. Şəfiqə xanım dövrünün ən maarifpərvər və ziyalı qadınlarından biri idi. Hələ 16 yaşından qadın dərgisi buraxmağa başlayan, "Tərcüman"da və Qafqazda çıxan qəzetlərdə məqalələr çap etdirən, 1917-ci ildə Krım türklərinin milli qurultayında və Rusiya müsəlmanlarının birinci qurultayında fəal iştirak edən və məsul nümayəndəliklərə seçilən, ictimai-mədəni işlərin önündə getməklə Krım və Azərbaycan məktəblərində dərs demiş bu qadının həyatı və fəaliyyəti çox ibrətamizdir.

Nəsib bəyin əhatəli tərcümeyi-halı və bioqrafiyasının bir sıra detalları isə bizə məlum deyil. Məlumdur ki, o, Odessa universitetində oxumuş, Gəncədə, Baxçasarayda, İstanbulda, Xarkovda, Tiflisdə və Bakıda yaşamış, teatrda rollar oynamış, "Tərcüman"da müxbirlik etmiş, "Türk yurdu"nda çalışmış, siyasi fəaliyyətlə məşğul olmuşdur.

Sovet dövrünün bir çox mənbələrində "iri mülkədar", "bəyxan övladı" adlandırılmış Nəsib bəy Yusifbəyli əslində zəhmətkeş bir insan olmuş (bu barədə məktublarda bir xeyli faktlar var), ziyalı bir ailədə böyümüşdür. Onun böyük qardaşı Həmid bəy və bacısı Şükufə xanım da müəllim olmuşlar. Atasının Nəsib bəyə məktublarını həyəcansız oxumaq mümkün deyil. Məktublardan aydın görünür ki, Nəsib bəy ehtiyac baxımından daim maddi çətinliklər keçirmişdir.

Rusiyada 1905-1907-ci illər inqilabı Nəsib bəyə öz təhsilini tamamlamağa imkan vermədi. Şəfiqə xanım Sultan Qasprinskaya ilə tanışlığı və evlənməsi də bu dövrə təsadüf edir.

Nəsib bəyin Şəfiqə xanıma və ailəsinə məktubları üç dövrü 1904-1906, 1909-1910, 1917-1919-cu illəri əhatə edir. Birinci

dövrə aid olan məktublar hər iki nəfərin subaylıq dövrünə xas sevgi qayğılarından söz açır və bizim tərəfimizdən "Vəfa" jurnalının 2005-ci il I sayında yayımlanmışdır. (Bu məktublar arasında dörd məktub-fraqment öz ictimai-siyasi xarakteri ilə diqqəti cəlb edir. Bu məktubların birində Gəncədəki alman icmasından, digərində İsmayıl bəy Qasprinskinin ona təsirindən bəhs olunur. Hər iki məktub-fraqment Şəfiqə Qasprinskiyə həsr olunmuş və Türkiyədə 2004-cü ildə çap olunmuş kitabdan götürülmüşdür). İkinci dövr artıq onların evlilik vaxtına təsadüf edir və təbii olaraq ailə və uşaq qayğıları ilə aşılanmışdır. Rus dilindən çevrilib ilk dəfə oxuculara təqdim etdiyimiz bu məktublar böyük, qüdrətli məhəbbətin iztirab və əndişələrlə dolu gedişindən, möhnət və əzabla süslənmiş sarsıntılardan xəbər verir.

İkinci dövrə, yəni 1909-1910-cu illərə aid edilən məktublar isə tərcümə edilərək bizim tərəfimizdən "Nəsib bəy nümunəsi" adlı ön sözlə "525-ci qəzet"in 24 dekabr 2006-cı il tarixli sayında çap edilmişdir. (Bunlar arasında çap edilməyən yeganə məktub birinci dövrə aid edilən 25 mart 1904-cü il tarixli məktubdur ki, ilk dəfə bu kitabda çap edilir). Kitabda birinci və ikinci dövrə aid olunan məktubların rus dilində orijinalları da verilmişdir.

Üçüncü dövrə (1917-1919) aid edilən məktublar çox azdır. Bu dövrə Nəsib bəyin Şəfiqə xanıma, Zöhrəyə və Niyaziyə (bir yerdə) yazdığı 4 məktub daxildir. Bu məktublar Şəngül və Nəcib Həbləmitoğluların "Şəfiqə Qaspralı və Rusiyada türk qadın hərəkatı (1893-1920)" adlı kitabından götürülmüşdür. Bu məktublarda həm həyəcan və çıxılmazlıq hissindən doğan, ailəsindən və uşaqlarından ötrü darıxan atanın könül çırpıntıları, həm də Şəfiqə xanıma çox dərin müdrikliklə verilən tövsiyyələr vardır.

1914-cü ilin sentyabrında "Tərcüman" qəzetinin naşiri və baş redaktoru böyük mütəfəkkir İsmayıl Qasprinski Ağməsciddə vəfat etdi. Bu məqamda onun yanında olanlardan biri kürəkəni Nəsib bəy Yusifbəyli idi. İsmayıl Mirzənin dərsləri və vəsiyyəti əsas bu idi ki, "Tərcüman" qorunub saxlansın. "Dildə, fikirdə, işdə birlik" davam etsin.



Atasının ölümündən hələ əvvəl 1912-ci ildə Şəfiqə xanımla uşaqlarını da götürüb Gəncəyə gəldilər. Burada Nəsib bəylə Şəfiqə xanımın arasında anlaşılmazlıq baş verdi. Bu hadisələrdən sonra Şəfiqə xanım uşaqlarını da götürüb Krıma qayıtdı. Bu ayrılıq onların böyük məhəbbətinə, 10 illik sevgi və mənəvi yaxınlıq həyatına son qoyur.

1916-cı ildə Nəsib bəylə Şəfiqə xanımın yolları ayrılır. Əslində bu ayrılıq üçün heç bir ciddi əsas yox idi. Nəsib bəyin öz yazdıqlarında da, bacısı Şükufə xanımın məktublarında da, elə Şəfiqə xanımın öz xatirələrində də heç bir ciddi arqument göstərilmir. Bu işdə Nəsibin anasının da günahları olduğu ehtimal olunur. Nəsib bəy bu işdə hər iki tərəfin günahının olduğunu qeyd edir. Nə olursa olsun N.Yusifbəyli daim öz ailəsi ilə yazışmış, uşaqlarına məktub göndərmiş, onlara daim mümkün olan maddi yardımı göstərmişdir.

1913-cü ildə N.Yusifbəyli mənşəcə Volqa tatarı olan Eynülhəyat Beişeva və ya Baişeva (1886-1959) ilə evlənir və bu evlilik yalnız molla kəbini ilə olur. Onun ikinci qadından olan körpəsinin bir yaşında vəfat etdiyi söylənilir. O da məlumdur ki, Şəfiqə xanım qadın hərəkatı fəallarından olan Eynülhəyatı çox yaxşı tanıyırmış və hətta yaxın rəfiqəsi kimi onu Nəsib bəylə özü tanış edibmiş...

Krımda daim baş verən siyasi çaxnaşmalar üzündən Şəfiqə xanım 1919-cu ilin yayında Krımı tərk etməli olur və Nəsib bəyin inadlı dəvəti ilə uşaqlarını da götürüb Bakıya gəlir, bir müddət təhsil sahəsində çalışır. Zöhrə xanımın dediklərindən məlum olur ki, Nəsib bəy onlara müntəzəm baş çəkmiş, əlindən gələn köməyi onlara göstərmişdir. Nəsib bəyin şəhid olunmasından, ümumən Azərbaycanın rus işğalından sonra Türkiyənin Bakıdakı səfiri Məmduh Şövkət bəyin bilavasitə köməyi ilə Şəfiqə xanım üçün saxta pasport düzəldilmiş və o, uşaqları Zöhrə və Niyazi ilə birgə Türkiyəyə göndərilən əsirlər və türk təbəələri sırasında Azərbaycanı tərk etmişdir.

Şəfiqə xanım böyük bir ömür yaşadı. 89 il ömür sürdü və 1975-ci ildə İstanbulda vəfat etdi. O, öz ictimai-siyasi və mədəni



4628
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

fəaliyyətini Türkiyədə də davam etdirmiş, "Krım qadınları birliyi"ni təşkil etmiş, buradakı Azərbycan mühacirləri ilə sıx əlaqələr saxlamışdır. Qızı Zöhrə xanım (1908- ali pedaqoji təhsil almış, azərbaycanlı elm adamı Mirzə Göygölə ərə getmiş, ondan dörd övladı olmuşdur. (oğullarının ikisi Almaniyada yaşayırdı.) Oğlu Niyazi Kürdəmir (1909-1965) ali təhsil almış, uzun müddət Ərzurumda dərs demiş, Ankaraya qayıtmış, "Türk izi" dərgisinin (1952-1955) nəşrində Çingiz Göygöl, Səfvət Zərdabi, Hidayət Turanlı və b. azərbaycanlı mühacirlərlə yanaşı iştirak etmişdi. 1965-ci ilin payızında futbol oyunu zamanı basqınqa və sıxmaboğmaya düşən Niyazi bəy evə gəlmiş və qəflətən vəfat etmişdi (rusca məktublarda Niyazi və Zöhrənin adı Niyazik və Zoka kimi də xatırlanır).

## 1932 saylı arxiv - istintaq işi

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. Böyük Vətən müharibəsi başlandı. 1937-ci ildən dörd il keçsə də daxildə də "düşmən" axtarışı davam edirdi. Müharibənin başlamasından heç bir ay keçməmiş, iyulun 16-da SSRİ Xalq Daxili İşlər Komissarlığı (XDİK) Kirovabad (keçmiş və indiki Gəncə - N.Q.) şəhər şöbəsinin baş əməliyyat müvəkkili leytenant Şirinov şəhər sakini Yusifbəyli Həmid Yusif oğlunun (soyadı həmçinin Usubbəyov) "cinayətkar" fəaliyyətinə dair materialları nəzərdən keçirib belə bir qərar verir ki, o, antisovet əhvalıruhiyyəlidir, türkçü fikirlər təbliğ edir, rus xalqına böhtan atır. H.Yusifbəyli həbs edilsin və evində axtarış aparılsın. Sənədi XDİK şəhər şöbəsinin rəis müavini, baş leytenant Nəzərli təsdiq etmişdir.

Beləliklə, elə həmin gün H.Yusifbəyli Azərbaycan SSR Cinayət məcəlləsinin 72 maddəsi ilə təqsirli bilinərək 213 № li həbs orderi ilə həbs olunur.

Axtarış protokoluna görə onun evindən aşağıdakı sənədlər aşkar eilib: Pasport JAA № 671269. İttifaq vərəqəsi № 658772.



Pensiya vəsiqəsi № 809. 5 nüsxə fotoşəkil. Müxtəlif plan və bir neçə yazışma.

İşdə H.Yusifbəylinin əvvəllər həbs olunmadığı haqqında XDİK-in operativ-qeydiyyat kartotekasından arayış (5 avqust 1941), çoxlu əl izi (sağ və sol əl izləri, 27 iyul 1941) vardır. Başqa bir arayışda qeyd edilir ki, "Yusifbəylinin həbsi zamanı mənzili möhürlənməmiş və ev əşyaları siyahıya alınmamışdır".

Müttəhim iyulun 16-da həbs olunsa da ittiham verilməsi ilə bağlı rəsmi qərar yalnız 29 iyul 1941-ci ildə verilmişdir. Ittihamlara isə keçmişdə müsavat partiyasının üzvü olması haqqında müddəa da əlavə edilmişdir.

Məhbusun anketində olan göstəriciləri və məlumatları olduğu kimi veririk:

Yusifbəyli, soyadı həmçinin Usubbəyov Həmid bəy 1878-ci ildə anadan olmuşdur, Şmidt küçəsi, ev 13-də yaşayır, təhsili – gimnaziyanı rus dili müəllimi ixtisası üzrə bitirib, SSRİ vətəndaşı, bəy-dvoryan mənşəlidir. Çar ordusunda və ağ orduda xidmət etməyib. Üsyan və bandalarda iştirakı olmayıb.

Cavabları: Atam Yusif bəy Usubbəyov öz əcəli ilə 1921-ci ildə ölüb. Anam Böyükxanım Böyükağa qızı əsli Borsunlu kəndindən olub, 1905-ci ildə vəfat edib. Həyat yoldaşım Bilqeyis Nəcəf qızı (d. 1900) evdar qadındır. Şmidt 13-də yaşayır. Oğlum Ənvər Həmid bəy oğlu Usubov (d. 1914) Qubada rabitə kantorunda işləyir. Qardaşım Əyyub bəy Yusif bəy oğlu Usubbəyov (d. 1889) Şamxorda meşə təsərrüfatı idarəsində işləyir. Bacım Şükufə Pişnamazovanın 58 yaşı var. Əzizbəyov küçəsində 1 nömrəli uşaq bağçasında işləyir. Bacım Dilşad Yusifbəyli-Xasməmmədovanın 54 yaşı var və Bakıda qızının yanında yaşayır. Bacım Xanım Cuvarlinskaya pensiyaçıdır, 49 yaşı var. Anketin siyasi yön qrafasında – antisovet təbliğatı, cinayətin xarakteri qrafasında- təxribatçı xarakterli təbliğat sözləri yazılıb.

Həmid bəy Yusifbəylinin dindirilməsinə 17 iyul 1941-ci ildən, deməli həbs olunduğu günün ertəsi başlanılmış, protokolun əvvəlinə 1899-cu ildə çar hakimiyyət orqanları tərəfindən həbs edilərək Metex qalasına salındığı, 1905-ci ilədək Türkmənistana

- Kokanda sürgün edilərək orada qaldığı, 1910-1914-cü illərdə ikinci dəfə sosialist kimi sürgün olunduğu göstərilmişdir.

Beləliklə, ilk dindiriş (17 iyul 1941, rus dilində gedib, aparıb Şirinov)

**Sual** – Bizə məlumdur ki, Müsavat partiyasının üzvü olmusunuz. Bu belədirmi?

**Cavab** – Mən xatırlayıram ki, mənim yanıma Axundov adlı birisi gəlmiş və məni müsavat partiyası sıralarına yazmışdı.

**Sual** – Beləliklə, siz rəsmən Müsavat partiyası sıralarında olmusunuz...

**Cavab** – Məni partiyaya yazsalar da buna mənim istəyim olmamışdır.

**Sual** – Sizin istəyiniz olmadan oraya necə yaza bilərdilər?

**Cavab** – Görünür, onlar Müsavat partiyasının xadimi olan Nəsib bəy Yusifbəylinin qardaşı kimi nüfuzumdan istifadə etmək istəmişlər.

*Dindiriş 29 iyul 1941-ci ildə 23:20-də davam edir.*

**Sual** – Sizə belə bir ittiham təqdim edilmişdir ki, siz antisovet əhvalı-ruhiyyəli olub türkçülük nümayiş etdirmiş, rus xalqına böhtan atmısınız.

**Cavab** – Yox, mən bunu inkar edirəm. Əksinə, mən daim rus xalqı və mədəniyyətinə hörmətlə yanaşmışam. Mənim uşaqlarım sovet məktəblərində məhz rus dilində təhsil almış və bu məni qane edir.

*İstintaq 3 avqust 1941-ci ildə gecə saat 23:20-də davam etdirilir.*

**Sual** – İstintaqa məlumdur ki, siz dəfələrlə öz əhatənizdəki adamlara türkçü görüşlər aşılamış, Türkiyədəki qaydaları tərifləmiş və eyni zamanda sovet ölkəsindəki vəziyyətə böhtan yağdırmısınız.



**Cavab** – Mən heç yerdə türkçü fikirlər deməmişəm, hətta mən Türkiyədə olarkən işsizlik ucbatından buradakı pis yaşayış səviyyəsini qeyd etmişəm. Mən o vaxt atamdan 25 rublə (manat) və ya 3 lirə alsam da bu mənə çatmır və həmişə pis dolanırdım.

**Sual** – Siz istintaqa düzgün ifadə vermirsiniz. Çünki, istintaqda məlumatlar var ki, nəvaxtsa Türkiyədə olduğunuzu xatırladaraq müntəzəm olaraq türk qayda-qanunlarını tərifləmiş və beləliklə Türkiyədəki həyatı təbliğ etmisiniz.

**Cavab** – Mən belə danışa bilməzdim, belə ki, Türkiyədə olan qaydalar xoşuma gəlmirdi.

**Sual** – İstintaq belə hesab edir ki, siz səmimi deyilsiniz və sizə həqiqəti deməyi məsləhət görür.

**Cavab** – Təkrar edirəm ki, mən tam səmimiyəm və Türkiyədəki qaydaları xoşlamırdım.

**Sual** – İstintaqa nəinki Türkiyəni tərif etdiyiniz, həmçinin sovet ölkəsinə böhtan atdığınız haqqında, eləcə də rus xalqının ünvanına danışdıqlarınız da məlumdur.

**Cavab** – Xeyir, əksinə mən rus dili müəllimiyəm. Bu dilə hörmət edirəm, buna görə də bizə mədəniyyət bəxş etmiş rus xalqına böhtan ata bilməzdim.

**Sual** – Siz düz danışmırsınız. İstintaqa məlumdur ki, siz millətçi mövqelərdən nəinki rus xalqına, həm də sovet hakimiyyətinə böhtan atmış, milli respublikalara rus ağalığını gətirdiyini demisiniz. Siz bu məsələdə özünüzü günahkar bilirsinizmi?

**Cavab** – Mən bu məsələdə özümü günahkar saymıram, çünki mənim belə yöndən baxışım olmamışdır.

**Sual** – İstintaq sizə həqiqəti söyləmək zərurəti haqqında xəbərdarlıq edir. Sizin istintaqa öz antosovet və millətçi görüşlərinizi izah etmək fikirləriniz varmı?

**Cavab** – Mənim heç vaxt antisovet görüşlərim olmamışdır və mən millətçi də deyiləm.

*Ardı: 4 avqust 1941. 11:30*

**Sual** – (*Müstəntiq əvvəlki ittihamları təkrar edir*)

**Cavab** – Mən etiraf edirəm ki, Müsavat partiyasına cəlb olunmuşam. Lakin bu partiyanın işində fəallıq göstərməmişəm, yalnız formal üzv olmuşam. Mən sonralar bu partiyanın siyasi görüşlərini bölüşməmişəm və mənim səhvim bunda olmuşdur ki, mən bu barədə rəsmi bəyanat verməmişəm. Rus xalqına böhtana gəldikdə mən bunu tam inkar edirəm və bu barədə əvvəlki dindirişlərdə də demişəm.

**Sual** – İstintaqa məlumdur ki, siz əksinqilabi müsavat partiyasından 1920-1921-ci illərdə şəhər dumasına seçkilərdə iştirak etmisiniz. Buna görə sizin etirazlarınız əsaslı deyil və düzgün ifadə verməlisiniz.

**Cavab** – Ya formal, ya da rəsmi. Sənədlərdən də görünür ki, mən Müsavat partiyasına öz xoşumla yazılmamışam və özümü bitərəf saymışam.

* * *

Burada Həmid bəy Yusifbəylinin istintaqı bitir. 1941-ci ilin 15 avqustunda XDİK Kirovabad şöbəsinin baş müstəntiqi Q.Musayev belə lazım bilir ki, "H.Yusifbəylinin işi üçün daha bir neçə nəfəri dindirmək lazımdır" və istintaq müddətinin 16 sentyabr 1941-ci ilədək uzadılması haqqında" qərar qəbul edir.

* * *

6 oktyabr 1941-ci il 11:30. Bu dəfə istintaqa Həmid Yusifbəyli əleyhinə şahid Aram Melkonyan ifadə verir. İstintaqı başqa bir nəfər - Xocayev adlı təhlükəsizlik xidməti əməkdaşı aparır.

**Sual** – Sizinlə bir kamerada oturmuş Həmid bəy Yusifbəyli haqqında nə deyə bilərsiniz?

**Cavab** – O mənə, yəni Aram Şmavoviç Melkonyana və Yulian Aleksandroviç Raynitskiyə deyirdi ki, sizi ittiham etdikləri şeyləri boynunuza almaq axmaqlıqdır və onlar (yəni təhlükəsizlik işçiləri – N.Q.) sizdən etiraf alandan sonra sizi ittiham edə bilərlər. Məsələn, mən iki dəfə çar dövründə, dörd dəfə də sovet dövründə həbsdə oturmuşam, hər dəfə də heç nəyi boynuma almamışam və onlar məni azad etməyə məcbur olmuşlar... Mənim fikrimcə, siyasi və pedaqoji söhbətlərinə görə müasir ideologiyalı adam deyil, çünki onun pedaqoji görüşləri antisovet əhvali-ruhiyyəlidir. Onun materialist dünyagörüşü yoxdur... Zənnimcə, o sovet pedaqoqu ola bilməz... Yusifbəyli şəhər soveti ilə şəhər partiya komitəsini ayıra bilmir, onları qubernatorluq adlandırır... O, NKVD əməkdaşlarını cəllad kimi qələmə verir... Mən onunla danışmaq istəmirəm, çünki o antisovet xarakterli adamdır.

* * *

1941-ci il oktyabrın 3-də tərtib olunmuş həkim arayışında (Aktda) göstərilir ki, H.Yusifbəyli miokardit, çiyin nahiyəsi əzələlərinin atrofiyası, qaşınma və s. xəstəliklərdən əziyyət çəkir. Buna görə də onun fiziki əməyə yaramadığı göstərilir. Təəccüblüdür ki, yekun qənaətdə qeyd edilir ki, H.Yusifbəyli "Şimal iqlimini keçirməyə qadirdir".

İstintaq materialları ilə tanışlıqdan sonra Həmid bəy Yusifbəyli demişdi ki, istintaqa heç nə əlavə edə bilməz. Yalnız xahiş edir ki, ona bəraət versinlər və o, müəllim peşəsini davam etdirsin. İşdə kifayət qədər əsaslı dəlil və sübutların olmadığını görən Kirovabad şəhər prokurorluğu 23 sentyabr 1941-ci il tarixli qərarı ilə bu işin xətm edilməsi ilə əlaqədar göstəriş verir. (Təəccüblüdür ki, qərarın nüsxəsi bu istintaq işində yoxdur). Lakin bu qərarla razılaşmayan Azərbaycan SSR prokurorunun Xüsusi işlər üzrə köməkçisi Valitski 25 sentyabr 1941-ci il tarixdə şəhər prokurorunun göstərişini ləğv edir və Azərbaycan SSR XDİK Kirovabad şəhər şöbəsinə yazdığı məktubda belə bir münasibət bildirir: "Yusifbəyov Həmid bəy Yusif bəy oğlunun Azərbaycan SSR Cinayət məcəlləsinin 71-1 maddəsi ilə istintaq işi ilə tanış olduqdan sonra belə bir qənaət hasil edirəm ki, iş həll olunmaq üçün SSRİ XDİK-nin (NKVD) Xüsusi müşavirəsinə göndərilə bilər."

İttiham qətnaməsi üç səhifədən ibarət olub 7 dekabr 1941-ci ildə Bakıda tərtib olunmuşdur. Onu Dövlət təhlükəsizliyi baş leytenantı Ziyalov tərtib etmişdir. Əsas ittihamlardan biri bu idi ki, "Həmid bəy 1940-cı ildə guya antisovet təbliğatı aparmış, Azərbaycan SSR Cinayət məcəlləsinin 72-ci maddəsinin I bəndi ilə cinayət törətmişdir. O cümlədən onun aşağıdakı əksinqilabi işləri gördüyü qeyd olunur:

a) 1940-cı ilin yanvarında bəyan etmişdir ki,Azərbaycan müstəqillikdən məhrumdur və "rusların təzyiqi altındadır".

b) 1940-cı ilin martında "hökumət rəhbərləri xalqı ərzaqla təmin etməmişdir" deyərək onlara böhtan atmışdır.

v) 1940-cı ilin sentyabrında Qızıl Ordunun döyüş hazırlığından məhrum olması, SSRİ-nin Türkiyəyə hücum etmək cəhdi haqqında əksinqilabi iftiralar yaymışdır.

İttiham sənədində qeyd olunur ki, H.Yusifbəyli-Yusifbəyov guya antisovet təbliğatı ittihamını inkar etsə də, yuxarıdakı üç ittihamı təsdiqləmişdir. Bundan başqa onun bəy-qolçomaq ailəsindən çıxdığı, 1918-1920-ci illərdə Müsavat partiyasının üzvü olması, bu hökumətin baş naziri işləmiş Nəsib bəy Yusifbəylinin qardaşı olması da guya işi ağırlaşdıran amillər sırasındadır.

Dövlət təhlükəsizliyi baş leytenantı Ziyalovun hazırladığı, Azərbaycan ziyalılarının düşməni, Dövlət Təhlükəsizliyi kapitanı Qriqoryanın təsdiq etdiyi bu ittihamda Azərbaycan SSRİ Daxili İşlər Komissarı Teymur Yaqubovun və respublika prokurorunun (adı və soyadı göstərilməmişdir) imzaları vardır. İttihamda yazılır:

"İş həll olunması üçün SSRİ XDİK yanında Xüsusi Müşavirəyə göndərilməlidir. Ancaq Yusifbəyli – Usubbəyovun ahıl yaşını (63 yaş) nəzərə alaraq onu beş illiyə sürgünə göndərmək qərara alınsın".

Cinayət işinin tərtibindən və təsdiqindən düz iki ay sonra 1942-ci il fevralın 9-da səlahiyyət sahiblərindən biri ona təzədən imza atır.

İşdə olan protokoldan çıxarışdan göründüyü kimi istintaq işi hər halda Moskvaya Xüsusi Müşavirəyə göndərilmişdir. SSRİ



XDİK-in Xüsusi Müşavirəsinin 1932-ci işlə bağlı 11 fevral 1942-ci il tarixli çıxarışından (№ 7) görünür ki, Həmid bəyin taleyi artıq Yüksək Dairələrdə həll edilmiş və o, Xüsusi Müşavirənin qərarı ilə Qazaxstana sürgün edilmişdir. Protokoldan çıxarışda beləcə deyilir: "Yusifbəyli (həmçinin Usubbəyov) Həmid bəy Yusif bəy oğlu 5 illiyə Şimali Qazaxstana sürgün edilsin. Sürgün müddəti 16 iyul 1941-ci ildən hesablansın". Çıxarışda Xüsusi Müşavirə katibliyinin rəisi, müharibə dövründə SMERÇə və bir müddət Təhlükəsizlik Nazirliyinə başçılıq etmiş Abakumovun imzası vardır.

Lakin məlum olduğu kimi yaşlı və xəstə məhbusun Şimali Qazaxstana gedib çıxması müşkül idi. H. Yusifbəyli bu zaman 64 yaşın içində idi. Hətta ona qarşı işgəncələrin tətbiq edilməməsi, şəhər prokurorunun qərarı bu sınıxmış və ahıl insanın artıq həbsxana şəraitinə sinə gərmək gücündə olmadığını nümayiş etdirirdi. İstintaq işində onun harada və hansıl şəraitdə həyatla vidalaşması haqqında məlumat yoxdur. Əsas ehtimallardan biri onun həbsxanada vəfat etməsidir.

1957-ci il mayın 27-də H.Yusifbəylinin oğlu Ə.Yusupov (yeri gəlmişkən o da repressiyanın qurbanı olmuşdur – N.Q.) ali orqanlara ərizə ilə müraciət edir. Həmin ərizənin Azərbaycan dilində tərcüməsi belədir:

*Azərbaycan SSR Prokuroru yol. Babayevə surəti:*
*SSRİ Baş Prokuroru yol. Rudenkoya*
*Bakı şəhəri Aşağı Dağlıq küç. dalan № 7. mənzil 8-də yaşayan vətəndaş Ənvər Həmid oğlu Yusupovdan*

**Ə R İ Z Ə**

Mənim atam Həmid Yusif oğlu Yusifbəyli 1878-ci ildə doğulmuş, Kirovabad şəhər sakini 1898-ci ildən 1941-ciilədək Kirovabad şəhərinin məktəblərində rus dili müəllimi işləmişdir.

1941-ci ilin iyulunda o, Kirovabad şəhər dövlət təhlükəsizlik orqanları tərəfindən həbs edilmiş və tezliklə Bakıya göndərilmişdir. Bu o zaman idi ki, Beriya – Bağırov dəstəsinin başkəsən-

ləri və onların əlaltıları saxta "işlər" düzəldərək, heç bir günahı olmayan sovet adamlarını-zəhmətkeşləri məhv edirdilər.

Sizdən xahiş edirəm ki, həmin işi təhqiq edəsiniz. Əgər atam sağ deyilsə (onun indi 80 yaşı olar) mənə harada və nə vaxt öldüyünü xəbər verəsiniz.

İnanıram ki, mənim günahsız yerə incidilmiş atam heç olmasa ölümündən sonra bəraət alacaqdır. Nəticələr haqqında məni göstərilən ünvanda xəbərdar etməyinizi xahiş edirəm.

*Yusupov Ə.H.*
*26 may 1957-ci ilBakı ş.*

Ərizəçinin müraciətindən beş aya yaxın bir müddət keçdikdən sonra Azərbaycan SSR prokurorunun müavini İ.İ.İsmayılov 6 sentyabr 1957-ci ildə № 10 / 1873-56-890 c nömrəli məktubla Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinin müavini polkovnik Əlizadəyə müraciət etmiş, işə yenidən baxılması ilə əlaqədar Ə.Yusupovun məktubunu və 1932 saylı (eyni zamanda PC-№5217) arxiv istintaq işini ona göndərmişdir. Məktubda deyilirdi: "Xahiş edirik ki, əlavə yoxlama keçirəsiniz. Bir halda ki, H.Yusifbəyli xəfiyyə məlumatları əsasında həbs edilmişdir, ona görə xəfiyyələri yenidən dindirmək, onların göstərdiyi ifadələri dəqiqləşdirmək lazımdır".

Lakin bu dəfə A. Melkonyan, Y.Raynitski kimi xəfiyyələri dindirmək yada düşməmişdir. Vaxtilə Həmid bəylə bir məktəbdə dərs demiş C.Hüseynov, S.Hüseynov kimi müəllimlər mərkəzdən göndərilmiş Arutyunov adlı erməni müstəntiq, təhlükəsizlik xidmətinin işçisi tərəfindən dindirilmiş, onlar isə Həmid bəyin antisovet fəaliyyətlə məşğul olmadığı, ümumən günahsız olduğu barədə ifadələr vermişlər.

Buna görə 1957-ci il oktyabrda tərtib olunmuş, Əlizadə və İ.İsmayılov tərəfindən təsdiq edilmiş Qətnamədə Həmid bəy Yusifbəyli haqqında SSRİ XDİK Xüsusi Müşavirəsinin 11 dekabr 1942-ci il qərarı dayandırılmış, daha sonra 19 dekabr 1957-ci il tarixində Respublika prokurorluğundan Azərbaycan SSR Ali Məhkəməsinin Xüsusi Kollegiyasına protest verilmişdir.



1957-ci il dekabrın 31-də təxminən 16 il sonra Azərbaycan SSR Ali Məhkəməsinin Xüsusi Kollegiyası H.Yusifbəylinin işinə yenidən baxaraq SSRİ XDİK Xüsusi Müşavirəsinin qərarını ləğv etmiş, Həmid bəy Yusif bəy oğlu Yusifbəyliyə bəraət vermişdir. 1932 saylı işdə məhkuma bəraət verilməsi haqqında Ali Məhkəmənin sədr müavini S.İmanovun imzası ilə 9 yanvar 1958-ci ildə imzalanmış bəraət kağızı da vardır.

Bununla belə, işdə cox vacib bir sənəd yoxdur. Həmid bəyin Bakıdamı, sürgündəmi vəfat etməsi haqqında arayışı işdə görmədik. Ehtimal ki, bu əzabkeş və günahsız insan heç sürgün yerinə gedib çatmağa macal tapmamış, elə həbs evində vəfat etmişdir.

Qüdrətli və möhtəşəm Nəsib bəy kimi Həmid bəyin də məzarı yoxdur. Ona da şərti olaraq sovet dövrünün günahsız qurbanlarından biri, ölüm yeri ünvansız olan çoxsaylı qurbanlar ordusunun bir nəfəri kimi baxa bilərik.

## Fədakar bacı

Yusifbəylilər nəslinin ən böyük əzabkeşlərindən biri Şükufə xanım idi. O dövrünün təhsil görmüş qadınlarından biri kimi tanınmışdı. Şükufə xanım 1880-ci ildə Gəncədə anadan olub, cəmi 63 il ömür yaşayıb. Bu şəfqətli və mərhəmətli qadın görkəmli bir din xadimi olan Şeyxülislam Ağası Pişnamazzadəyə, yəni öz xalası oğluna ərə gedib. A.Pişnamazzadə Gəncədə Pişnamazzadələr nəslinin görkəmli nümayəndələrindəndir. Onun qardaşı Məhəmməd Pişnamazzadə də Gəncədə milli hərəkatda iştirak etmişdi. Pişnamazzadələr böyük nəsildir. Ədəbiyyat tariximizdən məlumdur ki, dövrün ən görkəmli din alimlərindən biri olan Molla Hüseyn Pişnamazzadə hələ XIX əsrin əvvəllərində Gəncədə yeniyetmə Mirzə Fətəliyə məntiq və fiqhdən dərs demiş, onu Şərq elmi fikrinin nəhənglərinin irsi ilə tanış etmişdi.

Ümumən Pişnamazzadələr vətənpərvərliyi, milliyyətçiliyi, xeyriyyəçilikləri ilə tanınmışlar.

Şükufə xanımın adı onların əcdadlarından biri olan Şükufə xanımın (Cavad xanın arvadı) adından götürülüb. (Elə Əyyub bəyin adı da sələflərindən birinin adıdır). Sələfi Şükufə xanım kimi bu Şükufə xanım da vətənpərvər, ailəcanlı, qayğıkeş bir qadın olub. Onun xarakterini Şəfiqə xanım Qasprinskayaya yazdığı məktublardan da izləmək mümkündür. Onun qardaşı qızı (Nəsib bəyin qızı) Zöhrənin toyu münasibətilə Şəfiqə xanıma yazdığı məktub ağrı-acı ilə, qayğı və iztirabla doludur.

O, Şəfiqə xanıma məktubunda Gəncə dəmiryolu bağçasında işləyərək 60 manat aldığını və bu pulun qardaşı Əyyubun, on aydan artıq xəstə yatan Əyyub bəyin müalicə xərclərinə çatmadığını qeyd edir. "Sevgili bacım, Sizə yalvarıb rica edirəm ki, Zöhrənin özündən həsrət, toyundan məhrum olduğumuza görə hamınızın şəkillərinizi (fotoşəkillərini) bizə göndərəsiniz".

Şükufə xanımın bir məktubundan (1916) məlum olur ki, o, Nəsib bəylə Şəfiqə xanımın ayrılmasının tərəfdarı olmamış, onların ailəsinin bütövlüyünə çalışmışdır.

Şükufə uzun müddət Gəncə məktəblərində dərs demiş, 1918-1920-ci illərdə Gəncə gimnaziyasının direktoru işləmişdir.

O, 1920-ci ildə Gəncədə ilk uşaq bağçası açmış, bu uşaq bağçasında əvvəlcə müdir, daha sonra tərbiyəçi müəllim olaraq çalışmışdır. 20-ci illərin əvvəllərində Sovet hökuməti az-çox varlı və imkanlı adamların mülklərini və olan-qalan sərvətini müsadirə etməklə məşğul idi. Ilk bağça müdirəsi olan Şükufə xanım qardaş və bacıların yeganə ata evini xilas etmək üçün uşaq bağçasını ata evinə köçürür və qapının üstündə Uşaq bağçası adlı sərlövhə asır. İki ildən sonra artıq ailə bir yerə toplaşır və mənzili müdafiə etməyə ehtiyac qalmır. Bağça isə öz köhnə yerinə köçürülür.

1960-cı illərdə Gəncə "VVAQ"-nın müdiri Yaqut xanım Atayeva Rafat Cuvarlıya söyləyirmiş ki, aldığı savad və təhsil üçün o kimsəyə yox, məhz Şükufə xanıma borcludur. Bu maarifpərvər qadın bir çox qadınların savad almasına fəal çalışıb, onlara maddi və mənəvi yardım edib. Bəzi qadınları, o cümlədən Yaqutu Bakıya ikiillik təhsil kursuna o aparıbmış.

Yadımdadır ki, əsli Gəncədən olan, 20-30-cu illərdə BDU-nun hüquq fakültəsində dərs demiş, 1938-ci ildə repressiya olunaraq 5 illik sürgün həyatı çəkmiş Leyla xanım Baratzadə - Bədəlova Yusifbəylilər nəslindən, xüsusilə onların fədakar nümayəndəsi Şükufə xanımdan böyük məhəbbətlə söz açar, onu böyük ağrı və həyəcanla yad edərdi: "Şükufə çox fədakar qadın idi, nəinki qardaşları və bacıları üçün, adi tanış-biliş üçün də özünü oda-suya atardı".

1919-cu ildə Nəsib bəy baş nazir olduqdan sonra birinci dəfə olaraq Gəncəyə gəlir. Burada ona çox böyük təntənəli qarşılanma mərasimi verilir. Eyni zamanda ata evində onun şərəfinə nahar düzəldilir. Nələrsə süfrədə çatmırmış. Şükufə xanım istəyir ki, piyada bazara getsin. Bu zaman Nəsib bəyin sürücüsü onu avtomobilə mindirərək lazımi yerə aparır və gətirir. Bundan narazı qalan Nəsib bəy bacısına deyir: "Axı ay bacım, bu, dövlətin avtomobilidir, axı bu dükan-bazar yolu üçün deyil". Bu sözlərdə də Nəsib bəyin dövlətçilik təfəkkürü, idarəçilikdə şəxsi nümunəsi özünü göstərmişdir.

1941-ci ildə həbs olunmuş Həmid bəy Yusifbəyli öz ailəsi haqqında, xüsusən bacıları haqqında da məlumat vermiş, Şükufə xanımın ərinin soyadını (Pişnamazova) daşıdığını, 58 yaşı olduğunu, Əzizbəyov küçəsində 1 saylı uşaq bağçasında işlədiyini göstərmişdir.

L.Baratzadə bizimlə söhbətində dedi ki, Şükufə xanım o dövrün ən maarifçi və işıqlı qadınlarından olmuşdur. Onun öhdəsinə təkcə maarif və təhsil işi deyil, şəxsi həyatında da əzab və əziyyətlər düşmüşdü. Pişnamazovlar din xadimləri olduğuna görə hələ 20-ci illərdə repressiya olunmuşlar. Şükufə xanımın övladı olmamış və o hər iki ailənin qayğısını çəkmiş, qardaşlarına, yaxınlarına həqiqi mənada analıq etmişdir. 1941-ci ilin 16 iyulunda böyük qardaş Həmid Yusifbəylinin həbsi və onun aqibətindən xəbərləri olmaması Yusifbəylilər ailəsinin qalan üzvləri

üçün, birinci növbədə Şükufə xanım üçün dəhşətli zərbə oldu və o,1943-cü ildə, 63 yaşında vəfat etdi.

## Əyyub bəyin acı taleyi

Nəsib bəygilin ailəsi 7 uşaq olub, evin ilki Həmid bəy 1878-ci ildə, evin sonbeşiyi Əyyub bəy isə 1896-cı ildə doğulub. O biri qardaşları kimi Əyyub acı taleli bir insan olub. Gəncədəki gimnaziyanı bitirdikdən sonra Tiflisdə oxumuş, Pyatiqorskda hərbi məktəbi bitirmiş, podporuçik olaraq zabit rütbəsi almışdır.

Əyyub ilk Cümhuriyyət qurulduqdan sonra hökumətin ordu quruculuğunda iştirak etməyə başlayır. O, Azərbaycan ordusunun ilk zabitlərindən biri olmuş, var qüvvəsi ilə bu yolda çalışmışdır.

Sovetləşmədən sonra Əyyub bəyin cəmi iki iş yeri olmuşdur. O daim təqib olunmuş, nəzarət altında yaşamış, iki dəfə sürgün olunmuşdur. 1927-ci ildə müsavatçıların növbəti dəstəsi ilə birlikdə həbs edilmiş Əyyub Solovkiyə göndərilmiş, oradakı Kont adasında beş il sürgündə yaşamışdı. Kont sahildən ən uzaq – 120 km şimalda yerləşən adalardan biri idi. Elə Ə.Yusifbəyli ilə eyni vaxtda tutulmuş və Solovki sürgününü keçirmiş D.S.Lixaçov (sonralar məşhurlaşmış və SSRİ Elmlər Akademiyasının akademiki seçilmişdi) "Mən xatırlayıram" adlı xatirələr kitabında (1991) yazırdı: "Mən köhnə əsilzadə tərbiyəli insanların əxlaqi dəyanətini qiymətləndirirdim. Mən bir neçə il elə adamlarla işləmişəm ki, çox istedadlı adamlar idilər. Onlarla ünsiyyət mənim üçün son dərəcə səmərəli olmuşdur."

Əyyub bəy öz sürgün xatirələrindən arabir dost-tanışa, eləcə də Rafat bəyə danışırmış. Bir dəfə də belə bir əhvalat danışıbmış:

"Yatdığımız kamera 25 nəfərlik idi. Bu kamera ancaq gecələr dolub boşalırdı. Gündə 3-5 nəfəri aparıb güllələyirdilər.

Dəhşətlisi bu idi ki, biz insana açılan atəş səslərini öz qulağımızla eşidirdik. Hər dəfə gecə kameranın qapısı açılanda hamımız yorğanı başımıza çəkirdik. Nəzarətçi sərt bir səslə çağırırdı: İvanov, Sidorov. Onlar isə yorğanın altında zəif səslə dillənirdilər: "ya!" Dərhal onları yorğanın altından sürüyüb aparırdılar. Bir gün elə oldu ki, kamerada 25 nəfərdən yalnız ikimiz qaldıq: bir yəhudi, bir də mən. Bir müddət keçdikdən sonra o qalın dəmir qapı yenə gurultu ilə açılanda hər ikimiz yorğanı başımıza çəkdik. Bu an mənimlə yanbayan yatan yəhudinin saçları kirpi tikanları kimi biz-biz durmuşdu və bir neçə günə onun saçları dümağ ağardı. Amma bizi aparmadılar, içəri isə yeni partiya dustaqları itələdilər".

Mirzə Bala Məmmədzadə "Milli Azərbaycan hərəkatı" kitabında Kiselyov-Qromov adlı müəllifin 1936-cı ildə Çində çap olunmuş "SSRİ-də ölüm düşərgələri" kitabında bəhs olunan Solovki hadisələrindən danışır. Əsərdə deyilir ki, 1920-ci illərin sonunda Solovkidə aclıq edən müsavatçıların bir qismini Kont adasına göndərmişdilər. Kiselyov-Qromovun fikrincə "bu adaya artıq işə yaramayan məhbuslar göndərilirdi. Burası məzara açılmış bir qapı idi".

M.Məmmədzadənin qənaətincə Kiselyov-Qromov Cahangir Ağayev adlı bir azərbaycanlı həkimdən də bəhs edir. "Doktor Cahangir Kont adasında xəstəxana müdiri imiş. Fəqət 1929-30-cu illərdə tifdən ölmüşdür. Müəllif deyir ki, bu son dərəcə həssas və yaxşı qəlbli insan Kont adasının yeganə həkimi idi. O dərd bölüşmək üçün yeganə adamdı. Kont adasına onu ölmək üçün göndərmişdilər, çünki o, Solovkidə müsavatçıların aclıq aksiyalarında iştirak etmişdi. Onunla birgə buraya 11 nəfər müsavatçı da göndərmişdilər. Bunların 1929-30-cu illərdə ölüb ölmədiklərini bilmirəm. Hər halda onların ölüm adasından dönəcəkləri qətiyyən mümkün deyildi.[1]

1932-ci ildə Solovkidən qayıdan Əyyub bəy uzun müddət xəstə yatırmış və bayıra çıxmırmış. Bilirdi ki, etibarsız saydıqları üçün müharibəyə də aparmırlar. Müharibədən sonra da bayıra çıxmaq olmurdu. Əyyub bəy bir müddət Ozan küçəsində Sərdar bağının arxasında qohumları olan Abbaszadələrin evində gizlənir. 1948-ci ilin bir günü evə paltarını dəyişməyə getməyə məc-

[1] M.B. Mehmetzade. Milli Azerbaycan hareketi, Ankara, 1991, s.153.

bur olur, NKVD agenti olan qonşusu onu təsadüfən görür və dərhal lazımi yerə xəbər verir. Əyyub bəyi o dəqiqə tutub aparırlar.

Bu dəfə o, Sibirə sürgün olunur. Onun ikinci sürgün yeri Tomsk vilayətinin Baxçar rayonunun Qalka kəndi olur. 1956-cı ildə bəraət alır. Elə həmin ilin iyulun 24-də ona verilən bir arayış da var idi ki, Kirov adına Kənd Təsərrüfat Arteli-kolxozu tərəfindən verilmişdir. Artelin-kolxozun sədri Mokroborodovun və mühasibi Kozırevin imzaladığı arayışda deyilir: "həmin arayış Usubbəyov Əyyub Yusuf oğluna ona görə verilir ki, o həmin kolxozun üzvü olmuş və orada 1949-cu ildən indiyədək işləmiş və kolxozdan öz xahişi ilə çıxmışdır (!)"

1956-cı ildə Gəncəyə qayıdan Əyyub bəy bir müddət meşə təsərrüfatı idarəsində ambardar işləyir. İdarənin iki ambardarı var imiş. Əyyub bəy savadlı olduğundan hesabatları o tərtib edib Bakıya aparırmış. Bir gün gəlib görür ki, qonşu ambardar yüz kub taxtanı özbaşına satıb – qəzəblənir. İdarə müdiri ona da saxtakarlıq etməyi və ambarda qalan tikinti materilını satmağı məsləhət görür. Əyyub bəy ərizəsini yazıb işdən çıxır...

Əyyub bəyin taleyi alt-üst olmuş, təzyiq və təqiblər üzündən ailə qurmaq və ev-eşik düzəltmək imkanı olmamışdır. Sıxıntı, maddi imkansızlıq, yoxsulluq da bir tərəfdən.

Rafat Cuvarlının dediklərindən:

"1965-ci ildə Leninqrada gedirdim. Dedim: dayı, sənə nə alım? O heç nə demədi, gülümsünüb başını tərpətdi. Gələndə ona bir dəst təzə kostyum, köynək, şlyapa və o vaxt skoroxod adlanan ayaqqabılardan aldım. Geyinib kecinən kimi o, Sərdar bağına tələsdi: Paxıllara, ona yuxarıdan aşağı baxanlara göstərmək istəyirdi ki, Yusif bəyin oğlu, Nəsib bəyin qardaşı hələ ölməyib. «Mən onlara göstərəcəyəm ki, biz meydandan çıxmamışıq.»

Əyyub bəyin adı bu nəslin ulularından biri Əyyub bəyin adındandır. Əyyub Cavad xanın vəziri Usub bəyin oğlu olub. Cavad xan öldürüldükdən sonra bir müddət xanın meyidi arada qalır. Qalanı işğal edən rus ordusunun zabitlərindən biri oradan keçərkən Cavad xanın meyidinin üzərinə tüpürür. Əyyub bəy tabayaq həmin şəxsi və ordu əsgərlərindən daha iki nəfəri öldürür. Bu əhvalat nəsildən nəslə gəlib və indi onu Rafat bəyin dilindən eşitdim. Böyük Əyyub bəyin igidliyi general P.D.Sisianovun üstünə ərinin qılıncı ilə hücum çəkən Mələknisə xanımın şücaəti ilə yanaşı durur.



Əyyub bəyin taleyi onun qardaşı Həmid bəyin və oğlu Ənvərin taleyi kimi acı və məşəqqətlidir. Təqiblər üzündən hətta Ənvər özünün Yusifbəyli və Usubbəyov soyadını Yusubov soyadı ilə əvəz etmək məcburiyyətində qalıb. Müxtəlif rayonlarda işlədikdən sonra Azərbaycanı tərk edib SSRİ-nin digər guşələrinə üz tutub. Tiflisdə institut bitirdikdən sonra rabitəçi kimi əvvəlcə İrkutskda, sonra da Stalinabadda (indiki Düşənbə) çalışmalı olub. Müharibə ərəfəsində Azərbaycana qayıdıb, Qubada rabitə sistemində işləyib. Böyük Vətən müharibəsi dövründə səfərbərliyə alınmış Ənvər öz ixtisası üzrə çalışmalı olub. Daha sonra müharibədə alman qoşunları tərəfindən əsir alınmış Ənvərin öhdəliyi əsirllikdən sonra daha məşəqqətli olub: o, əsir düşdüyü üçün həbs edilib, 1945-ci ildən 1955-ci ilədək Sibir sürgünü yaşamış, 1956-cı ildə Azərbaycana qayıdaraq bəraət almışdır.

Beləliklə, Yusifbəylilər nəslinin böyük həbs, ölüm və sürgün taleyi var. İstər çar Rusiyası dövründə olsun, istərsə də sovet dövründə - bu nəsil təqib və təzyiqlərə məruz qalıb. Hətta bu nəsillə qohum olan Pişnamazzadələr, Xanbudaqovlar, Xasməmmədovlar, Cuvarlılar (Cuvarlinskilər) də güclü repressiyalarla üzləşiblər. Həmid, Nəsib, Əyyub bəygilə ana tərəfdən qohum olan Xanbudaqovlar biri Əliş Xanbudaqov Solovkiyə sürgün edilib, milli kommunistlərdən biri Əyyub Xanbudaqov isə Gəncənin şöhrətli yetirmələrindən olan Məmməd Cuvarlinski, İbrahim Eminbəyli, Əhməd Cavad Axundzadə ilə bir gündə 1937-ci il oktyabrın 13-də güllələnmişdir.

Əyyub bəyin acı taleyi ilk Xalq Cümhuriyyətinin ordu sıralarında xidmət etmiş yüzlərlə zabitin taleyi kimi acı və kədərlidir. Bu zabitlərin bir qismi güllələnmiş, bir çoxu həbs və sürgünlərə məruz qalmış, təzyiq və təhdidlərlə üzləşmişdir. 1920-ci illərdə həbs və sürgünlərə məruz qalmış zərərdidələrdən çoxu 1937-ci

ilin kütləvi cəza tədbirlərindən qurtara bilməmişdi. Məsələn, 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin ordusunda xidmət etmiş Əhməd Hacınski, İbrahim Axundzadə, Mövsüm İbrahimov, Əli Dadaşov, Nəsrulla Rizabəyli və bir çox başqa gənc zabitlər, habelə hətta çar ordusunda xidmət etmiş polkovnik Mehdi Sultanov kimi təcrübəli hərbçi kadrları Solovkiyə sürgün edilmişdilər. Bakıda həbsdə saxlanarkən N.Rizabəyli intihar etməyə cəhd göstərmiş, venasını kəsmişdi...

1920-ci illərin Solovki sürgünündən yaxşı-pis qurtarmış bu gənc hərbçilərin çoxu 1937-ci ilin cəngindən qurtara bilmədilər. Müstəqilliyə az müddətli hərbi xidmətin nəsibi çək-çevir, təzyiq və sürgünlər, bir də ölüm oldu.

Maraqlıdır ki, hələ 1918-1920-ci illərdə Gəncə hərbi praporşiklər məktəbinin təşkilində Əyyub bəyin böyük qardaşı Həmid bəyin də rolu olmuşdur. (Nədənsə bu fakt 1956-1957-ci illərdə Həmid bəyin reabilitasiyası zamanı üzə çıxmışdır. Yoxsa elə bu kifayət idi ki, Həmid bəyi daha ağır maddələrlə ittiham etsinlər). 1921-ci ildə günahsız güllələnənlər sırasında Bakıda sahə pristavı işləmiş Abbas Usubbəyovun da adı vardı.

Acı tale elə bil Yusifbəyli nəslinin adına yazılmışdı. Bu nəslin başına olmazın əzab və əziyyətlər gəldi. Daim xalq üçün çalışan bu nəslə elə bil fələyin qəzəbi tutdu.

## Bir daha Nəsib bəy Yusifbəylinin qətli barədə

Nəsib bəy Yusifbəylinin həyatı və fəaliyyətinin bir çox məqamları müasirlərimiz üçün aydın və öyrənilmiş olsa da onun həyat salnaməsinin bir çox təfərrüatları bizə məlum deyil. Bu barədə Şəfiqə xanım Qasprinskayanın xatirələrində də səhih məlumatlar azdır.

Ən böyük anlaşılmazlıq Nəsib bəyin qətli ilə bağlıdır. Bu haqda Məmməd Əmin Rəsulzadə, Feyzi Ağüzüm, Nağı Şeyxzamanlı, müasir tədqiqatçılardan Mövsüm Əliyev, Hafiz Sadıq, jurnalist Şəmistan Nəzirli, Əhməd İsayev, tədqiqatçı Nazim Mustafa, Nəsib bəyin bacısı nəvəsi Azər Abdullayevin və başqalarının fikir və mülahizələri vardır. Mülahizələrdə qətlin aşağıdakı yerlərdə törədildiyi ehtimal olunur:

1) Kürdəmirdə
2) Yevlaxda
3) Gürcüstanın Sığnak nahiyəsində
4) Tiflisdə
5) Bakı ilə Tiflis arasında

Nəsib bəyin Kürdəmir qəzasında əsli Yevlaxdan olan Qarxunlu Əşrəf bəy və ya onun adamları tərəfindən öldürülməsi haqqında versiya ilk dəfə tədqiqatşı Mövsüm Əliyev tərəfindən irəli sürülmüşdür. (Odlar yurdu, 1988, № 21). Bu versiya bir çox mənbələrdə elə olduğu kimi təkrar edilmişdir (o cümlədən 2007-ci ildə İctimai televiziya tərəfindən çəkilmiş filmdə, Qarxunlu Əşrəfin adının çəkilməməsi ilə). Nəsib bəy haqqında bir çox fərziyyələri olduğu kimi "Ədalət" qəzetində (1992, 8 sentyabr) təkrarlayan Hafiz Sadıq "Odlar yurdu" qəzetində (1992, № 30-31, 13 noyabr) "Baş nazir necə qətlə yetirildi" məqaləsi ilə çıxış etmiş, həmin faktları bir qədər başqa şəkildə "Müsavat" jurnalında çap etdirmiş məqaləsində (Müsavat, 1994,№ 2) təkrar etmişdir. Bu iki yazıda Nəsib bəyin Kürdəmir qəzasında Quruçay dərəsində "bolşevik xəfiyyələri və soyğunçu quldur dəstələrinin tör-töküntüləri" tərəfindən qətlə yetirildiyi iddia olunur. Hətta H.Sadığın versiyasına görə N.Yusifbəyli öldürüldükdən sonra gizlicə Gəncəyə aparılmış və xəlvəti dəfn edilmişdir.

Qəzetin 1992-ci il sonuncu nömrəsində (1992,№ 35-36, 31 dekabr) "Odlar yurdu"nun baş redaktoru Rafiq Hacıyevə və məqalə müəllifi Hafiz Sadıqa ünvanladığı məktubunda Nəsib bəyin qohumu Azər Abdullayev Qarxunlu Əşrəflə 1932-ci ildə bir kamerada yatmış və təsadüfən onun dindirilməsinin şahidi olmuş öz babası Nağı bəy Xasməmmədovun dediklərinə əsasən aşağıdakıları söyləyir: "Əşrəf söyləyirmiş ki, güya xəbər gəlir ki, Nəsib bəy Kürdəmirdən faytonla Yevlaxdan keçib gedəcək və özü ilə ADR-in xəzinəsindən külli miqdarda pul da götürüb. Əşrəf pusquda durur və Yevlax meşəsində (!) Nəsib bəyi qətlə yetirir.

Ancaq sakvoyajda pul olmur. Məhkəmədə isə Əşrəf guya bir qədər başqa ifadə verir: Nəsib bəy Əşrəfin evində qonaq qalır və gecə o, Nəsib bəyi qətlə yetirir, meyidini isə Kür çayına atır. Sakvoyajda pul olmur".

Bu versiya (yəni Nəsib bəyin Kürdəmirdə və ya Yevlaxda öldürülməsi-N.Q.) daha bir tədqiqatçı tərəfindən hərbi jurnalist Şəmistan Nəzirli tərəfindən inkar olunur. Ş.Nəzirli "Qarxunlu Əşrəf bəy" sənədli povestində (1998) şahid ifadələrinə və Əşrəf bəyin arxiv sənədlərinə əsasən sübut etməyə çalışır ki, Qarxunlu Əşrəf bəy Nəsib bəy Yusifbəylinin qatili deyil. Onunla nəinki uşaqlıq dostu, heç yaxın tanışlığı da olmayıb.

Ş.Nəzirlinin daha bir tutalqası var. Bu, tədqiqatçı Asif Rüstəmlinin Azərbaycan Dövlət Arxivindən tapmış olduğu bir rəsmi sənəddir. Bu sənəd Gürcüstan hökuməti tərəfindən Azərbaycan sovet orqanlarına göndərilmişdir. Rus dilində olan həmin sənədin mətni belədir: "Tiflisdə şənbə günü 1920-ci il iyun ayının 19-da saat 9-a yaxın Olginski küçəsinin başlanğıcında mauzerdən açılan atəşlə Fətəli xan Xoyski və Nəsib bəy Usubbəyov öldürülmüşdür. Qətldə günahlandırılan səkkiz nəfər şübhəli şəxs Gürcüstan hökuməti tərəfindən saxlanılmışdır". A.Rüstəmli isə F.Xan Xoyski haqqında məqaləsində həmin məlumatın "Kommunist" qəzetindən (1920, 22 iyun, № 42) götürdüyünü bildirir. (A.Rüstəmli. Ədəbi istiqlalımız, B., 2004. S. 23)

Elə isə sual olunur: Nəsib bəy Yusifbəylinin qəbri haradadır? Çünki Gürcüstan hökuməti iki il həmin hadisədən əvvəl Zaqafqaziya seyminin maarif naziri işləmiş və iki seçki baş nazir olmuş Nəsib bəyi anonim dəfn edə bilərdimi?

Eyni zamanda daha bir sual doğur: Nəsib bəy qətl günü Fətəli Xan Xoyski ilə bir yerdə olmuşdurmu? Mövsüm Əliyevin Həsənbəy Ağayev haqqında oçerkində (Azərbaycan Demokratik Respublikası. Bakı, 1990). H.Ağayevin Fətəli Xan Xoyskidən düz bir ay sonra iyulun 19-da məhz Aram Toplakyan tərəfindən qətl edildiyi yazılmış, H.Ağayevin də Fətəli Xan Xoyskinin yanında dəfn edildiyi göstərilmişdir. Qaydaya görə N.Yusifbəylinin də məzarı orada olmalı idi. Lakin Nəsib bəyin məzarı orada



yoxdur. Deməli, Nəsib bəy Tiflisdə öldürülməmişdir, çünki orada olmamışdır. Nəsib bəy orada olsa idi, mütləq orada hansısa görüşlər keçirər və diqqət mərkəzində olardı.

Lakin Fətəlli Xan Xoyskinin qətl zamanı yanında kim olduğu məlumdur. Bu ilk Azərbaycan Cümhuriyyətinin rəhbər xadimlərindən biri Xəlil bəy Xasməmmədovdur. (N.Mustafa, Fətəli xan Xoyski, Xalq qəzeti, 25 may, 2002). Onlar eyni zamanda Tiflisdə indiki Opera teatrı binasının yanından keçərkən erməni terrorçuları Aran Yerkayan və Mişaq Qriqoryan tərəfindən atəşə tutulmuş, nəticədə Fətəli xan həlak olmuş, Xəlil bəy Xasməmmədov isə yaralanmışdı. Göründüyü kimi terrorçuların sayı bir deyil, iki olmuşdu. Üstəlik Fətəli xan Xoyskinin dərhal həlak olmasının təkzib edən, bəzi təfərrüatları açıqlayan mənbələr də var.

Əvvəlcə bir məsələyə toxunmağı lazım bilirik. Məlumdur ki, 1920-ci ilin aprelində Xəlilbəy Xasməmmədov İstanbula səfir təyin edilmişdi. Çox ehtimal ki, gecikdiyindən və artıq ölkəni tərk etmək lüzumundan aprelin 27-də Bakıdan Tiflisə gedən qatarla çıxmışdır. Məlumdur ki, bu qatarla Xalq Cümhuriyyətinin bir sıra görkəmli xadimləri ölkəni tərk etmişdilər. Lakin nə Məmməd Əmin Rəsulzadə, nə də Nəsib bəy Yusifbəyli bu qatarla getməmişlər (bu qatarla general S. Mehmandarov da getməli imiş. Lakin general nə düşünmüşsə getməmiş, lakin qatar heyəti onu saat yarımdan çox gözləmişdi. (Bax: M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987. səh.317 )

Fətəli xan Xoyskinin qətli ilə bağlı bəzi mənbələr vardır ki, onlara bu vaxtacan diqqət yetirilməmişdir. Məsələn, Azərbaycanın görkəmli aktyoru, xalq artisti Mustafa Mərdanovun "50 il Azərbaycan səhnəsində (xatirələr)" kitabında (Bakı, 1959) müəllif 20-ci ilin iyununda gizli missiya ilə Tiflisdə olduğunu qeyd edir. Bəzi fraqmentləri oxucuların diqqətinə çatdırırıq :

"1920-ci ildə mən siyasi idarə tərəfindən Azərbaycanda ilk dəfə təşkil olunmuş "Təşviqat qatarı"nın rejissoru, sonra isə komissarı vəzifəsinə təyin olundum.

...Elə bu vaxt məni mühüm bir tapşırıqla Gürcüstana göndərdilər. Mən Gürcüstanın gizlində çalışan kommunist fəalları ilə görüşməli idim. O vaxt Tiflisdə menşeviklər ağalıq edirdilər.

Vəsiqələrim düzgün idi. Buna baxmayaraq Tiflisə çatmamış Nəftuluq stansiyasında düşüb şəhərə piyada getdim.

Üç gün keçdi, mənə tapşırılan işləri qurtarmaq üzrə idim. Bir gün "Kazyonnu teatr"da "Aşıq Qərib" operasını oynayırdılar. O gecə məndən təvəqqe etdilər ki, suflyorluq edim. Razı oldum. İkinci pərdənin fasiləsində tamaşaçıların yanına gedib tanış-tunuşla söhbət edirdim ki, bir də gördüm Ağayev deyilən bir nəfər və menşeviklərin "Xüsusi şöbə" rəisi Paçuliya mənə yaxınlaşdılar.

"Tutun! Budur Xan-Xoyskini öldürən!"- deyə Ağayev mənə bərk bir şapalaq ilişdirdi. Məni tüfəng ilə döyə-döyə teatrdan çıxarıb maşına mindirdilər və apardılar.

Sonra da öyrəndim ki, Müsavat parlamentinin sədri (!) Fətəli Xan Xoyskini Tiflisdə "Pikadilli" sirkinə girərkən üç güllə ilə vurublarmış. Ağayev dediyim adam da məni Gəncəyə "Təşviqat qatarı" ilə gələndə görüb və iki gündür ki, güdürmüş.

Məni rəis Paçuliyanın kabinetinə gətirdilər. Paçuliya üstümə atılıb bağırdı:

"Alçaq bolşevik! Yoldaşların kim idi. Söylə!"

...Mən onları inandırmaq istədim ki, bu işdən heç xəbərim yoxdur, – inanmadılar. Məni yenidən maşına mindirdilər evimizə apardılar.

Axtarış başlandı, evi alt-üst elədilər. Xan Xoyski vurulan yerdə dəsmala bükülmüş mauzer patronları tapıldığına görə, evdə nə qədər cib və üz dəsmalı vardısa hamısını apardılar. Məni isə "Xüsusi şöbə"nin qaranlıq zirzəmilərindən birinə saldılar.

Gecə yarısı gəlib məni rəisin kabinetinə apardılar, yenə də qatil olduğumu boynuma alıb yoldaşlarımın adını söyləməyi tələb etdilər. Çox danışıqdan sonra "Əkskəşfiyyat"ın rəisi Kediya dedi:

"Məhkəmə zad lazım deyildir, bolşevik, özü də qatil,- aparın güllələyin!"



Üç nəfər məni maşına mindirib apardı. Hara getdiyimi bilmirdim. Nəhayət, maşın xəstəxananın qabağında dayandı. Məni düşürüb Xan-Xoyski yatan palataya apardılar. Gördüm ki, Xan-Xoyski can verir, yanında olan bir azərbaycanlı isə hey başına vurub ağlayır: "Azərbaycan məhv oldu! Azərbaycan məhv oldu!"

Məni buraya ona görə gətirmişdilər ki, Xan-Xoyski ona güllə atanın mən olub olmadığımı təsdiq eləsin. Lakin buna imkan olmadı. Xan-Xoyski heç bir söz deməyib keçindi. Məni yenə maşına mindirib apardılar və zirzəmiyə saldılar.

...Beləliklə 18 gün zirzəmidə qaldım. 19-cu gün məni yenə də Paçuliyanın yanına gətirdilər. Bu dəfə o məni başqa cür qarşıladı. Buraxıldığımı bildirib, küçədə ehtiyatlı olmağımı məsləhət gördü. Xan-Xoyskinin adamları məni öldürə bilərdilər.

Küçədə atam məni qarşıladı; heç bir günahım, təqsirim olmadan tutulmağım hələ bəs deyilmiş, ondan öyrəndim ki, mənim buraxılmağım üçün atam 100 qızıl da rüşvət veribmiş...

Mən tapşırılan vəzifəni yerinə yetirmək üçün Batuma getməli oldum. Orada işimi qurtarıb yola düşəcəkdim ki, bir də gördüm yaşadığım mehmanxanaya iki nəfər gəldi, məni qabaqlarına qatıb apardı. Əlimdə bir şey tutmadılar, çünki topladığım məlumatı hafizəmdə saxlamışdım (Burada mənə aktyor yaddaşı kömək elədi).

Yeddi gün Batum həbsxanasında yatdıqdan sonra məni Bakıya sürgün elədilər. Bakıya çatdım. Bir müddət yenə "Təşviqat qatarı"nda işlədim."

M.Mərdanovun bu işdə hansı missiyanı yerinə yetirdiyi, nə məqsədlə göndərildiyi naməlumdur. Amma aktyorun xatirəsindən aydın olur ki, F.Xan-Xoyskini "Pikadilli sirki"nə girən yerdə vurublarmış. Lakin burada, göründüyü kimi Nəsib bəy Yusifbəylidən deyil, yalnız F.Xan Xoyskidən söhbət gedir. Belə çıxır ki, erməni muzdlusu yalnız F.Xoyskiyə atəş açıb. Əgər hər ikisinə (N.Yusifbəyliyə və ya X.Xasməmmədova) atəş açılsaydı şübhəsiz M.Mərdanovu bir nəfərin deyil, iki nəfərin qətlində ittiham edərdilər. Lakin X.Xasməmmədovun yaralanması da həqiqətdir. O ölümünədək boğazında ilişib qalmış gülləni gəzdirmiş, Nəsib

bəyin qızı Zöhrə xanıma daim güllənin onu incitdiyindən şikayətlənmişdir.

Elə isə Nəsib bəy harada öldürülmüşdür? Onun Tiflisdə dayanıb dayanmadığı bəlli deyildir. A.Həsənoğlu "Erməni sindromu" (2007) əsərində qeyd edilir ki, Nəsib bəy 1920-ci ildə Tiflisdə öldürülmüşdür. M.Ə.Rəsulzadə və F.Ağüzün Gürcüstanın Sığnak, Sığnəki nahiyəsinin üzərində dayanırlar. Bu nahiyə Gürcüstanın Cənub-Şərq tərəfində, Gəncə qubemiyasının şimal tərəfilə həmsərhəd zonada yerləşirdi. Belə olan halda isə Nəsib bəy Yusifbəyli və onun köməkçisi Yusif İbrahimli Gürcüstana kəsə, yəni Qazax-Borçalı yolu ilə deyil, Qax-Zaqatala yolu ilə keçmişlər.H.Sadıq da bu yolla yalnız Y.İbrahimlinin yola salındığını və onun Sığnakda öldürüldüyünü iddia edir. Fikrimizcə onlar bu yolu qoşa keçmişlər. Nəsib bəy Yusif İbrahimlini yalnız Gəncəyə çatdıqdan sonra yola sala bilərdi.

Bir həqiqət var ki, Nəsib bəy Azərbaycanda öldürülməmişdir. Ölkənin belə bir görkəmli şəxsinin ölkə başdan-başa rusların əlinə keçməmiş adi çarovulçular tərəfindən öldürülməsi ağlabatan iş deyildi. Elə Nəsib bəyin Gəncədə dayanmaması, yaxın qohumları ilə görüşə bilməməsi də tələsməsi ilə bağlıdır. Qardaşı Həmid bəy də ölümə inanmırmış. Atası Yusif bəy isə onun yolunu ölənədək gözləmişdi.

1920-ci ilin may-iyununda Azərbaycanın kommunist mətbuatı N.Yusifbəylinin Türkiyəyə mühacirət etdiyini yazırdı. Bu fikir 1941-ci ildə Həmid bəy Yusifbəyliyə qarşı açılmış cinayət işində də (iş № 1932, s. 26) təkrar edilmişdir.

Maraqlıdır ki, Həmid bəy ilk məlumatlarından birini Şəfiqə xanımdan almışdı. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Həmid bəy qardaşının ailəsinə hər cür yardım etmişdir. Bunu onun Şəfiqə xanıma göndərdiyi iki məktub (ikinci məktub 14 iyul 1921- ci il tarixlidir) sübut edir. Həmin məktublar Şəngül və Nəcib Həbləmitoğluları tərəfindən səhvən Həmid Şaxtaxtinskiyə (AXC-nin maarif nazirinə) aid edilmişdir. Ölüm xəbərindən hədsiz sarsıldığını qeyd edən Həmid bəy ikinci məktubunda yazır: "Məktubunuzda yazmış olduğunuz



... xəbəri təhqiq etdim. Yalan çıxdı. Ta ki, indiyə qədər müəyyən bir xəbər ala bilmədim. Nə oldu, haradadır, məlumat yoxdur. Ordan-burdan xəbər alırıq, lakin əhəmiyyətsiz xəbərlərdir."

M.Ə.Rəsulzadə N.Yusifbəyli haqqında oçerkində (1929) yazır: "Onlar (yəni N.Yusifbəyli və Yusif İbrahimli – N.Q.) Siqnax qəzasında təfsilatı hələlik bizlərə məchul qalan faciəli bir qəzaya uğrayaraq qurban getmişdir".

F.Ağüzümün məqaləsindən (1980): "Nəsib bəy 27 nisan 1920 istilasından sonra yakın arkadaşı İbrahim Yusif iləı birlikdə Gürcüstana keçərkən Siqnax ilçələrində fəci bir şəkildə öldürülərək şəhidlik mərtəbəsinə yüksəlmişdir."

Şübhəsiz ki, Nəsib bəyin Gürcüstana gedişi həm Gürcüstanın Bakıdakı səfirliyi, həm də Gürcüstanın hakimiyyət dairələri ilə razılaşdırılmışdı. Görünür, M.Ə.Rəsulzadının N.Yusifbəyli haqqında məqaləsində Sığnak versiyası haqqında məlumat 1921-ci ildə Gürcüstanın Qızıl Ordu tərəfindən işğalı nəticəsində mühacirətə gedən gürcü rəhbər xadimlərindən alınmışdır. Məlumdur ki, M.Ə.Rəsulzadə onlarla (N.Jordaniya, Sereteli, Çxeidze və b.) Parisdə "Prometey" təşkilatının xətti ilə görülmüş və yəqin ki, Sığnak məsələsində onlardan birinə əsaslanmışdır. O,Gürcüstanın rəhbər xadimlərindən olmuş Q.Qvazavadan da məlumat ala bilərdi.

Bəs Kürdəmir və Qarxunlu Əşrəf bəy məsələsi haradan çıxmışdır? Nağı bəy Şeyxzamanlı "Dərdləşmə" oçerkində Nəsib bəyin Ərəş qəzasında (indiki Ağdaş və Yevlax rayonları) qətlə yetirildiyini qeyd edir. Şəfiqə xanım Nəsib bəyin Kürdəmirdən ona məktub göndərdiyini xatırlayır. Ümumən, Şəfiqə xanımın fikrincə Nəsib bəy Bakıdan mayın ilk günlərində atla yola çıxmış (bu da avtomobil, qatar versiyalarını inkar edir), Kürdəmir ətrafında qeyb olmuşdur. Şəfiqə xanım Nəsib bəyin ölümü haqqında bir neçə rəvayət olduğunu söyləyir. Budur onlar: "Şəhadəti haqqında bir neçə rəvayət var. Biri, Kür çayı sahilində Əyricə kəndi əhalisindən bəziləri tərəfindən Bakı milyonerlərindən biri zənn edilərək öldürülübmüş. ***Bu rəvayəti mənə Karhuklu Əşrəf ismində bir zat söyləmişdi.*** (Kursiv bizimdir- N.Q.) Digər rəvayət Kür ça-

yının sahilində bir kənddə, öncədən hazırlanmış evdə 2-3 gecə qonaq qalmış və salla çayın o biri sahilinə geçməyi gözləmiş, darıxmışdır. Nəhayət fürsət düşmüş, sal hazırlanmış və gecə yola çıxmışlar. Fəqət çayın o biri sahilində gözləyənlər salı görməmişlər... Üçüncü bir rəvayət də cinayətin Karkuklu Əşrəf əlilə olmasıymış ... amma bunların hamısı söz-söhbətdir. Doğru olan yalnız Kürdəmirə sağ gedib çıxmasına dair aldığım o kiçik məktubdur... Qardaşı oraları gəzmiş, araşdırmış və məzarını tapmışdır... Bunu da söyləyirlər. Bu xəbərin də səhih olmasına şübhəm olduqca çoxdur. (Şəfiqə xanımın bu qeydlərini biz Həbləmitoğlularının yuxarıda qeyd etdiyimiz və Şəfiqə xanıma həsr olunmuş kitabından götürmüşük - N.Q.)

Şəfiqə xanımın qeydlərində Qarxunlu Əşrəfdən deyil, Karkuklu (Kərküklü) Əşrəfdən söhbət gedir. Bu əhvalatı guya ona Kərküklü Əşrəfin özü danışıbmış. Ola bilsin ki, tədqiqatçılardan hansısa bu adı Qarxunlu Əşrəf kimi oxumuşdur. Biz də belə hesab edirik ki, Qarxunlu Əşrəf, özü parlament üzvü olan, müasirlərinin gözündə müsbət bir şəxs kimi şöhrətlənmiş Əşrəf Nəsib bəyin ölümünə bais olmazdı və hətta buna yol da verməzdi.

Rafat bəy qətlin harada və necə olması haqqında dəqiq təsəvvürü olmadığını və Qarxunlu Əşrəfin tam günahsızlığı fikrinin əleyhinə olduğunu söylədi.

Bəzi müəlliflərin yazılarında (Əhməd İsayev, Ataxan Paşayev, Nazim Mustafa və b.) Nəsib bəyin ümumən yolda naməlum quldurlar tərəfindən öldürüldüyünü qeyd edirlər. Bu fikir Cümhuriyyət Ensiklopediyasında (C.2. Bakı, 2004) təkrar olunur. Burada yeni fakt odur ki, Nəsib bəyin ölümü 31 may 1920-ci il kimi göstərilmişdir. Tarixin haradan götürüldüyü məlum deyildir.

Musa Qasımov və Cavid Hüseynovun "Azərbaycanın baş nazirləri" kitabında (Bakı, 2005) müəllifləri bu dəfə Yevlaxın Qarxun kəndi versiyasına müraciət etmiş, lakin Qarxunlu Əşrəf bəyin adını çəkməmişlər. Kitabdakı "Nəsib bəy Yusifbəyli" oçe-rkində deyilir: "1920-ci il aprelin 27-də Bakı XI Ordu tərəfindən işğal olunduqdan və Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra may ayının əvvəlində Tiflisə getməyə çalışan N.Yusifbəyli Yevlaxın Qarxunlu kəndində dostunun (!) evində qonaq qalmışdır. Dostu onun çamadanının qızılla dolu olduğunu zənn edib N.Yusifbəylini öldürmüş və boğazına daş bağlayıb Kür çayına atmışdır" (s. 24)



Buna görə də Nəsib bəyin qətlinin xarakteri də diqqəti çəkir. Təbii ki, burada iki cür qətldən söhbət gedə bilər: tamah xarakterli cinayətdən, ya da siyasi qətldən. Birinci versiya üzrə ehtimallar çox olsa da faktlar azdır. Əgər bu hadisə adi qaçaq quldur işi olsaydı hansısa bir cinayət işində zühur edə bilərdi. Təsdiqedici faktlar Qarxunlu Əşrəfin cinayət işində də yoxdursa ehtimalların mərkəzi sırf siyasi qətl hadisəsinin üzərinə gəlir. N.Yusifbəylinin bacısı nəvəsi Azər Abdullayevin "Odlar yurdu" qəzetinə məktubundan daha bir neçə sətirə nəzər salaq: "Fətəli xan Xoyskinin Tiflisdə, Nəsib bəy Yusifbəylinin Kürdəmirdə yox, məhz Yevlaxda qətlə yetirilməsi ***eyni mərkəzdən idarə edilmiş və burada erməni Karakozovun ya da ola bilsin Karaxanov adlı birisinin dirijorluğu olmuşdur*** (kursiv bizimdir - N.Q.). Hafiz Sadıq yuxarıda adını çəkdiyimiz məqaləsində bu qətlin Əliheydər Qarayevin ssenarisi əsasında həyata keçirildiyini qeyd edir. Lakin Ə.Qarayev Azərbaycan inqilab komitəsinin yalnız üzvü idi və bu qərarı HİK sədri N.Nərimanovla mütləq razılaşdırmalı idi. 1920-ci il May ayının 16-dək (yəni N.Nərimanov Bakıya gəlişinədək- N.Q.) HİK sədri vəzifəsini M.D.Hüseynov, daxili işlər naziri vəzifələrini isə H.Sultanov yerinə yetirirdilər.

Biz yenə Nəsib bəy Yusifbəylinin qətl yerinin Azərbaycan deyil, Gürcüstan olduğunu ehtimal edir, siyasi cinayətin burada törədildiyini irəli sürürük. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi M.Ə.Rəsulzadənin əldə etdiyi məlumat daha səhih ola bilərdi. İkincisi, təkcə Tiflisdə iki siyasi qətlin (F. Xan-Xoyski və Həsən bəy Ağayevin öldürülməsi) baş verməsi, Xəlil bəy Xasməmmədovun yaralanması təsadüfi deyildir. 1920-ci ildə Gürcüstan erməni terroru üçün ən əlverişli yer idi. Eyni zamanda bu dövrdə həmin ölkədə başqa siyasi qətllər də törədilmişdir. (Batumda general Lyaxovun qətli və s.)

Asif Rüstəmlinin çap etdirdiyi sənəd də təsadüfi deyil. Fikrimizcə burada yanlışlıq Nəsib bəyin Tiflisdə deyil, Gürcüstanın başqa bir ərazisində (o cümlədən tarixən mübahisəli ərazi sayılan və azərbaycanlıların çox yaşadığı Sığnak qəzasında) qətli ilə bağlıdır.

Nəsib bəy Yusifbəylinin ölümünə yalnız Gürcüstan arxivləri işıq sala bilər. Azərbaycan arxivlərində demək olar ki, məlumat yoxdur. Fətəli Xan-Xoyskinin qətl edilməsi haqqında məlumat və nekroloq menşevik hökumətinin orqanı olan "Qruziya" qəzetinin 23 iyun 1920-ci il tarixli nömrələrində çap edilmişdir. Elə isə Nəsib bəy Yusifbəyli haqqında nekroloq niyə verilməyib? Nə isə... bu qanlı qətllə bağlı müəmmalar çoxdur. Ola bilsin hansısa məmur F.Xan-Xoyskiyə və X.Xasməmmədova sui-qəsdi N.Yusifbəyliyə və X.İbrahimliyə qəsdlə qarışıq salmışdır.

Nəsib bəyin tarixi sələfi olan Nəsib Sultan 1819-cu ildə Rusiyada sürgündə öldürülmüşdü. Bəlkə tarix 101 il sonra təkrar olunub. Bu da istisna deyil. Müstəqillik uğrunda ardıcıl mübariz olan Nəsib bəyin Qırmızı və Ağ Rusiyaya, Leninə və Denikinə münasibəti birmənalı olaraq mənfi və qəti idi.

Nəsib bəy Yusifbəyliyə sui-qəsd XX əsrin ən qanlı və müəmmalı qətllərindən biridir. Bu qətlin üstünün açılması tarixçilərimizin ümdə vəzifələrindən olardı.

## Gəncədə bir ünvan

Qədim Gəncə şəhəri. Nəsib bəy Yusifbəyli küçəsi 21. Bu, şəhərin mərkəzində Yusifbəylilər nəslinin hələ XIX əsrin 60-cı illərindən məskunlaşdığı bir guşədir. Sovet dövründə Şmidt adını daşıyıb, əvvəlcə Şmidt 13, daha Şmidt 21 olub. Bu yığcam Şərq üslubunda, qırmızı kərpicdən tikilmiş malikanədə hələ 1998-ci ilin mayında olmuşdum. O vaxt işlədiyim Milli Münasibətlər İnstitutu Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyinə həsr olunmuş tədbir keçirirdi. Yadımdadır ki, bizi Gəncənin demək olar ki, bu tədbirlə bağlı olan bütün xatirə yerlərini gəzdirdilər.



Bütün yerlərə sadəcə baxıb keçdik, dayanmadıq. Yalnız bu ünvandan, Nəsib bəy Yusifbəyli 21 ünvanlı evdən başqa.

Bu evdə biz yarım saatdan artıq oturduq, çay içdik. Böyük şəxsiyyət, böyük insan, görkəmli ziyalı və dövlət xadimi Nəsib bəyin xatirəsini andıq. Təzə nübar gilas yedik və çiyələk mürəbbəsi ilə çay içdik. Biz mənzilin bir hissəsi olan balkonda oturmuşduq. Divarlardan bizə bu nəslin ən görkəmli nümayəndələrinin – Nəsib bəyin, atası Yusif bəyin, qardaşı Həmid bəyin, digər qardaşı Əyyub bəyin, bu ailənin bir çox üzvlərinin qrup portretləri baxırdı. Həyətdə başdan-başa yaşıllığa qərq olmuş bağça vardı. Ətrafdan mayın əsrarəngiz gözəlliyinin, canlanmış təbiətin, unudulmaz 28 may qələbəsinin ətri gəlirdi.

Bu ünvana mən təxminən 10 il sonra 2008-ci il fevralın 23-də gəldim. Kiçik çillə təzə çıxmışdı. Sakit, lakin soyuq bir hava vardı. Bizi bu mülkdə yaşayan, iki böyük nəslin Yusifbəylilərin və Cuvarlıların varisi Rafat bəy Cuvarlı qarşıladı. Bu ünvanda o və qardaşı Nüsrət ailələri ilə yaşayır. Bütün günü axşamadək Rəfat bəylə söhbət edirik. Axşama yaxın şəhərə çıxırıq, onların qonşusu Bəhrəm də bizə qoşulur.

Rafat bəy söhbət edərkən ən çox öz nənəsi, Nəsib bəyin dost-doğma bacısı Xanım nənəyə istinad edir. Deyirəm ki, Xanım nənə bu qədər söhbəti nağıl etməsəydi Yusifbəylilər nəsli ilə bağlı bir çox şeyləri xatırlamaq çətin olardı. Xanım nənənin xatirələrindən:

"Atam Usuf bəy (yəni Yusif bəy) (1852-1921) dövrünün ən təhsilli adamlarından imiş. Onun atası Həşim bəy İrana getmiş və geri qayıtmamışdı. Anası Bəsirət xanım çox qoçaq qadın olub. Gəncədə ilk rus məktəbində cəmi yeddi nəfər şagird oxuyurmuş. Bunlardan dördü yəhudi, ikisi erməni, biri azərbaycanlı imiş. Həmin azərbaycanlı taleyin gərdişindən Usuf bəy olub. Məktəbin müəllimləri həftədə bir dəfə Tiflisdən gəlirmişlər. Beləliklə, Usuf bəy Gəncədə rus dilində ilk təhsil almış insanlardandır."

"1870-ci illərdə anası Bəsirət xanım oğlu Usuf bəyi Sankt-Peterburqa aparır. O vaxt hər adamı ali məktəbə qəbul etmirdilər. Bəsirət xanım ona nail olur ki, çar Aleksandrın qardaşı onları qə-

bul etsin. Knyazın köməyi ilə Usuf Sankt-Peterburq Universitetinin hüquq fakültəsinə daxil olur. Lakin qurtarandan sonra ona iş vermirlər. O məcbur olur ki, dairə məhkəməsində tərcüməçi işləsin".

Məhz bu ənənənin nəticəsidir ki, Yusif bəy də öz oğlanlarını oxutmuş, onlara yaxşı təhsil vermişdir. Əsrin əvvəllərində Yusif bəy dairə məhkəməsində pristav və s. vəzifələrdə çalışmışdır. O, Gəncədə ilk siyasi təşkilat quranlardan, "Difai" partiyasını yaradanlardan biridir. Yusif bəy həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş, 1914-cü ildə Gəncədə Kərpic zavodunun əsasını qoymuşdur. Məktub və digər sənədlərdən görünür ki, o övladlarını (istər Nəsib bəyi, istərsə də Həmid bəyi) pul və digər vasitələrlə təmin etmişdir. Yusif bəyin Nəsib bəyə məktubunu (bu məktub N.Şeyxzamanlının Nəsib bəy haqqında xatirələrində və Nazim Mustafanın məqaləsində də verilir) həyəcansız oxumaq mümkün deyil. Məktubdan görünür ki, o, Nəsib bəyi baş nazir olandan sonra da öz təsərrüfatına, həyat bacasına baxmamaqda məzəmmətləyir.

Nəsib bəy Yusifbəyli küçəsi 21. Bu ünvan bir çox tarixi hadisələrin şahididir. Nəsib bəy Şəfiqə xanım Qasprinskaya ilə evləndikdən sonra fasilələrlə bu mənzildə yaşayıblar. Son tarixi hadisələrdən biri Nəsib bəyin baş nazir olandan sonra bu evə qonaq gəlməsidir. Bu barədə onların qonşusu Sultanəli Sadıqov belə nağıl edirmiş:

"Nəsib bəy Yusifbəyli baş nazir olandan sonra dedilər ki, o, Gəncəyə gəlir. Bir vur çatdasın düşdü ki, gəl görəsən. Təbii ki, o, qatarla gəlirdi. Nəsib bəyi qarşılamağa çoxlu adam yığılmışdı. Vağzalda o dövrdə ətraf kənd və qəzalardan gəlmiş faytonların sayı-hesabı yox idi. Dəmir yolu vağzalında onun avtomobilini qatardan düşürdülər. Nəsib bəy öz avtomobilinə əyləşdi. Faytonlar da onun ardınca gəlirdilər. Hər birimiz bir faytonun arxasına minib küçəmizə gəldik. Vağzaldan evəcən küçələrə qiymətli gəbələr döşənmişdi".

Ata yurdunda, yəni 21 nömrəli evdə ən təsirli görüşlərdən biri Nəsib bəyin qızı Zöhrə xanımla əri Mirzə Göygölün 1969-cu



ildə Gəncədə olmalarıdır. Düzü mən elə bilirdim ki, hakimiyyət orqanları Mirzə Göygölə və Zöhrə xanıma Bakıya gəlməyə icazə vermiş, lakin Gəncəyə getməyə icazə verməmişdilər. Lakin Rafat Çuvarlı bu gəlişin baş tutduğunu və ancaq yüksək dairələrdə həll olunduğunu söylədi. Demə Mirzə Göygöl vətənlə, onun ən görkəmli oğulları ilə yaxından əlaqə saxlayırmış.

Cümhuriyyət Ensiklopediyasında (Bakı, Lider nəşriyyatı, 2004, c.1, s.414-415) Mirzə Göygöl haqqında verilmiş bəzi bioqrafik cizgilərdən:

Mirzə Məşədi Yusif oğlu Hacızadə (1897-1980) AXC parlamentinin qərarı ilə xaricə göndərilən yüz tələbədən biridir. Gəncə kişi gimnaziyasını bitirmiş, Xarkovdakı Novo Aleksandr İnstitutunun kənd təsərrüfatı və meşəçilik şöbəsində oxumuş, təhsilini davam etdirmək üçün Berlin universitetinə göndərilmiş, 1926-cı ildə Berlində doktorluq dissertasiyası müdafiə etmişdir. Lakin onun vətənə qayıtmaq cəhdləri baş tutmamışdır. Bir müddət Almaniyada seleksiyaçı alim kimi fəaliyyət göstərdikdən sonra Türkiyəyə dəvət olunmuş, 1961-ci ilədək Halkalı toxumçuluq stansiyasında çalışmış, ali məktəblərdə dərs demişdir. Hacızadə İstanbulda Nəsib bəy Yusifbəylinin qızı Zöhrə xanımla ailə qurmuşdur. M.Ə.Rəsulzadə, A.Ziyadxanov, C.Kazımbəyli, M.Vəkilov, N.Şeyxzamanlı və b. mühacirlərlə dostluq etmiş, evində müntəzəm toplantılar keçirmişdir. O, mütəxəssislər və ali məktəb tələbələri üçün 34 kitab və monoqrafiyanın, həmçinin 300-ə yaxın elmi məqalənin müəllifidir. Gəncədə bir çox yaxın qohumları repressiyaya məruz qalmış, o cümlədən anası həbs və sürgün həyatı yaşamışdır."

Məqalədə Mirzə Göygölün Türkiyəyə səfər edən bir çox mədəniyyət xadimləri ilə dostluq etdiyi, həmçinin maestro Niyazi ilə ailəvi əlaqə saxladığı, hətta Niyazinin dəvəti ilə 1968-ci ildə Bakıya gəldiyi, respublika alimləri qarşısında mühazirələr oxuduğu qeyd olunur. Lakin Rafat Cuvarlı onun Azərbaycana məşhur seleksiyaçı alim, bir müddət Azərbaycan KP MK-da birinci katib kimi rəhbərlik etmiş İmam Daşdəmirov tərəfindən dəvət olunduğunu qeyd etdi. Onu da dedi ki, Mirzə Göygölün ai-

ləsi ilə Gəncəyə getməsi üçün o, həmin vaxtlar SSRİ DTK sədrinin birinci müavini işləyən Sviqun vasitəsilə icazə alıbmış.

Nəsib bəy Yusifbəylinin Bakı ünvanı 1918-1920-ci illərdə Nikolay küçəsi 1 (hazırda İstiqlaliyyət küçəsi 21) olmuşdur.(qəribədir ki, Bakıda da Gəncədəki kimi evin nömrəsi 21-dir). O, bu ünvanda Xalq Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyski ilə yanaşı yaşamışdır. (Təəssüf ki, binanın fasadında Fətəli xan Xoyskinin barelyefi olduğu halda Nəsib bəy Yusifbəyliyə xatirə lövhəsi yoxdur). Azərbaycan Dövlət Tibb Universitetinə yaxın bir yerdə hazırda geniş və uzun bir küçə - Nəsib bəy Yusifbəyli küçəsi uzanıb gedir. Vaxtilə 7-ci Dağlıq küçəsi, daha sonra Leninqrad prospekti adlanmış bu küçə də Nəsib bəyin yarımçıq taleyi kimi qırıqdır. Belə ki, küçə Universitetin əraisi ilə kəsilmiş, bir kvartaldan sonra yenidən davam etməkdədir.

2007-ci ilin payızında respublika prezidenti İlham Əliyev televiziya ilə müsahibələrindən birində Tibb Universiteti ərazisinin altından küçənin davamı üçün yeraltı yolun məqsədəuyğun olduğunu söylədi.

Nəsib bəyin ayaq izləri haralara dəyməyib: Krım, Odessa, Xarkov, İstanbul, Moskva, Tiflis, Batum, Bakı... İllərlə vətəndən kənarda yaşasa da onun dəyişməz ünvanı Gəncə idi, Bakı idi, bütov Azərbaycan idi. O, doğma və əziz vətəninin müstəqilliyi uğrunda da şəhid oldu. Tale onu çox yüksəltdisə ömrünə də qıydı, imkanlarını açmağa, Azərbaycan tarixinin görkəmli siması kimi tam təşəkkülünə, özünü axıracan realizə və təsdiq etməyə imkan vermədi.

## Cuvarlılar

Yusifbəylilər nəsli Gəncənin bir çox məşhur nəsilləri (Abbaszadələr, Şeyxzamanovlar, Pişnamazzadələr, Xasməmmədovlar, Cuvarlılar və b.) ilə qaynayıb qovuşmuş, davamlı qohumluq əlaqələri yaratmışlar. Bunlardan biri Qarabağın Cuvarlı kəndindən çıxmış Cuvarlılar nəslidir. Yeri gəlmişkən cuvarlı adı S.Rəhimovun və İ.Hüseynov kimi yazıçılarda suçu, su bölüşdürən



mənasında işlədilmişdir. Lakin rus dilində "Qədim türk lüğəti"ndə cavar, cuvar sözü Mahmud Kaşğari lüğətində əsasən odun, tilişkə, köz mənasında izah edilmişdir.

Bu nəsildən çox məşhur simalar Mehdi bəy Cuvarlı, Məmməd bəy Cuvarlinski, Cavad Cuvarlinski, Çingiz Cuvarlı və b. Insanlar çıxmışdır. Əlbəttə, bu sırada birincilik Avropa təhsilli Mehdi bəy Cuvarlıya (1875-1922) məxsusdur. Mehdi bəy 4-cü kursadək Sarbonna universitetində oxuyub, lakin Bakı xeyriyyəçilərindən gələn vəsait kəsildiyindən təhsilini yarımçıq qoymağa məcbur olub. Lakin təhsilini bitirmək əzmi onu Tartu universitetinə gətirib çıxarıb. Amma Parisdə oxuduğu tibb fakültəsini baytarlıq ixtisası ilə əvəz etmək məcburiyyətində qalıb. Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, həm Avropada, həm də Rusiya universitetində etiqadca müsəlman olan şəxslərin oxuması təhsilə nəzarət edənlər üçün bir o qədər maraqlı deyildi. Buna görə də Mehdi bəy öz doğma Vəzirov soyadını Cuvarlinski kimi rusca səslənən soyadla əvəz etmişdi.

Mehdi Cuvarlı demək olar ki, Azərbaycanda Qərb ali təhsili almış ilk baytar həkimi idi.(ADR dövründə də ölkənin baş baytar həkimi olmuşdur). Azərbaycan Ensiklopediyasının X cildində M. Cuvarlı haqqında tərcümeyi-hal məqaləsi verilmiş və göstərilmişdir ki, M. Cuvarlı Tartu (o vaxt Yuryev) Universitetini 1907-ci ildə bitirmiş, 1907-1917-ci illərdə Qafqazda baytarlıq üzrə baş müfəttiş işləmiş, 1917-1920-ci illərdə Zurnabadda (Xanlar rayonu) taun əleyhinə ekspedisiyaya başçılıq etmişdir. Karyerasına Bakıda müəllimliklə başlayan, "Müsəlman dram artistləri" şirkətində fəaliyyət göstərən bu fədakar insan ömrünün sonunda da müəllimliklə məşğul olmuşdu.

O, ali təhsilini bitirib işləməyə başladıqdan sonra Gəncədə Yusif bəyin qızı Xanımla ailə həyatı qurmuş, bu nikahdan onun övladları dünyaya gəlmişdir. Bu övladların ən məşhuru Azərbaycan EA-nın həqiqi üzvü, Azərbaycan SSR və SSRİ Dövlət Mükafatları laureatı, SSRİ-nin fəxri energetiki Çingiz Cuvarlıdır. Yuxarıda qeyd ediyimiz bu ünvanda – Gəncə şəhəri, Nəsib bəy Yusifbəyli küçəsi 21 ünvanında doğulub böyümüşdür. Həmin bi-

nada Nəsib bəylə yanaşı Çingiz Cuvarlıya da xatirə lövhəsi vurulmuşdur. Doğulub böyüdüyü bu evə məhəbbəti o qədər çox imiş ki, o bəzən ezamiyyətdə olduğu ölkələrdən Bakıya deyil, birbaş Gəncəyə gəlirmiş.

Mən fəxr edirəm ki, 1970-80-ci illərdə işlədiyim Azərbaycan Ensklopediyasının Baş Redaksiyasında onunla görüşüb tanış olmaq mənə nəsib olmuşdur. Çingiz müəllim o vaxt ASE Baş Redaksiyasının üzvü idi və iş yerimizə tez-tez gələrdi. O hər tərəfi ov və yevlərin basdığı bir zamanda təkcə özünün orijinal və milli soyadı ilə diqqəti çəkmir, özünün geniş zəkası, biliyi, maraqlı söhbəti ilə müsahibini cəlb edirdi. Ə.Cavad haqqında məqalə, sonra kitab üzərində işlərkən onun Fizika İnstitutunda kabinetində də iki dəfə görüşmüş, xeyli söhbət etmişdik. Təəssüf edirəm ki, o söhbətləri təfsilatı ilə yazıb saxlamamışam. O xatirimdədir ki, Çingiz müəllim Əhməd Cavadı yaxından tanıdığını, onun Gəncədəki 21 saylı ünvana baş çəkdiyini daim xatırlardı.

Ən yüksək mükafatlara və fəxri adlara layiq görüldüyünə baxmayaraq Ç.Cuvarlı çox sadə, təvazökar və mədəni bir insan idi. O elə həyatının sonunacan da bu cür oldu, öz ləyaqət və şəxsiyyətini qorumağı bacardı.

Cuvarlılar nəslinin ən görkəmli nümayəndələrindən biri olan Məmməd Cuvarlinski Qaryagin (indiki Füzuli) rayonunun Cuvarlı kəndində 1902-ci ildə doğulmuşdu. İxtisasca müəllim və partiya işçisi olmuş, 14 il partiya sistemində çalışmış, Nuxa şəhər partiya komitəsinin birinci katibi, Azərbaycan SSR Xalq Maarif Komissarı olmuş, Azərbaycan KP MK aparatında işləmişdi.

Akademik Ziya Bünyadovun "Qırmızı terror" (Bakı, 1992) kitabında M. Cuvarlinskinin həbsi ilə bağlı verilmiş oçerkin (istintaq işi № 12493/33) bəzi məqamlarına diqqət yetirək.

M. Cuvarlinski Azərbaycan əksinqilabi milli mərkəzi ilə əlaqə saxladığına görə ittiham edilmiş, həbs olunması haqqında akt 14 aprel 1937-ci ildə təhlükəsizlik məmuru Sinman tərəfindən hazırlanmış, Xalq Daxili İşlər komissarı Sumbatov tərəfindən təsdiq edilmişdir. Lakin bu zaman o, Moskvaya respublika rəhbərliyindən şikayətə getmiş, elə Moskvada olarkən, təhlükəsizlik orqanları tərəfindən həbs edilmiş, Butırka həbsxanasına salınmış və həmin il iyulun 8-də xüsusi mühafizəçi ilə Bakıya gətirilmişdi.



Keçmiş maarif komissarı və partiya xadiminin işini Qriqoryan, Sinman, Şer aparmış, K.Musatov, Mədət Həsənov, Mustafa Mustafayev, İ.M.Krotkov ona işgəncələr vermişlər. Ümumən M. Cuvarlinski ən ağır işgəncələrə məruz qalmışdı. Azərbaycan SSR XDİK-in keçmiş əməkdaşı S.S.Zıkov 4 dekabr 1954-cü ildə verdiyi ifadəsində demişdi: Xoren Qriqoryanın köməkçisi Şerin keçmiş maarif komissarı Cuvarlinskini necə döydüyünün mən özüm şahidi olmuşam. Bu barədə Qriqoryana danışdım, lakin Cuvarlinskinin döyülməsi haqqında verdiyim xəbəri Qriqoryan gülümsəməklə qarşıladı".

Bu görkəmli insana dəhşətli işgəncələr verildiyini digər bir təhlükəsizlik işçisi İ.M.Krotkov da təsdiqləmişdi. M. Cuvarlinski Moskvada da, Bakıda da dəfələrlə dindirilmişdi.

İstintaq işində M. Cuvarlinskinin 1935-ci ildə Ruhulla Axundov, 1936-cı ildə isə Mikayıl Hüseynov tərəfindən əksinqilabi millətçi təşkilata cəlb edilidiyi haqqında bir-birinə zidd ifadələr, İ.Stalinə, G.Malenkova, A.Andreyevə və başqalarına göndərilməsinə macal tapmamış məkrubları vardır.

1937-ci il sentyabrın 7-də Şer işi yekunlaşdırdı və Azərbaycan SSR Cinayət Məcəlləsinin dörd maddəsi (64, 69, 70, 73) ilə ona ittiham irəli sürdü. Bu maarif xadimi silahlı üsyan yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaqda, əksinqilabi təşkilat rəhbəri olmaqda, ziyankarlıqda və s. uydurma ittihamlarda təqsirli bilinirdi. 1937-ci ilin 12 oktyabrında keçirilən məhkəmə 15 dəqiqəyə başa çatdı və Məmməd İsmayıl oğlu Cuvarlinski ən ağır cəzaya – güllələnməyə məhkum edildi. Elə həmin gecəsi, 13 oktyabra keçən gecə hökm yerinə yetirildi. Onunla birlikdə güllələnənlər sırasında Azərbaycanın görkəmli ziyalıları – M.K.Ələkbərli, H.Zeynallı, Əhməd Cavad, Xalid Səid Xocayev, B.Çobanzadə və b. var idi. Gəncədə bir yerdə oxuduğu Əyyub Xanbudaqov, İdris Axündzadə də 35-ci ilin qurbanı oldular.

1955-ci il avqustun 3-də SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası özünün 12 oktyabr 1937-ci il tarixli qərarı ləğv etdi. M. Cuvarlinskiyə bəraət verildi. Haqq öz yerini tapsa da amma çox gec idi. Məmməd Cuvarlinski cəmi 37 il yaşadı.

Kitabların birində repressiya olunmuş digər Cuvarlılar haqqında da məlumat var. Budur onlardan biri: Cuvarlinskaya Çiçək Cümşüd qızı. 1907-ci ildə Qaryagin (Füzuli) rayonunun Cuvarlı kəndində doğulmuşdur. Evdar qadın idi. Ailə tərkibi: Fikrət - 9 yaş, Oqtay – 5 yaş, qızları Ofelya - 2 yaş, Paşa - 1 yaşında.

Həyat yoldaşı Cuvarlinski Gülmalı Rza oğlu (1902) Kirovabad MTS-nin direktoru olmuş, 25 iyul 1937-ci ildə əksinqilabi-millətçi təşkilatın üzvü kimi tutulmuşdur.

5 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası tərəfindən əksinqilabi-millətçi pantürkist təşkilatın üzvü kimi I kateqoriya ilə güllələnməyə məhkum edilmişdir.

Cuvarlinskaya Çiçək Cümşüd qızı SSRİ MİK-in 4 iyul 1934-cü il qərarına əsasən *vətən xaininin həyat yoldaşı kimi* 24 mart 1938-ci il qərarı ilə məsuliyyətə cəlb edilmişdir.

Azərbaycan XDİK-in 20 mart 1939-cu il qərarına əsasən günahı olmadığı üçün Çiçək Cümşüd qızı Cuvarlinskayanın işinə xitam verilmişdir. (Mənbə: Ş.Məmmədova. Anaların fəryadı, B.: Gənclik, 2006, səh. 95-96.)

Cuvarlı nəslinin sonrakı nümayəndələri də Yusifbəylilər ocağında böyümüş,təlim-tərbiyə almışlar. Zili Cuvarlı öz övladlarına ali təhsil vermiş və onlar həyatda öz yerlərini tutmuşlar. 1937-ci il Cuvarlılardan Məmməd müəllimi aparsalar da Nüsrət adlı bir gənc onun əvəzinə gəldi. Nüsrət də müəllim oldu, biologiya müəllimi kimi məktəblərdə dərs dedi, hazırda təqaüdçüdür.

1998-ci ildən tanıdığım Rafat Cuvarlı ömrünü nəqliyyat işinə həsr edib. O, 1939-cu ildə doğulub, adı da İsmayıl Qasprinskinin böyük oğlu Rifatın (Refatın) adından qoyulub. Uzun müddətdir ki, Gəncədə nəqliyyat işçiləri həmkarlar ittifaqının sədridir. Yusifbəylilər, Cuvarlılar nəslinin təbliği sahəsində səmərəli



iş aparır, məqalələr yazır, sənəd və xatirələr toplayır, mədəni tədbirlərdə fəal iştirak edir.

Bir-iki kəlmə bu ailənin digər üzvü Tumruz xanım Cuvarlı haqqında da demək istəyirəm. O, qardaşı Rafatdan üç yaş kiçikdir. Lakin göstərdiyi ictimai-siyasi fəaliyyət siqləti baxımından çox dolğundur. Tumruz xanım Gəncə Pedaqoji institutunu və Bakı Partiya Məktəbini bitirib. 1963-cü ildən başlayaraq Gəncə Pedaqoji İnstitutu komsomol komitəsinin katibi, Gəncə şəhər komsomol komitəsinin ikinci və daha sonra birinci katibi, Bakı şəhər Oktyabr rayon Partiya Komitəsində təlimatçı, şöbə müdirinin mavini və s. vəzifələrdə işləyib. 1991-ci ildən Azərbaycan Xalq Təhsili Nazirliyi aparatında müxtəif vəzifələr tutub. Hazırda da həmin nazirlikdə çalışır, öz zəngin təcrübəsindən gənc nəslin tərbiyəsində məqsədyönlü şəkildə istifadə edir.

Cuvarlılar nəsli qol-budaq atır, şaxələnir, böyüyür.

# II NƏSİB BƏY YUSİFBƏYLİ

## 1. Hekayə, məktublar, məqalələr, Parlamentdəki çıxışlar, bəyanatlar

### Təslim
(Hekayə)

**1**

İran şahlarından səxavət və ədaləti sayəsində Cənnətməkan ləqəbi qazanmış Şah Abbasın asarından bulunan böyük məsçid... Məsçidin cəsamətinə layiq hövli... Bir tərəfdə yeni yapılmış on iki otaqlı və böyük pəncərəli bir bina... Digər tərəfdə Şah Abbas dövründən qalma qaranlıq, rütubətli bir qaç hücrə... Yeni binanın təzə, müəttər bahar havasından istifadə üçün açılmış pəncərələrindən böyük xəritələr, nəbatata, heyvanata, təşhirə aid lövhələr, sıralar, yazı və rəqəm taxtaları görünüyor...

Qaranlıq, ratib hücrələrin kirli, küçük pəncərələrindən bir şey görmək qabil deyil, ancaq yarıaçıq bulunan qapılarından pislik, çöplük içərisindən kirli, paslı samavarlar, yağlı piti küpələri, kirli çamaşırlar, qırıq su qabları igrənc bir surətdə nəzər-diqqətə çarpıyor...

Yeni bina tərəfindəki hövlidə yeddidən on yeddi yaşlarına qədər 300 miqdarında məktəb çocuqları böyük tənəffüsdən istifadə ilə pirnəşvə oynayırlar, qoşuyorlar, qonuşuyorlar. Orta boylu sivil əlbisəli 25 yaşında kosaca bir əfəndi çocuqlara nəzarət ediyor, işbu cəmiyyəti-məsumənin asayişinə çalışıyor, onları təhlükəli oyunlardan mən ediyordu.

Kirli hücrələrin bir-ikisində məadə cümləsi boş idi. Çünki oraları işğal edən mədrəsə tələbələri və müdərrisləri xeyrata getmişlərdi. Açıq olan hücrələrin birində əski üsul məktəbin müəllimi açıq pəncərə qarşısında minbər üzərində oturmuş uyuyur kibi görünüyordu. Pəncərənin önündə yeni məktəb üçün yapılmış yeni binadan fəzla qalan qumlar və kirəçlər üzərində 20-yə qədər çocuq oturuyordu. Bu çocuqlardan bəzisinin əlində çərəkə (həftik), bəzisində Qurani-Kərim olduğu halda sallana-sallana və bağıra-bağıra oxuyurlardı. Bir qaç saniyələr davam edən tranpet səsi eşidildi.

Yeni binanın önündə şad və xürrəm oynayan çocuqlar oyunlarını buraxıb tələş ilə içəriyə, siniflərə doğru qoşuyorlar. Beş dəqiqə sonra ikinci bir tranpet müəllimləri dərslərə dəvət ediyor. Müəllimlər müəllim otağından çıxıb siniflərə giriyorlar... Pəncərələrdən ara-sıra başlarını çıxarıb müəllimləri bəkləyən çocuqlar: - əfəndi gəliyor, əfəndi gəliyor - deyə bir-birlərinə doğru qoşurlar...

Qumlar, kirəçlər üzərində bağıran çocuqlar müəllimlərini uyumuş zənn edərək yavaş-yavaş sükuta başladılar. Molla Mahmud (müəllim əfəndinin adı Mahmud idi) əlindəki uzun nar ağacı çubuğilə pəncərənin taxtasına bir dəfə vurdu. Çocuqlar ürkərək əvvəlkindən daha ziyadə bağırmağa və sallanaraq dərs oxumağa başladılar. Əfəndi dəxi əvvəlki vəziyyətini aldı. Molla Mahmud orta boylu şişmanca, qafası boyu ilə tərs-mütənasib dərəcədə böyük, bəyaz çöhrəli, mavi gözlü 50 yaşlarında bir adam idi. Dəs-dəgirmi xınalı saqqalı, bir mucibi-sünnət kəsilmiş bıyıqları, tər-təmiz təraş edilmiş başı onun müqəddəs, pakizə və Allah bəndəsi bir adam olduğuna şübhə bıraxmayırdı.

Əfəndi gözləri qapalı, uyumuş kibi görünüyordu. Amma həqiqətdə uyumayır idi. Dərin fikirlərə dalmış idi. Əcəba, nə düşünür idi? Buna cavab vermək müşküldür. Çünki fikrin sürəti-intiqalına bir hüdud yoxdur ki, cavab verə biləlim!

Hər kəs düşündüyü vaxt, bir saniyə yox, daha az vaxtda, bir saniyənin bində biri qədər az bir zamanda yerdən gögə, ixtiyarlıqdan gəncliyə, dünyadan axirətə, bahardan güzə, yazdan qışa nəqli-fikr edir.

İşdə müəllim əfəndi dəxi fikir qanadlarilə qanadlanıb əbədiyyət ilə fanilik arasında uçuyordu. Bununla bərabər son vaxtlarda onu pək çox işğal və halını pərişan edən fikirdən ayrılamıyordu.

Tələbələrin əksilməsi ilə həyati-maddiyyəsinə urulan zərbə ona maziyi düşündürüyordu. Ah, nə gözəl günlər idi o günlər?! Şimdi yigirmi çocuğu keçəməyən bir-iki hücrədə əvvəlcə yüzə qədər çocuq ona hər ay yüz rublə təmin ediyordu. Bayramlarda gələn hədiyyələr, kəllələrlə şəkərlər, süpürgə parəsi, su parəsi, daha nələr, daha nələr... Sonra şövkəti-mazisi göz önünə gəliyordu. Qoca bir ordu qarşısındakı sərəskər idi. Kimsə hökm və nüfuzinə qarşı ağzını açıb bir söz söyləyəməzdi. İstədiyini dögər, istədiyini sögər, istədiyini sevərdi. Hər həftə beş on dəgənək qırardı. Ah, o günlər, o günlər!..

Burada müəllim əfəndi sanki əski sərəskərlik ovziyyətilə uzun dəgənəgini bir qaç dəfə salladı. Sonra önündəki taxtaya uraraq şappıldatdı. Səslərini azacıq yavaşıtmış çocuqlar yenə ürkərək var qüvvətlərilə sallanmağa və bağıra-bağıra oxumağa başladılar. Müəllim əfəndi yenə fikrə daldı. O sərəskərlik zamanında axşamüstü məktəbdən çıxdığı vaxt Saşaya təsadüf edər, onun gözəl yanaqlarına baxıb dərin-dərin ahlar çəkərdi... Saşa şimdi yenə o gözəl əndamı ilə qarşısına gəlir, onu hər vaxt xəyalında təcəssüm etdirərək düşünür və kəndisini onunla həmbəzmi-vüsal dərəcəsinə gətirərək tələzzüz edirdi...

Ağ bir köks, o köksü təzyin edən bir çift nar... Daha... Daha... Xəyalının ən tatlı yerində müəzzəb bir sinək üzərinə qondu, isir-

di. Sinəgi qovmaq üçün əlini salladı. Lakin bu hərəkət onun lövheyi-xəyalını yıxdı, o tatlı xəyaldan oyandırdı. Sinəkin müəzzəbligi şimdiki halına nə qədər pərişan olduğunu düşündürdü. Əski vaxtlarda hər kəsi rahətsiz edən bu murdar sinəklərdən o asudə qalıyordu. Çünki yüz tələbəsinə, hansı ki, daha çox sinək tutarsa onu daha əvvəl azad edəcəyini söylədiyi vaxt tələbələr bu həşəratdan heç birisini buraxmazlardı...

## 2

Molla Mahmud hər nədən isə bu gün çox yorğun idi. Həm o qədər yorğun idi ki, soyunmağa belə uşəniyordu... Ancaq pəncərənin qarşısında bulunan taxta səd (çaharpayi) üzərində rəxavətkaranə sərilmişdi. Vücudi ilə bərabər dırnağı də yorulmuş kibi görünüyordu... Xeyli sənələrdən bəri müəllim əfəndi məktəbdən çıxınca doğru kəndi evinə gedərdi. Amma bu gün məktəb azadından sonra olduqca dolaşmışdı. Nələrə getdiyi və kimləri qarşıladığı sorulsa layiqilə cavab verəməzdi... Bütün gün fikir dəryasında üzüyordu... Bəzən şu dəryanın üzərinə hücum edən dalğaları arasında boğulacaq, məhv olacaq kibi oluyordu. Şimdi az-çox kəndinə gəlmişdi. Xəfif bir təməvvüclə oynaşan şu fikir dalğalarının arasında sallanıyordu.

Havada lətif bir bahar mülayiməti var idi. Xəfif rüzgar açıq pəncərədəki pərdələri titrədərək içəri giriyordu... Ara-sıra rüzgar pərdələri qaldırıyor... Yek digərini qovalayan əmlaci-hava içəridə bulunan əşya ilə bərabər müəllim əfəndinin üzünü, gözünü, saqqalını birər-birər oxşayırdı. Müəllim əfəndinin gözləri süzülmüş, uyquya varmış kibi idi.

Taxta səddin qatılığı vücudini incitdigindən müəllim əfəndi vəziyyətini dəgiştirməgə məcbur oldu... Çarpayı öküz arabası kimi ğıcırdamağa başladı. Bu ğıcırtı müəllim əfəndinin dimağını dələsək kibi rahətsiz etdi və nədən isə məktəbdən çıxdığı vaxt axundun onu kəndi hücrəsinə dəvət edərək söylədiyi sözləri dərxatir etdi və pürhiddət yerindən qalxdı. Vücudinə, tərbiyə və təbiətinə yaqışmayacaq bir əsəbiyyətlə soyunmağa və dodaqları arasında bir şeylər mırıldanmağa başladı.



Bu sırada da qoltuğu altında bir taqım dəftərlər və kağızlar sıqışdırılmış bir gənc içəri girdi. Bu gənc müəllim əfəndinin oğlu idi. Babasına qətiyyən baxmayaraq pəncərə önündə duran masaya yaqlaşdı. Qoltuğu altında bulunan dəftəri, kağızları masa üzərinə qoydu və kəndi-kəndinə: "Zalımlar: bütün gün az çalışırmışam gibi orada da rahət buraxmayırlar" – deyə söylənərək masa yanında duran ayaqlı sandalyaya oturdu, kağızları qarışdırmağa başladı.

Molla Mahmudun oğlu 24 yaşlarında idi. Çocuqlarla əqrəbalardan biri onu gimnaziyaya vermişdi... Üçüncü sinifdə ikən babası oradan çıxarmışdı... O vaxtdan bəri məhkəməyə dəvam edər və igirmi rublə maaş alıyordu.

İşdə şimdi şu gənc yeməkdən əvvəl işini bitirmək məqsədilə yazıya tutundu. Müəllim əfəndi tamamən soyunmuş idi. Başında kənarları yağlanmış püskülsüz bir fəs, çılpaq ayaq oğlunun oturduğu yerə yaxlaşdı... Əliylə oğlunun oturduğu sandalyayı tutaraq, digər əlini masa üzərinə qoydu. Gənc adam babasından şimdiyə qədər görmədiyi böylə bir hərəkətə qarşı təəccüb etdi... Qələmi masa üzərinə buraxaraq babasının üzünə baxdı. Müəllim əfəndi: "Oğlum! Artıq bezmədin, yorulmadınmı? Ortalıq getdikcə qaranlıqlaşıyor!" – deyərək bir xeyli sükunət etdi və daha bir şeylər söyləyəcək, amma nasıl başlayacağını bilməyən adamlar kibi öskürdü, zorakı əsnədi. Əliylə kağızları qarışdırdı.

Gənc adam bir şey dinləməgə hazırlıq göstərən bir vəziyyətlə oturuyordu... Bir-iki saniyə bu minval üzrə qaldılar... Gənc sözə başladı:

- Baba nasıl? İşlər nə yoldadır?
- Oğlum fəna!.. Həm pək fəna!

Məktəbimdə ancaq bir qaç çocuq qaldı... Yalnız bumu? "Əlim Allah", bu gün əqlimi qeyb edir, çıldırır, dəli-divanə oluram dedim.. Böyük axund məni hücrəsinə dəvət etdirmişdi. Getdim. Bilirmisən bana nə kibi bir təklifdə bulundu? Bana diyor (burada müəllim əfəndi bir az udqundu: "La hölə və la qüvvətə illa billah" – deyib sözünə davam etdi): Sənin məktəbin bundan böylə çox davam edəməyəcək və bu gün-yarın kəndi-kəndinə qa-

panacaqdır. Gəl sən də bizim mədrəsə müəllimlərindən üsuli-cədid üzrə bir az dərs gör. Sonra açacağımız üsuli-cədid məktəblərindən birinə səni tolğunca bir maaşla müəllim təyin edəriz...

- Sonra?

- İnsafmı yahu! Bən otuz sənədən bəri müəllimlik edəyim, tam on beş sənə ərəbcə dərs oxuyayım da, şimdi böyük axund önümə çıxıb bəni igirmi-igirmi iki yaşlarındakı çocuqlara şagird etməyə qalxışsın... Həm nasıl çocuqlar.. Nə oruc tanırlar, nə namaz!

- Bana qalırsa, babam, böyük axundun təklifi fəna degildir.

Bu soz üzərinə müəllim əfəndi kəndisinə qurşun isabət etmiş kibi geri çəkilərək boğula-boğula:

- Səni vaxtilə rus məktəbinə verdigim üçün Allah başıma bu bəlayı verməyirmi? Allahın lənəti bəni bu əzab, müsibətə uğradıyor.. Əvət! Başıma gələn şu bəla, bu müsibətin həpsi sənin üzündəndir. Axundun təklifi fəna degil ha! Allah bəlanı versin! Nasıl olur da şu tağılası mədrəsə müəllimlərinin, banilərinin və buna müavinətdə bulunanların cümləsi kafir olduqlarını, oraya, o mənfur məhəllə çocuq verib oxudanların xilafi-şər bir hərəkətdə bulunduqlarını Xorasan müctəhidlərindən cəlb etdiyim fitva üzərinə hər bir məclisdə, hər bir cəmiyyətdə, hətta bazar ortasında iddia edib tutduğum halda axundun təklifini qəbul edəyim. Allah o günləri bana göstərməsin!

Müəllim əfəndi kəndisinin həqiqətən dindar və mütədəyyin olduğunu isbat etmək üçün olmalıdır ki, pək ziyadə bir əsəbiyyətlə, olanca hiddətlə qollarını sığayıb abdəst almağa hazırlandı.

Gənc adam cavab vermək istədi. Fəqət vaz keçdi. Yazısıyla məşğul oldu.

### 3

Son baharın ilk günləri idi. Ətrafı tərk etmiş günəşin titrək son ziyası yalnız yüksək minarələrin yaldızlı aləmlərindən ayrılamayırdı. Sanki mövqeyi-biləndidən ətrafdakı həyati-pürməlali seyr edən və qüssədən boynunu bükmüş görünən şu aləmlərə təsəlli vermək istiyordu...Qucaqlar, öpər, bir daha qucaqlar, bir daha öpər kibi görünüyordu.

Yavaş-yavaş ətraf qaraldı. Minarələrlə yüksəklikdə rəqabət edən əsrlərin və pək çox vüquatın qeydsiz şahidləri olan çinar ağacları üzərində gecələmək üçün toplanmış sürülərlə qarğaların murdar bağırtıları ətrafı çınlatıyordu. Bu mövsümə məxsus ılıq rüzgar əsiyordu. Bir-birilərilə qucaqlaşmış dalların uğultusu, budaqların çırpıntısı, ələ bənzər böyük yarpaqların xışıltısı qarğaların səslərilə bam dutuyordu...

Erkəklərin məsçid hövlüsündən çəkilmələrindən istifadə etmiş məhəllə qadınları məsçid önündəki hovuzdan birər-birər su qablarını doldurub omuzlarına alaraq gediyorlardı...

Əski hücrələrdə sakin əski mədrəsə tələbələrindən bəzisi samavarlarını üfləyir, bəzisi pişirəcəki yeməklə məşğul idi. Bunlardan biri ortalığın qaranlığından, qarğaların qarıltısından istifadə edərək kəndisinin mərsiyəxanlığa istedadını təcrübə üçün olmalıdır ki, qüvvəti yetdiyi qədər bağırıyor, digəri hovuz başında çamaşır yıqıyor. Bir qaçı hücrələrin birinə toplanıb söhbət ediyorlar... Günüzin eşidilməyən gurultular, ədəbsizcə qoparılan qəhqəhələr bu söhbətin ülumi-diniyyəyə, ibadət və etiqadatə heç bir münasibəti olmadığına şübhə burakmıyordu...

Hücrələrdən pəncərə pərdələri endirilmişləri də vardı... Halbuki hava daha sıcak idi. Əcəba necün? Ah! Vaxtilə mərkəziülum və fünun olan və İbn Rüşdlər, İbn Sinalar yetişdirən, fəqət bu günkü gündə qeyri-qabili-islah bir surətə girmiş bulunan şu mübarək mədrəsələrin lal və əbkəm divarları nələr eşitməmiş nələr görməmişdir...

Məsçidin sol tərəfindəki yeni mədrəsənin möhtəşəm binası ertəsi günü millətin ruhi ədd oluna biləcək üç yüzi mütəcaviz tələbələrini ağuşuna alıb təlim və tərbiyələrinə daha eyi məşğul üçün rahətlənir, uyuyur kibi görünüyordu... Qaranlıq böyük pəncərələri sağ tərəfdəki həyati görməmək üçün yumulmuş gözlərə bənzəyirdi... Yalnız məsçidin böyük qapısı hizasında dörd pəncərədə işıq vardı. Burası müəllim odası idi. Bu gün yeni mədrəsənin şura günü olduğundan ta axşamdan məzkur odada və qari-

dorda lambalar yaqılmışdı, hətta hər vaxt üçün ilk axşamdan kilidlənməkdə olan məsçidin böyük qapısı bu münasibətlə açıq buraxılmışdı.

Hər vaxt olduğu kimi müəllimlərdən Nail əfəndi hər kəsdən əvvəl gəldi. Bastonunu qaridorda bulunan xidmətçiyə verdi. Daha kimsə gəlmədimi – deyə sordu. Cavab bəkləmədən müəllim odasına daxil oldu.

Nail əfəndi qısa boylu, seyrək saçlı, incə, nazik vücudlu, ağır təbiətli vəzifəşünas bir gənc idi. Bir qaç sənədən bəri mədrəsədə tarix və coğrafiya müəllimligi ediyordu. Fəqət bu qaç sənə zərfində Nail əfəndinin həyati-xüsusiyyəsinə kimsə həqqilə vaqif olmamışdı. İstanbulda doğmuş, orada oxumuş, fərar etmiş. Bakıya gəlmiş, bir xeyli vaxt "İrşad" qəzetəsi idarəsində çalışmış, nəhayət oradan mədrəsə üçün müəllimligə dəvət edilmiş... İştə bu qədər, *ziyadəsini kimsə bilməzdi...*

Nail əfəndi qapı yanında bulunan masaya yaxlaşdı. Ayinəyə baxdı, yaxalığını düzəltdi. Otağın həman yarısını qaplamış olan böyük masanın yanına varıb kəndinə məxsus çəkməcədən dəftər, kağız-filan çıxardı. Əvvəlki şuranın qərarlarını gözdən keçirdi. Kitabət vəzifəsini ifa üçün kağız və qələm hazırladı (mövmi ileyh şura katiblik vəzifəsini də yapıyordu). Divara asılı böyük saata baxdı. İctima üçün daha igirmi dəqiqə qədər vaxt var idi. Masa üzərində nizamla düzülmüş qəzetələri qarışdırıb gündəlik "Həqiqət" qəzetəsini buldu. Sabahilən Əhməd bəy Ağayevin İstanbuldan yazmış olduğu bir məqaləsini görmüşdü. İştə o məqaləyi oxumağa məşğul idi...

Qırmızı bir örtü ilə örtülmüş şu böyük masanın üzərində mükəmməl yazı taqımı, mərhum Sami bəyin "Qamusül-ələm"ı, "Qamusi-türki"si, Səddad bəyin rusca-türkcə lüğəti, biri türkcə, digəri rusca olaraq iki qitə küreyi-mücəssəmə, qəzetələrdən "Həqiqət"dən maəda "Səda", "Tərcüman", "Vaxt", "Yıldız", "Bəyanül-həqq", "İdil", "Nur", "İqdam", "Russkoe slovo" qəzetələri, jurnallardan "Rəsmi kitab", "Şura", "Molla Nəsrəddin" var idi. Müəllim odasının divarlarında böyük xəritələr, həndəsə və hifzüs-səhihəyə mütəəlləq bir taqım alat və bərabər heyəti-müəlliminin və çocuqların fotoqrafiyaları dəxi asılı idi. Müəllim odasının dörd pəncərəsi var idi. İncə tül pərdələrlə yarı qapalı pəncərələr içərisində çiçək maraqlısı mübəssir əfəndinin mərifətilə tərtib olunmuş gül və çiçək vazaları bulunuyordu.

Ağayevin məqaləsi Nail əfəndiyi o qədər məşğul etmişdi ki, rus lisanı müəllimi Rza bəyin içəriyə girdiyini belə sezməmişdi.

Rza bəy: "təbii, Nail əfəndi hər kəsdən əvəl gəlmişdir" - dedi.

- Sənmisən, Rza bəy? Nasıl girdin, duymadım belə?

Rza bəy şapqasını çıxardı, məndillə alnının tərini sildi. Sıcaq deyərək qəzetələrə doğru təvəccöh etdi. Əlinə aldığı "Russkoe slovo" qəzetəsinin ötəsinə-bərisinə baxdı, buraxdı. "Vaxt" qəzetəsini əlinə aldı və dedi:

- Bu gün Yusif Aqçurinin məktubu var. İstanbulda cərəyan edən vüquartı həqqilə anlamaq istəyirsəniz Aqçurinin məqaləsini oxumanızı tövsiyə edərim.

Nail əfəndi dodaqları arasından bir şeylər mırıldandı... Hər ikisi qəzetələrini mütaliəyə daldılar.

Nail əfəndi oxuduğu məqaləyi bitirdi, qəzetəyi buraxdı. Bir çiğara yaqdı. Qollarını pantalonunun ciblərinə soqdu. Oturduğu sandalyanın arxasına yaslandı... Çığarasını bir-iki kərə çəkərək tüstülətdi və kəndi- kəndinə *söylər kibi:*

-Yahu! Bu qədər də çalışılırmı? Sabahilən erkəncə qalx, mədrəsəyə qoş, saat ikiyə qədər dərs ver. Bir az rahat yemək yeyəlim deyərkən mübəssir əfəndi gəlir, saat dördə nümunəlik dərs olduğunu xəbər verir, oradan nümunəlik dərsə qoş, bir saat dərs dinlə... Həm də nasıl dinləyiş? Bütün vücudinlə! Bundan başqa olamaz ki? Məqsəd mədrəsənin üsuli-tədris təliminin irəlilətmək degilmi? Sonra dərsin müzakirəsinə başlanır, ən azı iki-üç saat vaxt istər. Təbii burada yorğunluq filan unudulur... Siniflər oynar. Mübahisələr uzanar... Sonra da müdir əfəndi qalxar: "Əfəndilər! Bu günki şurayı unutmayalım, saat səkkizə təyin edilmişdir... pək mühüm bir məsələ var" - deyir.

- Aman! Bu gün şuradamı var?

- Var ya! Hətta kəndim belə şura dəftərinə yazıb həll edilməsini tələb eylədiyim bir qaç məsələ vardır.

Bundan maəda əlifba qomisyonu əzasıyız ya! Bügünkü şuraya qomisyon qərarlarını ərz etmək üçün intixab edilmişiz. Şura şübhəsiz saat 11-ə qədərə davam edəcəkdir... Bitdimi, zənn ediyorsunuz? Deyil, əfəndim! Yarınki dərsləri hazırlamaq gərəkdir. Dərs planı tərtib etmək lazım...

Rza bəy qəzetə ilə məşğul idi. Başını qaldırdı, Nail əfəndiyə xitabən:

- Ayıl! Nə uyuyursan? Dəliriyormusan?

- Dəlirməzmiyəm! Sənə başına qədər böylə gedərsə, vallah dəlirərəm. Rica edirəm, Rza bəy, etməyin, bir az bizə də acıyın.

- Bənmi acıyayım? Səninlə bərabər bən də çalışmıyormuyum?

- Şübhəsiz, cümləmiz çalışıyoruz.

- İştə sana şura dəftəri, al yaz! Bana neçün söylüyorsan? Şuranın qərarı hər kəs üçün qanun olduğunu bilirsən.

- Öylə ya! Biliyorum. Ancaq arzu etdigim şeyi şuraya qəbul etdirəcəgini də biliyoram.

Rza bəy hiddətlənərək ayağa qalxdı.

- Heyəti-müəllimindən bulunduğumdan dolayı kəndimi təhqir edilmiş zənn edərim, həm təkrar edirəm ki, mədrəsədə şurayi-müəllimin fövqində heç bir qüvvət yoxdur - dedi. Bir müddət aşağı-yuxarı gəzindikdən sonra:

- Əvət! İnkar etməm, bənim bəzi təkliflərimi şura qəbul ediyor. Ancaq zənn ediyorum ki, bənim təklifim olduğu üçün degil, münasib gördügü üçün qəbul ediyor. Mədrəsəmizin təgənnisinə səbəb ola biləcək bir təklifim vüqu bulsa qəbul olunurmu, zənn edərsən?

- Əlbəttə, olunmaz!

- Öylə isə?

- Dur! Allahı sevərsən dur! Bir dəfə mədrəsədə çəkdiyimiz bunca zəhmətə insan təhəmmül edə bilirmi, söylə bakayım?

- Əvət, qolay degildir. Zəhmət çoxdur.

- Bununla bərabər, bana aid vəzifələrimin ifasından bir kərə olsun çəkindimmi?



- Yox! Biləks bu günkü kibi hər işimizə hər kəsdən əvvəl qoşar gəlirsən. Bunu qətən inkar edəməm.

- Demək ki, bən şimdiyə qədər vəzifəmə aid zəhmətlərin heç birindən qaçmadım, həp hüsnü-surətlə icrasına çalışdım. Fəqət bundan böylə artıq bu fövqəl-təhəmmül zəhmətlərə qatlanamayacağım - deyirəm. Mədrəsənin də irəlisini düşünüyorum.

- Pək əla! Şimdi də sən bana söylə baqayım! Mədrəsəmizdə gündə 4-5 dərs vermək vəzifəmizdir.

- Şübhəsiz!

- Keçən sənədən bəri verdigimiz nümunəlik dərslər lazımmıdır, degilmi?

- Əlbəttə lazımdır. Hətta kəndim şu sənə zərfində nümunəlik dərslərdən bir xeyli istifadə belə etdim.

- Nümunəlik dərsləri bila müzakirə ifa qabilmidir? Xayır!

- Şurayi-müəllimin bihudəmi intiqad ediyor?

- Bihudə degil! Çünki mədrəsənin daxili, xarici bütün işlərini idarə və tövsiyə üçün intiqad etməkdədir.

- Öylə isə bunlardan hankısını ləğv etmək istiyorsan?

- Bilməm ki! Başqa millətlər nasıl yapıyorlar?

- Aman, bəradər! Bizlər başqa millətlərlə qiyas oluna bilirmiyiz? Əvvəl əmrdə digər millətlərin müəllimləri bizlərdən daha müntəzəm, daha mükəmməl məktəblərdən ikmali-təhsil etmişlər, üsul-tədris oxumuşlardır. Bu xüsusda nöqsanları olursa qolaylıqla islah edə bilirlər. Pedağojiyə dair binlərlə əsərləri vardır. Bundan maəda lisanları zəngin, əlifbaları mükəmməl, imlaları müəyyən. Məmafih bu xüsuslarda dəxi qüsurları olursa islahı üçün aqademiyaları, əncümi-danişləri və mütəxəssisləri vardır. Məktəblərinin tərəqqisini dövlət düşünüyor, maarif nəzarəti baqıyor, millət qeydinə qalıyor. İdareyi-məhəllilər, idareyi-bələdiyyələr, mütəəddin cəmiyyətlər təşəbbüsdə bulunuyor...Bizlər... Zavallı bizlər! Bu vəzifələrin həpsini kəndi öhdəmizdə bulunduruyoruz, bu babda bir çox dəfələr söyləmiş olduğum sözləri təkrar edəcəyim: Şu mədrəsədə, şu müqəddəs binada xidmət etmək üçün yalnız müəllim olmaq kafi degildir, fədakar olmaq lazımdır. Həm də nasıl fədakar... Xidmətin təqdir edilmədikdən maədə bir

çox töhmətlərə, bir çox iftira və pək çox böhtanlara da hədəf olacaqsan. Netəkim oluyoruz. Xidmətimizin ali və müqəddəs olduğunu kəndimiz üçün kafi dərəcədə mükafatədd edə bilməzsək, başqa bir iş aramalıyız, buradan qaçmalıyız, vəssalam!

Rza bəy son sözlərini söylərkən səsi titriyordu... Nail əfəndi vəziyyətini təbdil etmiş, bət-bənizi uçmuş oturuyordu.

Şu əsnada əlifba müəllimi Abbas əfəndi ilə ülumi-riyaziyyə müəllimi Xeyri bəyin içəri girmələrindən Nail əfəndi xeyli məmnun oldu. Yeni gələn müəllimlər içəridə bir soyuqluq olub keçdigini sezdilər. Gəlirkən yol boyu etdikləri lətifələrdən vaz keçərək, salam verib birər qəzetə aldılar. Yeni gəlmiş müəllimlər qəzetə arxasından Rza bəylə Nail əfəndiyə baxıyorlardı. Nail əfəndi müttəsil çiğara içiyor və gözlərini bir nöqtəyə dikmiş oturuyordu. Rza bəy müəllim odasını ölçüyor kibi aşağı-yuxarı addımlıyordu. Aradan çox vaxt keçmədən müəllimlər odada toplandı. On bir müəllim cümlətən hazır idi. Yalnız iki adam gəlməmişdi. Bunlardan biri mədrəsə müdiri idi. Digəri isə... Əvət digəri buraya gəlməsi ümid edilməyən bir adam, bu əfəndi o əski məktəb sahibi, yeni mədrəsə müəllimləriylə banilərinin cümləsini təkfir edən rəfiqimiz Molla Mahmud idi...

Rza bəyin çınğırağı urdu. Müəllim əfəndilər böyük masanın ətrafında birər yer işğal etdilər. Rza bəy bir az tövqifdən sonra: Əfəndilər! Müdir əfəndi şuraya gəlməyəcək... Yaxud gələ bilsə də, şuramızın sonuna doğru gələcəkdir. Zira bəndənizə yazdığı məktubunda bu gün mədrəsəmizin ümumi işlərinə aid heyəti-xariciyyənin şurası olduğunu xəbər veriyor. Müdir əfəndi dəxi orada bulunması təbii lazımdır. Binai-bərin rəis intixab edərək şuraya başlanmasını təklif edirəm.

Müəllimlərdən biri: "İntixabə ehtiyac yoxdur, siz rəyasət ediyorsunuz"- dedi. Bir qaç "rica edəriz!" səsləri eşidildi.

- Təşəkkürlər edərim!.. Öylə isə, katib əfəndi, bu günkü şuramızın nizamnaməsini lütfən oxuyunuz!

Nail əfəndi şura dəftərini açdı. Müəllimlər tərəfindən qeyd edilmiş olan zirdəki məsələləri birər-birər oxumağa başladı.



1- Mədrəsəmizin tərəqqisinə ən böyük vasitələrdən biri ola biləcəkgi aşkar olan nümunəlik dərslərin on beş gündə degil, həftədə bir dəfə olmasını təkliflə bərabər şəhərimizdə bulunan digər müəllimlərin dəxi şu dərslərdə iştirak edə bilmələriçin tədbiri-lazimə ittixaz edilməsini arzu edəriz. Qaç imza.

2- Jimnastiq dərslər üçün bir taqım alat və ədəvat alınması və yapdırılması, jimnastiq müəllimi.

3- Çocuqlara qiraət üçün veriləcək kitabları mürəbbi əfəndilərin kəndi sinifləriçün kəndiləri intixab edib həftədə bir və ya iki gün öglədən sonra bəndənizdən tələb etmələrini və oxunan kitabların təsirini təyin etmək üçün çocuqlardan oxuduqları kitablar haqqında mürəbbilər mərifətilə məlumat toplanmasını təklif edirəm. Kitabxana naziri.

4- Molla Mahmud məsələsi. Lisan müəllimi Əmrullah.

Katib əfəndi mədrəsənin daxili işlərinə aid ufaq-təfək bəzi şeylər daha oxuyurdu. Fəqət müəllimlər adətən dinləmiyorlardı... Əvvəlcə şuraya başlanmadan hər kəs şura dəftərini gözdən keçirmişdi. Bir də zatən şu məsələlər birər-birər müzakirə ediləcəkdi. Hətta lisan müəllimi Əmrullah əfəndi qəzetə ilə məşğul idi. Yalnız Molla Mahmud məsələsi gəldikdə rəyasət edən Rza bəyin üzünə baxdı. Bir şey söyləmək istədigini ima etdi. Rəis əfəndi önündə bulunan kağıza ismini qeyd etdi. Əmrullah əfəndi yenə qəzetəyi aldı. Ancaq oxumayırdı. Daha doğrusu, oxuyamayırdı. Qəzetəyi buraxdı. Cibindən ufaq çaqısını çıxardı. Onsuz da pək qısa olan tırnaqlarını kəsməgə başladı.

Əmrullah əfəndi orta boylu, nazik vücudlu şıq bir gənc idi. Qara, dərin gözləri, al yanaqları, ustura görməmiş alafranqa kəsilmiş ipək kibi yumşaq və qıvırcıq saqqalı, al və dolğun dodaqları, üzərində rəssam əliylə düzülmüş incə bıyıqları bir çox qadın və qızların ürək çırpıntısına səbəb oluyordu. Digər tərəfdən son moda əlbisəsi, qar kibi bəyaz kolalı kömləgi, böyük məharətlə bağlanmış boyun bağı, kəndisinin dəxi mavi gözləri incə vü-cudlar məftunlarından bulunduğuna şübhə buraqmıyordu... Bununla bərabər, Əmrullah əfəndi son dərəcə ciddi, məlumatlı gənc idi. Tərbiyəsini vaxtilə "Xeyriyyə" namilə şu şəhərdə güşad edilib

müvərrixən qapadılmış yeni üsul məktəbində almışdı. İkmali-təhsil üçün üç sənə İstanbulda bulunmuş və şu az bir müddət zərfində Osmanlı şivəsini bir istanbullu qədər ögrənmiş. Osmanlı ədəbiyyatını olduqca dərin və geniş bir surətdə tətəbbö etmiş və bu xüsusda Hikmətlərin, Əkrəmlərin, Fikrətlərin diqqətlərini cəlb etmişdi.

Katib əfəndi şura dəftərini oxuyub bitirincə Əmrullah əfəndi rəisin üzünə baxdı. Müsaidə edildigini anladı. Gözlügünü çıxartdı, bəyaz məndillə silərək sözə başladı:

- Əfəndilər! Müsaidənizlə əvvəla Molla Mahmud məsələsini həll edəlim. Kəndisi gəlincəyə qədər ikmal edilirsə, fəna olmaz.

Dedi və gözlügünü taxdı. Rəis "etiraz edən görünmüyor"- dedi.

Müəllimlərin cümləsi sükunət ediyordu. Yalnız Qərb lisanı müəllimi, heç bir məsələyi etirazsız keçirmək adəti olmadığından önündə bulunan kağız üzərinə bir taqım gəlişi gözəl çizgilər çəkərək "Bəncə kəndisinin burada bulunub-bulunmadığını nəzəri-etibara almaya hacət yoxdur" sözlərini fırlatdı.

Rəis:

- Demək münasib gördünüz? Əmrullah əfəndi, sıra sizindir!

Əmrullah əfəndi gözlügünü düzəltdi və həyəcan ilə sözə başladı.

- Əfəndilər! Burada gecə və gündüz çalışıyoruz. Məqsədimiz təbii mədrəsəmizin tərəqqisindən başqa bir şey degildir.

Müvəffəqiyyatımız dəxi, əlhəmdülillah, meydandadır. Ancaq bir buçuq aydan bəri çəkdiyimiz zəhmətlər bilkülliyyə hədər oluyor, müəllimlik və mürəbbilikdən qətiyyən xəbəri olmayan şu adam mədrəsəmizə müəllim təyin edildigi gündən etibarən mədrəsəmiz bərbad olmaqdadır. Əməklərimizə, zəhmətlərimizə yazıq oluyor. Şu adama əqaid dərsi verilirkən etiraz etdim. Etiqad məsələsinin qayət nazik bir məsələ olduğunu dərmiyan eyləyim. "Öylə isə hankı dərsi verəlim?" sualına cavab bulamadım. Əqaid dərslərini verdik, nəticə meydanda! Hankı sinfə girərsə, alt-üst edər. Sinfi idarə edəməz. Çocuqları məşğul edəmiyor, bir taqım ədəbsizcə hərəkətlərdə bulunuyor. Kimsə sözünü dinləmiyor.



Bulunduğu sinfin ittisalətdəki sinifdə belə dərs vermək qabil degildir. Çarəsiz onun hər bir dərsində bir mübəssir bulundurmaq lazım gəliyor. Bunlardan da sərfi-nəzər üçüncü şöbənin məsum çocuqlarına şəriyyət namı verərək öylə şeylər söylüyormuş ki, arxadaşlar, burada belə onları təkrar etməgə həya eyliyoram! Onun bu yoldakı rəzalətləri çəkiləcək şeylərdən degildir. Bəncə bu adamın şurada bulunmasına razı olmaq adəta cinayətdir.

Əmrullah əfəndi sözlərini bitirər-bitirməz bir qaç müəllim əfəndi növbəti-kəlam verilməsi tələbində bulundular. Rəis sıra ilə adlarını önündəki kağıza qeyd edərək dedi:

- Müsaidənizlə bu xüsusa aid bir az məlumat verəyim: Anladığıma görə eyni məsələyi bu gün məktəbin heyəti-xariciyyəsi də müzakirə edəcəkdir. Bizim arzumuza görə həll edilmək ehtimalı yox deyildir. Bununla bərabər şuramızın bu xüsusa aid verdigi müəyyən qərarı təsirsiz qalmaz zənn edirəm.

Rəisdən sonra ülumi-riyaziyyə müəllimilə digər bir qaç müəllim Molla Mahmudun hərəkətlərinə dair bildiklərini söylədilər. Mərqumun mədrəsədən çıxarılmasının heyəti-xariciyyədən tələb edilməsini təklif ediyorlardı. Hətta icab edildigi surətdə tətili-əşğalə qədər israr edilməsi təklifində bulunanlar da oldu.

Şu əsnada mədrəsə müdiri içəriyə girdi. Müəllimlər təzimən ayağa qalxıb ehtiramla salamladılar. Müdir əfəndi: "rica edirəm oturunuz, şuranıza davam ediniz" deyərək müəllimləri təciz etdigindən dolayı hasil eylədigi bir tövr məhcubiyyətlə baş tərəfdəki yerində oturdu. Rza bəy çınqırağı önünə qoydu. "Molla Mahmud məsələsi müzakirə ediliyor"- dedi. Müdir əfəndinin gözləri güldü, öskürdü. Uzun cübbəsinin cibindən tütün qutusunu çıxarıb bir çiqara yapdı. Ciqarasını dodaqları arasına aldı, kibrit yaktı, bir daha gülümsədi. "Şuranın qərarı nəyə müncər oldu?"- deyə sordu. Sonra ciqarasını yaqdı. Rza bəy: "Müəllimlərin kaffəsi yekvücud olaraq Molla Mahmudun mədrəsədən çıxarılması tələbindədir- dedi. Müdir əfəndi çiğarasını dumanlatdı. "Öylə ya, qərarınızın, daha doğrusu, qərarımızın böylə bir nəticəyə iqtiran eyləyəcəginə şübhəmi vardı?"- deyərək çinğırağı çaldı. Bir xidmətçi içəri girdi. Müdir əfəndi:

- Məhəmmədəli, çayın hazırmı?

- Əvət, hazırdır.

- Öylə isə 15 dəqiqə qədər tənəffüs edəlim. Birər də çay içəlim. Şu məsələyə dair mənim də verəcək eyi bir xəbərim var.

Müəllimlər müdir əfəndinin təkilifini məəlməmnuniyyə qəbul etdilər. Hətta bəziləri bu eyi xəbəri bir az əvvəl eşitmək üçün olmalıdır ki, yerlərindən qalxıb müdir əfəndinin ətrafında dizildilər.

- Bu günkü şuramız Molla Mahmudun mədrəsədən çıxarılmasını tələb edəcəgini anladım. Buna binaən güc-bəla ilə heyəti-xariciyyəyi bu gün toplaya bildim. Şu bir ay zərfində çəkdiyimiz zəhmət və əziyyətləri anlatdım... Bana verilən cavablardan doğrusu məsələ anlaşılacağından qəti-ümid etməgə başladım. "Qırx sənə müəllimlik etmiş bir adam nasıl oluyor da sizə yaramıyor" sözləri birqaç dəfə təkrar edildi... Nə isə sonu fəna çıxmadı. Molla Mahmudun mədrəsəmizdən çıxarıb yeni güşad edilmiş şəhər məktəbinə əqaid müəllimi təyin edilməsi təhti-qərara alındı.

- Aman əfəndim, buradan alsınlar da, nərəyə göndərəcəklərsə göndərsinlər!

- Şükr, həm çox şükr.

Müəllimlər müdir əfəndidən aldıqları bu xəbər üzərinə yek digərini təbrikə başladılar. Hətta gənclərdən birisi şu münasibətlə şuranın ertəsi günə qədər təxir edilməsini belə təklif etdi. Rza bəy düşünüyordu. Mütəkəbbir qaşları altındakı mavi gözləri bir nöqtəyə dikilmişdi. Müdir əfəndi Rza bəyin üzünə baxdı:

- Rza bəy! Siz narazı kibi görünüyorsunuz.

- Degil, əfəndim! - dedi və bir xeyli sükut etdi.

Sonra da əsəbi bir səslə:- Bilməm,tərbiyyeyi-milliyyəmiz olmadığındanmı, yoxsa qayeyi-milliyyəmizin nə olduğuna ədəmi-vüqufimizdənmi, nədəndir iş başında bulunacaq adamımız yoxdur. Darülfünun ikmal edənlərimizə varıncaya qədər öylə adi məsələlərdə bəzi öylə böyük səhvlər yapıyorlar ki, insan şaşıyor. Vallahi bütün şəhəri günüz fanarla arasanız, məktəb nə olduğunu, mədrəsə nə dedigini həqqilə anlayan üç adam görəməzsiniz. Milli məktəblə dövlət məktəblərinin, həqiqi mədrəsə ilə əski xərabələrin fərqində bulunan beş adam bulamazsınız. Molla Mahmudu mədrəsəyə təyin etdikləri vaxt mühüm bir məsələ həll ediyorlar kibi davranıyorlardı. Bağıra-çağıra əski məktəblərin məhvinə çalışıyorlardı. Və hətta "Molla Mahmudu mədrəsəyə təyin etməkdən məqsədimiz bu adamın yenidən əski üsul məktəbi açmaq təşəbbüsündə bulunmaması üçündür"- deyirlərdi.

İştə sizə məntiq! Əgər əhali əski məktəblərdən bıqmış isə Molla Mahmud varsın açsın, çox keçmədən kəndisi buraxıb qaçar. Yox əgər əski məktəblərdən daha nifrət edilməmiş isə, çarə yox, yaşayacaq. Molla Mahmud mən ediliyor, Molla Əhməd gəlir, Molla Əhməd gedir, Molla Vəli gəlir. Necə buraxmalı, millət kor olsa belə çox keçmədən fərqinə varır: "Nur ilə zülmət rəqabət edəməz. Günəş doğar isə qaranlıqdan əsər olmaz" dedim... anlatamadım. Bunlar bir ortaya beş sıra ilə bir taxta qoyarlarsa, yeni məktəb meydana gəldi zənn ediyorlar. Molla Mahmud nərədə bulunursa bulunsun, qırx sənədən bəri yapa gəldiyindən ziyadəsini yapamayacağını anlamıyorlar. İştə əski məktəbləri məhv ediyoruz deyərək mədrəsəmizi bərbad ediyorlar. Şimdi nə yapıyorlar? Şimdi də şəhər məktəbini viran etmək istiyorlar...

Şu arada rəfiqimiz Molla Mahmud içəri girdi. Hər kəs susdu. Müəllimlərdən kimsə Molla Mahmudun üzünə baxmıyordu. Rza bəy onu dərin bir baxışla süzdü və nitqinə davam etdi.

- Ən adi şeyləri anlamıyorlar... Qabil degil yahu! Arabaçı Əhməd təyyarəçi ola bilməz. Bunu anlamayan təyyarə ilə araba arasındakı fərqi bilmiyor deməkdir. Başqa bir şey degildir...

Molla Mahmudun bu sözlər çox xoşuna getmiş olmalıdır ki, qəhqəhə ilə gülməyə başladı. Müəllimlər bir-birinin üzünə baxdılar... Müəllim odası qəhqəhələrlə doldu. Hələ əlifba müəllimi Abbas əfəndi sandalyadan yıxılır dərəcələrə gəldi. Molla Mahmud susdu. Müdir əfəndi bir daha gülümsündü.

- Molla Mahmud, nədən böylə güldünüz?- deyə sordu.

Molla Mahmud yenidən gülərək: Aman, müdir əfəndi, baxsanız Rza bəy nə diyor. Arabaçı Əhməd təyyarəçi olamaz diyor. Arabaçı Əhməd bizim qomşudur. Heç təyyarəçi ola bilirmi? O ixtiyar bir adamdır... Bən belə qorxuyorum. O gün birisi buraya

gəlib uçmadımı? Hər kəs seyrə getdi. Bən evdə saxlandım... Bir dəfə böylə şeylərə baxmaq şərən caizmidir, bilməm. Bundan sərfi-nəzər bunun bir şeytan işi olduğuna heç şübhəm yoxdur. Bir saətdə buradan Tiflisə uçmuş diyorlar. İnsan bunu heç yapa bilirmi? Gurultu ilə bizim evim üstündən uçub getdi. Bən şu dəqiqə çoluq-çocuğumu evə topladım, bir təsbeh istiğfarullah dedirtdim.... İki rükət namaz qıldım... (Bir az sükutdan sonra) Dəmin bir məclisdə yenə şu təyyarə söhbəti çıxmışdı. Molla Məhəmmədəli bən də gördüm diyor. "Sənin üçün bir şey deməк degildir"- dedim. "Sən şəhər tərəfindən açılmış məktəbə müəllimlik edib əhli-zələmə tərəfindən toplanan paradan maaş belə alıyorsan"- dedim. "Yazıq, həm çox yazıq olsun, sən eyi bir molla olduğun halda, otuz rublə maaş üçün dini satdın"- dedim. Bütün məclis sözlərimi təsdiqlədi.

Müəllimlər artıq kəndilərini alamıyordular... Söylədiyi sözlər o qədər gülməli olduğu halda müəllimlərin bu qəhqəhələri Molla Mahmudu azacıq düşündürdü və şuraya mane olduğuna həml indi üzr istəməgə münasib gördü. Ciddi bir surətdə "Qaliba şuranıza mane oldum" - dedi.

Müdir əfəndi on beş dəqiqəlik bir tənəffüs yapılmasına qərar verildigini anlatdı.

- Öylə isə sizi bir daha güldürəyim,- dedi.

Yahu bu qədər budalalıq olurmu ki, siz yapıyorsunuz! Bütün gün yetişmiyor kibi gecələri belə istirahət etmiyorsunuz. Hələ Rza bəy həqiqətən çıldırmış, əqlini qeyb etmiş olmalıdır. Bu adam mükəmməl təhsil görmüş bir adamdır. Onun arxadaşları sənədə minlərlə para qazanıyorlar. Bu gəlmiş burada əlli rublə maaşla gecə-gündüz çalışır. Bizi də rahət buraqmıyor.

Artıq Rza bəy də dayanamadı, gülməyə başladı. "Bu budalalıqdan sizi xilas etməgə qərar verilmişdir. Artıq rahətinizə baxa bilirsiniz" - dedi.

Molla Mahmud bir şey anlayamadı. Müəllimlər susdular. Hər kəs çay içməklə məşğul olduğunu göstərmək istiyordu. Müdir əfəndi sözə başladı.



"Əvət, əfəndim, sizin üçün dərslərə davam etmək, şuralarda hazır bulunmaq, bilməm nümunəlik dərslərə gəlmək qolay olmadığını nəzərə alıb sizə başqa qolayca bir iş verilməsi daha münasib görüldü. Heyəti-xariciyyə sizin, yeni güşad ediləcək şəhər məktəbinə qırx rublə bir maaşla müəllim təyin edilməyinizə qərar verdi"- dedi.

Molla Mahmud apağ kəsildi, hər kəs susdu. Bu can sıxıcı sükut xeyli müddət davam etdi. Yalnız divara asılı böyük saatın tıq-taqı bu sükutu ixlal ediyordu, dəmin şən və şatır bulunan məclis meydanda adəta bir cənazə varmış kibi dona qaldı. Molla Mahmud dodaqları titrəyərək ayaq üzərinə qalxdı. Düşgün bir səslə "yapamam" dedi... Kimsə cavab vermədi. Yalnız qəlbinin dərin yerlərindən yüksələn bir səs "yapacaqsın" diyordu... Molla Mahmud bu sədaya cavab verər kibi yüksək və əsəbi bir səslə bir daha "yapamam" dedi. Və imdad arar kibi məhzunanə baxışla müəllimlərin üzünə baxdı. Sükutdan başqa yenə bir cavab alamadı. Halbuki sədayi-qəlbisini boğmaq üçün hər nə surətlə olursa-olsun, bir səsə son dərəcə ehtiyacı vardı... Artıq alnından tərlər axmağa başladı... Saatın tıq-taqı diqqətini cəlb etdi, aradığı səsi bulmuş kibi bir an onunla məşğul oldu. Çox keçmədən saatın mütərəddid diqtəsi dəxi kəndi qəlbilə həmdəm olaraq "ya-pa-caq-sın, ya-pa-caq-sın!" sözlərini təkrara başladı. Molla Mahmud daha yüksək, daha əsəbi səslə "Əsla yapamam!" dedi.

Müdir əfəndi artıq acımağa başladı.

- Əgər xilafi-şərdir desəniz çarəsi yox degildir. Hileyi-şəri yapmaq mümkündür,- dedi.

Molla Mahmud cavab verməyərək müəllim odasını tərk etdi və məscidin böyük qapısından çıxdı.

Məscid önündəki böyük meydan dibsiz bir boşluğu andırıyordu. Bu boşluğun müxtəlif nöqtələrində bir taqım mübhəm ziyalar sallanıyordu. Bu ziyalardan biri Molla Mahmuda tərəf ağır-ağır uçuyordu. Guya Molla Mahmudun bütün dünya ilə əlaqəsi kəsilmiş idi. Yalnız bir arzusu qalmış idi, o da şu yaklaşan ziyanın mahiyyətini anlamaq idi. Çox keçmədən bir əlində fanar, digərində dəgənək bir bəkçi yaxlaşdı və "qoçaqlarım, sərvax!"- de-

yə var qüvvətilə bağırdı. Əski-səda kibi meydanın hər tərəfindən "sərvax" deyə qalın, incə bir taqım səslər cavab verdi...

Gecə xeyli irəliləmişdi. Xəfifləmiş rüzgar sərin busələrilə onun müztəhib qəlbini təxfif ediyordu. Molla Mahmud meydanın ötə başında bulunan evinə tərəf gediyordu... Kəndi-kəndinə: "əskisi kibi məktəb açarsam" dedi. Şövkəti-mazisi yenə gözü önünə gəldi... Bir xeyli vaxt yenə tatlı təxəttürat ilə məşğul oldu. Uzaqdan həzin-həzin eşidilən bayquş səsi diqqətin cəlb etdi... Qaranlıq, sükut içərisində irəliləyirdi... Şəhərin üç verstligində bulunan stansiyondan lakomotifin incə kəskin islığı və bir azdan dərin-dərin nəfəs alışı və soluyaraq irəlilədigi unutmaq istədigi yeni təyinin, dərxatir etdirdi. "Çarə yoxdur, qəbul edəcəgəm" dedi və kəndi tuyğusundan qorxar kibi daha çabuq yürüməgə başladı...

## M ə k t u b l a r
## (azərbaycancaya tərcüməsi və rusca orijinalları)

***25 mart 1904, Odessa.***

Şəfiqə xanım!

Siz məni yazdığım məktubdakı ziddiyyətlərdə günahlandırırsınız. Deməli bu qəbilli ziddiyyətlər Sizin məktubunuzda olmamalıdır. Məsələn, Siz yazırsınız: "Mənim prinsipim: hər bir adam düşünüb istədiyi kimi hərəkət etməli və danışmalıdır". Daha sonra: "Mən çək-çevir edirdim ki, Sizə nə cür cavab verim – istədiyim kimi, yoxsa lazım olduğu kimi. Lazımı şəkildə cavab verməyi qət etdim".

Düşünürəm ki, Sizin bu anda özünüzlə ziddiyyətə girməyinizi sübut etməyə lüzum görmürəm . Sizdən gətirdiyim bu kiçik sitatlar kifayət qədər aydınlıqla həmin məsələdən söz açır.

Beləliklə, mən Sizin "lazımi şəkildə yazdığınız" məktubu aldım. Sizin suallarınıza cavab verirəm.



Siz soruşursunuz: 1) Mən Sizdən öz məktubuma görə cavab gözləyirdimmi? – Gözləyirdim. 2) Mən niyə güman etmişəm ki, Sizi atanız qarşınızda pis vəziyyətdə qoya bilərəm?! Bu suala cavab olaraq Siz özünüz aşağıdakı şəkildə cavab vermisiniz: " Bizim cəmiyyətdə cavan oğlana (mən deyərdim həm də əksinə) məktub cinayətə bərabərdir". 3) "Mən məktub yazmaqdan başqa bir yol tapa bilməzdim və s." Burada sadəcə anlaşılmazlıq var. Mən bununla əlaqədar belə deyərdim: Mən Sizə məktub yazmaq istəyirdim, amma bilmirdim hansı ünvana yazım. Odur ki, birbaşa Sizin adınıza yazmalı oldum. Mən başqa cür yaza bilməzdim. 4) "Mən necə yəqin edə bilmişəm ki, Orucluq bayramı münasibətilə təbrik məhz Sizdəndir?". Mən o məktubu alarkən (onu bir ay sonra almışdım) və zərfin üstündəki möhürdən bildim ki, məktub Bağçasaraydan gəlib, dərhal beynimdən belə bir fikir keçdi: Kaş bu məktub Sizdən olaydı! Zərfi açan kimi mən buna əmin oldum. Sizin adınız hərçənd yalnız nöqtələrlə yazılmışdı.

Mən Sizə yazmışdım ki, mən "tutar qatıq, tutmaz ayran" deyərək məktubu birbaşa Sizin adınıza yollamışdım. Bu məqamı Siz məndən fərqli olaraq bir qədər başqa cür izah edirsiniz. Siz yazırsınız: "Bu o deməkdir ki, nəticələr haqqında götür-qoy etməyib istək üzrə hərəkət etmisiniz". Bu haqda mən heç də onu demək istəmirdim. Əksinə, ***mən nəticələr haqqında lap çox düşünürdüm*** və çox götür-qoy edirdim ki, mənim məktubum başqa əllərə gedib düşməsin, amma düzü ağlıma bir şey gəlmədi və birbaşa Sizin adınıza yazmalı oldum. Mən yalnız özüm – özümlə risk edə bilərəm, lakin bu işdə başqa adam da təmsil olunduğundan (hətta mənim ürəyimə yaxın olan birisi olmasaydı belə) nəticələr haqqında düşünmədən buna heç bir mənəvi hüququm olmazdı. Bu məqsədlə əgər risk olmuşdursa Sizə dəxli olmuşdur. Nəticələri düşünməyərək mən necə risk edə bilərdim?...

Mən mətləbi öncədən Sizin aşağıdakı sualınızdan duymuşdum: "Nə üçün mən Bağçasaraya dönməmişəm", ona görə ki, əvvəlcədən cavab verdim, lakin Siz buna şübhə ilə yanaşdınız və boş söz hesab etdiniz. Amma təəssüf ki, mən o cavaba heç bir

şey əlavə edə bilməyəcəyəm. Zarafat eləmirəm, mən heç bilmirəm ki, niyə sizin tərəfə dönmədim! Bəlkə bu məsələ onunla bağlıdır ki, mənim Krımda dostlarla birgə olduğum zaman mənə elə gəlmişdi ki, İsmayıl Mirzə Sizin evinizdəki davranışımdan narazı qalıb.

Göründüyü kimi, məktubumda ziddiyyət olmayıbdır.

Sizin daha bir sualınız qalır...

Mənə nə olub axı, elə Sizin suallarınıza ən ciddi surətdə cavab verirəm, Siz isə ona görə sual verirsiniz ki, sadəcə olaraq məni pərt etmək fikriniz olub, əslində bunu heç də istəməmisiniz!

Beləcə mən artıq fikrimi toplamışam, cünki gələcək üçün zərurət ucbatından verilən suallar cavabsız qalacaq, belə ki, mən zərurətə görə deyil, öz istəyimə görə cavab verirəm.

Görünür, elə Siz də bizdə baş vermiş iğtişaşlardan xəbərdarsınız. Bu uzun əhvalatdır, əgər bu Sizi maraqlandırsa təfərrüatları yaza bilərəm.

Siz məni Bağçasaraya dəvət edirsiniz. Dəvətə görə təşəkkür edirəm, lakin may ayında çətin ki, bu mümkün olsun: imtahanlar yalnız mayın sonunda qurtarır.

Sizə musiqidə uğurlar arzulayıram; mən musiqini misilsiz surətdə sevirəm, hərçənd ki, bu işdə mən tamamən səriştəsizəm.

*Cavab gözləyirəm.*
*Sizin ...*
*25 mart.*

* * *

***Gəncə, 6 iyul 1904. (məktubdan fraqment)***

... Burada almanların qurmuş olduqları koloniyada evlər lap Avropada olduğu kimi qotik üslubdadır, küçələr düzgün, əhali sadə, lakin təmiz geyimlidir, nə dilənçiyə, nə də cındırından cin ürkən adama rast gəlmək olur. Əgər belə birisini işdi görməli olsan məlum olacaq ki, tatardır. Almanların oxuyub yazmaq bilməyənləri də yoxdur. İctimai həyatları da inkişaf etmişdir, həm kasıbının həm də varlısının iştirak etdiyi mükəmməl bir orkestrləri var. Məsələn, mənim ataları milyonçu olan (alman) dostlarım eyni zamanda məşqlərə də davam edirlər. Geyimləri digərlərindən fərqlənmir. Maddi vəziyyətlərini soruşsan Yelizavetpol (Gəncə) vilayətinin hardasa yarısı onlarındır, şərab və pivələri bütün Rusiya bazarlarına göndərirlər. (Axşam) saat 11-12-yə qədər əyləndik, buna baxmayaraq sabah səhər 4-də hamı işlərinin başındaydı. Səndən soruşuram, bəy və ya mirzə olsaydılar belə şey edərdilərmi? Bizimkilər acından ölsələr də iş-gücə getmirlər. Atası bəy olsun, balası fəhlə? Şəfi, çalışmaq lazımdır. Mən bu günlər bir işdən o biri işə çılğınlar kimi atılıram. Çeçenlərin bir məclisində uşaq oxutmağın nə qədər vacib olduğunu gördüm. Zavallı atam bu işləri bəyənmədiyində və oğlundan yolundan azmış bir adam kimi bəhs etməsində haqlıdırmı? Bizim qadınların avropalı qadınlar kimi davranması mümkünmü? Avropalının bütün pis tərəflərini görməmək mənə təəccüblü gəlir. Bəlkə də sanırlar ki, qızları oxutmaqla sadəcə olaraq kişi məclislərini rövnəqləndirirlər. Bu əsnada işlərim çoxdur, səhərdən axşamadək uşaqları məktəbə hazırlayıram, 13 uşaq yığa bilmişik. Bir çoxları mənim etdiklərimə şübhə ilə yanaşır. "Necə olur, bu qədər vaxtımı əvəzsiz olaraq sərf edirəm" – məni anlamırlar... Danışmaqda hamımız dil pərgarıyıq, fəqət işə gəlincə heç bir şey hasil olmur.

* * *

***27 fevral 1905. Odessa.***

Əzizim Şəfi!

Sənin otkrıtkanı və məktubunu aldım. Bağışla ki, dərhal cavab verə bilmədim.Sən soruşursan ki, niyə sənin teleqramına cavab verməmişəm. Mən nə cavab verə bilərdim, Şəfi? Mən nə gözləmirəm? Sən Allah bilir, orada nə düşünərdin, axı mən bir teleqramla bütün səbəbləri izah edə bilməzdim; buna görə də be-

lə düşündüm ki, teleqram vurmayım, həm də bu ərəfədə sənə məktub yazmışdım.

Şəfi, sən xahiş edirsən ki, mən keçən il olduğu kimi Bağçasaraya gəlim. Sən çox yaxşı bilirsən ki, bu keçirəcəyim günlər mənim üçün həyatımın ən xoşbəxt günlərindən olacaq, üstəlik nə qədər çox sürsə də o qədər yaxşı olar. Lakin... (yenə bu lənətə gəlmiş lakin!) biz bu məqamda İsmayıl Mirzənin istəklərinə əməl etməliyik, buna görə də mən özüm səndən soruşmaq istərdim: təxminən mən nə qədər orada qala bilərəm? Və daha bir məsələ! İsmayıl Mirzə nə üçün məni görmək istəyir? Şəfi, ümumtələbə yığıncaqlarına nazir icazə vermədi. Tələbə yeməkxanasını bağlayıblar; çox adam həbs olunub, ümumən heç nə aydınlaşdırılmayıb. Nazirlikdən əmr gəlib ki, universiteti açmaq üçün nəyin bahasına olursa olsun tədbir görmək lazımdır. Bununla belə universitetin açılması müşküldür, düzü buna ümid azdır. Mən artıq bu barədə evimizə yazmışam. İndi cavab gözləyirəm. Əlbəttə buradan çıxacağım günü sənə məktubla cavab verərəm. Hər ehtimala qarşı teleqram vuraram.

Yerlilər cəmiyyəti ilə əlaqədar görüşümüz zamanı danışanq; məktubu isə yaxşı ki, yazmadım, yazmağa dəyməzdi.

*Öpürəm səni.*
*Sənin Nəsibin.*

* * *

*1904-1905, Hacıkənd.*

Şəfi, sən yəqin təəccüblənirsən ki, niyə bu vaxtadək sənə cavab verməmişəm. Bu hələ azmış kimi, sən ürəyində mənə qarşı acıqlısan.

Şəfi, mən çox ciddi səbəb üzündən susurdum; sənin 22 oktyabrda göndərdiyin məktub məni kifayət qədər ciddi düşünməyə vadar etdi. Bu məktub barəsində uzun-uzadı düşüncələr məni arzuolunmaz və kədərli nəticələrə gətirib çıxardı. Yəni sən məni tamam tanımırsan və... hətta sevmirsən! Təsəvvür elə ki,



mənim üçün belə bir qənaətə gəlmək necə də əzablıdır. Lakin mən buna inanmaq istəmirəm, Şəfi! Mənim şübhələrimi dağıt! Mən indi hətta bu məktubun hansı məqamlarının məni bu qənaətə gətirdiyini yazmaq istəmirəm. Mən sadəcə olaraq, bu barədə düşünməyə belə qorxuram, yalnız onu deyə bilərəm ki, bu sənin Hacıkəndə yazdığın, mənim cavab vermədiyim daha bir məktubdur. Bu məktubu bizim həyatımızın baharının başlanğıcında qara buludlara bənzətmək olar.

***Sənin Nəsibin.***

***P.S.*** Mən səndən daha iki məktub almışam.

* * *

***13 avqust 1905. Fraqment.***

... Fəqət məktubu oxuduqdan sonra çox sevindim. (İsmayıl bəy Qasprinskinin məktubu onu sevindirmişdi – N.Q.) Çünki İsmayıl bəyin nəzarəti altında cəmiyyətdə faydalı işlər görəcəyimi və səninlə birlikdə çalışacağımı anladığımı bilirdim. Bütün bunları ancaq xəyalımdan keçirə bilərdim. Sevincim yalnız axşamadək sürə bildi. Axşam məktubu atama oxudum. Dediyi bu oldu: Allah xoşbəxt etsin. (Bununla) oğlunun xoşbəxtliyinə bir fayda verə bilmədiyindən qədərə bel bağlayırdı. Heç bir zaman zəngin olmasa da, belə vəziyyətə də düşməmişdi. Sanki qədər onu əl atdığı bütün işlərdən müvəffəqiyyətsizliyə uğradırdı. Saysız-hesabsız suallar beynimdən keçdi. Atamın bu çətin vəziyyətində mən sevinə bilərdimmi? Onu xərclərə salmaq və ya mənə ayda 30-35 rubl pul verməsini istəmək mümkünmüydü?! Digər tərəfdən də İsmayıl Mirzəyə yük olmağa haqqım varmıydı? Necə olsa da özümə bələdəm, izzəti-nəfsimin həddən artıq olduğunu bilirəm. Fəqət sevgi çox güclü bir hiss...

* * *

*18 oktyabr, 1905. Odessa*

Mənim qürurlu, şıltaq əzizim, sənin öz xəstəliyindən bəhs edən məktubunu aldım.

Şəfi, əgər bilsəydin, sənin qürurlu, heysiyyatlı və azad təbiətini nə qədər sevirəm. Bizim yazışmağımızın ilk günlərindən mən bu cizgiləri səndə müşahidə etmişəm. Düzü mən bu cizgilərlə fəxr edirdim, boynuma alım ki, həm də qorxurdum. Mən sənin xarakter cizgilərin haqqında çox düşünmüşəm və bilirsənmi, nə qərara gəlmişəm?! Mənə elə gəlirdi ki, biz bir yerdə yaşamamalıyıq! Mən qeyri-ixtiyari olaraq, Lermontovun sözlərini xatırladım: "İki dostdan biri, o birisinin köləsidir". Mən gözəl bilirdim ki, heç vaxt kölə olmayacağam; onu da aydın hiss edirdim ki, sən də kölə olmayacaqsan, hətta əgər olsaydın belə, mən səni sevə bilməzdim! Beləliklə, düşünürdüm ki, bizim birgə həyatımız mümkün deyil. Mən lap bu yaxınlaradək belə düşünürdüm, dəqiq desəm, lap o ana qədər ki, elə bil məhəbbətin əsl mənasını gördüm, daha doğrusu, hiss etmədim, dərindən duydum. Doğrudan da təəccüblüdür! Mən səninlə keyfiyyətlərinə görə yaşaya bilmirəm ki, onlar mənə doğmadır. Bu səninlə sonuncu görüşümüzdə mənim həyatımın ən böyük anında (Bəli, bəli! Ən böyük; indi bilərsən!), sənin və mənim mənliyim təbir caizsə qarşı-qarşıya gələrək toqquşdular.

Bu qısa zamanın təəssüratları yaddaşımda xırda təfərrüatlarına qədər kəskinliklə həkk olunmuşdur! Mən gözəl xatırlayıram ki, səni susqun vəziyyətdə necə qoyub getdim...

Bilmirdim, hara gedirəm, elə bilirdim çox uzaqlara gedirəm, sövqi-təbii ilə həyətdə dolaşırdım; başımda hər şey biri-birinə qarışmışdı... Nahara çağırdılar. Məni çağıran cavan qızı dərhal başa düşmədim, üzünə key-key elə baxdım ki, o pərt oldu. Nahara dəvət etməyini təkrar izah etməli oldu. Mən getdim... Oturdum. Səni yeməkxanada görməyəndə, instinktiv şəkildə mənə elə gəldi ki, sən nahara gəlməyəcəksən. Ürəyimə damıbmış. Həmin anda səni elə görmək istəyidim ki... Elə bilirdim ki, həyatdan istəyim ancaq sənin üzünü görmək, sənin üzünə baxmaqdır. Hər dəqiqə mənə saat kimi uzun gəlirdi. Birtəhər yeməyə başlamışdım ki,



məni yedirtmək istəyən bir madam mənə ürcah oldu. Mən qadına elə sərt-sərt baxdım ki, o mənə "qulluq" etməkdən çəkindi. Rifat gəlib dedi ki, sən nahara gəlməyəcəksən... Bu sözlər ilk anlarda qulaqlarımda göy gurultusu kimi səsləndi. Sonra hər şey ötüb keçəndən sonra məndə axmaq bir iş tutmağa vəhşi bir niyyət baş qaldırdı...Xatırlamaq indi gülünc olsa da, o vaxt ehtimal ki, mən bunu edərdim... Mən elə çox istəyirdim ki, bu "madam"ın burnundan tutub stolun ətrafında hərləndirim və and içirdim ki, elə də edəcəyəm.

Əzizim Şəfi! Bugünkü təəssüratlarımı səninlə bölüşmək istəyirəm. Dünənki gün sakit, adi qaydada keşdi, hərçənd şəhərdə iş deyilən şey yox idi və dükanların hamısı, demək olar ki, bağlı idi. Şübhəsiz, bu, yalnız zahiri sakitlik idi, daha doğrusu, tufanqabağı müvəqqəti sakitlik... Bütün partiyalar (Sosial Demokrat-bolşeviklər, Sosial Demokrat-menşeviklər, eserlər və s.) fəal işləyir, inqilaba hazırlaşırdılar. Bu gün səhər yataqdan qalxan kimi pəncərəyə yanaşıb, küçədə nə baş verdiyini görmək istədim; gözlərim önündə qəribə səhnə canlandı: böyük kütlələr əldə qırmızı bayraqlarla gedir, pəncərələrdən, eyvanlardan və evlərin damlarından onları salamlayırdılar...Küçədə nə bir qaradavoy, nə də bir kazak vardı... Bir şey anlamayıb, tez paltarımı geyinib küçəyə qaçdım... Hamının sifətindən sevinc yağırdı.. Marselyoza oxuyurdular... "Ura!" deyə qışqırırdılar... Bütün küçələrdə qırmızı bayraqlar dalğalanırdı... Hamının sinəsində gerb əvəzində qırmızı bant bağlanmışdı... iki addımdan bir çoxminli kütlələr qarşısında natiqlər çıxış edirdilər... Manifesti bir-birinin əlindən qapır, öpüşürdülər.

Hər kəsi görəndə tələbələr "Ura!" deyə qışqırır və tələbə papaqlarını göyə atırdılar...

Universitetə getdim. Bütün auditoriyalarda mitinqlər gedirdi. Manifesti oxuyur, bütün cik-bikinəcən xırdalayır, müzakirə edirdilər. Natiqlər sübut etməyə çalışırdılar ki, bu manifestə çox da inanmaq olmaz; nə qədər ki, Nikolayın boğazına çəkmə dirənməyib, azadlığa nail olmaq mümkün deyil. Küçəyə çıxdım... Elə əvvəlki vəziyyət davam edirdi.

Nə bir qaradavoy, nə bir kazak, nə də bir jandarm gözə görünürdü... Şəhər rəisi öz səlahiyyətərindən imtina etmişdi... Şəhər Dumasında ictimai təhlükəsizliyin mühafizəsi üzrə komitənin iclasları davam edir, komitə tələbələrə təklif edirdi ki, şəhərdə qayda-qanunu gözləsinlər...

Gündüz saat 3-də tələbə yığıncağı başlayır... Tələbələrdən biri irəli çıxaraq deyir ki, Dolnitskaya küçəsində xuliqanlar yerli sakinləri əzişdirirlər. Beş dəqiqə başqası, daha sonra digəri çıxıb danışmağa başlayır... Dəhşətli əhvalatların ardı elə bil bir ucdan gəlir... Əlinə keçdiyi şeylərlə silahlanan tələbələr oraya cumurdular... Demə nə baş verib: Mülkü paltar geyinmiş şəhər qaradavoyları tapançalı xuliqanlarla birgə qarşılarına çıxanı öldürür, bıçaqlayır, döyür, gücü çatanı sındırır, əllərinə keçəni qarət edir və nəyə gəldi od vururdular. Yüzlərlə adam onların qurbanı olmuşdu!! Tələbə milisi dəstələri fəhlələrlə bir yerdə xuliqanlara qarşı döyüşmüş, axşam saat 7-yə yaxın sanki hər şey sakitləşmişdi... Allah bilir, sonra nə olacaq. İndi tələbələr şəhəri qoruyurlar: növbə çəkir, əraziyə nəzarət edir, qısası, polisi əvəz edirlər. Fərq ondadır ki, qaradavoylar bütün keçən adamlara əllərini günlüklərini qaldırmaqla salam verirdilər, indi isə bütün gəlib keçənlər növbətçinin yanından keçəndə, ehtiramla papaqlarını çıxarırlar.

Səni bərk-bərk öpürəm.
***Sənin Nəsibin.***
***18 oktyabr.***

* * *

*Təxminən 1909-1910, Xarkov*

Sənin otkrıtkanı və məktubunu aldım. Bilmirəm, sənə nə cavab verim? Nə barədə söz açım? Mənim işlərimə gələndə deyə bilərəm ki, bunlar heç də yaxşı deyil . Uşaqlar və sənin üçün necə darıxdığımdan söhbət açmağa dəyərmi? Axı buna heç kim şübhə etməməlidir. Doğru deyilmi? Şəfi, əzizim, özünü qoru, heç olmasa uşaqları düşün. Özünü necə hiss edirsən? Axı bizim həyatımız hələ qabaqdadır... biz hələ birlikdə həqiqi həyata qədəm qoymamışıq. Amma elə bir zaman gələcək ki, bu barədə ancaq xatirələr qalacaq. Şəfi, mən yorulmuşam, bu yıpranmış, laqeyd, çirkab dolu, yalan və intriqalı həyatdan hədsiz bezmişəm. Əslinə qalsa, yaşayış ona deyərəm ki, nə vaxtsa öz ev-eşiyin, öz işin, özünün səadət və kədər dolu dəqiqələrin olsun... Mən bəzən düşünürəm ki, daim avara olaraq qalacağam, cünki mənim meyllərim və təbiətim bunu tələb edir... Lakin bu belə deyil. Bu, özümə qarşı böhtandır, vəssalam. Mən ehtiras və divanəliklə "öz şəxsi səadətimi" sevirəm, bu şərtlə ki, o, alçaqlıq və şərəfsizlik gətirməsin. Şəfi, axı sən bilirsən ki, mən boşboğaz deyiləm, əksinə dili qarnında adamam və öz məhəbbətim, istək və arzularım haqqında danışmağı sevmirəm... Amma son zamanlar mən səninlə danışmağa, mırt vurmağa, xəyallara dalmağa nəsə ehtiyac duyuram. Mən əvvəllər də belə hisslər keçirirdim, amma sənin yerin başqadır... Yaxşısı budur ki, bu barədə danışmayaq, yoxsa yenə dalaşarıq.

Xattatov hardan bilir ki, mən Xarkovdayam?..

"Serkovnoye pravo"nu dərhal göndərməyi unutma.

Nə üçün mənə "Tərcüman"ın nömrələrini göndərmirsən?

Öz səhhətin və uşaqlar haqqında yaz... Bu, mənə Baxçasaray rəqqasələri və başqaları haqqında söhbətlərdən daha maraqlı olar.

Refat yola düşübmü?

Maman, Nigar, uşaqlar nə edirlər?

Səni və uşaqları öpürəm.

***Sənin Nəsibin.***

* * *

*1909, 2 avqust*

Əzizim Şəfi!

Yazırsan ki, üç gündür ki, səndən məktub almıram. Mənimlə razılaşarsan ki, bizim qızcığazımızın xəstələndiyi bu günlərdə sən məndən məktub gözləməyə və onlara cavab verməyə haqlı deyilsən. Sən niyə susursan? Şəfi, axı bu qızcığazı uzun müddət

qorumaq lazımdır ki, pəhrizi pozmasın. Yatalaq xəstəliyinə tutulan uşaq və elə böyük adam da çörək oğurlayıb yeyir, baxan olmur ki, onlar bu səbəbdən ölə bilərlər. Üstəlik uşağın üzərində sayıq nəzarət lazımdır.

Öpürəm səni.

*Sənin Nəsibin.*

* * *

*1 aprel 1910-cu il, Xarkov.*

Əzizim Şəfi!

Sənin səbrinə təəccüblənirəm. Bu vaxtacan nə bir məktub, nə bir otkrıtka, nə də bir xəbər yazmısan. Bu nə deməkdir? Məgər sən bilmirsən ki, sənin məktublarını səbirsizliklə gözləyirəm. Sənin haqqında, Niyazi, Zoka haqqında xəbər bilmək istəyirəm. Məgər sən bilmirsən ki, hər gün mənim vaxtımın yarım saatı poçtda keçir ki, mənə məktub gəlib gəlmədiyini bilim. Sən min bir dəfə kinli olduğunu nümayiş və sübut eləmisən. Sən hətta mənim ünvanımı bildikdən sonra adi bir otkrıtka yazmağı belə özünə rəva görmürsən.

Mən gündə 10 saat işləyirəm.. Sənə dediyim işi götürməliyəm, lakin hələ qət eləməmişəm. Soyadları əlifbanın ilk hərflərinə tabe olan xoşbəxtlərlə, soyadları əlifbanın son hərfləri ilə başlayan bədbəxtlərin arasında güclü mübarizə gedir...

Nə işlə məşğul olursan? Müalicəyə gedirsənmi? Rüfət nə işlə məşğuldur? İsmayıl Mirzə haradadır? Rüfətə salam de. Baxçasaray işləri nə yerdədir? Şəhər başçısı seçkiləri olubmu? Niyazik, Zoka nə edirlər? Məni xatırlayırsınızmı?

İsmayıl Mirzəyə, Refata, Nigar xanıma, (qoy o mənə məktub yazsın), Həbibə xanıma, iki cavanəzənə, Səid Rənaya və başqalarına salam de. Mənə qəzet göndərin. Mart nömrələrini də göndərərsiniz.

Ünvan: Teatralnı döngəsi. Ev № 15. Mənzil № 4



*P.S.* Mənim haqq-hesabıma görə biz atamdan 200 rubl pul götürmüşük. Mən 50 rubl götürmüşəm. Deməli, sən özünə yay paltosu götürə bilərsən.

Səni və uşaqları öpürəm.

***Sənin Nəsibin.***

* * *

*27 aprel 1910-cu il, Gəncə.*

Əzizim Şəfi!

Sənin harada olduğundan xəbərsiz ola-ola Baxçasaraya məktub yazıram. Bəlkə də sən artıq uşaqlarının yanındasan. Mənə gəldikdə hələlik Gəncədə əzab-əziyyət içindəyəm. Hər gün səhər saat 5-də yataqdan qalxıb çölə yollanıram. Gah işləyir, gah pambıq suvarır, gah yonca çalır, gah bağda işləyir, gah da ot biçininə gedirəm.Elə bil cəhənnəm istisi var. Nahara mağazaya gəlirəm: axşam yenə çölə gedirəm. Bizimkilərin hamısı atam da daxil olmaqla bağ evindədirlər.Mən burada təkəm və bir dəfə də olsun Hacıkəndə getməmişəm. Bir neçə gün malyariyaya tutulmuşdum, indi sağalmışam.

Ayaqların ağrımır ki? Düzü sənin yaraların məni, ağ ciyərlərindən çox narahat edir. Şəfi, nə etməli ki, əzab çəkmək üçün yaranmış insanlar var və biz belə insanlardanıq. Ən başlıcası ruhdan düşməməkdir, qalanları isə boş şeydir. Axı, xoşbəxtlik bizim özümüzdədir. Əgər biz razıyıqsa demək xoşbəxtik, əgər razı deyiliksə demək əksinədir.

Nəhayət mən Nigardan vur-tut bir məktub aldım. O yazır ki, Zokanın xəstəliyi keçir. Bu belədirmi?

Mən sənin məktublarından bir şey anlamadım: harada məskunlaşmısan, şəraitin necədir? Sənin məktubların mənim beynimdə xaos yaratmışdır. Hansısa tələbələr, hansısa eyni kursdan olanlar, prokurorlar, texnoloqlar, kavalerlər, səfərlər, qısaboy və qarnıyekələr, vəssalam. Bununla belə, sən gözəl bilirsən ki, hər cür qeyri-müəyyənlik mənim üçün ölümdür. Mən həmişə hər şe-

yi aydın və dəqiq təsəvvür etməyi xoşlayıram. Sən yeni tanışların haqqında mənə heç nə yazmamısan.Sizin tanışlıqlarınız nədən ibarətdir? Onlarla necə görüşmüsən? Kim harada yaşayırdı kimlərlə seyrə çıxmısan, nə barədə danışmısan? Həmin adamlar necə adamlardır?

Sən mənə yazmışdın ki, elə bil hansısa mükəlləfiyyəti yerinə yetirirsən və bununla bütün söz-söhbətin üstünü açmırsan. Boynuna al ki, sən mənimlə bütün hiss və təəssüratlarını bölüşdürmürsən.

* * *

***Nəsib bəyin bacısı Şükufə xanımın Şəfiqə xanım Qasprinskayaya məktubu (1916).***

İzzətli, səadətli Şəfiqə Sultan!

Məktubunuz gəlib çatdı, and olsun Allaha, o məktubu oxuyanda bir saata kimi ağlamışam. Ah, çox yalvardım sizə getməyin, genə sözümə baxmadınız. Bir ay, iki ay səbr etsəydiniz, sanıram ki, bir şey olmazdı. Sizin gedişinizdən xəbər tutanda çaşıb qaldıq. Bədənim uçundu. İki-üç gün huşum başımda olmadı. Sizi gözümüzün (nuru), aluk-böyük bacımız, anamıza ovuz (övlad) bilirdik. Bizləri fəna hallara qoyub getdiniz. Sizi heç bir dəqiqə yaddan çıxarda bilmirik... Allah axırınızı xeyir eləsin.

Zöhrə xanıma deyərsiniz mənə məktub yazsın. Bizdə elə bir dəyişiklik yoxdur. Nəsib həmişəki kimi dükana gedib gəlir, çörəyini yeyib yatır. Axşamlar gəzməyə gedir, həmişə necə indi də elə... Zöhrə xanımın və Niyazinin üzlərindən öpürəm.

* * *

***1917-ci il.Gəncə***

Ah zavallı balalarım!

Atanız ölmüş olsaydı birdəfəlik yetim qalardınız... Balalarım, ağlaya bilsəydim gündə bir dəfə ağlayardım. Sizə məktub yazmayacağım, çünki qələmı əlimə aldıqda gözlərim yaşdan görməz olur. Sizin yazıq atanız yuxuda sabaha qədər sizinlə oynayır, sizinlə oturur, sizinlə danışıb gülür. Aman əziz qızım, atana məktub yaz, amma cavab gözləmə Niyazi balamı qucaqla öp, bir birinizə sarılın, atanızın gününə ağlayın. Məktub yazınız.

***Sizin bədbəxt atanız Nəsib.***

* * *

***1917-ci il.Gəncə***

Qızım, Zöhrəm!

Məktubunu aldım. Mənə yaxşı məktub yaz deyirsən, amma özün heç yaxşı məktub yazmırsan. Bir daha mənə məktub yazanda təzmininiz (düzgün olsun), kağıza sətirləri doğru yaz, məktubun (və yazdığın adamın) adını yazmağı unutma. Mən səni və Niyazini xəbərdar edirəm. Hər sabah duranda sizi yanıma çağırmaq istəyirəm. Burada hər gün yağış yağır. Həyətimizə su dolub, Niyaziyə söylə ki, qonşu qızlar gəlib həmin günəbaxanları yığırlar, gilaslarımızı və gavalılarımızı çıxaracağam. Qaşqanın balaları həyətə çıxıb oynayırlar. Birisini Həsən aparmışdı, qaçıb gəlibdir. Toyuğumuzun cücələri də böyüyüblər. Arabir birini kəsib yeyəcəyik. Həmidənin bir balaca bacısı olubdur. Hələ ad qoymayıblar. Niyazi bir yaxşı oğlan olsa, anasının sözünü dinləsə gələndə ona verəcəyəm, yoxsa verməyəcəyəm. Evimizə gəlin, sənin üçün də bir royal alacağam. Çalmağı yavaş-yavaş Nigar xalandan öyrən. Gələndə çalarsan, atan da dinlər. Müəllimin sənə salam söyləyir. Deyir ki, dərslərini unutmasın, hər gün bir az oxusun. Yeni dərs oxumasa da əski dərslərini oxusun.

Qızım! Bir də sən qardaşına bax, artıq böyük qız olmusan. Sən qardaşını küçəyə-flana qaçmağa buraxma. Sözünü eşitməsə mənə yazarsan.

Zöhrə, sənin və Niyazinin üzlərindən öpürəm.

***Atanız Nəsib.***

* * *

**1917-ci ildə yazıldığı ehtimal edilən və Şəfiqə xanıma göndərilmiş məktub**

Məktubunu aldım. Anlatılanlar məni çox üzdü... Sizinlə tövsiyəm: əl-ələ birlikdə çalışınız. Böyüyünüz olaraq Refatı qəbul etməlisiniz. Hər hansı bir xüsusda qərar alınması lazım olduqda birlikdə alınız. Mənən inanın, yadlar sizi həmişə oyuna cəlb edə bilirlər. Onlara əlverişsiz olduğunuz yerdə sizi köməlsiz buraxarlar. Bacınızın əri Kırımtay ilə keçmişi nə olmuş olsa da sadəcə bacınızın xatirinə yola getməyə çalışın.

Mənə qalsa "İlərici Kırım gəncliyi"nə etibarım yoxdur, onların hamısı şübhəli və buna görə də prinsipsiz kimsələrdir. Bu qəbilli insanlar "Tərcüman"ın adına xələl gətirdilər. Məmləkətin daxilində və xaricində müsəlmanı qayğılandıran məsələlər ola-ola bir neçə "ağıllının" Zəncirli olaylarını qabardaraq anlatması qəzetəni bir kağız parçasına çevirdi. Bunu deyərkən qəzetənin Zəncirli olaylarına laqeyd qalmasını nəzərdə tutmuram. Bunu daim bilməlisiniz ki, "Tərcüman" yalnız Bağçasarayda olmayıb bütün müsəlmanların qəzetəsidir. Zəncirli olayları zamanı qəzetə hər iki tərəfin görüşlərini açıq, doğru və tərəfsiz vermək əvəzinə bəzi kimsələrin adını çəkməyib olayları dedi-qoduya çevirmişir.

Sizlərə məsləhətim: dostca keçinin və işi birlikdə davam etdirin. Görüləcək hər növ işlərdə birlik və bərabərlik içində olun, qəzetə və mətbəəni əldən qaçırmayın. Kırımtay ilə barışın, hər şeyi bir məsafədə tutun. Bu anda Kırıma gəlməyə imkanım yoxdur...

*Nəsib.*

* * *

*1919, 17 aprel. Bakı*

Şəfi! Sənə çəkdirdiyim bu qədər iztirabı unutmanı istəməyə haqqım varmı? Hər halda mənə haqlı olaraq nifrət edirsən. Özüm haqqında nə yazacağımı bilmirəm. Həyat məni gözləmədiyim bir mövqeyə gətirdi. Bu anda Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Hər kəs tərəfindən hörmət görürəm, fəqət çox bədbəxtəm. Uşaqları xatırladıqca özümü yaddan çıxarıram. Yuxu və dinclik nədir bilmirəm. Hankimizin suçu daha coxdur - deyə bilmərəm. Bildiyim tək şey bir xətanın işlənməsidir.

Sənə Cəfər vasitəsilə 10 000 rubl (Nikolay pulu ilə) göndərirəm. Fürsət düşsə, yenə göndərəcəyəm. Ayrıca vərəqdə lazım olan bəzi xırda-mırda şeylər var. Yazmağa heyim qalmadı. Məni bağışla. Məni xatırlayanlara salam söylə. İlk fürsətdə gəlməyə çalışacağam.

*Nəsib.*

* * *

*1919, 29 aprel. Bakı*

Şəfi! Zoka (Zöhrə) haqqında nə deyə bilərəm ki... Sən ona daha yaxın olduğun üçün ərsəyə çatması üçün vacib olan bütün şərtlərini yaratmalısan. Bütün məsrəfləri ödəməyə çalışacağam. Ancaq nə qədər xərci olacağı barədə məni əvvəlcədən xəbərdar etməlisən. Niyazik (Niyazi) haqqında nə düşünürsən? Onun da yaxşı bir təhsil görməsi lazım, elə deyilmi? Qısası bu xüsusda sənin düşüncələrini öyrənmək istəyirəm və buna görə lazım olan tədbirləri görəcəyəm. Təbii ki, bilmən gərəkdir ki, mən də insanam, mənim də ürəyim var. Amma bu problemi çözərkən, öz düşüncələrinə görə davranırkən bu halda da sənə haqq verirəm ki, mənim də hisslərimi unutma...

Şəfi, hər halda biz uşaqların önündə suçluyuq, çünki onların körpə ruhlarını incitdik. İndi heç olmazsa onlara acımalı və gələcəklərini incitməmək şərtilə davranmalıyıq.Uşaqların təhsili haqqında ciddi olaraq düşünməliyik. Mənə cavab vermədən öncə həm Niyazik, həm də Zoka üçün irəlidə çocukların önündə vicdanının rahat olacağı naminə lazım olan şərtləri təmin edəcəkmisən? Bildiyin kimi, mən hər şeyə davam gətirə biləcək qüvvətliyəm. Səndən ricam budur ki, çocuqları düşünəsən. Hər şeyin ən yaxşısını diləyirəm.

*Nəsib.*

* * *

***Şükufə xanımın Şəfiqə xanımın son məktubuna cavabı.***

***27 mart 1929-cu il, Gəncə***

Sevgili Şəfiqəciyim! Məktubunuzu aldım. Fəqət son məktub deyə yazmağınız məni son dərəcədə mütəəssir etdi. (Zöhrə və Niyazinin yetişməsində yardımçı ola bilməməkdən təəssüflənir və qardaşı Əyyubun 10 aydan artıq xəstəxanada yatdığını qeyd etdikdən sonra...)

Zöhrənin ərə getmək xəbəri hamımızı çox şad etdi. Hər halda bir vətən övladı ilə,namuslu bir gənclə evlənməsini böyük məmnuniyyət hissi ilə qarşıladıq, sevindik. Digər tərəfdən gözlərimizdən qanlı yaşlar axdı. Əziz qardaşımızın sevgili balasının toyunda bizim iştirak edə bilməməyimiz heç insafdandırmı? Hər halda sevgili qızımızın xoşbəxt olmasını niyaz edəriz... Sevgili bacım, sizə yalvarıb rica edirəm ki, Zöhrənin özünə, həsrət (qaldığımıza), toyundan məhrum olduğumuza görə hamınızın foto şəkillərinizi göndərəsiniz... Öpərim hamınızın gözlərindən.

***Baqi salam. Bədbəxt bacınız Şükufə.***

* * *

***Həmid bəy Yusifbəylinin Şəfiqə xanıma məktubları***

***1920-1921, Gəncə.***

Əzizim Şəfiqə! Yazdığınız məktublardan fəqət biri buraya vasil oldu, oxuyub nəhayət (olduqca) mükəddər olduq. Nə etməli, qədər böylə imiş. Üç ay əvvəl sizə yüz banknot göndərmişdim. Bilmirəm aldın, yaxud almadın... Bu dəfə üç Osmanlı lirəsi ilə iki dənə rial göndərəcəyəm. Altın (qızıl) göndərmək (mümkün) olmadığı üçün banknot surətində gətirəcəklər. Alan günü məlumat verməni̇zi rica edirəm. Özünüz bizim halımızı, zənn



edərim, bilirsiniz. Mehdinin uşaqları, dayım, qardaşım da öhdəmdə olduğunu bilirsiniz. Çarə olarsa canımı belə qardaşımın balalarına verməyə hazıram. Cocuqların sinifdən sinifə keçdiklərini bilib çox şad oldum. Əgər mümkün olursa pul lazım olduqca Süleyman bəydən alın (Süleyman bəy Məmmədovdan). O da buraya müraciət etsin. Əgər cocuqları arada oxutmaq mümkün deyilsə göndərin buraya gəlsinlər. Getdikcə burada məktəblər artmaqda və (vəziyyət) yaxşılaşmaqdadır. Qızım Zöhrənin məktubuna çox şad oldum. Niyazinin məktubunun qısalığı nədəndir, yoxsa bizi unutmaq fikrindədir? Mümkün olduqca məktub yazınız. Bu il bir qədər pambıq əkmişəm, məhsul yaxşı olarsa yenə pul göndərəcəyəm. Baqi salam və ehtiram, cümlə tanışlara salam söyləyiriz.

***Kardeşiniz.***

* * *

***14 iyul 1921-ci il, Batum***
Fraqment

... Məktubunuzda yazmış olduğunuz... xəbəri təhqiq etdim. Yalan çıxdı. İndiyə qədər müəyyən bir xəbər ala bilməmişəm. Nə oldu, haradadır, məlumat yoxdur. Ordan-burdan xəbərlər alırıq. Lakin əhəmiyyətsiz xəbərlərdir... Uşaqların gözlərindən öpürəm. Əqrabaya salam söyləyiniz. Bir krımlı, kazanlı ilə görüşdüm. Oraları çox fəna söyləyir. Mümkün olduqca xəbərləşəlim.

***Kardeşin. Şirkəti tərif. Dəniz kənarı.***
***Nömrə 12. Batum.***

* * *

***Şəfiqə xanım Qasprinskayanın Zeynəb xanım Əhmədovaya "Açıq məktub"u "Tərcüman" 1904, № 51, 1 iyul.***

Z.Əhmədovanın Həyat qəzetinin 11-ci nömrəsində məqaləsi çap olunmuşdu. Məqalədə müsəlman qadınlarının maariflənməsi məsələsindən bizim maarifçi kişilərimizin bu məsələyə diqqət ayırmamasından bəhs olunurdu. Şəfiqə xanımın yazısı həmin məqaləyə cavabdır.

*«Həyat» qəzetəsinin 11-ci nömrəsində nəşr olunmuş gözəl məktubunuzu kəmali-şövq ilə oxudum.*

*Qızlarımıza təlim və tərbiyə lüzumu hüsusundakı dedikləriniz cümləsi doğru və səhihdir. Madam ki, millətimiz dövr mədəniyyət və tərəqqiyə girmək üzrə elmi və ədəbi hazırlıq tədarükündə bulunur, o halda islam qadınları məsələsi də yeni zaman və yeni məişətin hacətinə, din və komitəmizin muqtəzay halına məarif tərzdə hal olunması əlbəttə zəruri görülməlidir. Çünki, millət camaatlardan, camaat da ailələrdən , ailə isə əsasən qadın və qocadan təşkil edir ki, millətin məlul və maddi qüvvəti və kamalatı əslində bu ikisinin hüsn tərbiyə sahibi, mərifətli və tədbirli olmalarına mütəqifdir.*

* * *

***Zöhrə xanım Göygölün Əzizə xanım Cəfəradəyə göndərdiyi "Mərsiyə" şeiri və məktub. 5 oktyabr 1990. İstanbul***

*Mərsiyə*

Bu qaranlıq gecələrdə
Yazı ağlar... ana ağlar...
Araz ağlar ...
Şami qəriban ağlar
Qara bağlar analar.
Qara bağlar



Qara bağlar
gül, bənövşə pərişan
Qərənfillər qan ağlar...

* * *

"Çox möhtərəm Əzizə xanım əfəndi.

Dün yolladığınız məktubu aldım və çox həyəcanlandım. Məndən epeycə məlumat istəmişsiniz, əlimdən gəldiyi qədər çalışmağa qeyrət edərəm. Əvvala mənim rəsmimi istəmişsiniz. Esef ki, resimlerim çox az. Zatən heç rəsm çəkdirməyi sevməm.

Sizə zatən yollamışdım, amma öyle portre kimi yox. Yenə də bir şeylər tapa bilərəm.

Layiq olmadığım halda yenə də məndən bəhs etmişsiniz, sağ olun. Şimdi suallarınıza cavab verməyə çalışacağam.

Anam və babam (atam) ayrılmamışlardı, fakat anamın bir arkadaşı bir çox münasibətsizliklər yapınca, bizi alıb Baxçasaraya köçürdü. Bir zaman için orada qalmaq istədi, qüruru çox kiçilmişdi və onu heç bir qüvvət tuta bilmədi.

Babam bir kaç dəfə Krıma gəlib müsafir qalmış, o zaman annəm çox gənc imiş, yenədə "Aləmi-nisvan" adında bir qadın məcmuəsi çıxarıyormuş. Bu məcmuə kolleksiyonu Parisdə və Londonda varmış. Bəndə yalnız bir nüsxəsi var. Bir türkoloq dostumuzun hədiyyəsi. Nəysə. Babam anamla evlənmək istəmiş. Aynı zamanda dr. Nərimanov da onu gedib istəmişsə də o, babamı tərcih etmiş. O əsnada babam Odessada okuyormuş. Bu işdən ötəri dr. Nərimanovla araları pozulmuş. Evlənincə babamın Gəncədə olan evində qalıyorlardı. Bəzən də Krıma gediyorlarmış ziyarət üçün. Nişanlı olduğu əsnada çox sıx-sıx məktublaşıyorlarmış. Bu məktublar halən məndə. Həm nişanlı, həm də evlənincə. Sizə yollamaqda məqsəd o zaman əhvalı haqqında məlumat bilməniz üçündür.

Biz Krımda ikən babam, bir adamını yollayıb bizi çağırtdırmış. 1919-da Bakıya gəldik. Anam Krımda ikən müsəlman türk qadınlarının Moskovadakı konqresində iştirak etmiş. Təsadüfən

babam da oradaymış. Hep bərabər vaxt keçirmişlər. Bir çox qiymətli adamlarla tanışmışlar.

Krıma dönüncə anam bir qız okulu (məktəbi) açmaq istəmiş. Bir iki dostu ilə köylərə (kəndlərə) və kentlərə (şəhərlərə) gedərək tələbə yapdırmış. Daha sonra qızlar məktəbi açılmış. Türkiyədən lüzumlu olan müəllimləri gətirtmişlər.

Bakıya dönüncə anam, çocuq bağçalarına lazım olan müəllimlər gəlişdirən (hazırlayan) kurslar açdı. Evimizdə. Yazıq ki, bu həyat uzun sürmədi. Sevgili ölkəmiz rus istilasına uğradı. Babam ən son celsədən (iclas) çox yorğun və üzgün döndü. Qapıda şoferi Volodya bəkləyirdi. Dedi ki, fələk məni çox yüksəltdi, fəqət mən dünyanın ən bədbəxt insanıyam.

Ondan sonra onu bir daha görmək qismət olmadı və haqqında heç bir məlumat almış olmadıq. Annəm yeni işinə davam etdi. Talibələr onu çox seviyordu və həp bərabər yaşamağı təklif ediyorlardı. Bir vaxtlar çox fəna işlər olmağa başladı, heç kəs rahat uyuya bilmədi evində. Bəlkə də bizi qorumaq istiyorlardı.

Bir gün anamı doktor Nərimanov çağırdı. Anam çox soyuqqanlıqla getdi. Ona demiş ki, sizi Zakatalaya yollamaq istiyorum, lütfən düşünün və xəbər verin.

Halbuki, anamın fikri hüduda yaxın bir yerdə işləməkdi. O əsnada biri gəlib bizə bir kart buraxdı. Bu türk səfiri olan o zamanda Məmduh Şövkət bəydəndi. Bir zəfər gününü qutlamaq (bayram etmək) üçün toplananlar arasında bizi görmək istəmiş. Əsasən bu səfir böyük babamın arxadaşlarından biriymiş.

O gün bərabərdik, hər kəs dağıldıqdan sonra, demiş ki, Türkiyə hərbi əsirlərini hər tərəfdən toplamaqla vəzifəliyiz. İki ay sonra onları toplayıb vətənə göndərəcəyiz. Bunlarla bərabər siz də buradan getməlisiniz. Anam çox pərişan oldu. Çox az paramız, üç-beş altından başqa bir şeyimiz yoxdu. Gerçək ki, orada, yəni Ankarada dayımız, Akçora oğlu Yusif vardı, amma orada hərb vardı.

İki ay düşündük. Zaman da çox fəna idi. Mən bilkassə heç ayrılmaq istəmiyordum. Çox ağladım. Nəhayət, getməyə qərar verildi. Biz çocuq olduğumuz için bizim fikrimizi soran olmadı.



Bir gecə ayrı isim və ayrı pasportla yük istasyonundan, mal daşıyan vaqonlara mindirildik. Bu fəci bir yolculuk olmuşdu.

Tam iki həftə Batuma gəldik. Türk əsirləri rus qadınlarla evlənmişlərdi.

Babam haqqında bəlkə bir məlumat alırıq deyə çox çalışdıq, amma heç bir nəticə almadıq. Qardaşım yüksək təhsilini bitirmiş, çalışıyordu, fakat maaləsəf, onu çoxdan qeyb etdik. Bəzi zaman buraya gələn həmvətənlərimizlə görüşür, əlimdən gələn hər şeyi yapıram. Hər biri ilə dost oluram. Onlar da mənə tel. edib görüşürlər. Mənim tanıdıqlarım məni bulub dərdlərini anladırlar.

Mənim haqqımda yazdıqlarınıza çox-çox təşəkkürlə görüşə bilməmizi tanrıdan dilər, salam hörmətlərimi göndərir, qucaqlayıram. Başqa istəkləriniz varsa, dərhal xəbər verin.

Sizi çox-çox öpər, əmrinizi bəkləræm.

*Zöhrə Göygöl.*
*5 ekim 90"*

### Rusca məktubların orijinalları

***25 марта 1904 г.***

*Шафига ханым!*

*Вы упрекаете меня в противоречиях в моем письме, следовательно предполагаться, что их не должно быть в Вашем. Посмотрим. Вы пишете: «Моя теория: всякий должен делать и говорить то, что думает и хочет». Далее: «Я раздумывала, как ответить Вам, так ли как хочется или так, как следует. Решила ответить так, как нужно».*

*Я думаю, что совершенно лишнее мне доказывать, что Вы данном случае противоречите самой: эти маленькие выписки достаточно красноречиво говорят об этом.*

*Итак, я получил Ваше «так, как следует написанное письмо». Отвечу на Ваши вопросы.*

*Вы спрашиваете: «Ждал ли я от Вас на свое письмо? Ждал. 2) Почему я предположил, что мог поставить Вас в*

*неловкое положение перед отцом. На этот вопрос Вы сами ответили нижеследующими словами: «В нашем обществе письмо к молодому человеку (и наоборот добавляю я) равно преступлению». 3) «Почему я не мог иначе поступить, как написать...» и т. д. Тут просто недоразумение: я вот что хотел сказать этим – мне желательно было написать Вам письмо, но я не знал по какому адресу написать и написал прямо на Ваше имя. Я не мог иначе написать. 4) «Каким образом я догадался, что поздравление с Оручлуг байрамы было от вас». Когда я получил его (а получил месяцем позже) и по печати на конверте узнал, что письмо из Бахчисарай, то в голове промелкнула мысль: «О, если бы это было от вас!» Когда же вскрыл конверт, то убедился в этом: Ваше имя было написано, хотя только точками. Я Вам писал, что пошел на авось и послал письмо на ваше имя. Это место Вы объясняете немного иначе, чем я думал. Вы пишете: «Это значит, не задумываясь о последствиях, действовать по желанию». В данном случае я вовсе не это хотел сказать. Наоборот, я очень много думал о последствиях и много думал о том, как написать, чтобы мое письмо не попало в чужие руки, но ничего не мог придумать... Оставалось одно: написать прямо на ваше имя. Я могу рисковать только самим собою, но не имею никакого нравственного права рисковать, не задумываясь о последствиях, когда замешено другое лицо, даже совершенно постороннее, не говоря уже о близких к моему сердцу. В данном случае если и был риск, то касался Вас. Как же я мог рисковать, не задумываясь о последствиях? Я предвидел Ваш вопрос: «Почему именно я не заехал в Бахчисарай», а потому заранее ответил, но Вы отнеслись к этому ответу скептически и приняли за пустые слова. Но к сожалению, я не могу ничего прибавить к тому ответу. Кроме шуток, я не знаю, почему именно я не заехал. Может быть, то обстоятельство имеет некоторую связь с тем, что я был в Крыму тогда со стороны всех товарищей, и что почему-то мне показалось, что Исмаил Мурза остался не доволен моим поведением в Вашем доме. Как видите, противоречий в моем письме не было.*

*Остается еще один Ваш вопрос...*

*Да что это я, в самом деле отвечаю на ваши вопросы самым серьезным образом, когда Вы их задали просто потому, что нашли нужным задавать, а самом деле вовсе не хотели.*

*Как видите я уже опомнился, так что есть и будущие вопросы, заданные не по необходимости, а по желанию.*

*Как видно и Вы слышали о наших беспорядках. Эта длинная история. Если это вас особенно заинтересует, могу сообщить подробности.*

*Вы приглашаете (меня) в Бахчисарай; благодарю Вас за приглашение, но врядли возможно будет заехать в мае: экзамены кончаются только к концу мая.*

*Желаю Вам успеха в музыке; я страшно люблю музыку, хотя сам профан в этом деле.*

***Жду ответа.***
***Ваш ...***
***25 марта***

* * *

***1904-1905 г.***
***Аджикент***

*Ты вероятно удивляешся Шефи, почему я не ответил до сих пор тебе. Шефи, ты вероятно даже сердишься на меня. Я молчал Шефи по очень серьезной причине; твое письмо от 22 октября заставило меня довольно серьезно призадуматься. Долгие размышления над этим письмом приводило меня к очень нежелательным и прискорбным результатам, что ты совершенно не знаешь меня и что ... даже ты не любишь меня. Ты представляешь себе как мне больно было приходить к таким заключениям. Но я не хочу верить этому, Шефи! Я не могу сейчас даже написать, какие места этого письма и почему именно приводили меня к*

*таким заключением: просто на просто боюсь даже об этом думать. Знаю только одно, что это и еще одно письмо в Аджикент, на которое я помнишь не ответил будут черными тучами на начале весны нашей жизни.*

**Твой Насиб.**

П.С. *Я получил еще два письма от тебя.*

* * *

**27 февраля 1905 г.**
**Одесса.**

*Дорогая моя Шефи!*

*Получил твои открытки и письмо. Прости, что не сейчас же ответил. Ты спрашиваешь почему я неответил на твою телеграмму. Что я мог ответить, Шефи? Что я не жду? Ты бы тогда Бог знает что могла бы думать, и я всю причину выяснить телеграммой не мог; вот и я думаю лучше ничего не телеграфировать, тем более, что накануне уже написал тебе письмо.*

*Ты просишь, Шефи, чтобы я опять, как в прошлом году не на два дня приехал в Бахчисарай. Ты знаешь прекрасно, что эти дни для меня будут одними из самых счастливых в моей жизни. Так что чем продолжительнее, тем лучше. Но... (опять это проклятое но!) мы должны в данном случае руководиться только желанием Исмаил Мурзы, поэтому я и сам хотел тебя спросить сколько времени приблизительно я могу остаться там. И еще вот что! Для чего Исмаил Мурза сам хочет видеть меня? Общестуденческой сходки, Шефи, министр не разрешил. Столовку студенческой закрыли; Арестов много, а вообще ничего не выяснено. Есть приказ от министерства в университет приискать во чтобы то ни стало меры для открытия университета. Но при всем этом надежды на то, что откроется, во всяком случае очень мало. Я уже писал домой об этом и теперь жду ответа. Я конечно сообщу тебе письмом день выезда. На всякий случай дам и телеграмму.*

*На счет землячества поговорим при встрече; а письмо хорошо что не написали: они не стоят того.*

**Целую тебя.**
**Твой Насиб.**

* * *

**18 октября 1905 г.Одесса.**

*Получил, мое гордое, капризное дитя, твое письмо, в котором пишешь о своей болезни.*

*Если бы ты знала, Шефи, как я люблю тебя гордую, самолюбивую и свободную! С первых же дней нашей переписки я заметил эти черты в тебе; я гордился ими и вместе с тем, признаться, я боялся их. Я много думал о них и знаешь к какому заключению приходил? Мне казалось, что нам вместе жить нельзя. Я невольно вспоминал слова Лермонтова: «Из двух друзей один раб другого». Я знал прекрасно, что рабом никогда не буду; чувствовал также хорошо, что и ты не сделаешься рабыней, а если бы сделалась таковой, я бы сейчас разлюбил тебя. Следовательно, думал я наша будущая совместная жизнь будет невозможною. Так думал я до очень недавних времен, скажу точнее, до момента, когда я как бы только что узрел, когда понял, вернее осязал, а не чувствовал только настоящий смысл любви.*

*Правда какой абсурд! Я не могу жить с тобою за те самые качества, за которые особенно люблю тебя. Это было в последнюю нашу встречу с тобою, в тот самый великий момент в моей жизни (Да, да великий... почему, ты сейчас узнаеш!), когда твое и мое самолюбие, если можно так выразиться, стали лицом к лицу, столкнулись в первый раз!*

*В моем памяти, как ножом вырезаны до мельчайшей подробности, впечатления того короткого времени! Я помню прекрасно, как ушел, оставив тебя упорно молчавшую... Не знал, куда я шел, показалось,что иду куда-то далеко, да-*

*леко. Бродил безсознательно по двору; в голове был один только хаос... Позвали обедать. Я не сразу понял девушку, которая меня звала и должно быть как-то дико посмотрел на те, что она служилась и повторила свое приглашение. Я пошел... Сел. Не видя тебя в столовой и как инстинктивно почувствовал, что не придешь обедать. Все превратился в слух... Мне захотелось в ту минуту видеть тебя!.. Мне казалось, что от жизни ничего больше не захотел бы я как посмотреть на тебя...*

*Каждая минута превращалась в час. Начало, совсем некстати тогда, приставить ко мне мадам со своими угощениями. Я должно быть довольно сурово посмотрел на нее, что она сразу перестала угощать меня... Пришел Рефать и объявил, что ты не придешь обедать... Эти слова громом раздались в моих ушах в первую секунду. Потом, как будто все прошло, но у меня явилось дикое желание сделать какую нибуд большую глупость... Смешно теперь вспоминать, но тогда вероятно я исполнил бы... мне страшно захотелось встать, схватить мадаме за нос и водить вокруг стола и поклялся исполнить (задуманное).*

*Хочу дорогая моя Шефи, поделиться с тобой с сегодняшними впечатлениями... Вчерашний день прошел тихо, буднично, хотя, конечно, в городе не было никакой работы и магазины почти все были заперты. Безусловно это было только внешное спокойствие, вернее затишье перед бурей: Все партии (социал-демократы, большевики; социал-демократы, меньшевики; эсеры и т. д.) работали усиленно, готовились к революции. Сегодня утром, как встал с постели, побежал к окну посмотреть, что делается во дворе: пред моими глазами предстало странное зрелище: идут большие толпы с красными флагами; их приветствуют с окон, с балконов, с крыш... На улице ни одного городового, ни одного казака... Ничего не поняв, я наскоро оделся, выбежал на улицу. У всех радостные лица... Поют марсельезы... Кричат ура... Все улицы усеяны красными флагами... У всех на груди, взамен гербов красные бантики... через каждые два шага ораторы говорят речи тысячным толпам... Вырывают манифест друг у друга... целуются. При виде каждого студенты кричат ура и фуражки летают вверх... Отправился в Университет. Во всех аудиториях митинги... читаются манифест, разбираются,как говорится по косточкам... Ораторы доказывают, что нельзя особенно доверчиво к этому манифесту, что не может быть полной свободы, пока не будет приставлена нога к горлу и колена в грудь Николаю... Вышел на улицу... Вся та же восторженная публика. Ни одного городового, ни одного казака, ни одного жандарма... Градоначальник отказался от своей власти... В городской думе заседает комитет по охране общественной безопасности, который предлагает студентам следовать за порядком в городе...*

*В три часа дня начинается студенческая сходка... Ворвался студент и заявляет, что на Дольнитской улице хулиганы громят жителей. Через пять минут другой, затем третий...(выступают). Все больше и больше ужасов... Студенчество, вооружившись кто чем попало бежит туда... И что же оказывается: переодетые городовые вместе с хулиганами, вооруженные прелестными револьверами убивают, режут, ломают, грабят, бют, жгут. Жертв - целые сотни... Отряды студенческой милиции вместе с отрядами рабочих сражались с хулиганами и к семи часам вечера казалось, что все уже успокоено... Но что будет – точно знает только один Бог. Студенты теперь охраняют город: стоят постовыми, делают обходы... словом заменяют полиции. Только разница в том, что городовые козыряли всеми проходившим, а теперь все прохожие постепенно снимают фуражки проходя мимо постового.*

***Целую тебя крепко.***
***Твой Насиб.***

* * *

***2 августа 1909 г.***

*Дорогая Шефи!*

*Третий день, как от тебя писем не имею. Согласна со мною, что эти дни, когда наша девочка болеет, ты не права ждать от меня писем и только на них отвечать. Почему же молчишь? Ведь нужно Шефи долго еще беречь ее, чтобы она не нарушила диету. Больные тифом, даже взрослые крадут хлеб и едят, несмотря на то что они понимают, что от этого могут умереть. Тем более ребенок, нужен за ней бдительный надзор.*

***Целую тебя.***
***Твой Насиб.***

* * *

***1909-1910.***

*Дорогая Шефи!*

*Получил твою открытку и письмо. Что тебе ответить? О чем писать? О делах моих сообщит тебе брат. Скверно, что и говорить! О том, что я скучаю за детьми, за тобою, стоит ли? Ведь в этом никто не может сомневаться. Не правда? Шефи, дорогая, береги себя; береги... Пожалей хот детей. Как чувствуешь себя? Ведь мы с тобою не начинали еще жить... Жить настоящей жизнью. Ведь будет же время, когда обо всем этом останется одно воспоминание. Шефи! Я устал, устал до безумия от этой пошлой, безпечной, грязной, утопающей во лжи и интригах жизни; ведь будешь же жить когда нибудь имея свой собственный уголок, свое собственное дело, свои собственные минуты радости счастья, печали... Я когда думаю, что я останусь вечной бродягой, что этого требует мои наклонности и моя натура... Но это не так, это клевета... самобичевание, больше ничего. Я страстно и безумно люблю «свое собственное счастье», с одним условием, чтобы оно не было связано с унижением и безчестием... Ведь ты знаешь, Шефи, что я не болтун, наоборот скрытен, и не люблю говорить о своей любви, о своих желаниях и мечтах... Но в последнее время я чувствую какую-то потребность говорить. Болтать, помечтать с тобою. Это и раньше со мною бывало, но ты как то... Но лучше об этом не говорить, а то опять поссоримся.*

*Откуда Хаттатов знает, что я в Харькове?*

*Почему не присылаешь мне «Терджуман»?*

*Не забудь немедленно выслать «Церковное право».*

*Пиши о своем здоровье и о детях... Это мне намного интереснее того, что вы смеялись над Бахчисарайскими танцорами и т. д.*

*Уехал ли Рефат?*

*Что поделывают «Маман», Нигяр, дети?*

*Поклон всем.*

***Целую тебя и детей.***
***Твой Насиб.***

* * *

***1 апреля 1910 г.***

*Дорогая Шефи!*

*Удивляюсь твоему терпению. До сих пор ни одного письма, ни одной открытки, ни одной весточки! Что это значить! Разве ты не знаешь, что я с таким нетерпением ждал твое письмо. Сведения о твоем здоровье, о Ниязи, о Зоке? Разве ты не знала, что каждый день полчаса времени теряю на то, чтобы спросить нет ли на мое имя писем до востребования. Ты сто первый раз доказала... демонстрировала свою злость. Ты даже не изволила написать хоть открытку после того как узнала мой адрес.*

*Я занимаюсь часов десять в день... по вопросу, о котором тебе должно быть говорил брат (вопрос) еще не выяснен. Идет страшная борьба между счастливчиками, фа-*

*милии которые начинаются по первые буквы алфавита и несчастными, фамилии которые начинаются с последних букв алфавита...*

*Что ты поделываешь? Ходишь ли лечится? Что делает брат? Где Исмаил Мурза? Поклон Рефату. В каком состоянии Бахчисарайские дела? Были ли выборы главы? Что делают Ниязик и Зока? Вспоминают ли меня?*

*Поклон Исмаил Мурзы, Рефату, Нигяр ханым (пусть и она пишет мне письма), Абиби ханым, двум молодцам, Саиде Рапай и пр. пр.*

*Посылайте газету. Пришлите и мартовские номера.*

*Адрес: Театральный переулок, № 15, кв. 4.*

***П.С.** По моему подсчету мы имели с папы больше 200 рублей. Я взяла около 50 рублей, следовательно (ты) можешь взять себе летнее пальто.*

***Целую тебя и детей.***
***Твой Насиб.***

* * *

**27 апреля 1910 г.**

*Дорогая Шефи!*

*Не зная, где ты находишься пишу в Бахчисарай. Может быть, ты уже около своих детей! Я пока что томлюсь в Елизаветполе. В пять часов встаю и отправляюсь на поле: то работаю, то хлопок поливаю, то клевер собираю, а то в саду работаю или на сенокос хожу. Жара африканская. К обеду прихожу в магазин; вечером опять отправляюсь на поле. Все наши (и папа) на даче. Я один здесь и ни разу в Адэкикент не ездил. Болел несколько дней малярией, но теперь подправился.*

*Как твои ноги? Признаться, твои нарывы меня беспокоит больше, чем твои легкие. Что же делать Шефи, бывают люди созданные для страдания, очевидно и мы с тобою из таковых. Самое главное не падать духом. Остальное чепуха. Ведь счастье находиться в нас самих. Если мы довольны, значить счастливы. Если нет, так наоборот.*



*Наконец я получил хоть одно письмо от Нигяр, да и вообще из Бахчисарая. Она пишет что головка Зоки проходит. Так ли (это)? Я из твоих писем ничего путного не понял. Где ты поселилась, на каких условиях? Из твоих писем у меня в голове остался один хаос: какие - то студенты, какие то курсистки, прокуроры, технологи, кавалеры, поездки, пикники и больше ничего. А между тем, ты прекрасно знаешь что всякая неясность смерть для меня. Я люблю всегда все представлять себе ясно и отчетливо... Ты о своих новых знакомых ничего мне не писала. В чем заключалось Ваша знакомство? Как с ними встречалась? Где, кто живет? Где гуляли? О чем говорили. Кто из тех какое из себя. Ты писала мне, как - будто отбывала какую то повинность, и чтобы замазать отверстия подбавляля несколько петушиных излияний. Сознайся, что ты не делилась со мной своими чувствами и впечатлениями.*

***Твой Насиб.***

## Çap olunmuş məqalələri

### Bizim mətbuat

"Həyat" qəzetəsinin 47 və 71-ci nömrələrində H. Imzasıyla (hörmətli Hüseynzadə olsa gərək) "Tiflis erməni və müsəlman ictimaisinə dair bir-iki söz" ünvanı ilə gözəl və şayani-diqqət bir məqalə mündərəcədir. Qafqaziyada ermənilər ilə müsəlmanlar arasında bu zəmanədə davam edən şayani-təəssüf hadisatın səbəbi xüsusunda çox mübahisələr olduğu məlumdur.

Erməni mətbuatının bu xüsusda yazdığı məqalələr yek digərinə quralmış olsa idi, şübhəsiz Ermənistanın dörd bir tərəfini əhatə etmək mümkün olur idi. Bir iftira qalmadı ki, onlar müsəlmanların üstünə atmasınlar: cahaddanmı cəhd etmədilər, "ittihadi islam" iləmi dövləti qorxudub fəna halımızın daha da fənalaşmasına təşəbbüs etmədilər?..

Ancaq onların mətbuatında bu məqalə kimi biqərəzanə yazılmış bir məqaləyə təsadüf edəmədik. Hüseynzadə cənabları yazıyor: "Qafqaz ölkəsinin düçar olduğu mərəzi-ictimai, şübhəsiz, imrazi istilaliyyədəndir, çünki məmləkətimizdə görünən əhvali-müəssifə cəmi Rusiya imperatorluğunda başdan başa görünən əhvalın heç qeyri deyil...

Əhvali tarixiyyeyi aləmə diqqət edilirsə görülür ki, əqvam və miləl daima və hər zaman üç hal üzrə bölünmüşlərdir: miləl və əqvamın bir qismi millət hakimi olmuşdur. Bir qismi millət hakimi olanlara kamali inqibah ilə səs-səda çıxarmayaraq itaət etmiş, bir qismi də bunun əksinə digərinin hökmünə razı olmayıb istədiyi kimi rahat yaşaya bilmək üçün çabalayıb durmuşdur. Çabalayanlar bu uğurda ya məhv, nabud olub getmiş, yaxud əməllərinə nail olmuşlar. Bu çabalayanlar hansı qövm və millətlərdir? Bunlar o qövm və millətlərdir ki, bir tərəfdən elm və maarif, sənaye və ticarət qüvvətilə ayılmış olduqları halda digər tərəfdən tabe bulunduqları hökumətlərdən haqsızlıq, zülm və istibdad görməkdə bulunmuşlardır. O halda aləm bunların çabalamalarından, dad və fəqanlarından gurultu-patırtılarından bezar olmamaq üçün üç tədbirdən birində bulunmalıdır: ya bunları məhv etməlidir ki, böyük bir insafsıza nəğdir, ya bunları öz başlarına buraxıb istiqlallarını verməlidir. Yaxud təriqi-ədalətə sülük edib zülm və istibdaddan qətiyyən əl çəkməlidir. Dövrümüzdə mərkəzləri Eçmiadzin olan ermənilər böylə bir hala məruzdurlar.

Az bir vəqt üçün yapon zəfərləri ilə tovqif edilmiş əsla və səblənin müqabilinə və hər tərəfdən əsən şiddətli rüzgarlarla çalxalanmağa başlayan islam ümmanının bögründə erməni istiqlalı mümkün bir şey degildir.

Peterburqda və İstanbulda millətlərə ədalət, hürriyyət və müsaviyət bəxş və təmin edən nizami və mətin bir qanuni-əsasi, bir hökuməti-məşrutə müəssisanı təsis etmədikcə nə Qafqazda, nə Ararat dağının məvrasında, nə də Makedoniyada, Balkan ətəklərində atəşin tezliklə sönəcəyinə ümid etməməlidir.

"Fikir" qəzetəsinin orta Sibiryada ""Yuna" qəryəsindən aldığı xəbərə görə şu qəryə əhalisindən bir neçə mötəbər zat bu yıl



21-ci fevralda Moskvada olan məhəlli ticarətgahlarında cöyülüb "Yuna" qəryəsində "İstiğbali-islam" ünvanı altında qırx böyükdən əlli böyükə qədər axça cəm və bu məbləğə darülmüəllim açıb nəşri-məarif yoluna sərf etməyə niyyət etmişlər. Şimdilik rəis karları: Əbubəkr Əfəndi Virğazov cənabları və müavinləri Əmir əfəndi Ağişev cənabları imiş. Allah xeyirli etsin.

Bu xüsusda "Orta Sibiryalı bir tatar" imzası ilə yazılan məktubda "Fikir" qəzetəsindən gözəl proqramlar göstərilməsini və nə yolda hərəkət olunmasını rica edib soruyorlar.

"Fikir" idarəsi isə mötəbər əfkar sahiblərindən bu suala cavab verilməsini təmənna ediyor.

* * *

"Vəqt" 9-cu nömrəsində

Neçə min yıllardan yirəli öz başlarına yaşayıb dünyağa qatınaşmayınca və özlərinə yat kişiləri qatışdırmayınca ömür sürüb kələkan həm də özlərinin elm mərifətlərinə din və mədəniyyətlərinə tamam hörmət aşinaçıları padşahlarını kög oğlu deyə etiqad edib turxan dörd yüz milyonluq bir millət bu günki gündə, ya ki, az lakin canlı qüvvətli ikinci bir xaqan qarşısına gəlib tiz çökməgə başladı: Kitay hökuməti Yevropağa məxsus bir kamissiya yaparıb Yevropanın mədəniyyətini, surəti-məişətini və üsuli-idarəsini öğrənməgə hacət gördüklərini yazıb sual ediyor ki: "Məişət dəryasında başqaları tərəfindən yenilib getməmək üçün şol qədər ulu bir millət, şol dərəcə əski bir xəlq, mədəniyyət qarşısında tiz çökərkə lüzum görsə hər cəhətdən arəsdə qalxan və hər tərəfdən başqaları arasında qısılıb turğan keçkinə millətlər ki, nəşələrgə görkdür?"

İşbu sualların cavabını hər kim də verə biləcəginə əminəm.

*"Tərcüman" 1906.- № 37, 12 aprel. Səh. 1-2.*

## Bizim mətbuat

Millət məclisində otuz-otuz iki müsəlmandan ziyadə vəkil olmayacağı aşkardır... Amma insaf ilə iş görülüb bəzilərə də qeyrilərə baxılan göz ilə baxılsa idi, bizim də millət məclisində altmışdan ziyadə vəkillərimiz olur idi...

Bu xüsusda "Ülfət" qəzetəsi 18-ci nömrəsində diyor ki:

"Türkistan vilayətində vaqe dörd quberna altmış bin qeyri-müsəlman xalq özlərinə məxsus adam saylamaq üçün soruyorlar, sözləri etibara alınıyor. Bizim müsəlman və yainki qeyri - nəsnədə 96 bin ər kişi, Perm qubernasında 130 bin ər kişi, Orenburqda 220 bin, Semipalatində 300 bin, Saratovda 80 bin və başqa neçə bu kibi qubernalarımızdan bir müsəlman vəkili Qosudarstvennı Dumada bulmay. Qosudarstvennı Sovetdə müsəlmanlığın ismi də bulmay. Bu avroğa nə çarə? Biznin fikrimizcə şulay göylədir: özlərindən Qosudarstvennı Dumaya adam saylamağan hər qubernanın müsəlmanları mütləqa öz aralarında ittifaq qılıb hər qubernadan bir kişini bərqərar bulan sayılab durmağa yabarur ki, gərək. Duma açılanda həm vəkillər qollarında bulunan berxularları bezlan dumağa girib həməsi öz qubernasından mürəxxəs sifətində dəvməd taş sorarlar, dum da bunu qəbul edər, həm etmək lazımdır.

Hər neçin bulsa da Türküstanın altmış bin uruslarının sözünü qəbul qılıb biznin altı milyon müsəlmanı sözünü etibarğa almasalar. Biz özümüz bu xüsusda mümkün bulğan tədbirini qərarğa təbuş. Dumğa gəylə turğan vəkillərimizə ol bu məsələni sorarğa nəbuş.

Yuna qəryəsində bir kaç dövlətli müsəlmanların hamısı ilə qırx - əlli bin rublə toplandığını keçən nömrələrimizin birində dərc etmişdik.

"Ülfət"in fikrinə görə:

Əvvəla, Yuna qəryəsində bir məktəb bina etmək lazımdır. Məktəbin binası səkkiz-on bin təngəmə olsun gərək.

Saniyən, qalxan otuz bin təngə axçanı, şol xeyrat sahibləri öz aralarında bir neçə mötəbər və etimadlı adamlarğa əmin kişilər



ki, ticarət sovdağa buyurub bir neçə yıllar məktəb tərbiyəsinə dəxi bu axçadan sərf qılmayınca şol hümmət sahibləri Amir əfəndilər, Əbubəkr əfəndilər özlərinin hər yıl birə turğan zəkatları ilə tərbiyə qılıb hətta mümkün bulağanda bu ağçağı hər yıl qoşarğa gərək, taki bu ağça bir neçə yıl içində əqəl yüz bin təngə olsun.

Şu vəqtdə bu ağçağa səkkiz-on faiz (prosent) beyerverlik bir yurt qərarğa gərək. Sonra bu yurtdan gələ turğan saf on bin təngənin hər sənə altı bin təngəsi Yuna mədrəsəsi tərbiyə qılırğa və təibən iki bin təngəsinə Yuna məktəbində oxuğan şagirdlərdən cəbət məmləkətlərdə: İstanbul, Misir, Parisdə daima altı müstəid yenətini təlim edib götürdülər. Qalğan iki bin təngə hər sənə ehtiyat sərmayəsi bulub təkrar üsər, təkrar bu ağçanı tez östərib bir neçə yıl üçün də bin bəxşi sərmayə olur".

* * *

Bu günlərdə idarəmizə Kazanda yeni çıxmış "Bəyani-həqq" qəzetəsinin 2-ci nömrəsi gəldi. Qəzetənin məsləkinin bir nömrədən anlamaq mahaldır. Ancaq bu nömrədə Kazanda çıxan "Divanski kuryer" ünvanlı rus qəzetəsinə və Orenburqda çıxan "Vəqt" qəzetəsinə idarədən verilən cavablar zikr olunan qəzetlərin "Bəyani-həqq"in məsləki xüsusunda nə rəydə olduqlarını göstərir. "Divanski kuryer"ə cavab eynən:

"Qəzetəmiz dünyağa çıxıb yazmazdan ilk həm qəzetimizin məsləkində balxayınca "Voljski kuryer"ini səbəbdəndir "Çornaya sotnya" qəzetə çıxacaq deyib xəbər verib qoydu. Qəzetəmiznin birinci nömrəsi çıxacaq da "V.K" - nın idarəsinə yaburduq yaxşılayaraq fərab özümüzgə görsəti üçün: qayəsi məqalələrdən qəzetəmiznin Çorna Sotnyanı, inanan anladı, inandı, qəzetəmizin təğtisəlab fərağından sevinən "V.K." özünün xətasun anlasa gərək. Biznin məğsudumuz gəzetəmizdə mümkün qədər tərəqqini qutlab yazmağdır. Çünki mütəllimimiz üçün solay məsləkdəki gəzetələr genə qaidəlidir".

Və yenə "Bəyani-həqq" şu nömrəsində qəzetənin nəşrini təbrik edib və kamali-xahiş ilə xizmət edəcəklərini arzu edən mətbəə mürəttiblərinin məktubunu dərc edib diyor ki:

"Bu təbrikanə yazıdan məqsud "Vəqt" mühərririnin 8-ci nömrəsində "tumağan, talğa, toxta" yasavı qəbilindən meydanğa çıxmağan (Bəyani-həqq) qəzetəsi haqqında yazğan gözəl xətasına tənbihdir. İsmini iştur-işutmaz ("izhari-həqq") deyə yalqış yazıb hərf təzvicəbləri qəzetəni tükəl olanında təzminatlar deyə iftira etmişdir. Mühərrir əfəndi! Zinhar bizinin üçün yoxqa borclamanız illərğə şükür olanını həm iki, nömrə qəzetəmizni də aləmi-mətbuatığa ayaq basdırdılar."

**"Tərcüman". 1906. № 38, 14 aprel, s.- 2.**

* * *

## Qafqaziyada erməni - müsəlman hadisatının nəticəsi

"İrşad"ın 80-ci nömrəsində Cavanşir uyezdindən alınmış məktubu (işbu məktubu bu nömrəmizdə dərc ediyoruz) oxudum və heyran qaldım... Saçlarım dik durdu... Kəndi kəndimə düşünməgə vardım: Xudaya! Bir gör, zülm nə dərəcəyə vardı ki, həmişə cövri-cəfada boğulan, qamçıların altında yuvarlanan, boğazına ip bağlanıb atın yedəyinə alınıb, Gəncənin Bala Bağman deyilən yolu ulə süvarinin... başına və gözünə bal yaxılıb Yevlaxda günəşin sıcağına qarşı sivri-süngülərə yem olan, yenə həmin o dağılmış Yevlaxda qamçıların altında kəndi necəni...

Vallah, qolum yazmayır! Daha nələr! Xülasə həmən o müsəlmanlar dilləndi. Yəqin ki, şimdi onlara olan zülm, onlara olan sitəm, daşlara olsa idi, daşlar da ah-nalə edər idi.

Müsəlman və erməni qafqaziyalı qardaşlar! Zavallı qardaşlar! Şimdisi də əməllərinizin nəticəsini düşünürmüsünüz?!

Bir birinizi basdınız, kəsdiniz, odlara yaxdınız, o gözəl Qafqazyanı əlsiz-ayaqsız qadınlarınızın, məsum çocuqlarınızın qızıl qanına boyadınız... Candan maldan oldunuz, dağlara-daşlara düşdünüz. Şimdi Yermolovlar, Pivovarovlar, Freylixlər şəfi (vasitəşi) bəklər, öz qulları ilə yerdə qalan evlərinizi oda yakıyorlar. Üstünüzdə at çapıyorlar.



Qadınlarınızın, qızlarınızın namusuna sataşıyorlar, ufacıq cocuqlarınızı, dağlara, ormanlara salıyorlar...

Qardaşlar, şimdi qəbahətinizi anlıyormusunuz? Şimdi görüyormusunuz ki, qarğa-quzğunları muradlarına irdirdiniz! Cənab Xatisovlar, Arutyunovlar, Kalantarovlar "mədəniyyətli, maarifli" cənablar, nə üçün susursunuz? Nə üçün islamımızdan, cahaddan yazmırsınız? Dünyanın hər bir tərəfinə teleqramlar vurmuyorsunuz? Aliye-münasib sahiblərinin hüzurunda gözəl nitqlər söyləmiyorsunuz. Erməni milləti canını malını qurban etməyi nəzir edib həmişə Avropa xristianları ilə, ələlxüsus Rusiyanı barbar müsəlmanlardan müdafiə etdigindən söyləmiyorsunuz? Bəziniz söyləyir, bəlkə daha gözəl nəticələr görürsünüz!

Hörmətli Əhməd bəy! Gözəl "İrşad"ınızda od tutub yanırsınız. Sual ediyorsunuz: "Hanı o Cavanşiri, o cümlə Qarabağı hay-küy edə, laf və kəzaf ilə dolduranlar? Hanı bəs o mən filanam, filankəsin oğluyam, filankəsin nəvəsiyəm deyənlər?"

Bəradərim, doğrusu bən sizin bu sualınıza təəccüb ediyorum. Siz Qafqaziya bəylərini, əlǝlxüsus Cavanşir və Qarabağ bəylərini qeyrilərindən gözəl tanıyorsunuz zənn ediyorum.

Məgər Qafqaziya bəylərinin dosta xəyanət gözü ilə heç bir zaman baxa bilmədikləri sizə məlum degil?

Onlar dost yolunda canını, malını qurban edərlər. Nə böyük iş olub? Beş-on adam at ayağının altında yuvarlanıb ölüb, beş-on ev yanıb, beş-on kənd dağılıb... Çox böyük iş olmayıbdır ki, öylə şeylərdən ötəri dostluq xatirinə dönmək olurmu?

Evdə gecə-gündüz bir yerdə isə və fücur ilə eyş və işrət ilə məşğul olub keyf edən Pivovarov kibi dost..

**"Tərcüman", 1906, № 39, 17 aprel.**

* * *

## Bizim mətbuat

Süveyş kanalı civarında və Turi-sina dairəsində bulunan ağba nam mövqedən ötrü hökuməti-osmaniyyə ilə Misir və Misi-

rin arxasından İngiltərə hökumətləri arasında zühura gələn məsələdən keçən nömrələrimizdə bir xeyli bəhs edilmişdi. Bu xüsusda Misirdə nəşr edilən "İctihad" məcmuəsində Məhəmməd Übeydulla əfəndi "Ağba məsələsi" sərlövhəsilə məqaləsində böylə yazıyor: "İngilislər hüdud təcavüz ediliyor bulanda məmaniyyətə qalxışmaq istiyorlarsa da dövlətcə məqsədi-məsailə çıxarmaq deyil, iş görmək olduğundan ingilislərin gurultularına qulaq asılmıyor, ingilsilər də dövlətin dəmiryolu inşasında əzmifeyz olduğunu gördüklərindən və çıxarmaq istədikləri gurultunun kəsər əzm ilə təməvuqqi inşaata səbəb olmayacağını anladıqlarından isə bədaye verilən əhəmiyyət tavsadı.

Bu məsələdə Misir məmurları ingilislərin əlilə təhrik olunan alətlərdir. Kəndi köklərilə degil, dövlətlə böylə məsələ çıxarmaq kəndilərini həqiqətən osmanlı tanıyan misirlilərin xəyalxanalarından keçəməz. İngilislər isə bi kibi məsail əhdi-iğbalə müsəlmanları bir birindən ayırmağa degil, ancaq rəvayəti – qəlbiyyələrini xidmət etmiş olurlar. Kaş ki, öylə olaydı.

* * *

Flebedə nəşr olunan "Rum eli" qəzetəsi İstanbulda dörd kürd tərəfindən tələf edilən Rizvan paşanın öldürüldügündən bəhs edərək "Rizvan paşa şübhə yox ki, yaxdığı canlardan, söndürdüyü xanimanlardan birinin nair intiqamına yandığını" söyləyib yazıyor:

"Rizvan paşa bir şairi- nəzahətpərvərin:

Yadındamı doğduğun zamanlar
Sən ağlar ikən gülərdi aləm
Bir öylə zaman keçər ki, olsun
Mövtün son axında xalqa matəm

dediyi gibi insanlığa şayan bir ömürü nəcib sahibi olsaydı şimdi bütün millət məmatma ağlar, matəm edərdi.

Sultan Murad mərhum üçün, Müdhət paşa üçün, Damad Mahmud paşa üçün millət hala ağlıyor və əbədən ağlayacaq. Fəqət Rizvan paşa öldüyü gün əcaba qaç kişi vah-vah dedi?"



* * *

"Fikir" qəzetəsinin 13-cü nömrəsində "Kamil" imzası ilə "Fikir"in Yuna qəryəsindən aldığı qarelərimizə məlum məktuba böylə cavab verilir:

"Bizim fikrimizcə bu cəmiyyətə işini böylə başlamaq lazımdır: müsəlmanca böyük mətbəə açıb hər türlü kitablar nəşr və zamanına müvafiq yazılmış həkimlərin əsərləri öz dilimizə tərcümə edilib çox nüsxələrdə basılıb hər yerdə satılsın, kitabların haqqı arzan (ucuz) olsun, iştə bu təriq ilə həm əhaliyə faidə olur, həm ağça da bitməz və tökülməz."

* * *

"Vəqt"in 13-cü nömrəsində hörmətli Rzaəddin bin Fəxrəddin həzrətləri Ufa qubernasından millət məclisinə saylanmış müsəlman əzalarının tərcümeyi-hallarını yazıyor:

İxtimov Əbusəid əfəndi Abdulxalıq oğlu 1843-cü yılda dünyaya gəlmişdir. 1863-də Kazan şəhərində gimnaziya dərslərini təmam edib 1871- də darülfunun hüquq söbəsində ikmali-təhsil etmişdir.

Əbu Səid əfəndi bu gündə hər nə qədər 63 yaşında isə də salamat bədənli, söylər ki, mahir və cəsarətli türkcə söylər gə, tili irgən, rəsmxətti gözəl, islamlarının arif və adətlərinə ziyadə aşina və müsəlman məsələləri ilə uzun vəqtlər iştiğal eyləmiş bir zatdır. Şah Heydər Şah Gərdən oğlu Sərtlanov başqırd taifəsindən olub 1847-ci yılda dünyaya gəlmişdir.

Şah Heydər əfəndi Orenburqda kadetski kursunda oxuyub çıxdıqdan sonra əsgəri xidmət görüb Türküstan tərəfinə getdi və əksər ömrünü də Səmərqənd şəhərində keçirdi.

1876-cı yıl xidmətdən çıxıb vətənə qayıtdı, bir aralıq Bilbili zemstvosunda rəis və vilayət zemstvosunda həm əza olub xidmət eyləmişdir.

Sahibzadə Dövlətşah oğlu Maqsudov əsilləri Kazan tərəfindəndir. 1874-cü yılda dünyaya gəlib. İslam mədrəsəsində oxumuş və ticarət ilə məşğul olmuşdur.

Cəmaləddin Hərəmşah oğlu Kuramşin 1872-ci yılda dünyaya gəlmişdir. Mədrəsədə oxuduqdan sonra əsgərlik xidmətinə alındı və bundan qayıtdığı Bilbili şəhərinə ukaz ilə imam nəsib olundu.

* * *

"İctihad" məcmuəsində E.C. imzasıyla "Yaponlar əlifbalarını dəgişdiriyorlar" sərlövhəli mündəric bir məqalədə "Son zamanlarda Tokioda latın hürufatıyla təhrir" ismiylə bir məcmuə mövqeyi-intişar etməyə başladığını və bu məcmuənin qayeyi-təsis və intişarı qədim yapon əlifbası yerinə qərb əlifbasını iqamə etmək fikrini söyləyib yazıyor:

"Bir vaxtlar bazdə də latın hürufatının qəbulu və rəddi haqqında bir çox münaqişat qılmağa vüqu bulmuş və əz cümlə mərhum Kamal bəy "Hürriyyət" qəzetəsinin bir çox səhifələrini bu məsələyə həsr-nəzərlə doldurmuş idi. Fikrimizcə hürufatımızı təbdil və islah etməmiz tərəqqi-millimizin meytəqufi-aliyi olan ilk işlərimizdəndir. Bu babda qarelərimizin fikir və mütaliələrini dinləmək istəriz."

***"Tərcüman", 1906, № 41, 21 aprel, səh. 2.***

* * *

## Yeni heyəti - vükəla

Hala Rusiyada mərvər edən inqilabi-siyasinin əksəri Av-ropa məmləkətlərinin başından gəlib keçdiyi məlumdur. Avropada təcrübə və imsali olub keçmiş inqilab və hərəkətlərdən Rusiya dövləti ibrət almaq gərək idi. Qaynayıb axan bir suyun önünü kəsmək mümkün olmadığı kimi oyanmış, qəlyanə gəlmiş xalqın və öz hüquq və vəzifəsini anlamış camaatin dəxi önündə durub toxtatmaq mümkün olamayacağını düşünmək və bilmək gərək idi...



Amma çe faidə ki, ixtiyar sahibi olmaq bir bəlaye-əzimdir... İxtiyar sahibləri nə vüquye-tarixiyyəyi görür və nə də məntiq dinlərlər. İxtiyaratının əldən getmək hissi onların cümlə huş və guşunu cəlb edib gözlərini tamam bağlar. Binaən əleyh bunlar dürlü hiylələr vasitəsilə inqilabın önünü kəsmək fikrinə düşürlər. Vaqeən hiylə ilə başqa bir sıralarda (hətta Portsmutda belə) iş görmək, tələb çevirmək mümkün ola bulursa da, hiylə vasitəsilə inqilabın önünü almaq mümkün olmayacağı aşkardır.

Qraf Vittenin və Durnovun kənara çıxması da bu səbəbdən olsa gərək. Çünki millət məclisinə olan saylavlar düzəlmiş hiylələrin cümləsi bihudə və nafilə olduğunu göstərdi... İləridə hiyləyə yol və mahal qalmadığı gün kibi aşkar oldu və bir qaç gündən sonra millət məclisində ediləcək suallara qəti hiyləsiz və aydın cavablar istəniləcəgi məlum oldu. Böylə olduğu surətdə Vitte-Durnovun bayramı bitdi... Şimdi ancaq iki yol qaldı: ya qəsb olunan hüquqlar cümləsi qaytarılsın və yaki, əski üsulu və əski müamiləyi davam etdirmək istədiklərini açıqdan-açığa söyləyib ağzını açanın ağzını top və qurşun ilə yumdursunlar...

Hər halda bu yolların hər ikisi bir məhəllə, bir məkana çıxacağına şübhə yox. Çünki, yuxarıda dediyimiz kibi köpürüb sapırıb axan suyun önünü kəsmək mümkün degildi.

"Hökumət bu yolların hankı birini ixnibar edəcək? - sualına yeni heyəti-vükəlanın əski üsul və əski idarə tərəfdarı olan Qoremikin, İqnatov və İmsalli kibi şəxslərdən təşkil olunması və məclis açılmazdan əvvəl əğyar və əhali üçün məhalik şərtləri ilə acələcə parə tərz edilib iləridə neçə yıllar yüz bin zəhmət və cövrcəfa ilə əhalinin qazanıb əldə edə biləcəyi parələrin əcnəbi sərmayədarlarının ciblərinə axıb dolmasına söz verilməsi gözəl bir cavab ola bilər.

Xudaya! Durgilən şu qadar qanlar, yıxılan şu qadar xanimanlar yetmədimi?! Gənədəmi evlər ataşlərə yaxılacaq, gənəmi qanlar sel kibi axacaq, oğullar atasından, atalar balasından qalıb ahunalə yer üzünü tutacaq?!...

***"Tərcüman", 1906, № 43, 26 aprel. S. 1-2.***

## Bizim mətbuat

"Vəqt"in 14-cü nömrəli nüsxəsində "Müslim" nam məstəariyəli "Qeyrət, yaki ibrət" ünvanlı bir məqalədə Astarxan qubernasının Ceyranyar uyezdində Çapurin nam bir köyün (kəndin) müsəlmanlarına dövlət tərəfindən olan zülmlər və sitəmlər bir xeyli rəsmi kağızlardan alınmış şayani-diqqət və ibrət məlumat veriliyor:

Anlar 1440-1445-ci yıllarda hələ Kazan qubernasında turduqları zaman bu məzalimlər məcburən xristian doktoruna qeyd edilmişlər...

1840-ci yıladək bu biçarə müsəlmanlar hökumət tərəfindən cəbr və zülm olunduğu vəqtdə kəlisaya varıb hökumət bunlar ilə bir az yumşaq müamilə etdigi zaman Çebrikov kəlisadan toktalıb özlərinin əski dinləri olan islam ibadətlərini icra edib gün keçirərlər imiş.

1840 yılda isə Çapurin xəlqi kəlisaya getməgi tamam tərk etmişlər...

O zaman bunları yeni başdan xristianlığa dəvət etmək üçün iki pop (keşiş) göndərilmiş.

Biçarələr yüz bin dərd-bəlaya mübtəla olub məhkəmələr qapısında sürünüb 1849-cu yılda arxiyerey tərəfindən sinod üzərinə Vaynova qubernatoru tərəfindən daxiliyyə nazirinə yazılmış kağıdlarda onların qeyri pravoslavnı məzhəbinə qayıtdıqları bəyan edilirmiş. 1889-cu yılda bu qəhrəmanlar özlərinin xas müsəlman olub heç bir vəqt xristian dinini tutmadıqlarını və tutamayacaqlarını dava edib qubernatorlar və vəzirlər hüzuruna bir çox ərizələr göndərmişlərsə də cümləsi nəticəsiz qaldırılmış.

Ancaq 1905-ci sənəsi dekabr ayının 25-ci günü Çapurin xalqı müsəlman dəftərinə qeyd edilə bilmişlər. Sahibi - məqalə işbu doğru sözlərlə məqaləsinə xitam veriyor:

"Mükrə ismilə məşhur olan müsəlmanların ümumən tarixləri bir rüşdə olduğundan biz şu Çapurin müsəlmanlarının halından xəbər verdik. Rəsmi xəbər olduğundan bunda yazılmış məsələlər işbu müsəlmanların görmüş cəfalarından bində birisi də olmaz.



Bu xalqların başlarına gəlmiş ağırlıqlar hər nə qədər espanyollar tərəfindən Əndəlis müsəlmanlarına göstərilmiş cəbr və məzalimlər dərəcəsində görülməz isə də gop etməklə də olmaz. Əzabların dərəcəsini ancaq başına gələn adam bilər. Bunların yaşları sel olub axmış, münacatları da ərşlərə çıxmışdır."

* * *

Bu az vəqtdə bizim mətbuat nə qədər tərəqqi etdigi "İrşad"ın 91-ci nömrəsində "Cavab" sərlövhəli məqaləsindən anlaşılır.

Bu zamanlaradək yazdığımız bəhslərimiz deyəndə məzhəbdən geridə qaldığımızdan və bu kibi şeylərdən idi. Amma şimdi iştirakiyyunlardan, Marksdan, Plexanovdan, Joresdən, Bebeldən də bəhs olunuyor.

"İrşad"ın keçmiş nömrələrinin birində "Nər" imzalı məqalədə Germaniya ictimaiyyun-amiyyun (sosial demokrat) firqəsinin mürşidi Bebelin Rusiyada cərəyan edən əhvalat xüsusunda nitqini tərcümə edib denilirmiş:

"Cənab Bebel, sözünüzdən insaf qoxusu gəlir. Ancaq səbəb nədir ki, Rusiya əhalisinə acıyorsunuz da Mərakeş əhalisindən danışmıyorsunuz? Xeyr, cənab Bebel, hərəkətinizdən heç insaf görünməz" – deyib," Yox cənab quzğunlar! Ya ancaq leş üstünə yıxılmağı bacarırsınız və yainki panxristianizm bəlasına mübtəla olursunuz" yazıyormuş.

"Nər"in bu sözlərinə cavab verərək məqalə yazan kaloniya məsələsinə və kaloniyalardan ötrü olan davalara "ictimaiyyun amiyyun" firqəsinin nöqteyi-nəzərini açıqca yazıyor:

"Hər məmləkətdə sərmayədarların məhsulatı zəruriyyətdən ziyadə təhsəbil olmaq səbəbilən yaxılıb qalıyor. Kasadlıq yavuqlaşır. Sərmayədarlar kasadlığı rədd eyləmək üçün bir özgə bazar (rınok) axtarmaq ciddi-cəhdinə düşürlər.

Məsələn, həm Rusiyada və həm Yaponiyada məhsul tərəqqi ediyor və bunların qomşusundakı Kitayda isə təhsilat o qədər yoxdur. Yaponiya və rus sərmayədarları cəhd ediyorlar ki, öz mətahlarını orada satsınlar. Bunlar bir birinə toqquşub axırda da-

va gücilən bir tərəf o biri tərəfi qovub çıxarır ki, yalnız özü ağalıq etsin. Kaloniya politikası füqərayi-kasibənin xeyrinə mütabiq gəlməyib bəlkə dəxi də ziddir.

Mərakeş barəsində Firəngistanla Germaniya bir birilən dava eləməgə hazırlaşırdılar. Hər iki məmləkətin ictimaiyyun amiyyun firqəsi məlum eylədilər ki, hərgah dava başlansa bunlar da ixtilalı başlarlar. Bu səbəbə məbna Bebel Parisə getdi və Jores birliyinə gedirdigi Germaniya hökuməti Joresin birliyinə gəlməsini mən eylədi... Axirüləmr "mirni konferensiya" meydana gəldi... Həm Bebelin və həm Joresin Mərakeş barəsində dediyi xitabları (cənab mütərcim) oxudu. Ondan sonra bunları panxristianizm ləkəsilə bulaşdırdılar. Görünür ki, iki yıl bundan əqdəm sosial konfransında Yaponiyanın ictimai firqəsinin vəkililən Rusiya ictimaiyyun amiyyun firqəsinin vəkili Plexanovun dava vəqti əl ələ tutub dediyi xitabdan mütərcimin xəbəri yox imiş! İctimaiyyun amiyyuna panxristianizm ləkəsi yaxarsan yapon ictimaiyyun amiyyunları da xristiandırlarmı?! Xeyr, əfəndim! Panslavyanizm, panxristianizm, panermənizm, panyəhudizm və qeyri panizmlər ancaq qarnı tox ağaların xəyali-xamiləridir və füqərayi kasibəyə böylə böhtan atmaq rəva degil!..

Doğrudur, Yer üzünün cəmi ictimaiyyun amiyyunlarının da bir "panizmi" var, ona dəxi panxristianizm deməzlər, bunun adı "panfüqərayi- kasibizm"dir.

*"Tərcüman", 1906. № 43, 26 aprel, s. 2.*

* * *

## Bizim mətbuat

"Türk" qəzetəsində "Çin iləriliyor" sərlövhəli "Larevov" risaləsindən alınmış bir məqalədə şimdiyə qədər çinlilərin arasında görünməyən fikiri - vətənpərvəranə oyandığından bəhs olunur. Bunun başlıca səbəbi rusların Yaponiya tərəfindən məğlubiyyəti imiş...



İslahati-siyasiyyə və iqtisadiyyə gündən-günə artmaqda imiş...

Vətən müəzzizlərinin inqilabını düşünən mandarinlər imperator Yeçaiyi yavaş-yavaş fikri-cədidə toğru təşviq ediyorlarmış.

İslahat tərəfdarlarının çoxalmasına səbəb məmaliki-əcnəbiyyə və ya xüsusi yapon darülfünunda təhsil eyləyən çinli tələbələr imiş.

Bunların sayəsində avam lisanında qəzetələr basılmış. Bu qəzetələr əhvali-hazireyi tənqid edib idarənin islahını tələb ediyorlarmış.

Qadınlar da bu hərəkətə iştirak ediyorlar və mandarin qızları üçün Avropa kari məktəblər təsis olunurmuş. Bir çox sənələrdən bəri Çin əmələləri amerikan əmələlərə rəqabət eyləyorlardı. Çinlilərin kəsirətlərindən naşı əl əmegi fövqəladə tədənni eylədi və amerikan əmələlər artıq iş bulamamağa başladılar. Amerika hökuməti Çin əmələlərinə qəbulları qapadı. İştə bu gün Çin əsnaf sindikatları sayəsində çinlilər amerikalıların haqqından gəliyorlar. Əsnaflar aralarında söz verərək Amerika əmtəəsini Çinə qəbul etməməgə başladılar. İttixaz eylədikləri xətti-hərəkət o qədər zəifdir ki, bir çinli tərəfindən bir amerikan dikiş makinası satın almaq kəndisinin edamına müntac olur və vətəndaşları bu söz dinləməyən çinliyi həmən öldürürlər.

Çinlilərin bu hərəkəti-milliyyələri amerikalılara yüzlərcə milyon dollar qeyb etdiriyor. Çin limanlarına toğru gedəcək olan əmtəə Amerika limanlarında dağlar kibi yığılmış qalmışdır."

Bu məqaləyi dərc edərək "Türk" diyor ki: "Oxuyalım, ibrət alalım. Çün böylə təriqi tərəqqiyə gidiyoruz, hala uyuyoruz. Nə vəqt oyanacağız? Dünya yüzündə mövcud olan avropalılar bizim üzərimizə hücum edəcəklər. Çin kəndisini təqsim bəlasından qurtardı, fəqət biz... hala uyuyoruz."

* * *

Hörmətli Əhməd bəy Ağayev "İrşad"ın bir qaç nömrəsində «Qosudarstvenni Duma, ya padşahlıq Şura» ünvanlı məqaləsində Fransa inqilabi-kəbirindən də bəhs ediyor.

Əz an cümlə 94-cü nömrədə məclisi-vükəla millətin vicdanını rahat etmək üçün kral XIV Lüdoviki və zövcəsi Mariya Antuanettayı və qeyri həm əfkarlarını təhti- mühakiməyə alıb işlərinə baxmağa süru etdigi və Maratın məşhur nitqi mündəricədir. Bu nitqi biz də dərc ediyoruz:

"Əfəndilər! Qəlbinizdə rəhmə və zəifə yol verməyin. Bu Lüdovikin ataları, babaları, əcdadları(nın) bizim ata babamıza etdikləri zülmləri yadınıza salın! Bunlar nələr etmədilər? Allah təalanın təbii olaraq verdigi hüquq və ixtiyaratdan Abdullahı məhrum etmədilərmi? İnsanları heyvan dərəcəsində tutmadılarmı? Məsumə bakirə qızlarımızı atalarımız, babalarımız görə-görə rüsvay etmədilərmi? İşçilərin, əkinçilərin, sənətkarların əl qabığları ilə, alın tərləri ilə qazandıqları axçaları cəbrən alıb öz keflərinə məsrəf etmədilərmi? Elmin, maarifin, insaniyyətin düşməni olmadılarmı? Vətəni-əzizimiz olan Firəngistanı bu hala salmadılarmı? Bəziləri diyorlar ki, Lüdovik beşxassə günahkar degildir. Ola bilər! Lakin Lüdovik öz lüdovikligilə təbiətin bir qeyri-təbii olan zahiridir. İnsaniyyət üzrə bir yara misalında artıq və məzur şeydir! Onu götürmək gərək! Əgər Lüdovik bəlkəliyə qəbahətli olmayıb məsum böylə olsaydı gənə onu öldürmək lazım olurdu. Çünki şimdiyədək keşişlər və ruhanilər bizlərə böylə tərbiyə verdilər ki, guya Lüdoviklər yer üzündə zillullah, məbidmən andullah, gög oğlu, yerlər ağası bir zatdır! Onlara əl urulmaz! Onların üzərinə hücum edilməz. Onlara əl götürülsə göglər, yerlər enib zəlzələlər, tufanlar olur. İştə ata-babalarımızın bu qədər müddətdə əsarət zəncirinə göftar olub bu qədər zülmlərə, cəfalara səbir və təhmil etmələri böylə fəsad və yalançı əqidələr sayəsində olmuşdur. Əfəndilər! Bu gün öylə bir gündür ki, bizlər bu əqidələrin fasid və kasib olduqlarını isbat edəcəgiz. Lüdovik ölsün, ta ki, xəlayiq gözlərilə müşahidə etsinlər ki, bunun ölməsi ilə nə göglər yerə enər və nə də tufanlar və zəlzələlər olur! Varsın bir də Lüdovik məsum olsun! Nə olmuş qurbanlar da məsum olurlar. Biz onu camaatin gözləri açılması üçün qurban edəyik! Qanı ilə yuyub təmizləsin. Böylə bir iş labüd və lazım bir işdir. Ata babalarımızın neçə yüz böyükləri məsum və bigünah qurban oldular. Lüdovik də onlardan birisi! Əfəndilər! Cəsarət! Cəsarət! Cəsarət!"

* * *

Altı yıldan bəri Bosna saray şəhrində Boşnak lisanında on beş gündə bir çıxarılmış ədəbi "Bahar" nam məcmueyi-islamiyyə nəşr olunmaqda idi. Bundan sonra yeddinci sənə dəvamiyyəsinin birinci nömrəsindən başlayaraq "Bahar" məcmuəsinin bir qismi türk dilində nəşr olunacaq məcmuənin "qaribani-girami" sərlövhəli ifadəsindən məlum oldu. Bundan murad Bosna Herseqlə müsəlman qardaşlarımız arasında türk lisanını intişar etdirmək imiş. "Bahar" diyor ki:

"Ərəb hürufi ilə yazılan əllisani-şərqiyyəyə meylimiz təbiidir. Çarə odu tatar və sair lisanlar ərəb hürufi ilə yazılıyor və bu lisanlar da kitabi diniyyə bulunurdusa da bizcə (Bosna-Hersek müsəlmanlarınca) Quran nazil olduğu (gündən) lisani-şərqi ərəbidən sonra ən mühüm lisan türkcədir. Ən ziyadə buna mərbutiyyətimizə səbəb ola: deyən İslama dair pək çox kitab bu lisanla yazılmış və yazılıyor. Saniyən: xifalət məzmeyi-islamiyyəyə hayiz büyük bir səltənəti-islamiyyənin lisani-rəsmiyyəsidir. Otuz milyondan ziyadə əfrad müsəlmanın vasitəyi-müxabirəsidir. Salisən: maziyə qarışmış qiymətdar bir çox yadigarlarımızı bu lisan hifz ediyor, bizə ögrətiyor. Bina əleyh lisani-madərzadımız olmamaqla bərabər yenə bu lisandan vaz keçəmiz. Bu lisana məclubiyyətimiz, təbiətimiz təbii və buna irtibatımız səmimidir."

Əlbəttə, müsəlman olan kimsəyə ərəb, türk lisanlarını biqədəri əlaməkan bilmək lazımdır. Ancaq müsəlman olmaqla bərabər hər millət kəndi ana lisanında mədəniyyətli və maarifli ola biləcəgi təbiidir.

***"Tərcüman", 1906, № 44, 28 aprel.***

## Bizim mətbuat

Bu yıllarda "İttihadi islam" (panislamizm) xüsusunda nələr yazılmadı, nələr söylənmədi. Ermənilər gecələri yatıb bu xüsusda qurğular tüşlər (röyalar) görüb gündüzləri dünyanın hər bir tərəfinə teleqramlar çəkib bir parasından dəhşətli biri-birindən biməna xəbərlər yazıb qəzetələri doldururlar.

"Yıldız" qəzetəsi 2-ci nömrəsində "İttihadi islam"ın nədən ibarət olduğunu yazıyor:

"Quranda məzkur olduğunca ənma əlmöminin əxvadır. Yəni bütün dünya əhli-islamı bir birinə qardaşdırlar. Lakin bu ittihad siyasi ittihad deyil, bəlkə fəqət dini bir ittihaddır. Dində qardaşlıq mənası ilə panislamizm hazırda da vardır. Əvvəldə də var idi...

İndi əgər də bir zaman dünyada islam dininə təyəyəcək və müsəlmanları çəbrləyib çıxaracaq hökumət və dövlət qalmasa müsəlmanlar nə üçün müharibə etsinlər? Və nə səbəbdən cihad başlasınlar? Əgər də din xüsusunda ümumi köçləvələr ola başlasa hər yerin müsəlmanı özləri qarşı duracağdırlar. Bunun üçün bütün dünya müsəlmanı birləşməməyində degildir. Həm ona ehtiyac da yoxdur. Çünki dinə köçərlik olduqda həm müsəlman şəhid olub ölümü qənimət bilər. Xeyr, tarix və coğrafiyadan və ümumən fünundan xəbərdar olmayan bəzi müsəlmanlar ehtimal cahilanə siyasi, ittihadi-islamidə fərz qılmışlardır. Lakin böylə fərzlərə bizdə şagird fərzi denilir. Şagirdin də bu zamandakı xəbərdarlarının fərzi degil, nə dindən və nə dünyadan xəbəri olmayan əski qafalı zəmana şagirdinin fərzi deməkdir.

* * *

"Rum eli" qəzetəsi də 23-cü nömrəsində bu məsələyə dair bəhs ediyor. "Rum eli" Bolqarıstan müsəlmanlarının sultan həzrətlərinə nə nəzər ilə baxdıqlarını söylüyor: İtaliyanın bir guşəsində Roma surlarında oturan papa həzrətləri Fransada, Almaniyada bilad sairədə mövcud kötülüklərin ümuri-ruhaniyyəsindən nasıl məsul isə, Osmanlılar padşahı və müsəlmanlar xəlifəsi də Afrikada, Rusiyada və Hindistanda bilan sairədə məskun sərhəddinin əhvali-şərəbə və ruhaniyyəsindən öyləcə məsuldur. Əgər bu rabiteyi ruhaniyyə Bolqarıstan istiqlalı üçün bir əqideyi-siyasi ediləcək olursa, o zaman papa ilə Fransa da məskun katoliklər arasındakı rabiteyi ruhaniyyəyi də Fransa kəndi istiqlalıçın bir təcavüz etməliydi. Halbuki mədəni Fransada o məğrur feyzi insaniyyətdə bu gün ümur dünya ilə idareyi-hökumət tamamilə ayrılmışdır.

Buna nə hacət, Bolqarıstanda məskun katoliklərin papa həzrətləri ilə olan rabitəyi-ruhaniyyəsi Bolqarıstan istiqlalı üçün bir əqidə olmasından müsəlman əhalinin məqami xilafəti islamiyyə ilə rabiteyi-ruhaniyyəsi nədən bir əqidə olsun?"

Panislamizm məsələsi yeni bir məsələ degildir. Bu məsələ ermənilərdən daha əvvəl Avropa mətbuatında dəxi ara-sıra görünürdü. Bu məsələ nərədən törəmiş? Avropalılarmı uydurmuş, yoxsa kəndimizdə də buna bir səbəb varmı?! Bu suala cavab olaraq Misirdə nəşr olunan "Doğru söz" məcmuəsinin 4-cü nömrəsində "Üğba məsələsi" sərlövhəli Məhəmməd Abdullah imzası ilə yazılmış məqalədən bu sətirləri alıb yazıyoruz:

"Dövlətli osmaniyyə o qədər qəvi əlşəkimə bir dövlətmidir ki, ingilislər kimi dünyanın ən qəvi, ən böyük, ən sənətkar, ən mütəmdün bir milləti bu qədər əndişələrə düşürsün. Birini bu yolda mühakimə etmək bir az və həm tabe olmaq o ingilis dövlətinin qüvvətini layiqilə təqdir edəməmək və kəndi hal və mövqeyini iyi görməməkdir" - deyə mahir fikrə etiraz edilə bilir.

Əvət, mənim nəzərimdə dövləti-osmaniyyə xilafəti-islamiyyəni hayiz olmaq etibarilə üç yüz milyon nüfusluq bir dövlətdir. Bu üç yüz milyon nüfusun dini kibi milləti-qövmiyyəti də müsəlmanlığdır. Başqa bir şey degil. Bu üç yüz milyonun idarəsi hanki dövlətlərin əlində olursa olsun, hökmdar həqiqisi birdir. O da yalnız sultan Həmiddir.

Sultan Həmid bir kərrə cahad ya müslimin dedimi, o vəqt aləmi islamiyyət yerindən oynar. Aləmi islamiyyət namütənahi

bir okeanusdur. O okeanusda bir tufan başlar. Artıq o tufana ingilis donanması flan qarşı duramaz".

Məhəmməd Abdullah əfəndinin bu məqaləyi yazmaqdan qəsdi nə olduğu aşkardır. M.A. əfəndi orasını düşünmüyor ki, böylə şeylər ilə nə ingilis, nə də qeyri bir kəs qorxudulamaz.

Lakin kəndi təhti-idarələrində bulunan müsəlmanları bunsuz da əzmək fikrində olan bəzi hökumətlər kəndi təşbinəs və niyyət xainanlarını yüngül yüngül qüvvədən fələ gətirmək üçün böylə bimənə məqalələri kəndilərinə bir vəsilə ittixaz edəcəklərinə şübhə yoxdur.

*"Tərcüman", 1906, № 56, 26 may, s. 2.*

* * *

## İdareyi-müstəqilənin gözəl nəticələri

İstiqlal sahiblərinin yeganə bir istəkləri vardır. O da kəndi qüvvət və ixtiyarlarını əllərindən qeyb etməməkdir, bu yolda onlar din, məzhəb, qövmiyyat və millətlərini fəda etməyə hazırdırlar. Onlar adəta miləli-məhkumeyi təzyiqə başlarlar. Guya ki, kəndi millət və məzhəblərini müdafiə və onun istiğbalını təmin üçün millətı-məhkumələri yer yüzündən məhv və nəbud etmək lazım imiş.

Məsələn, Rusiya hökuməti bizləri, yəhudiləri qeyri millətlərin cümləsini əzib məhv etməyə çalışaraq heç olmazsa dinimizi və məzhəbimizi əlimizdən alıb kəndimizi quldan bədtər bir günə salmaq istədiklərindən səbəbi kəndisindən sual olunduqda "kəndi millətimi və kəndi məzhəbimi müdafiəyə çalışıyorum, əfəndim" cavabını verir.

Kəndi millətinin isə gözləri açılmamış və dünyadan bixəbər və dürlü xəyallara çabuq inancı olub hökumətin amalına yardımda bulunaraq kəndi hüququnun qəsb olunduğundan xəbərləri olmayıb qalıyor. Amma irəlidə əhalinin gözləri görməyə başladıqda kəndi hüququnu kəndisi müdafiəyə qalxar və o zaman hiylə



və düzağlara yer və məhəl qalmaz, zalimlər ilə məzlumlər açıq və qarşı qarşıya durub dartışırlar - inqilab başlanır... bu ümumi və təibi bir faidədir.

Türkiyədə bir hökuməti-müstəqilədir.

Bakalım orada dəxi hal böyləmidir?

Rusiya və qeyri hökuməti-müstəqilələr kibi tərkibi- idarə müstəqiləsi dəxi qeyri millətləri təzyiqə başladı. Bunlar isə elm və maarifdə türklərdən irəlidə olduqlarından onları bəkləməyib kəndilərini istiqlal zəncirləri altından bir-bir xilas etmək əməlinə düşüb və muradlarına nail olmaq üçün Avropa dövlətlərinə müraciət etməyə başladılar. Avropalılar isə gözlərini İstanbula dikib Türkiyəyi mümkün qədər qüvvətdən düşürməyə çalışdıqlarından onlara yardımdan əl çəkmiyorlardı.

Məhkumə millətlər birər-birər əldən çıxdıqca Türkiyə hökuməti kəndi millətini və kəndi türklərini gündən-günə daha böyük sıxıntılara düçar ediyordu. Çünki hökuməti-müstəqilənin birinci məqsədi əfradi-bəşərin (kim olursa olsun bilafərq) hüquq və səadətini kəndi əlinə alaraq istədiyi müamiləyi yapa bilməkdir. Əgər böylə olmasa idi şimdi Rusiya hökuməti Qafqaziyada dünyadan bixəbər kəndi əllərilə kəndi evlərini yıxan inquş və osetin qəbilələrini dürlü vasitələrlə yoldan çıxarıb kəndi ruslarını qızdırmaq istərmi idi?! Ya ki Türkiyə hökuməti qeyri millətlərə verdigi (əlbəttə cəbrən) cüzi ixtiyaratdan kəndi millətini məhrum edərmi idi? Məsələn, İstanbulda sakin ermənilər, bolqarlar, yəhudilər, fransızlar və qeyri əcnəbi millətlər istədikləri qəzetləri və kitabları alıb oxuduğu halda türklər senzor süzgəcindən keçmiş qəzetələrdən məadə gərək türk, gərək əcnəbi və firəng lisanlarında olan mətbuatdan həzzmənd olmağdan məhrumdurlar. Türkiyənin sahibi türklər üçün böylə şeylərin cümləsi yasaq və məmnudur! Qeyri millətlər istədikləri proqramda kəndi balaları üçün kəndi lisanlarında məktəblər açıb təhsili-məarif ediyorlar, türklər isə... kəndiləri istədikləri proqramlı məktəblərdən sərf-nəzər qeyri millətlərin say və ictihadları sayəsində Türkiyədə vücuda gətirilmiş müntəzəm məktəblərə də girib oxumaq biçarələrə məmnu edil-

mişdir. (Keçən 74 nömrəli nüsxəmizin xariciyyə qismində "Sureyi ümid"dən alıb dərc etdiyimiz teleqrama dəvət buyurula).

İştə idareyi-müstəqilənin hər nərədə olsa da üsul və qaidələri müxtəlif isələr belə üsuli-muradları bir olub ixtiyaratı əllərindən buraxmayaraq əhaliyi keyf və meynuşə qullanmaqdır. Lakin dünyada heç bir şey baqi olmadığı səbəbindən idareyi-müstəqilələr dəxi vaxtı gəldikcə zavallarını bulurlar və bulmaqdadırlar.

*"Tərcüman", 1906, № 76, 12 iyul.*

* * *

## Əhvali-siyasiyyə

Bu gün Rusiyada cərəyan edən vüquat öylə bir haldadır ki, yarın nə olacaq sualına cavab verməк pək müşküldür. Millət məclisi dağılmadan müqəddəm əksər qəzetlər "millət dövlət məclisini qapatmaq istədiyi saatdə əhali arasında böyük iğtişaş vüqu bulacaq və üsyan başlanacaqdır"- deyə yazırdılar, əskərlər xüsusunda isə şiddətli üsyan olacağını qəti surətdə yazmağa cəsarət edən yox idi.

Şimdi isə əhvalat büsbütün əksinə görünüyor: Əhali zahirən dumanın qapanmağını çoxdan bəkliyor imiş kimi görünüyor... Hər kəs kəndi işi ilə məşğuldur... Gələcək millət məclisinə əzalar intixab etməyə hazırlaşıyorlar. Əski üsul tərəfdarları əhalinin millət məclisinin qapanmağına zahirən bu qədər soyuq bax-dıqlarına kəndilərinə xoş gələn böyük mənalar veriyorlar... Amma onların durbin olmadıqlarına şimdiyədək əski üsul tərəfdarlığında qaldıqları böyük bir dəlildir... Hər nə isə keçəlim sədada: məqsudumiz əhalinin millət məclisinin qapanmasına soyuq baxmağının səbəbini və altını aramaq degildir. Xülasə, əhali soyuq baxır kimi görünüyor. Amma əskərlər arasında iğtişaş və daha doğrusu üsyan görünüyor. Aşağıda dərc etdiyimiz Finlandiyadan, Kronştadtdan, Reveldən, Tiflisdən bu gün alınan teleqramlar qorxunc xəbərlər veriyor. Əskərlər və matroslar kəndi zabitlərini qırırlar... Bu vüquat inqilabın yeni bir səhnəsi olsa gərək.

*"Tərcüman", 1906, № 81, 24 iyul. s. 1.*

* * *

## Yeni heyəti - vükəla

Aprel nömrələrinin birisində "Yeni heyəti-vükəla" ünvanlı bir məqalə yazmışdıq. O zaman Qoremıkin, Stolıpin və qeyrilərinin yeni təyin olunan zamanı idi.

O zaman biz yazmış idik: " Vitte dövrünün bayramı bitdi... Şimdi ancaq iki yol qaldı: ya qəsb olunan hüquqlar cümləsi qaytarılsın və yaki əski üsuli, əski müamiləyi davam etdirmək istədiklərini açıqdan açığa söyləyib ağzını açanın ağzını top və qurşun ilə yumdursunlar...

Hər halda bu yolların hər ikisi bir məhəllə, bir məkana çıxacağına şübhə yox, çünki yuxarıda dediyimiz kibi köpürüb, sapırıb axan suyun önünü kəsmək mümkün deyildir.

"Hökumət bu yolların hanki birini ixtiyar edəcək? - sualına yeni heyəti-vükəlanın əski üsul və əski idarə tərəfdarı olan Qoremıkin, Stolıpin və İmsali kibi şəxslərdən təşkil olunması gözəl bir cavab ola bilir."

Şimdi bu sözlərimiz haqlı olduğuna şübhə qalmadı. Bu iki ayın zərfində millət məclisində söylənən gözəl nitqlərə edilən lazımlı tələblərə "yox, olmaz!"dan qeyri bir cavab vermədilər, gecə-gündüz millət məclisini dağıtmaq üçün yol aramağa çalışdılar... Amma bunun nəticəsi nə olacağını düşünmədilər. Axır-əlamər istədiklərini yapdılar... yapdılar, amma kəndi əməllərindən kəndiləri xof edərək yeni təriflərindən vaz keçməyə və yenə hiylə-düzaq üsuluna keçməyə qərar vermiş kibi göründülər. Öylə degil isə qraf kadetləri, Quçkovları və qeyrilərini heyəti-vükəlaya daxil etməkdən məqsəd nədir? "Russkiye vedomosti" qəzetəsinin verdigi xəbərə görə N.N.Lvov, E.İ.Quçkov, P.A.Qeydenin yeni

tərtib olunan heyəti-vükəlaya daxil olacaqları yəqin oldu. Bəlkə məqsəd əhali üçün hürriyyət və əmniyyət verməkdir? Bəs öylə olduğu surətdə millət məclisini qapatmaqdan məqsəd nə idi?

Qraf Qeyden, Lvov və Quçkov-Durnov, Qoremıkin və qeyrilərinə görə balansına iyi olsalar da onlardan böyük bir şeyi bəkləmək olmaz, çünki nə qədər ki, əski üsul davam ediyor, ministr Durnov olsun, ya Qeyden olsun - bir böyük fərqi yoxdur.

*"Tərcüman", 1906, № 82, 26 iyul.*

* * *

## Bizim mətbuat

Daha dünya yüzünə gəlməzdən əvvəl "Bəyani-həq" adlanan qəzetənin məsləki xüsusunda "Vəqt" və "Voljski kuryer" qəzetələrinin mülahizatı biçarə qəzetəni buludlar və dumanlara dalmağa məcbur etmişlər idi, şimdi yavaş-yavaş buludlar dağılır, dumanlar açılır, tavuz quşundan borca alman qanad quyruqlar töküllür də "Bəyani-həq" sifətində çır-çılpaq dünyaya zühur ediyor:

Teatroya xanımların, qızların tərbiyəsinə dair gözəl fikirlərini yazburdu. Şimdi də mədrəsələrimizin islahı xüsusunda da gözəlcə şeylər yazbur. Müsəlmanların Piterburqda olan ümumi məclisində islahı xüsusunda söz açdığını və bu mətləbi gələcək ümumi məclisə qaldırıldığını söyləyib diyor ki:

"Məktəb mədrəsələrimiz islahatı məhkəmeyi şəriyyəmiz təsarifindən çıxarılıb Peterburqda qərar verilmiş cəmiyyəti islamiyyə təsarifinə vurulsa ol vəqt məhkəmeyi şəriyyəmizdən qüvvət gedib ona zor zəifliklər gələcəkdir. Və bəlkə bilaxirə bilsənəl izmehlal və inqidamına böylə səbəb olacaqdır?!

Şu cəhətlərdən cəmiyyəti islamiyyənin məktəb mədrəsələr islahatına görüşlərini əsla müvəffəq və məsləhət görməyəmiz. Onlar ol işə girişməsinlər, bəlkə özlərinin əhl və ərbab olduqları və görüşmək lazım olan işlərə girişsinlər."

Gələcək ümumi məclisimizə nə gözəl nəsihətlər!



Əfəndim, nə dediginizi heç düşünürmüyüz?! Müsəlmanlar öz ümumi cəmiyyətlərində kəndi müsəlman məktəb və mədrəsələrinin islahına qarışmasınlar! Əcaib təklifdir!

Tarixi yadınıza salasınız əfəndim! Ərəblərin ən şöhrətli zamanında mollalara məxsus məktəb və mədrəsə varmı idi? Yoxsa cəmi elm, əxlaq, ətibba, fəlsəfə, riyaziyyatlar həpsi bir proqramlı məktəb və mədrəsədəmi təhsil ediyordular?

"Bəyani-həq" gözəl fikirlərini təsdiq etmək üçün Osmanlı və Misiri də misal gətiriyor. Guya Osmanlı məmləkətində elmlərin təlim və tərbiyəsinə üləmalardan başqa bir kəs qatışmırmış.

"Bəyani-həq" hanki üləmalardan bəhs etdigini bilmiriz. Doğrudan doğruya üləmalarımız, yoxsa dövlət tərəfindən intixab və təsdiq olunan mollalarmı?!

İşbu sanki mollaların zühur etdiklərindən və bunların kimdən ibarət olduqlarından hörmətli Əhməd bəy Ağayev "İrşad"ın 104-cü nömrəsində bəhs ediyor. Əhməd bəy diyor ki: "Əvvəl dəfə olaraq Osmanlı dövləti yüz əlli yıl bundan əqdəm rəsmi şeyx İlyasla mülaqi və müftiliyi bina etdi.

İnhirafa yüz tutan dövlətin qəsdi bu eldəki ruhaniləri polis idarəsi kibi özünü maaş və mənsəb vasitəsilə müti edib onların vasitəsilə rəiyyətə hər xaiş və təmənna etdigi təlim və cəbrləri etsin.

Ruhaniləri hürriyyət və azadəlik nemətindən məhrum edib boyunlarına nişan, mənsəb silsiləsini salıb polis və əskər kibi nizama saldı. Ruhanilər Allaha, şəriətə qulluq edib xəlayiq əlilə mühafizə etmək, özünə, sultana, paşalara, hakimlərə xidmət etməyə başladılar. Elm, fəzl, dəyanət və həmiyyəti-milliyə yavaş-yavaş aralıqdan götürülüb, meydana hiylə və təzvir, intriqa və vəsvəsələr gəldi. Ruhaniliyə təyin olanların daima elm və fəzli mülahizə olmayıb hakimin bu hökmünün söyləməkləri o böyügün, bu sahibi-mənsəbin üzlərinə arsız və həyasız təməllüğ etməkləri, o ərbabi-sərvət və samanın, bu sözü ötkün kişilərin yanında casusluq edib ayə şərifələri, əhadis və rəvayətləri münhərif edib kökslərinə bir nişan almaq niyyəti-dənaətkaranə ilə şəriəti-

qərai-məhəmmədiyyəyi növbənöv hava və həvəslərə qurban etmələri mülahizə olundu.

Rusiya məlaikəsi Yekaterina Osmanlı dövlətindən bu faidə və tərtibi götürüb birinci dəfə olaraq Rusiyada sakin müsəlmanların ruhanilərinə çarə etdi. Əvvəl dəfə olaraq bu məlaikə bir qəribə hiylə və tədbir ilə idarəyi-ruhaniləri Şeyxül-islamları, müftiləri, qaziləri icad edib meydana gətirdi.

* * *

Rusiya müsəlmanlarının elm və mərifətdən məhrum qalmağlarının, məktəb və mədrəsələrini tərtibə qoymağdan geri turmaqlarının başlıca səbəbi missionerlər olduğunu hörmətli Rizaəddin bin Fəxrəddin "Vəqt"in 21-ci nömrəsində yazıyor:

"Həm siyasət, həm ruhani xidmətdə olmaq həvəsi ilə sərxoş olmuş missionerlər kəndi məqsədlərinə yüngül bir yol açılır zənni ilə islamistləri rusca oxutmaq, məktəb və mədrəsələrinə rusca müəllimlər qoydurmaq fikrinə tüşüb bunun çarələrini izləməkdə idilər. Əgər də rusca bilirlər isə islamlar xristianlığa görə kirvə olaraq krımçakları, bunların cansız xəyallarından olmuşdur. Bu taifənin işbu fikri bütün Rusiyaya taraldı. Bundan isə çürümüş çuvaş qövmləri də qorxduqları kibi islamlar da qorkdular. Məktəb və mədrəsələrini bunların təsəllüflərindən saxlamaq çarəsinə girişdilər.

Dünyada ən faidəli şeylərin biri sudur. Lakin bozorq niyyət ilə verici qolundan bunu qəbul etməyə heç kimin namusu rizalıq verməz, canım getsin, namusum ilə olacağım deyə nida eylər. İştə islamlarda rusca oxumağını qəbul etməmişlər isə bunun gərəkliyini bilmədiklərindən olmayıb, bəlkə xeyirsiz qollarından veriləcək olduğu üçün qəbul etməmişlərdir. Əgər elə bu şey bir tağım xudbin və şöhrətpərəst cahil tərəfindən degil, bəlkə əhli-elm və insan naminə layiq olan səbr və vüqarlı zatlar tərəfindən təlqin edilmiş ola idi, müsəlmanlar qayət xoş könül ilə qəbul etmiş olurlar idi."

Zaqafqazda missionerlər lazımınca yerləşə bilmədiklərindən Gəncə, Şuşa və qeyri şəhərlərin gimnaziya və realnı məktəblərinin sülüsi türklərdən olduğu Rizaəddin əfəndinin sözlərinə böyük dəlil ola bilir.

* * *

"Kazan müxbiri"nin 79-cu nömrəsində hörmətli Y.A. (Yusif Akçurin olmalı) millət məclisi ilə dövləti qarşı qarşıya qoyub deyir:

"Rusiya tarix(nin) ən mühüm günlərindən 27-ci apreldə Tavriçeski sarayında söylənilən xütbələr xalq həm törələrinin dostluğa çağıran iki xüsum kimi düşmənlikli nəzakət birlan salamlaşqanlığını böyük açığa görsətdi.

...Bu suala "vətən xadimi" cavab veriyor: "Əcəba, qalibiyyət hanki tərəfdədir? Bu sualın cavabına hacət yoxdur zənn edəriz.

Günəşin ziyasıyla, gecənin zülməti arasında olan münaziədə heç ziyanın qaranlığa qələbə etmədigi varmıdır? Qəhrəman həyat və qüvvət sahibi bir qəhrəman tərəfindən kəsilmiş, bir ayağı dünyada, digəri məzarda olan bir ixtiyarla güləşdikdə zavallı ixtiyarın kəmikləri parça-parça olaraq qırılmadığı görülmüşmüdür?..."

***"Tərcüman", 1906.***

## Batuma sülh nümayəndəliyi göndərməzdən öncə N.Yusifbəylinin Zaqafqaziya seyminin müsəlman fraksiyaları qarşısında məruzəsi (1918, mart)

"Biz ölkəmizin daxili və xarici vəziyyətini ciddi-cəhdlə götür-qoy etməli və bundan asılı olaraq öz nümayəndələrimizə direktivlər verməliyik. Mən diqqəti ölkənin daxili vəziyyətinə yönəltmək istəyirəm. Yeni-yeni məlumatlar bütün Zaqafqaziyada, xüsusən də şərq hissəsində dəhşətli anarxiyanın hökm sürdüyünü göstərir. Dəhşətli vətəndaş müharibəsi başlayıb. Kənd kəndin üstünə hücum çəkir, günün günorta cağı qətl və qarətlər baş verir. Gəncədə küçənin ortasında həyasızlaşmış talançılar qadınla-

rın çadralarını başlarından çəkib atır, bəzək əşyalarını tutub alırlar. Çox təfərrüata varmağa lüzum yoxdur, çünki hər şey eyni dərəcədə sizə də məlumdur. Bu cür dəhşətli anarxiya təkcə bizdə - Azərbaycan türklərində deyil, bütün Zaqafqaziya ərazisində yayılıb. Onu yatırtmaq üçün qüvvəmiz yoxdur. Vəziyyəti o da ağırlaşdırır ki, şərqdən bizim əbədi düşmənlərimizlə bolşeviklər hücum edərək, özləri ilə talan və türk xalqının tam məhvini gətirirlər. İşlərin belə vəziyyətində, tamamilə müdafiəsiz qaldığımız vaxtda xarici müdaxiləyə müraciət etməkdən başqa bir çarəmiz qalmayıb. Müstəqilliyimizin qızğın tərəfdarlarından biri kimi, mən bu barədə birinci söz açmağa məcburam. Təhlükənin gözünə cəsarətlə baxmaq, gələcək hadisələrin əlamətlərini ayırd etmək və vaxtında zəruri tədbirləri görmək lazımdır. Bu halda biz hadisələrin belə bir xoşbəxt kəsişməsinə sevinməliyik ki, bura gəlməli olan xarici qüvvə bizə dost və qardaş olan Türkiyədir. Bəlkə də, bu bizim qonşularımıza xoş gəlməyəcək, ancaq başqa çıxış yolumuz yoxdur. Qorxunc anarxiya qarşısında qonşularımız da bizim kimi gücsüzdürlər. Onlarda olan hərbi qüvvə də anarxist ahval-ruhiyyəlidir, qanun-qaydanın dayağı rolunu oynaya bilməz. Hərgah onlarda intizamlı qüvvə olsaydı, onların yardımına ümid bağlaya bilməzdik. Xətir üçün xəstə düşə bilmərik. Bizim nümayəndə heyətimizin Batuma getmək və Şərqi Zaqaf-qaziya türkləri adından Osmanlı imperiyasından yardım istəmək vaxtı gəlib çatmışdır. Əlbəttə, biz təcili olaraq qoşun göndərilməsi üçün türklərə çox da təkid edə bilmərik; biz ancaq xahiş edəcəyik. Ancaq bütün bunlarla yanaşı, azad Azərbaycanın müstəqil surətdə mövcudluğu ideyasını heç vaxt gözdən qaçırmaq lazım deyil."

*Mənbə:* **R.Vəkilov. Azərbaycan respublikasının yaranma tarixi. Elm, Bakı, 1998, səh. 22-23.**



## Azərbaycan parlamentində çıxışlar

**29-cu iclas. 14 aprel 1919-cu il**

(*Mərkəzdən və soldan şiddətli alqışlar içərisində Nəsib bəy Yusifbəyli kürsiyi-xitabətə çıxaraq şu nitqi irad edir*) - Möhtərəm məbuslar! Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti istiqlaliyyətini elan etdiyi bu az bir zamanda yar və əğyar nəzərində müstəqil olmağa layiq bulunduğunu göstərdiyindən, bu günkü hal və mövqeyimiz iki ay əvvəlkindən daha mətin və daha sağlamdır. Əvət, 10 aydan bəri əmr vaqe olan müstəqil Azərbaycan bu gün düvəli-müəzzəmə tərəfindən dəxi hüsnü-qəbul ərəfəsində bulunduğuna və Azərbaycan türklərinə yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir. (*Mərkəzdən alqış!*)

Bu belə olacaq idi. Çünki Azərbaycan türkləri yekvücud olaraq erkək, qadın, gənc, ixtiyar, fəqir və zəngin, fəhlə və rəncbər, "Müsavat", "Əhrar", "Sosialist", "İttihad", xülasə bütün millət təni vahid kimi istiqlalımızı mühafizə etməyə yəqin etmişdir. (*Mərkəzdən və soldan alqış!*)

Çünki millətin şu əzminə bilavasitə şahid olan böyük və demokratik İngiltərə komanda heyətinin aldığı təəssüratı qərəzsiz, mübaliğəsiz Parisdə iniqad edən məhkəmeyi-kübrayə ərz edəcəyi şübhəsizdir. Əvət əfəndilər, bunlar həp doğrudur. Məmmafiyə bu gün qarşımızda istiqlalımızla bərabər, təmamiyyəyi-mülkiyyəmizi təmin etmək üçün həlli bəklənilən bir çox məsələlər vardır. Hökumət bir an əvvəl məzkur məsələlərlə olmağı kəndisi üçün ən mühüm və müqəddəs vəzifələrdən ənn edir. Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabancılar əlindədir. 100 minə qədər vətəndaşımızın həyatlarına irz və namuslarına təriz edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz tikənlər dəxi vardır.

İşdə bu məsələləri həll etmək, həm də son imkanlara qədər sülhən həll etmək, hökumətin ümdə və əsas məsələlrindəndir.

(*Sağdan: Qarabağ! Qarabağ!*) Hökumət inanmaq istəyir ki, Azərbaycanın bu haqqı-sərihi bu günlərdə Tiflisdə iniqad edəcək konfransda dəxi qonşularımız tərəfindən təslim və qəbul olunacaqdır. Çünki biz biliriz ki, bizim kimi qonşularımız dəxi bizimlə sülhlə yaşamaq istəyirlər. Mavərayi-Qafqazda təşəkkül etmiş cümhuriyyətlərin istiqbalı işbu cümhuriyyətlər arasında sülh və səlahın davamına bağlıdır. Bu isə hər kəsin haqqı kəndisinə verilməklə mümkündür.

Qonşularımızdan bəhs edərkən bir, iki söz Dağıstan Cümhuriyyəti xüsusunda ərz etmək istərdim.

Əfəndilər! Dağlılar ittifaqı Cümhuriyyətilə bizim aramızda ixtilaf deyil, heç bir günə ayrılıq, qeyrilik belə təsəvvür ola bilməz. Şimali Qafqaz azərbaycanlıların vətəni, Azərbaycan şimali qafqazlı dindaşlarımızın yurdu, ocağı məsabəsindədir. Məlumi-alilərinizdir, Denikinin orduları Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onlara və onlarla bərabər bizləri yenidən təhti-əsarətə almaq fikrindədirlər. Halbuki, bu işin o qədər qolay olmadığını Qafqaz qartalları şu günlərdə o ğasiblərə qanlı dərslər verməklə isbat edirlər. Şu arslan mücahid qardaşlarımız bilməlidirlər ki, biz həmişə onlarla bərabəriz. Möhtərəm əfəndilər! Digər qonşularımızla dəxi şimdiyə qədər olduğu kimi sülh və müsalimətlə yaşayacağız. Sevgili Azərbaycanımızın şan və heysiyyətini mühafizə etməklə bərabər hökumət qonşular arasında zühur edən cümə məsələlərinə sülhlə həll edilməsi tərəfdarıdır. Bunu biz belə bilir və qonşularımızın dəxi belə düşünəcəklərinə şübhə etmiriz. Təbii, bu sülh və səlahın başqa şəraiti dəxi vardır. O da əqəliyyətdə qalan millətlərin haqqını tanımaqdır. Zülm və istibdad altında yaşayıbda "inorodes" nami təhtində, bir əsrdən bəri, maddətən və mənən bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan daxilində bulunan bütün vətəndaşlarına bir gözlə baxmaqla hər kəsin kəndi dilində yazıb oxumasına, kəndi dilini və kəndi milliyyətini mühafizə etməsinə müsaidə etməzsə, tarixi bir səhv yapmış olur. Onu üçün hökumət sevgili Azərbaycanımızın cümlə vətəndaşalarımız üçün həqiqi bir vətən olmasına çalışacaqdır.



Bu böyük dünya yanğınının doğurduğu anarşinin zühur edən ədavətin önünü almağa və təkrar yenə meydan verməməyə səy və iqdam ilə hökumət bu kimi milli xüsumat və tərizlərə heç bir vəchlə yol verməyəcəkdir. Burada torpaq məsələsindən, əmələ məsələsindən uzun uzadıya bəhsdən lüzum görmürəm. Çünki rəncbərə torpaq, fəhləyə iş məbusan əksəriyyətinin şüarı olduğundan təbii hökumətin dəxi şüarı olacaqdır. Torpaq məsələsinin qəti surətdə həll etmək təbii millətı bəhaqq təmsil edəcək Məclisi-Müəssisan haqqıdır.

Bu xüsusda bu günkü hökumətin üzərinə ancaq bir vəzifə tərib edər. O da məsələni ətraflı hazırlamaq. Torpaq işlərinə dair bütün vəsaiti cəm və təlif etmək və bu surətlə Məclisi-Müəssisanın heyni iniqadında şu ağır və mühüm bir məsələnin qolaylıqla həll edilməsilə müavinətdə bulunmaqdan ibarətdir. Bununla bərabər gərək torpaq və gərək əmələ məsələsində bir ixtilaf zühur edərsə, hökumət hər zaman zəhmətkeşlərin hüququnu müdafiə edərək onların tərəfində bulunacağını vəd elər. (*Mərkəzdən və soldan alqış!*)

Hökumət əmələnin haqq-səyini müdafiə və kəndisini sığorta üçün qanunlar hazırlayacaq.

Məbus əfəndilər! Hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictimai, mədəni və demokrat bir dövlət təşkilinin şəraiti əsliyyəsindədir. Bu xüsusda zənn edirəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən bu hürriyyətlər dünyanın heç bir yerində mövcud deyildir. Hökumət, təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, nərədə ictima edirsə etsin. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. (*Ümumi sürəkli alqış!*)

Şu istiqlaliyyəti, millətin şu müqəddəs və məşru haqqını təhqir etdirməyə, şu ülvi hissiyyatına toxundurmağa hökumət var qüvvəsi ilə çalışacaqdır. (*Mərkəzdən, soldan alqış!*)

Bu məsainin məcrai təbiisində və bir intizam daxilində cərəyanı üçün hökumət yaxın vaxtlarda müəyyən bir qanun layihəsi tərtibi ilə təsvib və təsdiqinizə təqdim ediləcəkdir və beləliklə, şu müqəddəs hürriyyətlərdən sui-istemal edənlər məmurların deyil, ədliyyə məhkəmələrinin adilanə və qanuni qərarlarına tabe tutulacaqlardır.

Əfəndilər! Bu hürriyyələrin ən müqəddəsi məlumi-alilərinizdir ki, hürriyyəti-vicdan, şəxsiyyə və məsuniyyəti beytiyyədir. Təbii, əqidə və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib edilməz. Burada diqqətə şayan bir cəhət vardır ki, o da bütün cümhuriyyət daxilində məzkur hürriyyətləri anlayacaq, mühafizə edə biləcək zəbtiyyə və polis məmurları bulunmasıdır.

Hökumət bu dairə millətin münəvvər fikirlərini dəvət etməyə təşəbbüs edəcəkdir. Hərgah bu xüsusdakı dəvət qəbul edilməzsə və bu dairələr ləyaqətli əllərə tövdi olunmazsa, millət əfradı bu yolda yapılan qanunsuzluqlardan, haqsızlıqlardan xilas olamaz. Hökumət bu babda əlindən gələni əsirgəməyəcəkdir. Məəmmafiyə bu xəstəliyin önünü almaq üçün hökumət başqa çarələrə dəxi təvəssül edəcəkdir. Məlumi-alinizdir ki, hər hansı bir sui-istemalın önünü almaq üçün qəti və yeganə çarə onu doğuran səbəbləri izalə etməkdən ibarətdir.Bunun belə olduğunu isbata hacət belə yoxdur. Binaən-ileyh, hökumət hər xüsusda və bilxassə ümuri-daxiliyyədə ilk öncə mövcud əsbabın izaləsi fikrinə çalışacaqdır. Şöylə ki, bir an əvvəl zemstvo idarələrini vücuda gətirmək və bu vasitə ilə cümlə məmurları hökumətin nəzarət və tərsəsindən mandə əhalinin dəxi müraqibəsi altına almaq. İşdə bunun üçün zemstvo idarələrinin sürəti-mümkünə ilə meydana gətirməyə hökumət təşəbbüs və mövcud şəhər idarələrini həyata dəvət edəcəkdir. Və bununla bərabər hökumət məmləkətin təqsimat idarəsini dəyişdirməyə müsaidənizlə iqdam edəcəkdir. Təbii sui-istemalatla mübarizənin başqa çarələri dəxi vardır.

Ən müəssir çarələrdən biri də cinayət işləri qanunən təqib ilə canilərə, hər kim olursa-olsun, cəzayi-səzasını verməkdir. Hökumət bu xüsusda üzərinə düşən vəzifəni icra edəcəkdir.



Bu cəzalar dəxi, əlbəttə, ədalət və həqqaniyyətə istinad edilməli və hər dürlü səhv və qərəzdən bərri bulundurulmalıdır.

Bunun üçün də ədliyyə məhkəmələri əhaliyə daha yaxın və milli bir ruhda olmalıdır. Bu xüsusda dəxi hökumət bir yenilik, bir əsəri təcəddüd göstərməyə və tez bir zamanda müməyyiz hakimlərin ədliyyə məhkəmələrinə cəlbinə çalışacaqdır.

Möhtərəm əfəndilər! Hökumət bütün səyini bir an əvvəl Məclisi-Müəssisan toplamaya həsr edəcəkdir. Bunun üçün komissiyada qəbul edilmiş olan intixabat layihəyi-qanuniyyəsinin tezliklə məclisdən keçirilməsini arzu edəriz.

Möhtərəm məbuslar! Məlumunuzdur istiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamaya və işbu eyluldan etibarən ibtidai məktəblər açmağa təşəbbüs edəcəkdir. Sənaye məktəblərinə ayrıca diqqət edəcəkdir. Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim cocuqlar üçün rus lisanında ibqa edəcəkdir. Hər millətin kəndi lisanında oxumasına heç bir mane olmadığından onların cocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır. Edadi məktəblər bulunmayan məhəllələrdə yenilərini açmağa təşəbbüs ediləcəkdir. Müəllimlərə olan ehtiyacımızı rəf üçün kafi miqdarda darülmüəlliminlər açmaqla bərabər xaricdən dəxi müəllimlər dəvət etməyə çalışacaqdır. Dərs kitablarımız dəxi azdır. Maarif nəzarəti bunun çarəsini düşünəcəkdir. Şimdidən komissiyalar təşkil edilmişdir. Bir taqım kitab intixab və tərtib edilmişdir. Bunların təbinə müstəcələn şüru edərək eylula qədər lüzum görürəm kitabları kamilən izhar və tədarükə səy edəcəkdir.

Hökumət ali təhsili dəxi düşünmüşdür. Bunun üçün Ali Ziraət məktəbi qanun layihəsi təsvibinizə təqdim edilmişdir. Tiflisdə bulunan Mavərayi-Qafqaz darülfünunun paytaxtımıza nəqli üçün müzairata girişilərək eylül ibtidalarında tədrisata burada davam edilməsinə səy və iqdam ediləcəkdir.

Darülfunumuzda təbii lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər açılacaqdır.

Məbus əfəndilər! İstiqbalımızın təmini üçün başqa tədbirlər ittixazı da lazımdır. O da iaşə, ticarət və maliyyə işlərini yoluna qoymaqdır. Ərz etdiyim bu işlər bir-birinə sıxı-sıxıya bağlıdır. İaşə məsələsi Azərbaycanda şimdi başqa bir rəng almışdır. Müharibədən dolayı başqa məmləkətlərdə olduğu kimi bizim vətənimizdə dəxi bütün ticarət inhisar altına alınmış idi. Nəticədə, təbii, süni olsa da böyük bir dairə hətta iaşə nəzarəti naminə başqa məhəllərdə dəxi olduğu kimi bir nəzarət təşkil edilmişdir. Məqsəd xüsusi ticarətlə yol verilməyəcək əhalinin iaşəsinə xüsusi diqqət etmək idi. Əhalinin iaşəsinə həsr diqqət etmək idi. Bunun üçün daxili və xarici ticarəti dövlət kəndi öhdəsinə almışdı. Bu üsulun nə qədər müzürr və xəm nəticələr verdiyi məlumunuzdur. Bittəb Azərbaycan hökuməti bu üsuldan vaz keçdi. Daxildə ticarəti yenidən əhyaya çalışdı. Şimdi hökumətin öhdəsinə düşən bir vəzifə varsa o da əşya fiyatlərinin həddindən ziyadə yüksəlməməsi üçün bazarda kafi miqdarda əmtəə və ərzaq çıxararaq ticarətlə rəqabət etmək və mümkün olduğu qədər Azərbaycana xaricdən ərzaq və əmtəə cəlb etməkdir. Bu isə artıq ticarət nəzarətinin işidir. Ona görə hökumət iaşə nəzarətini ləğv edərək bu nəzarətin bəzi vəzifələrini ticarət nəzarətinə tövdi etməklə iktifa edəcəkdir.

Möhtərəm məbuslar! Şu çəkdiyimiz bahalıq, bunnan dolayı keçirdiyimiz sıxıntını həp ticarətimizin mehvəri əslisində cərəyan etmədigindəndir. Bunun da səbəbi məlumdur.

Bizim sərvətimiz, rifah halımız həp neft ticarətinə bağlıdır. Halbuki neftimizin ən böyük bazarı olan Rusiyanın yolu bağlıdır. Bazar açılmazsa bir korluq çəkəcəyik. Digər tərəfdən Rusiyanın bizim neftimizə ehtiyacı o dərəcədədir ki, bizimlə anlaşmazlar, bizimlə bir "modusu verəndə" vəz və təyin etməzlər isə Rusiya olduqca böyük və təhlükəli və müşkilat zühur edə biləcəyi bədihidir. Binaən-ileyh, hərgah Astraxan tərəfindən bizə ticarət qapılarını açmaq vüqu bulursa müəyyən şəraitlə qəbul edə biləriz. Filhəqiqə, bizim üçün Rusiyanın daxili işlərinə qarışmağa haqqımız yoxdur. Rusiyada hansı firqə qalib gələcək, hansı adamlar iş



başına keçəcək. Bu bizim vəzifəmiz deyil, böyük Rusiyanın kəndi işidir. Biz Rusiya ilə, dövləti ilə hər zaman sülh və səlahla, dustanə keçinmək istəriz. Yalnız bir məsələ var ki, (bolşevik Rusiyamı, menşevikmi, yoxsa birimi olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb edəriz. Bu da haqqımız olduğunu təbii kimsə inkar etməz zənn edəriz. (Mərkəzdən, soldan alqış!) Bunun üçün də Rusiya ilə hər bir ticarətə girişməyi, münasibəti dustanə təsis etməyi Azərbaycan hökuməti hər zaman kəndisinə borc biləcəkdir. Astarxan yolu açılarsa, iki yüz milyon put balğ neftimizi ixrac edə biləcəyimizdən nəticədə iki milyarda qədər bir para Azərbaycana daxil olmuş bulunacaqdır. Əgər nefti yalnız kəndi paramıza sataraq şimdiyə qədər buraxdığımız paranın cümləsini toplamış olacağımızdan nəticədə təbii paramızın etibarı yüksələr. Mətavə ərzağın fiyəti düşər, həyat və məişətimiz kəndi məcrayi əslində övdət edər. O vaxt ümuri maliyyəmiz dəxi yoluna girər. Bu gün olduğu kimi gərək burada da, Tiflisdə də hesabsız kağız paralar buraxmağa artıq məcburiyyət olmaz. Hələ bu iki "emissiya" bu artıq təhəmmül ediləcək hallardan deyildir. İki yerdə para çıxarmaq heç bir zaman, heç bir məmləkətdə görünməmiş bir işdir. Hökumət bu halda bir an xitam verməyə təşəbbüs edəcəkdir.

Möhtərəm əfəndilər! Dəmir yollarımızda dəxi islaha bir çox cəhətlər vardır. Bu xüsusda hökumət çalışır və çalışacaqdır. Yalnız bu bir məsələdən bəhs etmək istəyirəm. O da Ələt-Culfa dəmiryoludur. Bu yola hökumət pək ziyadə əhəmiyət verir. Bu iş üçün hökumət sizdən para istəyəcəkdir. Bundan başqa torpaq və şosse yollarımız dəxi vardır. Bunlar da təmirə möhtacdır. Bu yollarımız mətlub dərəcədə olmazsa nə poştamız işlər, nə də əhalimiz bunlardan istifadə edə bilməz.

Möhtərəm məbus əfəndilər! - Ərz və tedad etdiyim şu tədabirin ifa və icrası bizim varlığımız və qüvvətimiz bulunmazsa mümkün ola bilməyəcəkdir. Bunu bir dəfəlik bilməyimiz (vacibdir), qüvvətli olmaz isək nə hürriyyətimiz, nə də istiqlalımız (mümkün olar).

Onun üçün hərbi işimiz hökumət təşəbbüsünün əsası olacaqdır. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və ehtiram edəcəkdir.

Əsgərlik kimi müqəddəs vəzifənin lik əvvəl zənginlərin, qəvillərin, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara anlatdıracaqdır. (*Ümumi sürəkli alqış, Qarabəy yerindən belə...*) Bundan boyun qaçıran bulunarsa lazım gələn cəza veriləcəkdir.

Xülasə əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi, hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir.

Əfəndilər! Təşkil etdiyim hökumət aramızda bulunan bütün firqələri ehtiva etmir. Onun üçün təbii müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyimizdir. Və bunun üçün də var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm. (*Səslər: Qarabağ, Qarabağ məsələsi? Ümumi və sürəkli alqış!*).

### 34-cü iclas. 6 may 1919-cu il

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Bu tətilin iqtisadi olmayıb, siyasi olduğunu güman edirəm, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmirlər. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda ki onu Rusiyanın bir parçası hesab edirlər, Sovdepiya hökuməti təşkil edək; Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötəri də vəsiləyə müraciət ediblər və edirlər. Məlumi-alinizdir ki, indiyə qədər iş başında olan hökumət və indiki hökumət (tərəfindən) Azərbaycanda hürriyyəti-mətbuat, hürriyyəti-ictimaiyyə, tətillər mühafizə olunmuşdur. Bunun səbəbi nədir? Səbəbi budur ki, hər nə qədər hökumətimizə bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xəyalpərəst əməli ilə demokratlığı isbat etmişdir. Fəqət, bu hürriyyət sui-istemal olunur. Bunlar da öz içərimizdə olan əhvalimiz deyil, özgə dövlətlərdən gələnlərdir ki, sui-istemal edirlər. Bu vəziyyət içərisindən qalxmış deyil, xaricdən qaldırılır, bununla da Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Bunu rusların əksəri, mütəəssifanə hər bir rus istəyir. Sələfdən bunu istəyirdilər, hətta bu xüsusda Azərbaycan daxilində bir para tədbirlər görülmüşdü ki, o da kəşf olundu. Bir çox nəfy və tərd edildi və edilir. Soldan da bunu istəyənlər var. Soldan istəyirlər ona görə ki, bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər. Onlar cürbəcür vasitələr ilə öz amalımızın, əmələlərimizin əli ilə öz ixtiyarlarını və qüvvələrini buraya gətirmək istəyirlər. Doğrudur, türk müsəlman fəhlələrinin arasında hala mövqei həqqilə düşünə bilməyən bəzi adamlar tapılar, ancaq əminəm siz də inanırsınız ki, müsəlman türk demokratiyası və ələlümüm yerli demokratiya ki, arasında rus və erməni demokratiyası da var, bu yalana aldanmayacaqdır. (Mərkəzdən alqış). Çünkü onlar uşaq deyillər, onlar müvəqqəti olaraq bu yağlı sözlərə aldana bilərlər. Lakin işə gəldiyi zaman məsələ ki dikinə qoyuldu, yəni ya Azərbaycan tərəfinə və ya Rusiya Sovdepiyasına gedəsi məsələsi qoyuldu, o zaman zənn etmirəm rus tərəfdarı bir-iki prosentdən artıq raboçi tapılsın. (*Mərkəzdən alqış*).Mən eşitmişəm mitinqlərdə söyləyirlər ki, hökumət Həştərxan yolunun açılmasına tərəfdardır. Deklorasiyasında da bunu deyir. Doğrudur, hökumət Həştərxan yolunun, bu yeni bazar yolunun açılmasına tərəfdardır. İki yüz milyon put neft var. Onu satmaq üçün də mühüm bir bazar Həştərxandır. Ancaq hökumət və millət deyir ki, neft bacını da verər ki, sovdepiya hökumətini bura gətirməz və istiqlalından əl çəkməz. (*Sosialistlərdən başqa bütün kürsülərdə sürəkli alqışlar*).

Hökumət demişdir ki, bəli, əgər sovdepiyadan təklif olarsa neft almaq istəyirik, o vaxt bəzi şərtləri qəbul edərik. Bunun mənası açıq idi. Əgər Rusiya bizim istiqlalımızı tanırsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovdepiyaya neft verməz. Lakin bunlar deyirlər ki, yolu şərtsiz açın, gəlsinlər, buna heç bir hökumət, heç bir fəhlə, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz.

Məlumunuzdur ki, bu zabastovkanın əmələlər içərisində qəbul olunması üçün, ona iqtisadi rəng verirlər. İqtisadi məsələlərdə hökumət hər bir zaman fəhlənin tərəfindədir və olacaqdır da. Bunu hökumət öz bəyannaməsində də məlum etmişdi. Əgər tələb olunarsa və iqtisadi olursa bugünkü tələbnamənin doğru olmadığını bəyan və ərz eylədim. Bunların öz sözlərini yalan çıxarmaq üçün hökumət bəzi iqtisadi güzəştlərə gedə bilər. Hökumət nə qədər güzəştə getsə belə bu tətili aparmaq istəyənlər heç bir zaman buna razı olmayacaqlar. Onlar deyirlər kollektivin hamı maddələri qəbul olunsun. Hamınıza məlumdur ki, kollektivdən bir maddə var. Onda deyilir ki, fəhlənin həqqidir. Məlumunuzdur ki, bizim bir çox məramnaməmiz və başqa idarələrimiz vardır ki, hər zaman Çurayevlər istəsələr onları tətil etdirə bilərlər. Bunun-da səbəbi odur ki, oradakı əmələlərin hamısı azərbaycanlı deyil. Budur ki, onlar çalışırlar ki, bu maddə ilə hər yerə öz adamlarını qoysunlar, istədikləri zaman məmləkətin makinalarını və həyatını durdura bilsinlər. Əlbəttə, kollektivin maddələrini hökumət heç bir zaman qəbul edə bilməz. (*Alqışlar*). Bir də türk demokratiyasını bununla ələ almaq istəyirlər ki, hökumət də, parlaman da, müsavat da bu tələbata razıdır. Bu kimi şaiyələr ilə Türk demokratiyasını nə qədər aldatmaq istəyirlərsə də bu gün təsəvvür edilən o tətil yoxdur. Dəmir yolumuz dünən saat beşdə tətil elan etmişdi. Fəqət dünən də, bu gün də lazım olan qatar hərəkət etdi. (*Sürəkli alqışlar*). Telefon tamamilə işləmirsə də öz adamlarımızdan oraya təyin etdiklərimizin sayəsində hökumət dairələrinin telefonları işləyir (*alqış*) və ola bilsin ki, mən sizə daha qəti deməyirəm, axşam işığımız da olsun. Deməl, o duzəx ki, qurulmuşdur, başa gəlməyəcək, əyər bir kəs tərəfindən işləmək istəyənlərin üzərinə hücum olunarsa hökumət var qüvvəsilə buna mane olacaq. (*Sağdan və mərkəzdən sürəkli alqışlar*). Lazım gələrsə və çox inad edilərsə ətrafdan gələrək burda Sovdep lehinə işləmək istəyənlərə təklif olunacaq ki, gedib öz sovdeplərində əyləşib işləsinlər. (*Sağdan və mərkəzdən şiddətli və sürəkli alqış. Soldan daşnaqlar dəxi alqışlayırlar*).



**36-cı iclas. 12 may 1919-cu il.**

**Nəsib bəy -** Möhtərəm məbuslar! Müəllimlərin maaşını nə qədər artırsanız, yəqin edin ki, bundan bir şey qeyb etməyəcəksiniz. Çünki bizim varlığımız və istiqbalımız ancaq müəllimlərin əlindədir. Nə qədər müəllim ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbət ki, o müəllim bir şey verə bilməz və o məktəbdən də bir şey çıxmaz. Əlbəttə, bu layihə təklif edilərkən hökumət tək bir müəllimlər deyil, bütün dövlətin halını və xəzinənin gəlir və çıxarını nəzərə alıbdır. Hər bir şeydən, hətta maşınların dişindən də kəsib hökumət bir şey artırmaq istəyirdi. Məlumi-alinizdir ki, əgər gəlirimiz, çıxarımızı ödəməsə, gəlir az olsa, o zaman gəlir ilə çıxar arasında bir açıqlıq əmələ gəlir ki, bunu da doldurmaq üçün yenə də stanoka müraciət olunmalıdır. O zaman gələcək üçün bir şey artırmamış olacağıq. Çünki nə qədər pul çox çap olunsa, o qədər manatın qiyməti azalar. Bu hesab ilə yəni bir müəllimə beş yüz manat artırmaq hesabilə baxsanız, o zaman məktəb müəllimlərinin məvacibi artırsa, edadi və ali məktəb müəllimlərinin də maaşlarını, bununla mütənasibən başqa məmurlarımızın da məvaciblərini artırmalı olacaqsınız. Nəticədə çox təfavüt olacaqdır və çox məbləğ tələb olunacaqdır. İndi deyə bilirəm, nə qədər lazım olacaqdır. Hökumət müəllimlərin maaş miqdarını qət edirkən bildirdi ki, müəllimlərin dişindən kəsir. Fəqət, buna da hökuməti mümkün əhvali maliyyəsi məcbur edirdi. Büdcəyə baxsanız orada olan açıqlığı örtmək üçün siz özünüz hamının, hətta müəllimlərin də dişindən kəsib qənaət etməyə məcbur olacaqsınız. Müəllimlərin maaşının artmasına və bəzi məmurların maaşlarının artıq olmasına hökumət tərəfindən etiraz olmayacaq. (*Alqış!*)

**Nəsib bəy Yusifbəyli** (*davam edir*) - maaş almayanlara onu deyərdim ki, maaş o gündən başladı ki, Azərbaycan müstəqil və öz işini idarəyə başladı. O vaxtadək yalnız bir müəllimlər deyil, heç kəsə maaş verilməmişdir. Əgər o maaşları vermək lazım gəlsə, böyük bir yekun təşkil edəcəkdir. Bu da çox şətin bir məsələdir. Bu barədə hökumətin bir fikri və müəyyən qərarı var ki, onlara bir şey versin. Hətta bu barədə parlamandan lazımi məbləğ

istəniləcəkdir. Əgər şimdi istədiyiniz tək müəllimləri düşünüb onlara verəsiniz, başqaları qalsın, olmaz. Doğrudur, müəllimlər məvacib almamışlar, lakin o vaxt bir şey də eyləməmişlər. O vaxt məktəb də yox idi. Hətta bəziləri var idi ki, başqa xidmətlər görüb para alırdılar. Fəqət, öylələri də var ki, qapısını tutub gözləyirdi ki, vaxt gəlsin, maaş alsın. Əyər tək bunlara vermək istəsəniz hökumət etiraz etməz. Ancaq bir qərar təyin olunmalıdır. Əyər buyursanız, bunu təxir edib hökumət ayrı bir layihə düzəldib təqdim edər ki, kimə nə qədər verilsin. Və bir də onu bilməli idi ki, bu bizim borcumuz deyil, Zaqafqazski respublikanın borcudur. Azərbaycan deyil, o verməli idi. Kassa onların əlində idi. Əyər mümkün olsa idi, izn versəniz yeni layihə təqdim olunana qədər bu məsələ təxirə salınsın.

**41-ci iclas. 26 may 1919-cu il.**

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Varid olan suala cavab verməzdən əvvəl sizə ərz edirəm ki, bizim hüdudumuzu heç kəs keçməmişdir. Və ancaq meyitlərimiz üzərimizdən keçə bilərlər. (*Hər tərəfdən şiddətli alqış və bravo sədaları*) İkincisi, yenə öz fikrimi ərz etmədən qabaq məlumat vermək istəyirəm ki, 3 gün bundan əvvəl Dağıstanda bulunan nümayəndəmiz tərəfindən belə məzmunda bir teleqram gəldi. (*Oxuyur*). "Bakı xariciyyə nəzarətinə. Dünən Petrovskiyə böyük könüllü qüvvələrin gəlməsi haqqında məlumat alınmışdır. Axşam parlamentin iclası vaqe oldu. Hökumət rəisi zeyldəki məlumatı verdi: Könüllü Ordu İttihadi-Cəbaliyyun hökumətini tanımaqdan imtina ilə Dağıstan hökumətini tanımağa razı olur və daxili işlərinə müdaxilə etməyərək Dağıstana bolşeviklərə qarşı yardım edəcəyini təsəvvür edir. Könüllülər dəmir yol xəttinin Yalamayadək tuturlar. Bu məqsəddən ötəri dünən Dərbənddə bir bölük gəlmişdir. Cəbaliyyun cümhuriyyətinin müqəddəratı sülh konfransında həll olacağı üçün şimdilik könüllülər ilə mübarizəyə və etiraz qüvvələrimiz olmadığından Cəbaliyyun hökumətini qeyri-mövcud elan edirəm. Dağıstanda bütün ixtiyarat general Hacı Murada verilir. Gecə saat 1-də rəis parlamentin iclasını qapalı elan etdi. Təcili təbliğat bəkləyirəm. Haqverdiyev."

Sonra orada Quba uyezdində olan uyezd naçalnikliyindən və digərlərindən bir neçə məlumat aldıq. Əvvəlinci məlumat belədir ki, Dağıstana 3-4 eşalon kazak əsgəri gəlmişdir. Bunlardan biri Petrovskiyə, biri də Dərbəndə gəlmişdir. Əsgərlərin miqdarı və nələri olması haqqında məlumat aldıq. Yalnız bugünkü məlumatımız, o məlumatı təchih edir. İndi bu dəqiqə Dağıstan nümayəndəsinin yenə göndərdiyi teleqrafdan anlaşılır ki, elə böyük bir şey olmamışdır. Teleqrafı imza edən də Dağıstan hökuməti rəisi Kostrovdur. Hər şey öz yerindədir. Təfsilatı məlum deyildir. Ancaq orada bir şey yoxdur. Olsa da hələlik deməyə ehtiyac yoxdur. Dərbənddə olan qüvvə barəsində məlumat budur ki, oraya gələn qüvvə az bir qüvvədir. 200-300 adamdır. Əlbəttə, bir çox namünasib işlər olmuşdur. Petrovskidə axtarış olub, adamlardan silah alınıb. Amma Dərbənddən bu yana bir adam keşməmişdir. Bu məlumatı alandan sonra ilk əvvəl biz İngiltərə hökuməti qüvayiəskəriyyəsi başçısı qarşısında həm təhrirən, həm şifahən etiraz etdik. Bunu lazım bildiyimizin səbəbi də məlumdur. Nə üçün oraya etiraz ediriz? Çünkü əgər biz şimdiyə qədər rahat oturmuşuq, onun səbəbi odur ki, İngiltərə hökuməti nümayəndələri həmişə bizə demişlər ki, Könüllü Ordu dəstələri hüdudu keçmiyəcəkdir. Əgər Dağıstan sərhəddini az bir qüvvə keçmişsə, əgər Petrovskidə Könüllü Ordu əsgərləri var isə yalnız Petrovskidə yaza kimi qullandığı üçündür. Ondan bu tərəfə heç bir zaman Könüllü Ordu keçməyəcəkdir. Bunun üçün də təbiidir ki, əvvəlinci sualı, əvvəlinci etirazı İngiltərəyə - komandanlığına etdik. Rəsmi surətdə yazdığımız, daha doğrusu, xariciyyə nəzarətinə göndərdiyimiz notanın məzmunu budur: (*Oxuyur*). "İngiltərə komandanlığının Denikin ordularını Dağıstan hüdudunu keçməyəcəyi xüsusundakı miqdar və ədədlərinə rəğmən bu gün aldığımız məlumata görə Könüllü Ordu əsgərləri Dağıstan dəmir yollarını Yalama stansiyasınadək işğal edirlər. Könüllü Ordu qüvvələrinin Dağıstanda Azərbaycan hüdudunda bulunması Azərbaycan üçün böyük bir təhlükəədd edərək irəlidə möhtəməl vüquatın önünü

almaq məqsədi ilə Azərbaycan hökuməti İngiltərə komandanlığı tərəfindən Könüllü Ordunun Dağıstandan çıxarılması xüsusunda lazım olan ciddi tədbirlər iqtixaz edilməsini arzu edər". Bundan məadə general Şatolvert ilə xüsusi görüşdüm, general Şatolvert söylədi ki, ingilis qüvayi-əsgəriyyəsinin qərarı dəyişməmişdir və heç bir zaman Könüllü Ordu Petrovskdan bəri keçməməlidir. Doğrudur, Petrovsk nümayəndələri tərəfindən ona məlumat verilmiş, ancaq Petrovskdan bu tərəfə eşelonun keçməsi kimi müsaidəsi ilə və nə üçün olduğu məlum deyildir. Öz tərəfindən lazım olan tədbirlər iqtixaz edilmişdir və aldığı məlumatı alan saatdan bizə xəbər verəcəkdir. O anlayır ki, nə üçün biz bu məsələnin müzakirə etdiyimiz zaman sükuti-qəlblə danışa bilmirik. Özü bilir ki, Dağıstan Denikinin və ya başqa düşmənin əlində olursa, Azərbaycan təhlükə içində olur. Ancaq onu deyə bilərəm ki, bu bir nedorazumeniyadır (anlaşılmazlıqdır-N.Q.). Tez zamanda təlimat alar və mənə xəbər verər. Mən şifahən ciddi surətdə protesto etdim. Tiflisdəki nümayəndəmiz deyir, teleqraf göndərdik ki, İngiltərə komandanlığına protesto eləsin və İngiltərə nümayəndələrinə söylədim ki, biz vədlərdən artıq doyduq. Bundan belə biz özümüzə güvənəcəyik. Və lazım gələr də, bir adam kimi hürriyyət və istiqlalımızı müdafiəyə qalxışacağız. (*Ümumi alqış*). Kim olursa-olsun, dünyanın böyük və qüvvətli dövləti də olursa-olsun, qarşısına çıxıb müdafiə edəcəyiz. (*Alqış*). Əlbəttə, ingilislərin mənim sözümə ayrı cavabı olmazdı. İngilis komandanlığı dedi ki, bu sözlərə haqqınız var; vətəni müdafiə etmək vəzifənizdir. Başqa dürlü cavab verə də bilməzdi. Bundan məadə sizə bir başqa məlumat da vermək istəyirəm. Bakıda İngiltərə komandanlığı nəzdində Denikinin Lazarev kimi bir nümayəndəsi vardır. Bir neçə gün bundan əvvəl polkovnik Lazarevdən şifahən və sonra təhrirən hökumət naminə bir kağız vardır. Kağızın əhəmiyyəti olduğundan, onu burada oxumaq istəyirəm. (*Oxuyur*).

"Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükəlasına. Cənubi Rusiya qüvayi-müsəlləhəsinin Bakıda bulunan İngiltərə komandanlığı nəzdində nümayəndəsi. Mayis 1919.



Cənubi Rusiya qüvayi-müsəlləhəsinin Baş komandanı tərəfindən aldığım teleqrafa istinadən atidəki məruzatı ərz edirəm: Cənubi Rusiya qüvayi-müsəlləhəsi (Könüllü Ordu) komandanlığı Azərbaycan əleyhinə heç bir təcavüzkaranə hərəkətdə bulunmaq fikrində deyil. Biləks, Azərbaycanın istiqlalını münasib görür və tanıyır. Rusiyanın bolşeviklərdən xilasından sonra sabiq Rusiya imperatorluğu daxilində təşkil etmiş dövlətlər ilə münasibət və etilaf peyda etmək millət məclisinin və yaxud bolşeviklərlə mübarizə edən qüvvələrin bütün ixtiyaratı tövdi edəcəkləri mənbəialinin işi olacaqdır. Cənubi Rusiya qüvayi-müsəlləhəsi nümayəndəsi polkovnik Lazarev."

Bu sənəd əhəmiyyətli olduğu üçün müsaidənizlə əsl mətnini oxuyuram. Bəlkə dürüst tərcümə etməmişəm. (*Kağızı rusca oxuyur*). Bundan məadə Dağıstana Könüllü Ordu nümayəndələrinin gəldiyini xəbərini aldıqdan sonra mənim yanıma Savitski adında birisi gəldi. Savintskidir, ya Savanskidir, yadımda deyil. Irəlidən Rusiyanın Bolqariya səfiri olmuş, indi isə Dağıstanda ingilis komandanlığı nəzdnində nümayəndə imiş. Bunun söhbətindən belə anlaşıldı ki, Denikin ordusu fikirini tamamən dəyişmişdir. Yəni şimdilik, mənim ürəyimdən şimdilik çıxdı. Şimdilik yeni təşkil olunmuş Məvərəyi-Qafqaziyada olan cümhuriyyətləri tanımağa qərar verilmişdir. Və onlar ilə mübarizəyə qərar verilməmişdir. Bu xəbəri Parisdən gələn admiral Bubnov gətirmişdir. Bubnov Yekaterinodarda imiş. Denikinin öz sözü ilə bu xəbəri Parisdən gətirmişdir. İndi görürsünüz: İngiltərə komandanlığı bir tərəfdən deyir ki, sizin daxili işlərinizə müdaxilə etməyəcəyik. İşlərinizə kimsə qarışmaz. Bu da rəsmi surətdə bizə deyilir. Digər tərəfdən, Könüllü Ordu tərəfindən rəsmi və mühüm xəbərlər yazırlar. Təbiidir ki, bu xəbərlər mənə gələndən sonra, o xəbər ki, bir tərəfdən bizim istiqlaliyyətimizi tanıyırlar, digər tərəfdən də felən bizim istiqlaliyyətimizi qorxu altında alırlar, bunda bir təzad vardır. Ona görə mən Savitskini və bu məktubu yazan Lazarevi çağırtdırıb dedim: hansına inanaq, kağızınıza və ya əməlinizə... Lazarev yenə bir çox andlardan və yəmənlərdən sonra dedi ki, mənə heç bir şey məlum deyildir. O dedi ki, mən bir şeydən qorxu-

ram, ola bilsin ki, Denikinin və Ordunun qərarından Dağıstanda bulunan komandanlığın məlumatı olmasın. Teleqraf ki, yazmışdı mənə göstərdi. Teleqrafın surəti Dərbəndə gəlməyin səbəbini oradakı komandanlıqdan xəbər alırdı. Məndən izin istədi ki, sizə teleqraf vurub cavab alsın. Təbiidir ki, mən ona müsaidə etmədim və edə bilməzdim. Ancaq o da zənn edirdi ki, ingilislərin dediyi kimi bu bir nedorazumeniyadır. Bundan Azərbaycana heç bir təhlükə ola bilməz. Yalnız aramızda bir ixtilaf vardır ki, onlar zənn edirdilər ki, Könüllü Ordu Dağıstana gəlirsə, bizə təhlükə deyildir. Mən isə dedim ki, bunu isbat eləmək istəyirsələr, onda bütün Dağıstanda yeni bir hökumət təşkil edən millətin yerlərini xilas etsinlər. Nə qədər ki, Könüllü Ordu Dağıstandadır, onu biz özümüzə təhlükəədd edib qarşısına tədbir iqtixazından çəkinməyəcəyiz.

**45-ci iclas. 5 iyun 1919-cu il.**

**Rəis** - İclas davam edir. Parlament müsaidə versə, növbəni bir az dəyişib, Rəisi -Vükəlanın vəziyyətimizə aid bəyanatını dinlədikdən sonra Hökumətə verilən sualı növbəyə qoyub, ondan sonra başqa məsələlərin müzakirəsinə keçərik. Etiraz yoxdursa, qəbul olunur. Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** (*Rəisi-Vükəla*) - Möhtərəm məbuslar, bir neçə gün bundan əvvəl sizə ərz elədim ki, Denikin nümayəndəsi tərəfindən rəsmi kağız aldıq. Bu rəsmi kağızı da sizə oxudum. Gördünüz ki, rəsmi kağızda istiqlalımızı tanıyırlar. Ancaq nə mən oxuyan zaman, nə də siz eşitdiyiniz zaman etibar etmədiniz. O kağız ki, yazmışdılar onun mürəkkəbi qurumamış bir kağız da gəlib ki, ərz eləmək istəyirəm. Oxuyandan sonra şübhəmizin nə qədər haqlı olduğunu bilərsiniz. Dünən belə bir kağız gəlmişdir: (*Oxuyur*).

"Azərbaycan cümhuriyyətinin Heyəti-vükala Rəisinə. Surəti İngiltərə komandanlığına və Qroznı-Petrovsk qrupu komandanlığına.

Bu il iyunun 3-də (21 may) Cənubi Rusiya silahlı qüvvələri qərargahının hərbi-dəniz şöbəsinin rəisi general-leytenant Lukamskidən baş komandanın göstərişi ilə bir yazılı kağız alınmışdır. Bu kağıza əsasən mən sizə rəsmən deyə bilərəm ki, CRSQ-nin komandanlığı Azərbaycanı Rusiyadan ayrılmış hesab etmir. Komandanlıq Azərbaycanın müstəqil mövcudiyyətini bu məsələnin Rusiyanın ali hakimiyyəti tərəfindən həllinədək münasib görür və tanıyır. Polkovnik Lazarev."

Ruscanı istəsəniz oxuyum. O gün ərz etdiyim kimi bəlkə tərcüməsində səhv etmiş olam. (*Məktubu rusca oxuyur*).

(*Səslər: "heç vaxt Rusiya olmayacaqdır"*).

Görürsünüz ki, bu kağız yeni kağızdır. (*Səmədağa yerindən: "Elə özləri də kağızdır!"*)

Buradan görürsünüz ki, Rusiya təşkil olunana qədər bizim istiqlaliyyətimizi tanıyır və sizə təhlükə yoxdur deyir. Əgər bu da doğru olsa idi, buna inanmaq olsa idi, yenə bir şey idi. Məəttəəssüf, bu da kağızdır. Bunun kağız olduğunu özləri tez vaxtda isbat elədilər. Bu kağız ilə Petrovskidən Lazarevə və Şatolvertə teleqraf gəldi. Bu kağızları və teleqramları ərz edirəm ki, bunların da mənası yox imiş. (*Oxuyur*).

"Polkovnik Lazarevə, surəti Bakıda İngiltərə qüvayi-müsəlləhəsi komandanı polkovnik Şatolvertə. Hərbi.

Cənubi Rusiya qüvayi-müsəlləhəsi baş komandanlığından işbu məzmunda teleqraf aldım. Azərbaycan hökuməti Könüllü Ordu hissələrinin Dağıstana hərəkətindən təşvişə düşmüşdür. General Dartenko Petrovski – Dərbəndin işğalı ilə kifayətlənib, irəliyə getməyəcəyi xüsusunda təminat vermişdir. Öz tərəfindən ordularımızın Zaqatala-Qafqaziya dağları və Qızılburun xəttindən irəliyə getməyəcəyini təmin edirəm: əgər Azərbaycan Hökuməti tərəfindən üzərimizə hücum olunmaz isə. Yekaterinodar, 18 may 1919, nömrə 7389, Petrovski nömrə 3621. Terski Dağıstan orduları komandanlığı. General ot kavalerii Erdeli".

Həmin məzmunda Erdelinin özündən Lazarevə bir teleqraf var. Məzmunu bir olduğundan əlanına ehtiyac yoxdur, zənn edirəm. Əgər arzu olunarsa, keçən teleqrafın ruscasını oxuyum (*teleqrafı rusca oxuyur*). İkinci teleqraf budur (*rusca oxuyur*). Çünki bu teleqrafda bir işarə, bir namyok vardır ki, razılıq və saziş ilə

təyin olunan xətt... təbii bu xətti guya bərtərəf ilə təyin etmişlər, bu barədə kimlər ilə isə razılıq əmələ gəlmişdir.

O tərəf də kim ola bilir? O tərəf də yəqindir ki, ingilislərdir. Bu teleqraflar mənə çatandan sonra təbiidir ki, burada İngiltərə komandanlığı ilə görüşməyi özümə borc bildim. Məlumunuzdur ki, general Quri buradadır. General Quri Zaqafqaziyada olan müttəfiqlər qüvvələrinin baş komandanıdır. Dünən onunla və Şatolvertlə görüşdük. Teleqraflar onun qabağında idi, onlara da gəlmişdi. Qabaqca o söz açdı. Dedi, bu teleqraflardan xəbərdarmısınız? Cavab verdim ona ki, mənası məlumdur. Soruşdu ki, nə tədbir görürsünüz? Əlbəttə ki, özgə bir cavab olmazdı. Əvvəlinci cavabı ona dedim ki, vətənimizi mühafizə edəcəyik. Buna görə hər bir tədbir görürük və görəcəyik. Söhbət çox uzun oldu. Hamısını təfsilən ərz eləməyi artıq bilirəm. Nəticəsində o mənə təminat verdi və dedi ki, bu dəqiqə bu teleqrafların mənasını öz tərəfimdən general Milinə xəbər verərəm. Müttəfiqlər komandanlığının Denikin ilə bu saziş barəsində dedi ki, heç bir saziş söhbəti ola bilməz və Denikin ilə xətt barəsində saziş olmaz və bir də general Denikinin bu hərəkətinə general Quri pis nəzərlə baxır. Vətənimizin yolunda gördüyümüz təşəbbüsatımızı yersiz bilmir. Digər tərəfdən deyir sizi təmin edərəm. Bakıya o tərəfdən hücum olmaz. Şünki dəniz əlimizdədir. Deyir, əgər dava olarsa hüsnütəvəccöhümüz sizin tərəfinizdədir. Əlbəttə, əgər Bakıda və Azərbaycanda bu münasibətlə talan və iğtişaş olmaz isə. (*Soldan səslər: "Olmasa da özləri edərlər!"*). Əlbəttə, cavab verdim ki, təbiidir, Bakıda, Azərbaycanda iğtişaş ola bilməz. Zatən Azərbaycan milləti isbat edib və edəcəkdir ki, rus milləti əleyhinə bizim tərəfdən fəna müamilə ola bilməz. Amma təbiidir ki, düşmən nümayəndələrinə istəsə də, rus millətinə fəna müamilədə bulunmaz. Əlbəttə, düşmən müəyyən olandan düşmən nümayəndələrindən xilas olmaq üçün lazımi təşəbbüs edəcəyiz, buna da general Qurinin razılığından başqa ayrı cavabı olmadı. Demək neçə ki, görürsünüz bu surətlə ingilis nümayəndələri ilə əvvəlinci görüşdə Şatolvertin ayrı bir növ, guya bitərəf qalmaq fikri idi. Amma axırıncı dəfə Quri tərəfindən təminat verildi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz. Hətta deyir, hər kəs keçsə həbs edərik. Deməli, bu xüsusda təminat vermək istədi. Amma sözün doğrusu, təhlükəni biz özümüz gərək görək. Biz çox sözlər eşitmişik. Bu sözlərə böyük məna vermək olmaz. İngiltərə kimi hürr bir məmləkət nümayəndələri yalan söyləməzlər. Amma bəzən də söylədikləri şeylər üstündə dura bilmədiklərini aşkar edirlər. Biz görürük bizə çox vədlər verildi. Bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Dağıstana kimsə hücum etməz. Denikin ancaq Petrovskini baza olaraq tutacaq, Petrovskidən bu tərəfə keçməz. Vaxtilə bizə bu təminatı verdilər. Bununla bərabər Şatolvertin özülə dütüşüb bizə verdikləri təminatı dedim. Və bununla bərabər siz bu vədlərlə bizə mane oldunuz, ola bilərdi ki, sizin vədləriniz olmasaydı biz Dağıstana böyük kömək göndərərdik, daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vəd verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimali Qafqazı tutdu.

**46-cı iclas. 9 iyun 1919-cu il.**

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbus əfəndilər! Əlbəttə, özgə bir zaman olmuş olsaydı mənim cavabım bu olardı ki, məmur çıxarmaq öz vəzifəmdir. Məmur qəbulu və çıxarılmasına Məclisi-Məbusan o vaxt müdaxilə edərdi ki, məsələnin siyasi rəngi olmuş olaydı. Fəqət, yenə məəl-məmnuniyyə cavab vermək istərdim. Bəlkə bir sədd var.

Məlumi alinizdir ki, bizdə on birə kimi nəzarətlərimiz vardır. Kiçik bir cümhuriyyət ikən bu qədər nəzarətlərə malik olmaq zərərdən başqa bir şey deyildir. Qonşu cumhuriyyətlər nəzarətlərin hamısını azaldıblar. Ola bilsin ki, biz də gələcəkdə azaltdıq. Gürcülər bir neçə nəzarətləri birləşdirmiş və bu təriqlə işlərini asanlaşdırmışlardır. Bizdə bəzi nəzarətlər tək deyil, başqası ilə bir yerdə götürülmüşdür. O cümlədən ədyan nəzarəti maarif nəzarətinə verilmişdir. Bunlardan başqa meydanda məzbətə işləri var. Kağız işləri var. Bunlara da baxmaq, nəzarət etmək lazımdır. Əvvəldən belə idi ki, maarif naziri həm ədyan naziri, həm də məzbətələrə nəzarət edirdi. Bu işləri maarif nəzarətinə verməkdə

məqsəd bu olmuşdur ki, ədyan nəzarəti məzbətə və kağız işlərinin məktəblər ilə və maarif ilə münasibət və əlaqələri vardır. Onlar da maarif nəzarəti ixtiyarındadır. Onu da bilirsiniz biz bir çox kitablar hazırlamaq, çap etdirmək məcburiyyətindəyiz. Bunu da kim yapa biləcək? Əlbəttə, maarif naziri, buna görə məzbətə və kağızların maarif nəzarəti ixtiyarında qalması lazım gəlir. Əlbəttə, bu işləri bir adam idarə etməməlidir. Xüsusi ədyan nazirinə ehtiyac yox idi. Yeni hökumət təşkil olunandan sonra mən maarif nəzarəti başından çəkilməli oldum. Oraya Həmid bəyi maarif vəkili təyin etdik. Yəqin bir adam tapılmaz ki, mənim Həmid bəy ilə xüsusi sui-niyyətim olmuş olsun. Bunu bilirsiniz ki, onu ilk dəfə maarif nəzarəti müavinliyinə dəvət edəndə hər tərəfdən etirazlar var idi. Bunu aranızdakı məbusların çoxu da bilir. Yeddi ay bir yerdə xidmət etdik. Bir şey olmadı. Əgər bir şey olmuş olsaydı müavinim olan zaman çıxarardım. Əgər bir şey olmuş olsaydı, mən çıxarkən nəzarəti ona tapşırmazdım. Zənn edirəm, bu barədə heç şəkki-şübhə ola bilməz ki, Həmid bəyə böyük hörmətim vardır. Təbiidir, maarif nəzarəti Həmid bəyin ixtiyarına keçəndən sonra məzbətə və kağız işləri və onlar ilə bərabər ədyan nəzarəti də onun ixtiyarına keçmiş oldu. O mənə dedi ki, bu işlər ona xoş gəlmir və ya bacarmır. Mən dedim ki, hələ bu işlər orada qalmalıdır. Sən də bir doklad yaz, bəlkə dəyişdik. Mənim tövsiyələrimə rəğmən Həmid bəy bütün işləri başlı-başına buraxıb getdi. İş bu yerə gəldi ki, hamı bilavasitə mənə müraciət etməyə başladı. O zaman da zabastovka işləri ilə məşğul idik. Rəislik, daxili işləri az deyil. Ona görə məktəb, kağız, məzbətə və qeyri maarif işlərindən ötəri mənə müraciət edənləri qəbul etmək mümkün olmurdu. Əgər onlar ilə iştiğal etsə idim dövlət işləri axsardı. Telefonla mən dedim bu dövlət işidir, gərək doklad verəsən, baxılsın, müzakirə edilsin. Məətəəssüf, cavabında bir nazirə yaraşmayan bir lisan ilə dedi ki, heç istəmirəm. Mən də məcbur oldum dedim ki, gərək işləyəsən, ya yox. Bunun üzərində istefa verdi. Hökumət qəbul etməmiş iş başından çəkildi. Fəqət, burasını bilirsiniz ki, hər şeyin bir qaydası vardır. İstefa verən şəxs öz yerinə başqası gələnə qədər iş başında durmalıdır. Fəqət,



Şaxtaxtinski isə (təkcə) özü deyil, bir-iki yoldaşları ilə bərabər nəzarətdən çəkilmişlərdir. Buna indi rusca sabotaj deyirlər. Bu hərəkət əlbəttə, münasib deyildir. Mən onların istefasını hökumətə təqdim etməmiş onlar iş başından çəkildilər.

Möhtərəm məbuslar! Nəzarət zarafat deyildir. (Bu o demək deyil) İstəyini edəsən; gedəndə gedəsən, işi də görməmiş; bu qərar ilə iş aparılarsa, işimizi qabağa getməz. İşə ciddi baxılmırdı; hərgah ciddi baxılsaydı iş bu yerə müncər olmazdı. Əlbəttə, istefanı qəbul etməyə haqqımız yoxdur. Çünki hər kimin inadına, keyfinə milləti tabe etmək olmaz. Fəqət, üsul və qaydaya riayət edilməlidir. İş başında olanlar arasında ehtiram olmalıdır. Ola bilər ki, Şaxtaxtinskinin şəxsi məndən möhtərəmdir. Amma qulluqda mən rəisi-vükəlayam, o nazir müavinidir. Mən tələb edirəm ki, ehtiram gözlənilsin. Əgər ehtiram olmazsa işimiz getməz. Millətin Rəisi-vükəlası heç vaxt qəbul etməz ki, onun haqqında ehtiramsızlıq edilsin. Birinci suala cavabım budur.

Şimdi keçəlim ikinci məsələyə: Rəşid bəy İsmayılov barəsində şəxsi fikrim məbuslara hamısına məlum olsa gərəkdir. Mən əskidən onun iş başında olmaması tərəfdarı idim. Yenə bir şey var ki, yalnız ortalıqda sui-zənn olur. Ola bilir ki, bu sui-zənn çox ciddidir. Bu qanun ola bilməz. Yəqin şeydir ki, bir adam daha fəna sui-zənn altındadır. Ac fəlakətzadələrin pulunu oğurlamaq töhmətlənir. Bu əhvalat Tiflisdə vaqe olduğuna görə beynəlmiləl bir hal kəsb edir. Bu işə Tiflisdə Gürcüstan məhkəməsi tərəfindən baxılır. Şimdi münasib olmaz ki, bu işdə biz Gürcüstan məhkəməsi işlərinə müdaxilə edək. Hərgah bu əhvalat burada olsa idi və bizim məhkəmə onu zaminə versəydi mən yenə cəsarət edib məhkəmənin işinə müdaxilə etməzdim və məhkəmə buraxdığı bir adamı tutdurmağa iqdam etməzdim. Tiflisdə Rəşid bəy İsmayılov məhkəməyə verilmişdir. Töhmət də çox böyükdür. Ehtimal var ki, bu işdən xilas olmasın. Hər halda bu ehtimaldır. Məhkəmənin qərarı bizə məlum olacaq. Doğrudur, İsmayılov buraya gəlmiş, iki gün burada qalıb getmişdir. Bu da Tiflis məhkəməsinin müsaidəsi ilə olmuşdur. Qaldıq əvraq barəsində, deyə bilərəm ki, İsmayılovun evi təhərri edilmişdir; məəttəəssüf, bir

şey çıxmamışdır. Bir taqım məktublar vardı. Bunun ilə bərabər İsmayılovun axırıncı cinayəti təsdiq olunarsa, güman edirəm Azərbaycan türkləri içindən çıx[illegible] Gürcüstan məhkəməsi işlərinə müdaxilə edə bilməzdik. Müdaxilə etsəydik bu münasib olmazdı. Məndə olan məlumat bu qədərdir.

**48-ci iclas. 16 iyun 1919-cu il.**

**Nəsib bəy** - Möhtərəm məbuslar! Məsələnin iki tərəfi var. Onun üçün ikiyə bölürəm. Əvvəla axtarış olub anbarlarda. Nə üçün olub? İkinci o xüsusda mətbuatda verilən xəbərlər. Və bir də verdiyim əmrlərə əməl olunmaması. Bir dəfə mən elə güman edirdim ki, ermənilərin hissiyyatı-diniyyə və milliyyəsi o adamlar əli ilə təhqir edilmişdir ki, kilsənin anbarlarında cürbəcür şeylər saxlayıblar. Bir yer ki, kilsədir, orada dua olur, müqəddəs bir yerdir, elə bir yerdə cürbə-cür ambarlar tapılıbdır. Əlbəttə, heç kəs cəsarət etməz ki, kilsəni təhərri etsin. Kilsə təhərri olmayıb. Sualda var ki, erməni millətinin hissiyyati-diniyyəsi təhqir olunubdur. Mən bunu rədd edirəm. Doğrudur, anbarlar təhərri olub. Əlbəttə, hər yerdə ki şübhəli şeylər ola, polisin haqqı var ki, oranı təhərri etsin. Sizə mən mənzərəni ayrı cür təsəvvür edirəm: günlər ilə (razvedka) görür ki, kimsəyə və o məhəlləyə cürbəcür şeylər daşınır. Bir gün də görürlər ki, haman şeylər araba ilə özgə yerə aparılır. Əlbəttə, vaxt da çox qorxulu və pis vaxtdır. Xaricdən düşmən və daxildən də bir çox şeylər gözlənildiyi bir zamanda hər kəs əsəbi olub, xəbər gətirir. Bu şeylər yığılır sklada, sonra gedib axtarış edirlər. Axtarış zamanı bu skladın erməni siyahisinə məxsus olduğuna heç bir əlamət də yoxmuş. Olsa idi, əvvəla hökumət bilərdi. İkinci skladda (plakat) olar, o da yoxmuş.

Sklad vağzal yanında, erməni məhəlləsində buğda skladıdır.O şeylər içində telefon, teleqraf, səhra telefonu kimi cürbəcür paltar, qab-qacaq və xəstəxana şeyləri tapılmışdır. Demək ki, müəyyən bir yerdən bu şeylər çıxıb gedir ora və ehtimal olunur ki, yerində də özgə şeylər qalmış, ola bilir ki, aparmayıblar. Bunu deməkdən məqsədim budur ki, polis əhvali-ruhiyyəsi niyə belə olur. Sonra belə məlumat alırlar ki, silah da vardır. Təbii, bunu xəbər veriblər, onsuz deyil. Gəlib axtarış ediblər. 40-50 dənə ber[illegible] onların da əhəmiyyəti yoxdur. Sonra xəbər alınır ki, Denikin və Biçeraxov ilə vaqe olan mükatibə və sənədlər vardır. Bunun üçün polis gəlib axtarmışdır. Doğrudan da axtarış pis olub. Məsələn, qarovul çox olub, straja olub, mən də telefon ilə əmr verdim. Əlbəttə, hər dəqiqə istədiyin adamı tapmaq mümkün olmur. Gələn bir az gec olmuşsa da yenə əmrimə əməl edilib, axtarış dayandırılıb və əhali də oradan dağıdılmışdır. O ki deyilir, hökumətin əmri icra olunmayıbdır, bu doğru deyildir, yalandır. Bu məsələnin daxili tərəfidir. Heysiyyəti-diniyyənin təhqiri məsələsi doğru deyil. Çünki anbarı axtaranlar heysiyyəti-diniyyəyə toxunmamışlardır. Heysiyyəti-diniyyəyə o adamlar toxunurlar ki, kilsəni anbar yapmışlardır. Məsələnin digər tərəfi odur ki, bir çox pravokasiya olmuşdur. Malxazyan cənabları söylədiyi kimi buna da səbəb iş günlərinin tədbirsizliyi olubdur. O tədbirsizlik də bundan ibarətdir ki, ora axtarıldıqda naryada ehtiyac yoxdur. 4-5 adam gedib axtara bilərdi. Digər tərəfdən təəssüf olunur ki, türkcə "Azərbaycan" qəzetində bir xəbər olub, müdiri də burdadır. Gecə saat 2-də onu oxuyub yerindən durquzub müdir ilə çox danışdım. Bu provakasiyadır ki, müdir olmadıqda gecə vaxtı gəlib qəzetə buraxılmışdır. Sabahı bu xəbərin təkzib edilməsini əmr etdim. Digər tərəfdən xəbər gətirən adamları tapmaq üçün tədbirlər görülür. Hərgah sui-qəsd görünərsə, ona da cəza veriləcəkdir. Deyirlər guya o adam bu xəbəri rəsmi bir mənbədən almışdır. Əgər rəsmi mənbə də varsa, ona da lazımi cəza veriləcəkdir. Elə belə bir zamandır ki, bütün həyatımız təhlükədədir. Polis hər bir hərəkəti qanuna daxil eləmir. Bu da şübhəsiz, səhvdir. Polis tərəfindən kilsənin mühasirə edilməsi, şübhəsiz, səhvdir. Buna görə də mühasirənin götürülməsi üçün lazım olan tədbirlər görüldü və mühasirə qaldırıldı. Bu vaxta qədər hər yerdə axtarış olub, mühasirə olubdur. Əlbəttə, bunu edən gərək biləydi ki, bura kilsədir, mərkəzdir; gərək bu olmayaydı. Qaldı ki, burada söylənilir ki, hökumət rəisi əmr edib, onun əmri icra edilmişdir. Bu mənə məlum deyildir.

Mən bilirəm ki, mən əmr etdikdə naryad götürülüb, axtarış dayandırılmışdır. Qapı açıldı, orada bir çox sənədlər tapılmışdır. Mən kilsə rəisindən izin istədikdən sonra adam gedib onları oradan götürmüşdür. Bu işlər hazırda təhqiq olunur. Əgər mühəqqəq edilsə ki, polis müdiri mənim əmrimin icrasında qüsur göstərib, cəzasın gərəkdir (çəksin). Bir də orada bir çox sənədlər vardı. Yeşiyin ağzı açıqdı, onları orada o surətdə qoyub keçmək olmazdı. Orada gərək adam olaydı; ola bilir ki, oraya qoyulan polis məmurları öz xidmətlərindən sui-istifadə etmişlərdir. Ancaq mənə elə gəlir ki, bu məsələlərin hamısında günahkar polis deyil, günahkar həmən adamlardır ki, kilsənin içərisini anbar edib, hökumətə xəbər vermədən, teleqraf və telefon aparatları saxlanıbdır. Günah o adamdadır ki, əvvəlcə bu şeyləri oraya yığıb, sonra aparır. Bu xüsusda kimsəyə məlumat verilməmişdir. Deyirlər ki, bu şeylər erməni hökumətinə məxsus imiş. Əgər erməni hökumətinin malı idisə hökumətin ondan xəbəri olardı və yaxud heç olmasa qapısı üzərində erməni hökumətinə məxsus olduğunu bildirən bir lövhə və yazı bulunardı. Doğrudur, provakasiya əmələ gəlmiş "Azərbaycan" qəzetinin rusca və türkcəsində təkzibi var. Bunun ilə bərabər mühəqqəq olunur ki, qəsd ilə yalan xəbər verənlərə cəza veriləcək. Hökumət orada tapılan Bişeraxov və Kiçik xan sənədlərinə baxılandan sonra onların nə olduğunu özünə borc bilir.

**50-ci iclas. 23 iyun 1919-cu il.**

**Nəsib bəy** - Möhtərəm məbuslar! Keçən dəfə lazımi cavab verdim. Əlbəttə, o zamandan bu vaxtadək bəzi təhqiqat olunubdur. Ancaq mətləbə keçmədən əvvəl natiqin bir neçə sözünə cavab verəcəyəm. Deyirlər order verilməmişdir. Doğrudur, rəsmi order verilməmişdir. Fəqət bir şey nəzərə almalıdır. Order nə üçün verilir? Order verilir ki, təhərri edənlər həqiqətən polis nəfəratıdır, təhərri icrasına ixtiyarlıdır. Əlbəttə orderi nazir verməz. Mən sizə ərz etmək istəyirəm ki, təhərri zamanında qalabəyi, qubernatorun müavini və pristav da orada olubdur. Əlbəttə, kağız göstərsəydilər dəxi də yaxşı olardı. Fəqət qubernator və qalabəyi



isbati-vücud etdiyi halda orderin bir qədər də əhəmiyyəti yoxdur. Bundan məlum olur ki, qanunsuzluq olmayıbdır. 2-cisi deyirlər qapılar sındırılıbdır. Qapı sındırılmamışdır. Sınan Azərbaycan mətbəəsinin qapısıdır. Deyirlər qapını sındıranda proklamasiya ata bilərlər. "Qapı sındırılan zaman ev sahibi orada olmamış". Bu barədə də formalni çox şey demək olar. Ancaq bu qədər deyə bilərəm ki, kilsə adamlarından bir çoxları orada olub. 3-cü məsələ də budur ki, deyirlər ki, mən əmr vermişəm, o əmr icra olunmamış, iki-üç gün orada mühafizə dəstəsi qoyublar. Keçən dəfə məlumatım olmadığına görə buna bir qədər səthi cavab verdim. Lakin əlimdə qorodanaçalnikin rəsmi raportı vardır. Onu oxuyacağam. Mən əmr vermişəm, əgər orada bir çox bölmələrdə olsa təhərri etməyib saxlasınlar, çünki kilsədir. Bu mənim əmrim də qorodanaçalnikin rəsmi raportına görə icra edilmişdir. Oradan camaət dağılıb, sonra straja götürülübdür. Orada yalnız 2-3 adam qalmışdır, çünki ağzı (açıq) bir para yeşiklər varmış, onları mühafizə etmək lazım imiş. Hər halda rəsmi raportu sizə oxuyam. (*Oxuyur*).

Görürsünüzmü bizdə olan məlumat böylədir. Əmr icra olunubdur; heç bir poçt da orada qalmamışdır. Buna görə şəxsən pristavı çağırdım; onun cavabı mənə belə oldu ki, orada poçt olmayıb. Əlbəttə bunlar ola bilsin ki, səhv olsun. Mən bu xüsusda yenə təhqiqat edərəm. Heç kimə mənə yalan doklad verəməz. Əgər onlar mənə yalandan doklad vermiş olsalar, cəzalarına çatarlar. Deməli axtarış orada olsa da qorodanaçalnik bizzat orada olmuşdur. Sonra deyirlər ki, kilsə əhatə olunubdur. O da bundan irəli gəlib ki, bu vaxtadək hər yerdə təhərri olubsa ora da əhatə olunubdur; burada sui-qəsd olmamışdır. Əlbəttə əhatə olunmasaydı, dəxi də yaxşı olardı. 3-cü də deyirlər ki, əsgərlər orada olub, əhalini kilsə həyatinə buraxmamışlar, bu da ki, təhqiq olunmayıb. Bunlar həqiqətə müğayirdir. Saat 11-də yeşiklər oradan götürüləndən sonra orada heç bir qarovul qalmamışdır. Yenə təkrar edirəm ki, təhqiqat bunun əksi olarsa, o zaman onlar lazımi cəzalarını görəcəklər. Bir neçə söz də təhərri barəsində deyəcəyəm. Məlumunuzdur ki, o dəqiqə, o günlər necə günlər idi. Hər

tərəfdən üzərimizə təhlükə var idi. O vaxtlar şəhərdə təşviş vardı. Doğrudan da şəhərdə tüfəng, pulemyot anbarları olduğu məlumunuzdur. Bir çoxu da tutulmuşdur. Iki gün əvvəl bir yerdən 252 tüfəng, altmış mindən ziyadə patron, pulemot hissələri bir anbardan çıxmışdır. Böylə anbarlar şəhərdə ehtimal ki, yenə də var. Əlbəttə, böylə olan surətdə axtarış etmək lazım gələcəkdir. Axtarış zamanı əziyyət çəkənlər olur. Ola bilsin ki, orada da olmuşdur. Ola bilər ki, axtarış zamanı 252 tüfəng tapılan yerdən də bir şey çıxmaya idi. O vaxt deyəcəkdilər ki, axtarış nahaq olubdur. Yəqindir ki, axtarış nəticəli də olar. Nəticəsiz də. Lakin polisin psixologiyası onu ehtiyatda olmağa məcbur etdiyi hər axtarışa da haqqı vardır. Ərz elədiyim kimi şeylər əvvəl özgə yerdə imiş, sonra aparıblar başqa yerə. Şeylərin içində telefon və teleqraf çıxıbdır. Lakin Ermənistan missiyasının verdiyi siyahıda telefon və teleqraf heç yoxdur. Amma axtarış zamanı böylə şeylər çıxıbdır. Polis zənn edib ki, böylə şeylər çıxdığı üçün ola bilər ki, özgə şeylər də olsun. Dava keçirilmiş bir zamandır. Ona görə axtarış ediblər. Bu xəbəri eşidən kimi mən müavini-naziri, qorodanaçalniki və bütün polisi ayaqüstə qoymuşam. Bundan artıq tədbir mümkün deyildi. Bəlkə bu dokladda yazılanlar yalandır. Ola bilər başqa cür də olsun, lakin güman eləmirəm ki, bu yalan olsun. Çünki etibar edib inandığım adamı qorodonaçalnik qoymuşam. Bu dokladda yazılanlar yalan olarsa cəzası veriləcəkdir.

**56-cı iclas. 17 iyul 1919-cu il.**

**Sədr** - Növbədə məsələ Qarabağ haqqında hökumətin bəyanatıdır.

**Nəsib bəy Yusifbəyli** (*Rəisi-Vükəla*) - Möhtərəm məbuslar! Qarabağ hadisatının təfsilatından sizə ərz etməyəcəyəm. O vüquat ki, orada olub mən güman edirəm siz onun təfsilatını burada söyləyən yoldaşlarınızdan eşitmisiniz. Onları təkrar etməyi mən öz tərəfimdən və hökumət namindən artıq bilirəm. Sizin yoldaşlarınızdan dörd nəfəri sizə məlumdur ki, hökumət vüquatdan sonra Qarabağa göndərdi, onlar orada olan vüquatı öyrəndikdən sonra gəlib sizə ərz etdilər. Mən bir şeyi ərz etmək istəyirəm.



Məəttəəssüf dokladlar ki, burada sizə söylənildi, onlarda ifrat və təfrit vardı.

Bir tərəfdən verilən dokladda səy edilmiş idi ki, Qarabağda vaqe olan hadisələrdə kimsə günahkar olmadığı göstərilsin, digər tərəfdən sizə ərz olunan dokladdan məlum oldu ki, guya orada iki növ adamlar vardır, birisi zalim, o birisi məzlum. Zalimlər onlardır ki, orada olan məzlumlara son dərəcə zülm etmişlər. Zalim müsəlmanlar, məzlum isə ermənilər olduğu göstərildi. Ermənilər tərəfindən heç bir hərəkət vaqe olmamış kimidir. Heyətin erməni ərazisi tərəfindən təqdim olunan məruzədə hər bir xüsusda səbəb axtarılmışdır və səbəb göstərmişlər ki, giya iki nəfər əsgəri ermənilər tərkisilah etmişlər. Əlbəttə bu öylə böyük bir məsələ deyil, bunun da səbəbi varmış. O da bu imiş ki, müsəlmanlar tərəfindən bir ermənin tapançası alınmış imiş. Digər tərəfdən Qaybalı kəndi dağılmış. O kənddə gördüklərini həzin kartinalar, dəhşətli mənzərələr təsvir edirlər. Amma həmin məruzədə söylənilməmişdir ki, Qaybalı kəndində olan müsəlmanların da evləri dağıdılmışdır. Dokladda bu barədə heç bir söz söylənilməmişdir ki, bütün müsəlman ailəsi dağılmış, iki arvad məqtul tapılmışdır.

Bunu ərz etmək istəyirəm ki, dokladlar öylə bir tərzdə yazılmışdır ki, bir tərəfdən müdafiə, digər tərəfdən hücum edilir. Bir tərəfdən müqəssir görülərək, digər tərəfdən özünü təqsirsiz görmək istəyir.

Qarabağa göndərilən heyətdən əsas məqsəd bu deyil idi. Məqsəd o idi ki, cinayətin üstü açılsın və günahkarlar tapılsın. Çubaryanın dokladına məclisi məbusan üzvlərindən birisi təqsirnamə adı verdi. Burada yəni bir məqsəd var. Bu məqsəd günahkarları tapmaq deyil, general-qubernatoru təqsirləndirməkdir. Həqiqətən general-qubernatorda günah varmı və ya yoxdur – bu böyük bir məsələdir. Bu xüsusda hökumətin fikrini ərz etmək istərəm. Əlbəttə bilirsiniz ki, son zamanlarda Zaqafqaziyada qırğınlar olduğu zaman onda məhəlli hökumət məmurlarının əli olmuşdur. Əlbəttə burada da nəzərə gəlir ki, kənd dağılmış, arvad-uşaq ölmüş, bunda general-qubernatorun da əli olmuşdur. Əgər qubernator həqiqətən yalançı və məqsədi talan düzəltmək olsa

idi, o zaman buna müsaid bir zəmin axtarardı. Baxıb görəlim, o vaxt ki, Qarabağda bu hadisə vaqe olmuş, o buna müsaidəmidir və ya deyildir? Bütün Qarabağ yolları köçərilər ilə dolu olan bir zamanda talan fikrinə düşmək dəlilik olardı. Çünki o öylə bir zaman idi ki, həqiqətən böylə bir iş görmək onda bütün köçərilərin həyatını təhlükə altına buraxardı. Bunu şübhəsiz ki, general-qubernator nəzərə almaya bilməzdi.

İkinci məqsəd yalnız talan idisə məgər general- qubernator başqa bir yer tapmayır ki, orada qursun? Öylə gərək Avropa nümayəndələrinin, ingilis və Amerika nümayəndələrinin gözü qabağında qura idi ki, gəlib o meyitlərin şəkillərini görsünlər və rəsmlərini alıb aləmə bildirsinlər. Yenə deyirəm: General-qubernator talan qurmaq istəsəydi başqa bir yer tapardı. Əgər general-qubernator istəsə idi bütün Yevlaxdan Şuşaya kimi öylə bir poqrom yapa bilərdi ki, bütün Qarabağ atəş içində qalardı. Əgər məmurlarda sui-niyyət olsa idi əlbəttə böylə edərlərdi. Bilirsiniz general-qubernatorun bunu edə bilmək qədər qüvvəti və nüfuzu vardır. Görürsünüz ki, burada sui-niyyət olmamışdır. Əgər olsa idi bu hadisə iki şeydən baş verə bilərdi. Əvvəla general qubernator gərək divanə ola idi. Çünki, əqli başında olan şəxs Şuşanın iki verstliyində poqrom qayırmazdı. Yoxsa ayrı səbəb yoxdur.

Ikincisi isə o adam xain olmalı idi. Çünki həmin poqromdan Azərbaycan camaatinin, istər müsəlman, istər erməni olsun, bütün Azərbaycan əhlinin canı və malı tələf olmaq təhlükəsi vardır.

Qaybalı kəndi büsbütün sarsıldı. Orada iki yüz adam tələf olmuşdur. Zaqafqaziyanın halı bu saat öylədir ki, doğrudan da 200 adam nəzərə bir şey gəlmir. Lakin Şuşada Qaybalı kəndinin poqromu bir cinayətdir, bir dəlilikdir. Deyilə bilər ki, Xosrov bəy idi, ya fəna adamdır. Mən onu tanıyıram. Lakin heç bir kimsə ona xain deyə bilməz. Çünki şübhəsiz ki, bir xəyanətlik yoxdur. Poqrom barəsində general - qubernatorun heç bir sui-fikri və sui-qəsdi olmamışdır. Sonra dokladların birisində yeni tənzim olunmuş Azərbaycan əsgərlərini müttəhim etmək istəyirlər. Mən deyirəm, hər yerin əsgərləri arasında, o cümlədən də Azərbaycan əsgərləri içərisində ola bilər fəna adamlar tapılsın. Bu bir təəccüblü şey deyildir. Özünüz görürsünüz ki, mənim məiyyətimdə bulunan iki nəfər əsgəri cinayət yapdıqları üçün boğazından açdılar. Ola bilir, onlar bütün mövcudiyyətimizi müdafiə edirlər. Lakin cinayətə görə onları da asdılar. Söyləmək ki, Qarabağ əsgərləri nizamı pozub, cinayət yapmışlar, bu mümkün deyildir, yalandır.

**Səslər** - Yalandır, biz qoymarıq... rədd edirik.

**Nəsib bəy** - İnsafı olan təsdiq edər ki, bizim ərkani hərbimiz erməni məzlumları üçün bir məcra olmuşdur. Hər kəs orada həyatının təmin olduğunu görürdü. Şuşada əsgərlərimiz asayişi təmin və təcdid etməyə çalışmışlardır. Mən böylə əsgərlər ilə başqa şey deyil yalnız iftixar edərəm. (*Alqış*). Deyirlər, nə üçün əsgərlər vüquatın qarşısını almadılar və Qaybalı kəndini mühafizə etmədilər?

Möhtərəm əfəndilər! Əvvəla vüquatın necə olduğunu bilmirlər. Camaat bir-birini yemək istəyir. Şuşa od içində yanır. Əgər bütün Qarabağ alovlansa idi iş ğayət fəna olardı. Orada öylə bir qüvvət olmalıdı ki, bu təhlükənin qarşısını alsın. Əlbəttə, öz qüvvələrimizi parçalyıb kəndlərə paylaya bilməzdik. Əgər getmək istəsəydi belə məlum deyil ki, o kənd dostumdur, ya düşmənimdir. Bilmirik ki, o kənd əsgərlərin arxasından tüfəng atacaq ya atmayacaqdır. O işki əsgərlərimiz orada edibdir, ora gələn adamları mühafizə edib, müdafiə etmişlər, yedirib-içirmişlər. (*Alqışlar*). Biz bilirik ki, başqa əsgərlər böylə hörmətkaranə hərəkətdə bulunmazlar. O səbəbə əsgərlərimiz ilə iftixar edirəm. (*Alqışlar*). Az bir zamanda yetişmiş əsgərlərimiz isbat olundu ki, dissiplina (nizam) saxlayırlar. Bir söz demək olar ki, əsgərlərdə və Sultanovda günah yoxdur.

Hər halda bir kənd məhv olmuşdur. Şəfi bəy Rüstəmbəyov öz nitqində dedi ki, Şuşada vüquat olmuşdur. Qaybalı kəndinin vüqui ufaq görünsə də filhəqiqə Bakı əhvalatındandır.

Şamaxı, Şəki, İrəvan, Zəngəzur və Naxçıvan daha ufaq isə də, əmma məəttəəssüf olmasilə bərabər çox böyük rəzalətdir və Asiya müsəlmanlarını ləkələyən vüquatdır. Keçmiş zamanlarda qonşular arasında böylə vüquat olmamış. Qədimdə arvad-uşağa əl vuran olmazdı. Şimdi kəndilərini kişi hesab edənlər silahsız və

pənahsız arvad və uşaqları məhv edirlər. O səbəbə istinadən bu kimi cinayətlərin önünü almaq lazımdır. Ən böyük günah nədir? O günah ya Ermənistanda, ya Azərbaycanda kimsə canilərin əleyhinə qalxıb onları tənbeh etməmişdir.

Əfəndilər!.. Demək olmaz ki, İrəvanda və Ermənistandaki müsəlmanlar köylərində Qaybalı kəndindən əskik işlər və faciələr olur. Bunlar həpsi bir-birinə əvəz yapmaq deməkdir.Məncə caniləri mütləq tənbeh etmək lazımdır. Bu işləri, ədliyyə nazirinə tamamilə təftiş, ləyaqilə təhqiq etməsi və canilərin cəzayə çatdırılması əmr olunmuşdur və komissiya seçilmişdir.

Başqa yollar da vardır ki, hökumət təvəssül etmişdir, onları da unutmamışdır. Bu yollardan birisi Qarabağ əhalisi nümayəndələri ilə bilavasitə bir çox məsələləri həll etmək təşəbbüsüdür. Buna iqdam edilmişdir. 6-cı erməni syezdi çağrılmışdır. Oradan nümayəndələr gəlib hökumət ilə müzakirədədirlər. Orada bir o qədər şey qalmamışdır. İşlər sülh ilə həll olur. Arada sizin istiqlaliyyətinizi Qarabağ ermənilərinin hamı olmasa da 4-dən üç hissəsi sülh konfransına qədəretiraf edib kəndilərini Azərbaycanda olduqlarını hiss və dərk edərək özlərini Azərbaycan təbəəsi elan etməgə qərar verirlər. Bundan əlavə başqa yerlər də daha vardır. Azərbaycanda da, Ermənistanda da bir çox cinayətlər vaqe olmuşdur. Bunları gözlə görmək və təhqiq etmək üçün millətlər nümayəndələrindən ibarət bir komisyon təşkil etmək mümkündür. Və hökumət də böylə bitərəf bir komisyonun təşkilinə qərar verib, erməni hökumətinə təklif etmişdir ki, 2 əza bizim parlamandan, 2 əza erməni parlamanından, 2 nəfər bitərəf adamlardan, məsala: ingilis və ya İtaliya nümayəndələrindən bir heyət gedib həmi Qarabağ hadisatını, həm də Ermənistanda vüqu bulmuş və bulmaqda olan hadisatı öyrənsinlər. Azərbaycanda yaşayan ermənilərin və Ermənistanda yaşayan müsəlmanların halını təftiş etsinlər. Azarı təyin etsinlər ki, davası tapılsın. Çünki azar tapılarsa, davası tapılar. Ona görə mən təvəqqe edərdim ki, tezliklə iki nəfər nümayəndənizi intixab edəsiniz. Ermənistan da razı olmuşdur. Komissiya gedər təftiş edər. İştə hökumətin tədbiri və fikri. Ola bilər ki, bu tədbirləri tənbiq edənlər olsun və arzu



edənlər də olsun. Amma bir şeyi ərz edərdim. Talan harda olursa olsun hökumətin əleyhinə olacaq. Və (hökumət) poqrom qayıranlara ciddi cəza verməyə tərəfdardır. Əgər hökumət bunu yapa bilməzsə bir dəqiqə iş başında qala da bilməz. (*Alqış*).

Bundan sonra iki təklif varid olub:

1- Erməni fraksiyonlarının təklifi:

Azərbycan parlamanı parlaman üzvlərindən mütəşəkkil heyətin məruzəsini və rəisi hökumətin Qarabağda iyul ayının əvvəlində vüqu bulmuş hadisələr xüsusunda bəyanatını dinləyərək arzu edir ki, hökumət tərəfindən məzkur hadisat münasibətilə general qubernator məmuriyətindən kənar olmaq şərtilə istintaq təyin edilərək müqəssirlər kim olursa-olsun mənsəb və məmuriyyətinə baxmayaraq təhti mühakiməyə alınsın.

2- "Müsavat"ın təklifi".

Qarabağ hadisatı haqqında hökumət bəyanat və məlumatını dinləyərək və hökuməti-məhəlliyə, xüsusən general qubernatorun əməl və fəaliyətində heç bir qanunsuzluq əlaməti görməyərək Məclisi-Məbusan bu hadisənin təsviyyəsi üçün hökumət tərəfindən ixttixaz olunmuş tədbirləri təsviblə növbədəki məsələlərin müzakirəsinə keçir.

Birinci təklifin lehinə ancaq ermənilər səs vermişlər. Sosialistlər səs verməmişlər və əksəriyyət əleyhinə səs vermişdir. İkinci təklifin əleyhinə ermənilər və lehinə əksəriyyət səs vermişdir. Sosialistlər bu təklifə də rəy verməmişlərdir.

**69-cu iclas. 28 avqust 1919-cu il.**

Möhtərəm məbuslar! Mən çox diqqətlə qulaq asdım ki, nə üçün bu sual izahat surətini aldı (söhbət ölkənin siyasi həyatındakı dəyişikliklərdən gedirdi.- N.Q.) Səbəbini bilmədim. Bir şey var ki, o da hökumətin bu barədə fikrini camaata bildirmək imiş. Əgər bu böylə isə buna təşəkkür edəriz. Çünki hökumət həmişə böylə suallara məalümum cavab verməyə hazırdır. Böylə olduqda istizah sözünə şübhə demək bu yoxmuş, yalnız sual verənlərin məqsədi hökumətin fikrini camaata bildirmək imiş. Əhməd əfəndinin (Əhməd Pepinov – N.Q.) qoyduğu sualların bir çoxuna ca-

vab verməyəcəyəm, çünki bunların bir çoxu sirdir, onu buradan deyə bilmərəm. Əhməd əfəndi istəsə xüsusi surətdə ona deyərəm, lakin, ona da bir çox şey deməram. Biz Şimali Qafqazlı qardaşlarımızın da öz müqəddəratlarının özlərinin həllini arzu edirik. Ancaq bu dəqiqə ərz edə bilərik ki, bu xətt hüdud üçün müharibə elan etmək münasib deyildir. Və hökumət münasib görmür. İngilislər flotun bəzi qismlərini Denikinə tərk edib getdilər. Əslində hər kəs malının sahibidir. Kimə istərsə verər. Lakin flotun kamilən Denikinə verilməsi doğru olmadığından və bizim də mühafizə edilməsi lazım gələn silahlarımız bulunduğundan əvəz ilə flotun bir qisminin bizə verilməsini rica etdik, bir səmərə hasil olmadı. Flotun qaba qismi alınmaqdadır. Ehtimal qalan qisimləri də veriləcəkdir. Əsasən hökumətin əlində bir qüvvət, bir güc varmıdır ki, flotu onlara vermə, bizə ver deyəlim. Biz İngiltərə hökumətinə bu xüsusda yazdıq, protest etdik, daha bir cavab gəlmədi. Bununla da iktifa etməyib, sahilə qarşı bir taqım tədbirləri də gördük. İnşallah, dənizdən də gözlənilən təhlükə olmaz və yenə bu münasibətlə general Qori ilə görüşdük. Bizi təmin etdilər. Biz flotun həpisini Denikinə verməmişdik. Biz Denikinə bolşeviklərlə müharibə etdiyi üçün hər xüsusda müavinət edirik. Flotun həpisi verilsə də, Denikinin bizə qarşı sui niyyəti yoxdur. Sizin üstünüzə gəlməyəcəkdir, əmin olunuz dedilər. Və yenə ilə bütün Avropa bolşeviklərə qarşı elani-hərb etdiyindən müti. Avropanın bu qərarına Azərbaycan bir şey eyləyənməz. Nəticə Denikinin əlindəki bu alətlərdən istifadə edib də bizə hücum edəmiyəcəkdir. Sülh konfransı Zaqafqaziya işlərinə daha yaxından əlaqə peyda etmək üçün Qaskel adında miralayı-polkovniki Zaqafqaziyaya gəlmişdir. Və Denikinə də teleqram vermişdir ki, bu tərəfə gəlməsin, bunu mən oxudum. Gürcü mürəxxisləri nəql edir və yenə ingilis hökuməti Zaqafqaziyadakı nümayəndəsinə rəsmən əmr vermişdi ki, Zaqafqaziya cümhuriyyətləri ilə rəsmi və sıxı bir münasibətə girişsin, iştə şu əhvalat bizi bir növ satmaq deməkdir. Digər tərəfdən İtaliya da öz nümayəndəsini göndərmişdir. Bu da rəsmidir və səlahiyyəti vardır ki, gürcülər və Azərbaycanla münasibətə girişsin. İştə şu əhvalat bizi ümidvar edir ki,



Zaqafqaziya Rusiyadan ayrıdır. Və bizim istiqlalımız olacaqdır. (*Alqışlar*).

Əlbəttə, bizim vəziyyətimiz çox nazikdir. İstiqbala qarşı atılan hər addımı diqqətlə atmaq və dövrü olmaq lazımdır. Amallarımıza vüsil üçün məclisi-məbusan əzalarının da bu xüsusda hökumətə kömək eyləməsi və xaricə qarşı yekvücud bir kütlə halında hərəkət edilməsi lazımdır. Vətənimizi xarici düşməndən müdafiə etsək və edə bilsək Avropa bizim istiqlalımızı tanıyacaqdır.

Denikinə qarşı hər tərəfdə müdafiə xüsusunda tədbirlər görülüyor. Fəqət, məlumunuzdur ki, bizim xarici düşmənlərimiz içində yalnız Denikin deyil, bolşevik qüvvəti də vardır. Bütün dünya bu qüvvənin qarşısında kəndimizi nasıl saxlaya biləcəyimizi dörd gözlə gözləyir. Biz şimdi nə mühüm imtahan dövrləri keçiririk. Məəttəəssüf bu xüsusda həpiniz həmrəy deyilsiniz. Bəziləri bu xüsusda hökumətə kömək etməkdən maəda mane olur. (*Səslər: Qəhr olsunlar*). Denikinə qarşı həmrəy olduğu halda, iş bolşevizmə gələndə pək başqa surətdə davranırlar. Rica edirəm, hökumətin yardımlara ehtiyacı vardır. Əgər, biz öz istiqlalımız uğrunda əl-ələ verər, ittifaqla hərəkət edərsək, məqsədimizə nail olarıq. Onun üçün mən bir dəfə də təkrar edirəm ki, hökumətin sizin yardımlarınıza ehtiyacı vardır. Güman edirəm bunu əsir-gəməzsiniz. Ələlxüsus moralnı yardımınıza ehtiyacımız vardır. Məmləkətimiz əleyhinə gələ biləcək təhlükələrə qarşı, bu təhlükə istər sağdan olsun, istərsədə soldan olsun, xarici düşmənlərdən müdafiə etmək üçün sizdən kömək gözləyirəm. (*Alqış*).

**Nəsib bəy** – Möhtərəm məbus əfəndilər! Əgər bu dəqiqə eşitdiyim nitqi əvvəlcə eşitsə idim, sizi daha ziyadə rahatsız etməz idim. Şimdi məsələ istizah olduğu üçün mən buna cavab verərəm. Əvvəla xətti-hüdud məsələsində hökumət səhv eləyib. Səhv nə imiş? Səhv o imiş ki, İngiltərə hökuməti bizə bir xətti-hüdud göstərdi, biz buna razı olduq. Gürcütanda da bir xətt göstərildi. Onlar razı olmadılar, çünki razı olsa idilər, geri çəkilmələri icab edərdi. Daha eyi olardı ki, bu xətt Petrovskinin altından keçə idi. O zaman Dağıstan da bizim olardı. Xətt Petrovskidən daha irəli gedə idi. Məsələn, deyək ki, Moskvaya qədər gedə idi. Bu alahı

söhbətdir. Hökumət heç bir vaxt hərb açmaq tərəfdarı deyildir. Gürcülər razı olmadılar, çünkü geri çəkilmək istəmədilər. Hal-hazırda Gürcüstan müdafiə vəziyyətində bulunub deyir ki, əgər üstümə gələrsən, hərb edərəm. Hökumətin fəzlə bir qüdrəti olaydı, ən əvvəl göstərilən xətti-hüdud məsələsində israr edər, Denikini qüvvətlə məcbur edər idi. Hal-hazırda Gürcüstan müdafiə, Azərbaycan mütəariz bir vəziyyətdədir. Əgər mənə də desə idilər ki, sən də qızıl yurta çəkiləcəksən, razı olmaz, qanımın son damlasını axıdardım. (*Şiddətli alqışlar*).

Hökumət öylə bir vaxt hərb açar ki, onun istiqlalı, hürriyyəti təhlükədə olur. Hökumət heç bir vaxt millətin xaini deyildir. İkinci məsələ. Əhməd əfəndi buyurdular ki, daxildəki de-nikinçilərə qarşı tədbirlər edilmir və tədbirlər ancaq bizim hökumətə qarşı verdiyimiz suallardan sonra görüldü, deyə iftixar edir. Bu da fəna deyil, hökumətin müti olduğunu göstərdilər və nəticədə tədbirlərin görüldüyünü inkar etdilər. Biz daxildəki düşmənlərə qarşı mücadilə edirik və edəcəyik. Yalnız arzu edirik ki, qurunun yanında yaş da getməsin. Bizimlə işi olmayan adamlar, az zərər görsünlər. Çünkü bir günahlını tapmaq üçün on günahsızı cəfa etmək, onları təhərri etmək icab edər. Biz böylə tədbirlərlə kimsənin rahatsız olmasını istəmirik. Əgər icab etsə üç gün içərisində Bakıda Denikin və bolşeviklərin tərəfdarlarını təmizləyə bilərəm. Son üç ay ərzində Bakını 2 000 adam tərk etmişdir.

Məsələləri düşünəndə Əhməd bəy iki cür arşın qollanır. Birisi Denikin, ikincisi bolşevik. Birinci məsələyə gələndə Denikinin Bakıda qərargahı var, rəsmi möhürləri var, millətə işləyir deyir. Fəqət bolşeviklərdən bəhs olanda deyirlər ki, xayir olmaz. Hürriyyəti-vicdan var, hürriyyəti-kəlam var. (*Alqışlar*). Və yenə Əhməd əfəndi buyurdular ki, xaricdən gələcək düşmənlər ilə hərb etməyə heç bir əza yoxdur ki, razı olsun. Fəqət Əhməd əfəndi əlini ürəyinə qoyub da desə idi, məsələdə bir az xəta olduğunu anlar idi. Məlumunuzdur ki, camaatimiz arasında bolşevizmin artmasına çalışanlar və hökuməti yıxmaq istəyənlər də vardır. (*Səslər: Qəhr olsunlar!*) Türkcə oxunan bir çox qəzetlərdə illətən elan edilir ki, biz bolşeviklərə kömək edib, Denikinlə hərb edəlim. Bolşevikləri buraya dəvət edəlim deyənlər var, hətta içimizdə də var.

Onun üçün mən yenə təkrar edirəm ki, bolşevizm bizim üçün bir təhlükədir, bəlkə daha böyük təhlükədir. Doğrudur, Əhməd əfəndi mənim sözümü bir qədər böyütdü. Lakin bunu deməkdə məqsəd o deyil ki, bolşeviklər bu saat bizim üzərimizə hücum edirlər və Azərbaycanı istila edirlər. Bolşevikərin təhlükəsi başqa bir cəhətdəndir. Bu saat bütün dünya bolşevizm ilə mübarizə edir. Bu nöqteyi-nəzərdən bizim tərzi-hərəkətimizə diqqət olunur. Bolşevizmə qarşı bizim nə kimi bir əlaqədə bulunacağımız ilə bizi tanımaq istəyirlər, bizi ölçmək istəyirlər.

Əhməd əfəndi buyurdular, Rusiyadan ayrılan xırda millətlərdən Polşa, Estoniya və sairəni Avropa bolşeviklər ilə mübarizə etməyə məcbur etmişlər. Çünki onlar şərt qoymuşdular. Əgər bu saat mənə desələr ki, səni tanıyıb və istiqlalını təsdiq edərəm, mən sabah burada bir bolşevik qoymaram. (*Sağdan alqış*). Çünkü bolşeviklərin təhlükəsini biz öz istiqlalımız ilə ölçürük. Biz hürriyəti-vicdan tərəfdarıyıq. Bu hürriyyəti-vicdan məsələsində mən bəşəxsə Əhməd əfəndidən daha da müsaidəkar və ona tərəfdaram. Əhməd əfəndi bir tərəfə tam sərbəstlik vermək istədiyi halda digər tərəfi boğmaq istəyir. Mən isə hər iki tərəfə yol verirəm. Lakin hər şeyin bir həddi var. İstər bolşevik olsun, istər menşevik olsun, istər Denikin tərəfdarı olsun, o hüdud keçərsə onun əfal və hərəkəti bizim tərz idarəyə sədəmə vurarsa, onu orada dayandıraram. Mən arzu edirəm ki, bu barədə mənə müavinət etməsələr də heç olmasa mane olmaya idilər. Mən heç görmədim ki, Əhməd əfəndi bir kərə olsun tutduğum Denikin adamlarından birinin xilası üçün yanıma təvəqqe və xahişə gəlsin. Lakin, heç bir bolşevik tutmadım ki, Əhməd əfəndi onun xilası üçün xahişə gəlməsin. (*Alqış*). Doğrudur, biz bolşevik tuturuq. Lakin çoxunu bolşevik olduğunu bilirkən yenə xilas edirik. Əhməd əfəndi ilə məndə bir az fərq var. Mən hər kəsə bir nəzər ilə baxıram. Onlar isə bir nəzər ilə baxmırlar. Sonra burada bir az demoqoqya oldu. Guya biz hər kəsi tutmaq istəyiriksə onu bolşevik adlandırırıq. Bu vaxtacan kimsəni və heç bir yekunu bolşevik adı verib, tut-

duğumuz olmamışdır. Mən güman etmirəm ki, Əhməd əfəndi, burada öylə bir fakt göstərə bilsinlər. Mənim tutduğum nə bolşevik və nə menşevikdir. Mən yalnız vətənimizin, istiqlaliyyətimizin düşmənlərini tuturam. Onlar öylə adamlardır ki, hər zaman fikirləri bizim hüququmuza və istiqlalımıza təcavüz etməkdir və yaxud tərzi-idarəmizi dəyişmək üçün çalışmaqdır. Bunlar bizim düşmənlərimizdir. İstər anarxist olsun, istər Denikin olsun, istər bolşevik. Mən onlar ilə mübarizə edib, sizi də mübarizəyə dəvət edirəm. (*Alqış*).

**132-ci iclas. 9 mart 1920-ci il.**

**Nəsib bəy** - Möhtərəm əfəndilər! Məlumunuzdur ki, Kars vilayətinin əksəriyyəti müsəlmandır. Bu vilayətin təxminən 364 min camaatı var. Hərbdən əvvəl mövcud statistika məcrübi ilə bu vilayət səkənəsinin 55 faizi türk və müsəlman, 20-30 faizi erməni, mütəbaqisi rus, rum və sairədir. Demək vilayət müsəlmanlardan ibarətdir. Məlumdur ki, Karsı türklər işğal etmişdilər. Mütarikədən sonra Karsdan çəkildilər. Yerli əhali üzərinə Cənubi-Qərbi hökuməti namilə bir hökumət qurdular. Bu hökumət Kars vilayəti və ətrafını idarə etdi. Aprelin12-də 1919-cu ildə İngiltərənin Qafqazda olan nümayəndələri Kars hökumətini ləğv etdilər, əzalarını Maltaya göndərdilər. Və 9 adamdan ibarət bir şura olacaq, beş müsəlman, mütəbaqisi xristiyan, 5 müsəlman əzaları bunlar idi: Behcət Abaşidze, doktor Hacıyev, Bilal əfəndi, Bayraqdarzadə. Ermənistan da Karsa müdaxilə etməyəcək idi. İngilislər vədi nəzərə almayaraq erməniləri Karsa buraxdılar. Ermənilər Karsı, Sarıqamışı, Ərdahanı işğal edib, əksəriyyəti müsəlman olan yerlərə nüfuz yetirməyə başladılar. Oraya gələn məmurlar əksəriyyətlə özlərini dövlət nümayəndəsi kimi aparırdılar. Dövlət nümayəndəsi adını daşıyanlar dəxi həqiqətlər göstərmədilər. Əksəriyyəti müsəlman olan yerlərdən onları çıxarmağa məcbur etdilər. Ermənilər Kars, Ərdahan və Kars ətrafı yerlərdə qaldılar. Kars vilayəti əhalisi adi həyatla yaşayırdılar, onların üzərinə dəfələrlə hücum etmək istədilər. Bunlar 28 fevrala qədər böylə yaşadılar. Ermənilər Ağbaba və Karsın bəzi yerlərinə nüfuz



yetirməyib, əhalini təhti-idarələrinə alamadılar. Böylə hərəkətlərlə erməni hökuməti bütün dünyaya bildirmək istəyirdi ki, Kars əhalisi Ermənistanı tanımışdır. Məlumunuzdur ki, Xatisov Karsa gələrkən kürdlər, türklər və yerli əhali tərəfindən mütəntən surətdə istiqbal edildi. (Bu) Kimi şeylərlə erməni hökumətinin hər şeyi tanıdığını söylədilər. Amma, həqiqət böylə deyildi. Onları tanımaq istəmirdilər. Bunun üçün ən son üsula müraciət edildi ki, İrəvanda olduğu kimi təbiidir. Bəlkə müsəlmanlar onları tanıya idi. Avropaya israr edə idi. Amma o şeylər ki, müsəlmanlar görüb eşitdilər, onların şahidi idilər, tanımalarına mane idi. Onlar bilirlərdi ki, Aleksandropol, Novobayazid, İrəvan əhalisinin səfalətini Zaroşat tərəfindən Karsa gələn 20 min qaçqınların halını görənlər, müsəlmanları himayəyə çalışan bir idarəyə böyun əyməyəcəklərini elan ilə rədd etdilər. Fevralın əvvəllərində ilk teleqraf gəldi: Erməni hökuməti qərar vermişdir ki, o yerlər ki, erməniyə tabe olmayır, top ilə alsınlar. Vaxt az olduğundan teleqrafları tərcümə etməyərək rusca ərz edəcəyəm. (*Oxuyur*). Ondan sonra çox teleqraf gəldi, elana ehtiyac yox. O şeylər ki, olub, məlumatları ərz edəcəyəm. Bundan sonra bunu təsdiqedici bir çox teleqraflar bunlardır. (*Oxuyur*). Martın 4-də gələn (*oxuyur*), 5-də gələn (*oxuyur*). Deməк, bu iki-üç nümunə olaraq oxuyuram. Böylə teleqraflar çox gəlmiş, oxusam uzun çəkər. Bir saat yarımdan ziyadə vaxtınızı işğal edərəm. Təbii, buna biz soyuqqanlılıq ilə baxa bilməzdik və biganə qala bilməzdik. Biz də erməni hökumətinə müraciət edib bu əhvalatın doğru olub-olmadığını soruşduq. İlk dəfə İrəvana böylə bir nota göndərdik. (*Rusca oxuyur*). Bu notanın kopyası burada olan əcnəbi hökumət nümayəndələrinə göndərilmişdir. Erməni hökumətindən notalarımıza cavab gəlmişdir. Məsələni aydınlaşdırmaq üçün oradan gələn cavabları da sizə ərz edərəm ta biləsiniz ki, onlar Kars hadisatını nə yolda göstərmək istəyirlər. O notaya cavab olaraq böylə bir cavab gəldi. (*Rusca oxuyur; Səslər: posle smerti*). Bu teleqraflar fevralın onunda gəlmişdi, fəqət mart ayının 4-də aldığımız xəbərlərə görə dağılan kəndlər bunlardır: Ginayin, Aslanxar, İlanlı, İmincədərə, Gülverən, Şahnalə, Daraxan və ilaxirə. Haman teleq-

rafdakı, rahatlıq bərbaddır deyilir bunlardır. Əlbəttə, biz böylə nota ilə rahat olmazdıq. 2-ci notanı göndərdik. Məzmunu böylədir. (*Oxuyur*). Təbii buna da cavab gəlmişdi, onu da ərz edim. (*Oxuyur*).

**Səslər**- Ложь.(yalan-red.)

**Nəsib bəy** - Demək, bu da ikinci cavabdır. Bu əhvalatı təyin etmək üçün iki cür teleqraflar var. Birisi Ermənistan hökumətindən, digəri isə camaat nümayəndələrindən. Bu teleqraflar arasında nə qədər böyük ziddiyyət olduğunu sizə bildirmək üçün camaat tərəfindən göndərilən teleqrafları da oxuyuram. (*Oxuyur*). Karsda Ermənistan mümməssili Bekzadyan adına böylə bir teleqram gəlmişdir. (*Oxuyur*). 2-ci teleqram da budur. (*Oxuyur*). Deməli, görürsünüz, bir tərəfdən belə teleqram var ki, bir neçə adam aqitasiya yapır, camaatı hökumətə itaət etməyə qoymayırlar. Və hökumət bir dəstə göndərib o adamları qovmuşdur. Camaat isə hökumətə itaət eyləmişdir. Hətta onların nümayəndələrinin şərəfinə oyun verilir, ziyafət verilir. Digər tərəfdən bildirdilər ki, erməni qonşuları 24 ədəd müsəlman kəndlərini yerlə yeksan edib, orada əhalini tamamən kəsmişlərdir. Uşaqları belə tonqala basmışlardır. Övrətlər də tələf edilmişdir, yerdə qalanlar da, qaçan qaçmışdır. İştə aldığımız məlumat necə ki, sizə söylədim böylədir. Ola bilər ki, hər iki tərəfdə mübaliğə olsun, fəqət bunların arasında böyük bir məsafə var ki, ya gərək bu yalan olsun, ya o tərəf. Əsl məsələ nədən ibarətdir? Müvəssəl mənbədən aldığımız bu ilk vüquat haqqındakı məlumatı burada ərz edəcəyəm. Məlumat vüquati görmüş mötəbər adamların ağzındandır:

Yanvarın 27-də Mazmanovun dəstələri top və pulemyot ilə Ərdəha - Çildir üzərinə hərəkət etmişlərdir. Güləbərt və Bəklixatun köyləri arasında camaat bunlara rast gəlmiş, müqavimət etmişlər və atışma nəticəsində erməni dəstələri geri çəkilməyə məcbur olmuşlardır. Və yenə də malakan köyü olan Romanovkada bulunan general Osipyan bir nömrəli əmri camaata göndərmişdir. Həmin əmirnaməni oxuyuram ki, verilən xəbərlərin doğru olduğunu biləsiniz. Əmrnamə bundan ibarətdir. (*Rusca oxuyur*). Görürsünüz ki, burada yalnız aqitator məsələsi deyil, burada camaat üzərinə müraciət olunur. (*Oxumaqda davam edir*). Deməli general Osipyan tərəfindən böylə bir əmrnaməyə camaat tərəfindən verilən cavabı da oxusaq, burada aqitator məsələsi olmadığını bilərsiniz. Osipyan əmrnaməsinə camaat böylə bir cavab vermişdir. (*Oxuyur*). Oxuduğu əsnada səslər: doğrudur, doğrudur, ar olsun... Demək bu cavab vermişdir. Görürsünüz ki, bu cəvabda vaxtından və məhəllindən başqa birşey istəməyib. Camaat deyir ki, etibarlı adamlar gəlsin, danışsınlar, bir etlafə gəlsinlər. Və deyirlər ki, az vaxtda camaatı toplayıb, əmrnamədən onları xəbərdar etmək olmaz. Buna baxmayaraq general Osipyan məəttəəssüf öz təhdiyyatını icra etməyə başlamışdır. Yanvarın otuz birində Jaruşaf əhalisi cavab göndərmişdir. Haman gün də Osipyan (qoşunu) hücuma göndərmişdir. Viyanovka gölünü topa tutmağa başlamışdır. Əhali qaçarkən yolda top, pulemyot atəşi altında məhv olmuşdur. (*Oxuyur*). Deməli, bundan anlaşılır ki, qətl edilən övrətlər aqitator imişlər. (*Oxuyur*) və ilaxır. Nəbdovan, Qızıl Kilsəni bu cür, axşam saat 2 rübə qədər polkovnik Şağıbəyov top atəşinə tutdurmuş. Şubatın 7-də Göyərçin kəndini yandırıb, büsbütün yer ilə yeksan etmiş. Göyərçindən 1200 qara mal, 2000 qoyun təhti-təsərrülərinə keçirmiş, kənddə qalmış 24 kişi, 87 övrəti qətl edərək 175 evin bütün əmlakını daşıyıb aparmışlar. Qızıl Kilsədən 5 yüz qaramal, 2 min qoyun və 135 evin müxəlləfatını aparmışlar. Kənddə qalan iki qocanı ki, biri 80, digəri 90 yaşında imişlər – öldürmüşlər. 14 övrəti, 27 uşağı atəş içinə atıb yandırmışlar. Fevralın 7-də Ağababa uçastkasında Qazançı kəndinə top atəşi açılmış, Balıqlı kəndində 4 nəfər ölü, iki nəfər yaralı qalmışdır. Qaranamaz kəndində 6 övrət, 17 uşaq və 4 kişi məqtul, 2 nəfəri də məchul olmuşdur. Ermənistan arasında olan müsəlmanlardan çox az qalmışdır. Köylərin həpsini yaxmışlar, əhalisini qovmuşlar və yainki əhalisi qaçırılmış, yerli ermənilər işğal etmişlər. Bir çox məlumatımız daha da vardır ki, yuxarıdakı yerlərdə iyirmi dörd kənd hamısı məhv edilmişdir. O ki, qaziyə gəldikdə deyirlər ki, ermənilər haqqında böylə yazmış, öylə yazmış, onun sözlərinə o qədər də etimad etmək olmaz, çünkü bu gün ölüm təhdidi altında əmmaməsini götürüb də rus şapkası

qoymağa məcbur və haqlıdir, həpsini qorxudan yapır. İştə əfəndilər, görürsünüz ki, erməni nazirinin verdiyi məlumatla camaat verən məlumatın arasında nə qədər böyük fərq var. Şübhəsiz, bunların ikisindən biri yalandır. Ey kaş, bunların həpisi yalan olmuş ola idi. Məəmafiyə yenə bu sənədlərə istinadən erməni hökumətinə böylə bir nota göndərmişdir. (*Oxuyur*). İştə görürsünüz ki, yenə son çarə olaraq, yarın oraya bir heyət göndərilməsini təklif edirəm. Əvvəla ola bilər ki, hər iki tərəfin xəbərində mübaliğə olsun. Fəqət bu qədər qırmızı yalan ola bilməz. Ona görə biz dedik, bir komissiyon getsin, işi ətraflı məhəlində təhqiq eyləsin. Kaş bu deyilənlərin həpsi yalan olsun.

**Səslər** - Nə cavab çıxdı?

**Nəsib bəy** - Hələ, rəsmi surətdə erməni hökumətindən bir cavab yoxdur. Ancaq qeyri-rəsmi surətdə məlum olmuşdur ki, erməni hökuməti, müttəfiqlər bir böylə komissiyonun getməsinə əsasən razıdırlar. Fəqət oraya göndərmək üçün adamlar yoxdur. Bu xəbərlər ki, biz vermişik ingilislər Londraya, öz hökumətlərinə xəbər göndərmişlər və bu işlərin də doğru olduğunu bilərək, onlar erməni hökuməti nəzdnində şiddətli tədabirdə bulunmuşlardır. Əlbəttə biz bilmək istədik ki, müttəfiqlər özləri oraya getmək, görmək istəyirlər, ya yox? Bizim təklifimiz fevralın 29-da olduğu halda ələn rəmi, təhriri cavab yoxdur. İştə Kars faciəsi haqqında sizə verəcəyim məlumat. Fəqət, məsələ yalnız Kars deyil. Görürsünüz ki, ermənilərin idarəsi altında olan yerlərdə Eçmiadzin, Novbayazid, İrəvan qəzalarında və sairə yerlərdə küllü miqdarda müsəlman var idi. Hər halda əhalinin otuz faizi qədərdi. Fəqət, nasılsa, birdən-birə bunların həpsi mübəlliğ olmuş və nəticədə müsəlman şimdi orada yoxdur. Ancaq, iki köy qalmışdır. Bizi qorxudan budur ki, Karsda da böylə olsun. Binaən-ileyh bunun önünü almaq lazımdır.

Əfəndilər! Böyləliklə qurulan hökumət yaşamaz. Qan ilə yoğrulmuş dövlət başa getməz. Biz, gərək gedib görək, əgər bu denilən sözlər yalan isə, ermənilərdən üzr istərik, doğru isə çarə qılmaq lazımdır. Ümid edirəm ki, cəmaət və məbus əfəndilər bunların həpsinə qarşı soyuqqanlıqla davranaraq, bizə müsaidə



verərlər ki, daxilimizdə bunun əksini göstərək ki, vəhşi kimdir, mədəni kimdir?

**Səslər** - Böylə mədənilik bizə baha oturar.

**Nəsib bəy** - Şimdi mən, hər kəsdən əvvəl erməniləri gözləyirəm ki, desinlər, bəsdir, artıq böylə olmaz. Erməni hökuməti izin verməlidir ki, ermənilərlə bərabər gedəlim və oralarda nələr olduğunu görəlim. Təkrar deyirəm, bunların həpsi kaş yalan ola və amma doğru olsa erməni vətəndaşlarımız da bizimlə, hətta bizdən də qabaq səslərini ucaltmalı və deməlidirlər ki, bəsdir daha böylə hökumət qurmaq olmaz. Bu cür rəftarınızla aləmi qana bulayarsınız.

*Mənbə:* **Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). c.1-2, Azərbaycan nəşriyyatı, Bakı, 1998.**

## Azərbaycan vətəndaşlarına hökumətin müraciəti

Azərbaycan vətəndaşları! Bir sənə bundan əqdəm məbuslarımızın rəyi və arzusu mocibincə, Azərbaycan xalqı müstəqil yaşayış təriqinə qədəm qoydu. 1919-cu sənəsi mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri Ümumazərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki kəndi dövlətimizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi günü olduğunu Sizə sözdən artıq izah edir. Siz çarizmin ən ağır tarixini keçirmişsiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni təriqiyyətdən və ən ibtidai siyasətdən belə məhrum olmuşduq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altında alınırdı. Sizin nəzərlərinizdən bolşevik hərc-mərcliyi, onun o mənhus dövrü keçmişdir. Kəndi evlərinizin talan və qarət edilib, uşaqlar və qadınlarımızın böyük fəlakət və münasibətlərə düşdüyünü və təhəmmül etdiyini gördünüz.

Qan dəryasında qütəvər olan Azərbaycan türk milləti kəndi müqəddəratını öhdəsinə alaraq, özbaşına buraxılmışdır.

O, mətanəti-qəlb və əzmi-qəti ilə istiqlalı düşünərək yaşayır. Və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb, ona rəvan oldu. Öylə bir yol ki, onu ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu bir sənə ərz müddətində biz yorulmadan işlədik və bu işləməyimiz ilə dövlətimizi möhkəmləşdirərək, cəmaətimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və istərdik ki, cəmaət və millət məbuslarının getdikləri yol doğru və xalqın azad fikir və məsləkidir. Bu az vaxt zərfində Azərbaycan türkləri kəndilərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər. Bunu sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmadır. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa, təxir etməyib haman hökumət işlərində davam etməkdədir.



İnqilabın bizə vermiş olduğu səmərəsi mühafizə edilmək ilə bərabər, indi Məclisi Məbusan seçkiləri ərəfəsindəsiniz. Bu məclisdə Azərbaycan milləti kəndi fikir və rəyini aşkar edəcəkdir. İstiqlaliyyəti müdafiə və mühafizə etmək ümumazərbaycan xalqının müqəddəs vəzifəsidir.

Azərbaycan vətəndaşları! Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayışımız təmin edilər isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahat və azad yaşamağa malik olarız.

Azərbaycan vətəndaşları!

Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərq millət hər kəs özünü musavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millllətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür.

Azərbaycan millətinin ittihad və ittifaqına istinad edərək və buna ümidini izhar etməklə hökumət Azərbaycan Cümhuriyyətinin ikinci sənəsinə qədəmnihad olur.

Ümumazərbaycan vətəndaşlarının qüvvə və müavinətinə ümid ilə hökumət onları dövlət bayramı ilə təbrik edir.

*Nəsib bəy Yusifbəyli.*
*"Azərbaycan" qəzeti, № 190,*
*28 may 1919-cu il.*

## 2. HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, YAZILAR

### Məmməd Əmin Rəsulzadə

### İstila qurbanları
### Nəsib bəy Yusifbəyli

Bu mənhus günün nəticəsində Azərbaycan istiqlal hərəkatının verdiyi ən mühüm qurbanlardan birisi Yusifbəyli Nəsib bəydir.

İstiqlalın vaqe bulduğu günlərdə, müstəfi bir halda olsa da, baş vəkalət mövqeyində bulunan Nəsib bəy, Bakının qızıl rus ordusu tərəfindən işğalı üzərinə, saxlanaraq hüdud xaricinə çıxmaq məqsədiylə, yaxın arxadaşlarından İbrahimli Yusif bəylə bərabər Gürcüstan yolunu tutmuş, Siqnax qəzasında təfsilatı şimdilik məchulatla dolu fəci bir qəzaya qurban getmişdir.

Nəsib bəyin Azərbaycan istiqlal hərəkatındakı rolu sadə nazirlikdə və baş vəkillikdə bulunduğunu söyləməklə ifadə edilməz. Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox dəxi əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də "Türk ədəmi Mərkəziyyət xalq firqəsi" namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlar. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir.

Nəsib bəylə müarifəmiz bu tarixdən daha əvvəl idi. Hərbi-ümumi sənələri idi. O, Gəncədə bələdiyyə idarəsi əzalığımda, mən də Bakıda 1915-də təsis etdiyim "Açıq söz" qəzetəsinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sıx-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini "Açıq söz" idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda kəndisindən ayrıldığımız 1920-ci ilin son may günlərinədək zərrə qədər xələldar olmayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi.

Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi zamanlarda mənə də Bakıda "Açıq söz" qəzetəsinə eyni tezi müdafiə edən bir baş məqalə yazdırmışdı.

Nəsib bəy mərhumda, onun ətrafındakı ali təhsil görmüş Azərbaycan münəvvərlərində əndər bulunan bir xüsusiyyət vardı. O ədəbi türkcədə eyni mükəmməliyyətlə yazar və söylərdi. Vaxtıyla Gəncədə açılan "Mədrəseyi-ruhaniyyə" müəllimlərindən olub, eyni zamanda, Gəncədə türkcə kitablara məxsus bir kitabxana təsis edən Nəsib bəy, sonra Odessada hüquq fakültəsinə davam etmiş və bu surətlə ali təhsil görmüşdü...

Nəsib bəy məşhur İsmayıl bəy Qasprinski mərhumun kəriməsi Şəfiqə Soltan xanım ilə evlənərək, bu ailə ilə qaribat peyda etmiş və bir müddət Bağçasarayda qalaraq, "Tərcüman" qəzetəsini dəxi idarə etmişdir.

Nəsib bəy qəzetəçilikdən maəda "Təslim" namında yazdığı, mövzusu əski üsul məktəb müəlliminin üsuli-cədid müəlliminə məğlubiyyətini hekayə edən məfkurəvi bir romanıyla Azərbaycan ədəbiyyatında dəxi bir iz buraxmışdır.

1917 sənəsinin nisanında Bakıda toplanan Birinci Müsəlman Qafqaziya qurultayı sonradan Azərbaycan siyasi fəaliyyət sahəsində o və ya bu şəkildə mövcudiyyət göstərən qüvvələri bilirdən bir məşhər hökmünü almışdı. Bu məşhərin ən qüvvətli və bariz şəxsiyyətlərindən birini də bizim Nəsib bəy təşkil edirdi. Onun Qafqaziya qövmi xəritəsinin açaraq yuxarıda qeyd etdiyimiz qurultayda çox mütəəssir bir səslə "kim dəva edə bilir ki, biz kəndini idarəyə səlahiyyətdar bir millət deyilik!" dediyi hələ qulaq-larımızda çinləyir!

Bu qurultayda Nəsib bəy Gəncədə təsis etdiyi "Ədəmi-Mərkəziyyət" firqəsinin mətbu proqramını tövzihlə, əsaslarını müdafiə etmişdi. Bu müdafiəsində o, milliyyətçilik, türkçülük, xalqçılıq və modernizasion prinsiplərinə istinad eyləmişdi. Nəsib bəyin zəkası yalnız bu müdafiətlə də qalmamış, o, qurultayda eyni əsasları müdafiə edən Müsavat xalq firqəsi müməssisləri və "Açıq söz" qəzetəsini təmsil edən cərəyanla da anlaşaraq, bu yek-digərinə yaxın axıntıların böyük bir nəhr halında birləşmələrini təmin lüzumunu da görmüş və həmən tətbiqinə təşəbbüs etmişdi.

Bir tərəfdən Nəsib, digər tərəfdən də Məhəmməd Əmin Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan cərəyanlarının kəndi aralarında əqdi-ittiqad etdiklərinə aktiv bir dəlil və şahid olmaq sifətiylə, milli Azərbaycan istiqlalçılıq hərəkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və

səmimiyyətinin qəti rol oynadığını burada təsbiq etməliyəm. Bu İttihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəaqqib Türk federalist Müsavat xalq firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir.

Firqə qurultayında olduğu kimi, bundan sonrakı Azərbaycan siyasi həyatının müxtəlif səhifələrində dəxi Nəsib bəyi biz fəal bir xalq siyasisi olaraq görürük. Gərək Rusiya Müəssisan məclisi intixablarında, gərək Tiflisdə təşəkkül edən Məvərayi-Qafqaz Seymində Nəsib bəy milli siyasətin ən çətin və ən məsuliyyətli vəzifələrini ifa edir. Azərbaycan istiqlalının təəssüs etdiyi dövrdə dəxi Nəsib bəy əvvəla maarif nəzarətində bulunmaq, sonra da iki dəfə baş vəkalətə gəlmək surətiylə aktiv idarə işlərində bulunmuşdur.

Nəsib bəy Azərbaycan istiqlal hərəkatının ən müşkül zamanlarında istiqlalçılıq tezisinin, hər tüvrlü tərəddüddən ari olaraq, bütün səmimiyyətlə müdafiə edən milliyyətçi zümrənin daima səmimi və imanlı ərkanından olmuşdur.

Nəsib bəyin xatirəsi istiqlalçı Azərbaycan nəslinin zehnində səmimi bir millətpərvər, demokrat və həqiqi bir radikal olaraq qalmışdır. Müasir Avropa kültürü ilə bərabər, türkcədəki iqtidarı və milli həyat, ədəbiyyat tarixi haqqındakı mərbutiyyət və əhatəsiylə akram arasında mümtaz bir mövqe tutan bu mücahidin üfulu bütün Azərbaycan gənclərinin dərindən-dərinə mütəəssir eyləmiş, hər kəsin qəlbini ciddən qanatmışdır.

Mütavaze bir xalq adamı, idealist bir siyasət əri, mutəkid bir demokrat, kəndi prinsiplərinə sadiq bir liberal, dissiplinə tabe bir təşkilatçı olan Nəsib, eyni zamanda müsahibləri üzərində iyi təsir yapan, xalq ruhiyyətinə aşina bir adamdı.

Bununla bərabər, Nəsib bəyi sevməyənlər də çoxdu. Bu sevimsizlik üçün o, şübhəsiz, müdafiəsində israr etdiyi prinsiplərə mədyundu. Müəyyən prinsipləri müəyyən bir istiqamətdə müdafiə edənlərin dostlar kimi düşmənlər dəxi qazanmaları qədər təbii bir şey olamaz! Fəqət bu düşmənlər belə Nəsib bəyin şəxsini eqoizm şaibəsiylə ittiham edəməmişlər. Bolşeviklər belə, bir gün əvvəl atdıqları ittihamı ikinci gün bizzat təkzib etmək məcburiyyətində qalmışlar.



Nəsib bəyin şəxsiyyətini, onu yetişdirən mühitin xüsusiyyətini kamilən təhlil etmək və nəticədə mərhumun tutduğu həqiqi mövqeyi olduğu kimi təsbit etmək üçün məqaləmizin həcmi müsaid deyildir. Bu qədər söyləyə bilirik ki, o, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik müməssillərindən biridir. Elə bir müməssil ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur.

Sadə bu mərbutiyyət Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir isim halına qoymaq üçün kafidir.

Nisan matəmində intiqam əhdini təcdid edən milli istiqlal nəslinin qeyrətini təhrik edən böyük amillərdən biri də heç şübhəsiz Nəsib bəyin şəhadətidir.

Müzəffər istiqlal nəslinin ilk yapacağı şükran vəzifələrindən birincisi siyasi Azərbaycanın ilk mübəşşirlərindən Nəsib bəy namını əbədiləşdirmək və Bakı ilə Gəncədə ona birər abidə tikməkdən ibarət olmalıdır.

***"Odlu yurt", 1929, № 3, səh. 110-112.***
*Təkrar nəşri: İstila qurbanları. B.,*
*Azərnəşr. 1993.- səh. 8-12.*

* * *

***Mövsüm Əliyev***

## Nəsib bəy Yusifbəyli

Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olmuşdur. Onun atası şəhərin maarifpərvər ziyalılarından idi. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra Nəsib bəy Yusifbəyli 1902-ci ildə Odessa universitetinin hüquq fakültəsinə daxil olmuş, birinci rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlamışdır. O, universitetdə azərbaycanlı tələbə-

lər tərəfindən yaradılan Azərbaycan həmyerlilər təşkilatının başçılarından biri idi. Bu təşkilatın rəhbərlərinin 1904-cü ildə çəkilmiş fotoşəklində biz Nəriman Nərimanov, Xosrovbəy Sultanov, Şahmalıyev qardaşları və başqa şəxslərlə yanaşı, Nəsib bəy Yusifbəylini də görürük.

Tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti 1907-ci ildə Odessa universitetini müvəqqəti bağladıqdan sonra, Nəsib bəy Krımın Bağçasaray şəhərinə köçmüş və orada görkəmli siyasi və ictimai xadim İsmayılbəy Qasprinskinin (1851-1914) redaktoru olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlamışdır. O, İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspralı (1886-1975) ilə ailə həyatı qurmuş və bir müddət bu şəhərdə yaşamışdır. Nəsib bəy Yusifbəyli həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Bağçasarayda tamaşaya qoymuş, özü də əsas rollarda çıxış etmişdir. "Tərcüman" qəzetinin 13 yanvar 1907-ci il tarixli nömrəsində Bağçasaray şəhər teatr həvəskarları tərəfindən Əbdürrəhimbəy Haqverdiyevin (1870-1933) "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu və Nəcəfbəy rolunu Nəsib bəyin oynadığı xəbər verilir. Həmin qəzetdə verilən məlumatlarda aydın olur ki, N. Yusifbəyli o illərdə görkəmli Azərbaycan ədəbiyyatşünası F.Köçərlinin (1863-1920) "Azər-baycan ədəbiyyatı" və Hüseyn Əfəndi Qaibovun (1830-1917) "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı əsərlərinin Bağçasaray şəhərində çap olunması üçün çox çalışmışdır. Lakin naməlum səbəblər üzündən bu məsələ baş tutmamışdır. Ümumiyyətlə, Nəsib bəy XX əsr Azərbaycan-Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyanlardan biridir.

Yoxsulluq üzündən N.Yusifbəyli ali məktəbi, dördüncü kursda atmışdır. Çar hökuməti orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün 1908-ci ildə bir müddət İstambulda yaşayan Nəsibbəy "Türk dərnəyi" adlı cəmiyyətin banilərindən və fəal üzvlərindən biri olmuşdur. Lakin sultan istibdadının rus çarizmi qədər qəddar olduğunu görən N.Yusifbəyli 1909-cu ildə Türkiyədən Gəncəyə qayıtmışdır.



1911-ci ildə Azərbaycan ziyalıları M.F.Axundovun (1812-1878) anadan olmasının 100 illiyini geniş qeyd etmək üçün təşəbbüs göstərdilər. Nəsib bəy Yusifbəyli də onların arasında idi. Onun 1911-ci il mayın 20-də "Tərcüman" qəzetində çap etdirdiyi məqalə bu yubileyə həsr olunmuşdu."Molla Nəsrəddin" satirik jurnalını o illərdə müdafiə edən ziyalılardan biri də Nəsib bəy Yusifbəyli idi. Onun 1909-cu il sentyabrın 4-də "Tərcüman" (№ 36) qəzetində dərc edilmiş "Mətbuat" adlı məqaləsində Rusiyada çıxan müsəlman satirik jurnallarından bəhs olunur və "Molla Nəsrəddinə" xüsusi qiymət verilirdi. Həmin qəzetin 40-cı nömrəsində (9.X.1909) çıxmış məqaləsində isə tatar jurnalı "Yulduz"un redaktoru ilə polemika aparan müəllif "Molla Nəsrəddin"ə hücumların haqsız olduğunu bildirirdi. O, illərdə Gəncədə mövcud olan "Müsəlman xeyriyyə cəmiyyəti"nin, "Müsəlmanlar içində maarifi yayan cəmiyyət"in və "Aktyorlar cəmiyyəti"nin fəaliyyətində Nəsib bəy Yusifbəyli yaxından iştirak etmişdir. O, "Azərbaycan ədəbiyyatı tarixi" əsərini də həmin dövrdə yazıb başa çatdırmışdır. Əlyazmanın sonrakı taleyi bilinmir. Bu əlyazmanın araşdırılıb üzə çıxarılması ədəbiyyatşünasların borcudur.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı baş verdi. Həmin ilin mart ayında Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türk ədəmi-mərkəziyyət partiyası" Gəncədə fəaliyyətə başladı. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət vermək uğrunda mübarizə aparırdı. Yeni partiya xalqı öz proqramı ilə tanış etmək üçün şəhərin Şah Abbas məsçidinin həyətində böyük mitinq təşkil etmişdi. Bu mitinq "Yaşasın demokratik respublika!", "Yaşasın Azərbaycan muxtariyyəti!", "Yaşasın türk ədəmi –mərkəziyyət partiyası!" şüarları altında keçirilmişdi. ("Baku" qəzeti, 12 aprel 1917, № 80). Həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında Nəsib bəy Yusifbəyli Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə tələb etmişdir. May ayında isə o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayının iştirakçısı olmuşdu. Bu qurul-

taydan sonra (iyunda) M.Ə.Rəsulzadənin (1884-1955) rəhbərlik etdiyi "Müsəlman demokratik müsavat partiyası" ilə N.Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi-mərkəziyyət partiyası" birləşərək, "Müsavat" adını aldı. Partiyanın Gəncə şöbəsinin rəhbəri Nəsib bəy Yusifbəyli idi. Həmin il oktyabrın 26-dan 31-dək Bakıda davam edən birinci partiya qurultayında N.Yusifbəyli yaxından iştirak etmişdir. Bu qurultaydan sonra "Azərbaycana muxtariyyət" şüarı altında hərəkat başlanmışdır.

Nəsib bəy Yusifbəyli Zaqafqaziya seyminin üzvü, 1918-ci il aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya respublikası hökumətinin maarif naziri idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. N.Yusifbəyli bitərəf Fətəlixan İsgəndər oğlu Xoyskinin (1875-1920) baş nazir olduğu birinci kabinədə xalq maarifi naziri vəzifəsini icra etmişdir. O, F.Xoyskinin başçılıq etdiyi ikinci və üçüncü kabinələrdə də həmin vəzifədə işləmişdir.

1919-cu il aprelin 1-də Azərbaycan Respublikası nazirlər şürasının sədri təyin olunan Nəsib bəy Yusifbəyli bu vəzifəni 1920-ci ilin aprelin 1-nə kimi icra etmişdir. Həmin illərdə sinfi ziddiyyətlərin qalmasına baxmayaraq , N.Yusifbəylinin baş nazir olduğu vaxt həyata keçirilmiş bir sıra tədbirlər müsbət xarakter daşıyırdı.

Öz dövrünün görkəmli siyasi-ictimai xadimi olmuş, mürəkkəb və zidiyyətli bir həyat yolu keçmiş Nəsib bəy Yusifbəyli 1920-ci il mayın əvvəllərində Azərbaycanın Kürdəmir qəzasında Yevlaxın Qarxunlu kəndindən olan quldur Əşrəfin yaxın adamları tərəfindən qətlə yetirilmişdir.

*Odlar yurdu. Noyabr, 1988.- № - 21.*

* * *





## Nəsib bəy Yusifbəyli

"Azərbaycan triumviratı"nın bir sütunu kimi Nəsib bəy Yusifbəylinin adı Əlimərdan bəy Topçubaşov və Fətəli xan Xoyskinin adları ilə yanaşı çəkilir. Müstəqil Azərbaycan ideyası bir siyasi tələb kimi ilk dəfə Nəsib bəy tərəfindən XX əsrin əvvəlində gündəliyə gətirilmişdir. Bu yazıda Azərbaycan istiqlal mücadiləsinin parlaq siması Nəsib bəy Yusifbəylinin hər bir azərbaycanlıya nümunə ola biləcək həyat və fəaliyyətinə nəzər salacağıq.

Nəsib bəy Gəncənin əsilzadələrindən idi. Onun babası Usuf bəy Cavad xanın vəziri olmuşdur. Digər tərəfdən, Usuf bəyin bacısı Şükufə xanım Cavad bəyin arvadı idi. Usuf bəy Gəncədə məktəb açaraq öz xalqının övladlarına elm öyrədirdi.

Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olmuşdur. Atası onun ali təhsil alması üçün çox əziyyət çəkmişdir. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa vurduqdan sonra Nəsib bəy Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Hələ tələbə ikən azərbaycanlı tələbələr arasında fəallığı ilə seçilirdi. O, Nəriman Nərimanov, Xosrov bəy Sultanov və başqa tələbələrlə birgə Azərbaycan Həmyerlilər Təşkilatını yaratmışdır. 1907-ci ildə Odessa Universiteti müvəqqəti bağlandıqdan sonra Nəsib bəy Bağçasaray şəhərində yaşamış və o dövrün görkəmli ictimai-siyasi xadimi, türk dünyasının böyük ziyalısı İsmayıl bəy Qasprinskinin (Qaspralı) redaktoru olduğu, türkcə dərc edilən "Tərcüman"qəzeti ilə əməkdaşlıq etməyə başlamışdır. Nəsib bəy İsmayıl bəyin qızı Şəfiqə Sultan xanımla evləndikdən sonra bir müddət Baxçasarayda yaşamışdır.

Nəsib bəy Yusifbəyli 1908-ci ildə Türkiyəyə gedir və siyasi fəaliyyətlə məşğul olur. O, burada "Türk ocağı" dərnəyinin ən fəal üzvlərindən birinə çevrilir. 1911-ci ildə Gəncəyə qayıdır və şəhər bələdiyyəsində işə girir. Nəsib bəy həmən dövrdə gizli fəaliyyətə keçən Əhməd bəy Ağayevin (Ağaoğlu) rəhbəri olduğu "Difai" partiyasının təşkilatlanmasında yaxından iştirak edir.

Gəncə bələdiyyəsi rəisinin köməkçisi kimi Nəsib bəy şəhərdə böyük nüfuz qazanır.

1917-ci il fevral burjua inqilabındn sonra Gəncədə Müsəlman Milli Şurası yaradılır. Nəsib bəy həmin şuranın gizli məsələlərlə məşğul olan komissiyasına rəhbərlik edir. O, Novruz bayramı günü, günorta namazı zamanı Şah Abbas məsçidinin həyətinə gələrək, Türk Ədəmi-Mərkəziyyət (Türk Federalistləri) Partiyasını yaratdığını elan edir. Bu partiya Rusiyanın federativ şəkildə qurulması və onun tərkibində Azərbaycana muxtariyyat verilməsi uğrunda mübarizə aparırdı. Həmin ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağrılır və Nəsib bəyin muxtariyyat tələbi dəstəklənir.

Nəsib bəy rus ordusunun gələcəkdə Azərbaycanın müstəqilliyinə əngəl olacağını, çətin məqamda ruslarla ermənilərin birləşərək, Azərbaycanın müstəqilliyə qovuşmasına yol verməmək üçün qırğınlar törədəcəklərini əvvəlcədən hiss edirdi. Ona görə də Türk Ədəmi-Mərkəziyyət Partiyasının üzvlərinin köməyi ilə Gəncədə olan iki rus alayının tərksilah edilməsinə nail olmuşdu. Üstəlik, o Qafqaz cəbhəsindən geri dönən rus silahlı qüvvələrinin Şəmkir ətrafında cüzi itki ilə tərkisilah edilməsi əməliyyatına rəhbərlik etmişdi. Həmin əməliyyat zamanı azərbaycanlılar 15 şəhid vermişdi. Şəhidlərin Gəncədə təntənəli dəfn mərasimi olmuşdu. Həmin mərasimdə çıxış edən Nəsib bəy demişdi:"Nə xoşbəxtlikdir bu əziz övladlarımıza ki, onlar bizim lik şəhidlərimiz oldular".

Türk Ədəmi-Mərkəziyyət Partiyasının qurulmasında Nəsib bəyə silahdaşları Şəfi bəy Rüstəmbəyov, Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov yaxından kömək göstərmişdilər. Doqquz bölmədən ibarət partiya proqramının birinci bölməsi "Azərbaycan" adlanırdı. Sonralar Məmməd Əmin Rəsulzadə də etiraf etmişdi ki, "Azərbaycan ideyasının siyasi bir mətləb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir."

Qafqaz müsəlmanlarının qurultayı zamanı N.Yusifbəyli ilə M.Ə.Rəsulzadə görüşərkən rəhbərləri olduqları partiyaların birləşməsi razılığına gəlmişdilər.1917-ci il iyunun 17-də birləşmə



qurultayı keçirilir. Sədri M.Ə.Rəsulzadə olmaqşərtilə yeni partiya türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat adlandırılır. Bakı və onun ətrafında təsir gücünə malik müsavat partiyası ilə Gəncə və onun ətrafında böyük nüfuza malik, üstəlik, hər iki quberniyanın zadəganlarının əksəriyyətini öz sıralarında birləşdirən Türk Ədəmi-Mərkəziyyət Partiyası o dövrdə mövcud olan bütün partiyaları kölgədə qoyur. Həmin birləşmədən sonra parlamentə keçirilən seçkilərdə əldə edilən 32 deputat mandatının 14-nü Müsavat, 18-ni isə Türk Ədəmi-Mərkəziyyət Partiyasının nümayəndələri qazanmışdılar. Bir sözlə, istər Cənubi Qafqaz Seymində, istər Azərbaycan Milli Şurasında, istərsə də parlamentində Müsavat fraksiyasının üstünlük təşkil etməsi Nəsib bəyin rəhbəri olduğu türk-ədəmi mərkəziyyətçilərin say üstünlüyü hesabına mümkün olmuşdu.

Nəsib bəy Yusifbəyli Cənubi Qafqaz Seyminin üzvü idi. O, 1918-ci il aprelin 26-da yaranmış müstəqil Cənubi Qafqaz Respublikası (Seym) hökumətinin maarif naziri idi. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsi (Əqdnamə) elan etdi. Onu imzalayanlar arasında Nəsib bəy Yusifbəyli də var idi. Azərbaycanın ilk müstəqil hökumətində, Fətəli xan Xoyskinin təşkil etdiyi ilk kabinədə Nəsib bəy Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini tutmuşdur. Lakin məlumdur ki, həmin vaxt paytaxt Bakı bolşevik qiyafəsinə bürünmüş erməni-rus birləşməsinin işğalı altında idi. Bakını azad etmək üçün isə yenicə müstəqillik əldə etmiş Azərbaycanın nə yetərincə canlı qüvvəsi, nə də silah-sursatı var idi. Bütün bunları əvvəlcədən ölçüb-biçən Nəsib bəy Yusifbəyli çıxış yolunu yalnız Türkiyənin hərbi yardımında görürdü. Ona görə də Nəsib bəy Müsəlman Milli Şurası adından Türkiyəyə nümayəndə göndərmək üçün Gəncədə Şuranın iclasını çağırır. Bu tarixi toplantını açan Nəsib bəy demişdi:"Xalq qüvvəsi ilə görülən işlər xalqın gözünün önündə cərəyan etmişdir. Bütün hərəkətlərimiz zəfərlə nəticələnmişdir. Ancaq bu qəhrəmanca hərəkətlər nəticəni əldə etməkdən çox uzaqdır. Bir kərə Azərbaycanın mərkəzi Bakı düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq

qüvvələrimiz kifayət deyildir. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə bircə Osmanlı imperatorluğu edə bilər. İndi qərar qəbul edib Osmanlı imperatorluğuna səlahiyyətli bir heyət göndərək. Türkiyədən yardım istəyək".

Şuranın qərarı ilə, sonralar müstəqil Azərbaycanın təhlükəsizlik xidmətinin rəhbəri olan Nağı bəy Şeyxzamanlı (Keykurun) 1918-ci ilin yanvarında Türkiyəyə göndərilir. Nağı bəy sədrəzəm Tələt paşa, hərbi nazir Ənvər paşa və sultanla görüşür. Nuru paşanın komandanlığında Azərbaycana hərbi yardım göndərilir.

Müvəqqəti hökumət iyunun 16-da Tiflisdən Gəncəyə kö-çərkən artıq Nuru paşa 300 əsgər və zabitlə Gəncəyə gəlmişdi. Həmin vaxt Azərbaycanda iki əsas cərəyan hökm sürürdü. Bir qisim Azərbaycanın Türkiyəyə ilhaq edilməsini, digər qisim isə Türkiyənin hərbi yardımı ilə müstəqilliyin qorunub saxlanmasının tərəfdarı idilər. Yaranmış gərgin vəziyyətdə Nuru paşanın tələbi ilə Milli Şura buraxılır. Yeni parlament formalaşanadək hakimiyyət Fətəli xan Xoyskinin sədrliyi ilə müvəqqəti hökumətə verilir. Nəsib bəy ikinci hökumət kabinəsində xalq maarifi və dini etiqad naziri vəzifəsini tutur. 1918-ci il sentyabrın 15-də Azərbaycantürk hərbi birləşmələri Bakını işğaldan azad edirlər. 1918-ci il dekabrın 7-də ilk parlamentin ilk iclası keçirilir. Bundan sonra yenə də Fətəli xan Xoyskinin sədrliyi ilə üçüncü kabinə təşkil edilir. Nəsib bəy əvvəlki vəzifəsini saxlayır.

1919-cu il martın 14-də dördüncü kabinə təşkil edilir və Nəsib bəy Nazirlər Şurasının sədri və daxili işlər naziri seçilir. Həmin il dekabrın 24-də təşkil edilən beşinci kabinədə Nəsib bəy yenə hökumət başçısı seçilir. Həmin dövrdə ölkədə siyasi vəziyyət xeyli kəskinləşmişdi. Parlamentdə və hökumətdə təmsil olunan müəyyən qüvvələr bolşeviklərlə gizli danışıqlara gedir, hakimiyyətin süqut edib, bolşeviklərin əlinə keçəcəyi təqdirdə, özlərinin toxunulmazlığını əvvəlcədən təmin etmək istəyirdilər. Xüsusən, Müsavat Partiyasının daxilində gedən çəkişmələr riyakarlıq və ikiüzlülükdən uzaq olan Nəsib bəyi çox narahat edirdi. 1920-ci il aprelin 1-də Nəsib bəy hökumət başçısı vəzifəsindən istefaya getdiyini bəyan edir. Yeni hökumət təşkil edilməsinə



macal tapılmır. Aprelin 28-nə keçən gecə hakimiyyət bolşeviklərə təhvil verilir. Bolşevik irticasından qurtulmaq üçün Xalq Cümhuriyyətinin qurucuları mühacirət etmək məcburiyyətində qalırlar. Nəsib bəy yaxın dostu İbrahim Yusif bəylə bərabər Tuflisə yola düşür. Yevlaxla Kürdəmir arası yolda iri çamadanlara gözü düşən quldurlar arxadan onları güllə ilə vurub, Kürə atırlar.

Nəsib bəy Yusifbəyli son dərəcə təmiz və gözütox idi. Onun paklığını baş nazir olarkən atasının ona göndərdiyi bir məktubdan görmək olar: "Əziz oğlum, çox səbr etdim, amma yazacam. Sıxıntı çəkərək, borc altına girərək sənə yüksək təhsil təmin edə bildim. Artıq təhsilini qurtarıb gəldin, şəhərin ərzaq işləri üzrə rəisi oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək Seymin maarif naziri oldun. Aldığın maaş ilə dolanmadın. Bir neçə dəfə pul istədin, göndərdim. Sonra Azərbaycanın istiqlalını elan etdiniz. Cümhuriyyətimizin maarif naziri oldun. Paytaxtımız Bakıda çalışdın. Yenə də maaşın xərclərini ödəmədi. Məndən pul istədin. Həmişə göndərdim. Bu gün isə baş nazirsən, dövlət rəisisən, yəni ölkəmizin padşahı olursan. Yenə bağının qamışını mən alım? Pul göndərə bilməzsənmi?"

Nəsib bəy Yusifbəyli Azərbaycanın yenidən istiqlala qovuşacağına bütün varlığı ilə inanırdı. O, işğal axşamı, aprelin 27-də Nağı Şeyxzamanlı ilə görüşündə demişdi:"Dostlar öz gücümüz ilə Azərbaycan istiqlalını yaratdıq. Lakin onu yaşada bilmədik. Əbədi düşmənimiz ruslar üstün qüvvələrlə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların əlinə keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey var ki, o bizə təsəlli verir: ruslar zülmləriylə, vəhşilikləriylə, xalqımızı nə qədər əzirlərsə, istədikləri kimi xarabaya çevirsinlər, vətənimizdə əbədi qalmayacaqlar. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumunun mənəvi varlığımıza birləşdirdiyimiz hürriyyət ruhunu yox edə bilməzlər. Vəhşiliyi, qədddarlığı ilə məşhur Neronu köməyə çağırsalar belə, yenə də məqsədlərinə nail ola bilməyəcəklər".

Bu gün Nəsib bəylərin ruhu şaddır. Azərbaycanın dövlət müstəqilliyi əbədi olaraq təmin edilib.

*Xalq qəzeti. 2002, 28 may. № 26.*

* * *

**Zakir Murad**
Gəncə Media Mərkəzi

## Nəsib bəy Yusifbəyli və onun "Ədəmi-mərkəziyyət" firqəsi

(Anadan olmasının 125 illiyi münasibətilə)

Nə qədər qəribə olsa da, XX əsrin əvvəllərindəki ictimai siyasi proseslərə dair yazıların əksəriyyətində (eləcə də tarix dərsliklərimizdə) yaxın tariximizin və hesab edirik ki, ümumiyyətlə Azərbaycan tarixinin ən güclü simalarından olan Nəsib bəy Yusifbəylinin fəaliyyəti və onun yaratdığı, dünyəvi dəyərlərə söykənən "Ədəmi-mərkəziyyət" partiyası haqqında elmi metodlara əsaslanan fikirlərə az təsadüf olunur. Bir qayda olaraq, sözügedən mövzudan bəhs olunarkən, Gəncədə yaranan "Ədəmi-mərkəziyyət" partiyasının bir neçə aydan sonra Bakıdakı "Müsavat"la birləşməsi və Cümhuriyət dövründə Nəsib bəyin baş nazir olması faktları sadalanır. Halbuki N.Yusifbəylinin və onun qeyri-mərkəziyyətçilik ideyalarının ustər azərbaycanlıların milli siyasiləşməsində, istərsə də Azərbaycanın coğrafi-siyasi məna kəsb edərək beynəlxalq arenada "gözə çarpdırılması"nda və nəhayət, xəritədə olmayan yeni bir Azərbaycan Respublikasının yaradılmasında müstəsna rolu olmuşdur. Cümhuriyyətimizin banilərindən olan M.Ə.Rəsulzadənin aşağıdakı sözlərinə diqqət yetirək: "Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formulə etmək şərəfi Nəsib bəyindir. O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi elə bir mümməssildir (nümayəndə - Z.M.) ki, milli Azərbaycan hərəkatının istiqlal müncər olan qayəsini formulə etmək onun adı ilə bağlıdır. Sadəcə bu, Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir isim halına qoymaq üçün kafidir... Müzəffər istiqlala nəslinin ilk yapacağı şükran vəzifələrindən birincisi Siyasi Azərbaycançılığın (! - Z.M.) ilk mübaşirlərindən (qabaqda gedənlərindən - Z.M.) olan Nəsib bəyin adını əbədiləşdirmək və Bakı və Gəncədə ona abidələr tikməkdən ibarət olmalıdır". (M.Ə.Rəsulzadə "İstila qurbanları. Yusifbəyli Nəsib bəy", "Odlu yurd" № 3, 27 aprel, 1929. Ankara; Bax: "Ədəbiyyat" qəzeti, 22 fevral, 1991). Hesab edirik ki, doğumunun 125 illiyində Nəsib bəy Yusif bəy oğlu Yusifbəylinin (1881-1920) siyasi fəaliyyətinə daha dolğun nəzər salmağımız yerinə düşərdi.



Mənbələrdə, xüsusən mühacirətdə yaşamış Azərbaycan siyasi xadimlərinin xatirələrində gənc Nəsib bəyin hələ 1905-ci ildə Gəncədə yaradılmış, Azərbaycanın ilk milli siyasi təşkilatı olan "Difai" firqəsinin fəaliyyətində yaxından iştirak etməsi bildirilir. O da məlumdur ki, həmin firqənin yaradılmasından əvvəl Gəncədə "Qeyrət" adlı gizli təşkilat mövcud idi. Elə "Difai" üçün bir növ "baza" rolu oynamış "Qeyrət"in yaradıcıları da Yusifbəylilər (ata - Yusif bəy və oğullar - Həmid bəy və Nəsib bəy) olmuşlar.

I Dünya Müharibəsi başladıqdan sonra yaradılmış və öz işinin tarixi şəraitin gerçəkliklərinə uyğun surətdə qura bilmiş, Azərbaycanın taleyində bir çox hallarda həlledici rol oynamış Gəncə Milli Komitəsinin sədri də Nəsib bəy Yusifbəyli idi.

Şübhəsiz, millətin fiziki müdafiyəsi ilə yaranmış "Difai"dən və milli özünüdərkin möhkəmlənməsi üçün təcrübə qazandırmış Gəncə Milli Komitəsindən sonra siyasi təkamülün yeni mərhələsi zərurəti yarandı.

Monarxiyanın süqutundan cəmi bir neçə gün sonra Gəncədə, əvvəllər "Difai"ni yaratmış Gəncə Milli Komitəsinin aparıcı şəxsləri – Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyov, Xasməmmədli, Şeyxzamanlı qardaşları və b. Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Azərbaycan tarixində keyfiyyətcə yeni, ilk dəfə olaraq Avropa mədəni dəyərlərinə istinad məramlı bir partiyanın, "Türk ədəmi-mərkəziyyət firqəsi"nin əsasını qoydular. Buradaca qeyd edək ki, istər lüğəti, istərsə də siyasi mənada "Ədəmi-mərkəziyyət" ifadəsi sərbəstliyi, müstəqil fəaliyyəti, öz-özünə cavabdehliyi bildirən desentralizasiya, qeyri-mərkəziyyətçilik mənasında anlanılmalıdır. Həm də keçmiş difaiçilər öz yeni siyasi partiyalarının adını əvvəllərdən (1906-cı ildən) sıx əlaqədə olduqları

Türkiyə Ədəmi-mərkəziyyətçi Liqasının adından götürmüşdülər. Bu Liqa fəaliyyətinə İttihad və Tərəqqi uğrunda Gənc Türk Komitəsinin liberal (!) qanadı idi (bax: T.Sviyetoxovski, "Russkiy Azerbaydjan" "Xazar" (rusca) jurnalı, № 2, 1990, səh. 88). Elə "ədəmi-mərkəziyyət" ifadəsinin özü də Avropadan gəlmə "liberalizm"in o vaxtkı türk dili üslubunda tərcüməsidir. Və azad, sərbəst cəmiyyət qurulmasının ən doğru tomininin məhz istiqlal və ya muxtariyyət (o tarixi şəraitdə əlbəttə ki, Rusiya üçün federativ quruluş məqbul hesab edilirdi) olduğu partiyanın proqramında vurğulanırdı.

"Türk Ədəmi-Mərkəziyyət firqəsi" öz məqsədləri və proqramı ilə xalqı tanış etmək üçün 1917-ci ilin martında, Novruz bayramı günü Gəncənin Şah Abbas məsçidinin önündə izdihamlı mitinq keçirdi. Mitinqdə partiyanın lideri N.Yusifbəyli nitq söyləmiş, ilk dəfə olaraq Azərbaycan anlayışını siyasi mənada işlədərək "Yaşasın Azərbaycan muxtariyyati!, Yaşasın Demokratik Respublika!, Yaşasın türk ədəmi-Mərkəziyyət partiyası!" şüarları səslənmişdi ("Bakı" qəzeti, 12 aprel 1917-ci il; Mövsüm Əliyev M.Ə.Rəsulzadənin "Çağdaş Azərbaycan tarixi" kitabına ön söz. Bakı, 1991, səh. 9).

Moskvada yaşamış və işləmiş, bu yaxınlarda Allahın rəhmətinə qovuşan həmyerlimiz tarixçi-alim S.Əliyev Rusiya Xarici Siyasət Arxivində saxlanılan 1917-ci ilə aid bir sənəddə "Gəncədəki həmin müsəlman yığıncağında" Cənubi Azərbaycandan da bəhs edilərək şimaldan Dərbənd, cənubdan Zəncan və Qəzvinlə əhatələnmiş türklər yaşayan Azərbaycan ərazisindən də söhbət getdiyini bildirir (bax: Salex Mamed - "Ob odnoy ideye avtonomii Azerbaydjana 1917 q.", "Xazar" jurnalı (rusca) № 4, 1990, səh. 92).

Bildiyimiz kimi, 1911-ci ildə Bakıda "Müsavat" gizli partiyasının əsası qoyulmuş və ümimislami xarakter daşıyan ilk məram sənədində adının verdiyi "bərabərlik" anlamına uyğun olaraq müsəlmanların ruslarla hüquq bərabərliyinin təmin edilməsi, həmçinin islam dünyasının milli-inqilabi oyanışı və azadlığı uğrunda mübarizə təşkilatın məqsədləri elan olunmuşdu (bax:



"Müsavat" bülleteni, № 1(5), 1993. Bakı). Və 1913 - cü ildən "Müsavat" özünə həmin il mühacirətdən Vətənə qayıdan M.Ə.Rəsulzadə kimi dərin təfəkkürə və böyük siyasi təcrübəyə malik bir lider qazanmışdı.

Fevral inqilabının gerçəkləşməsindən sonra Bakıda milli maraqların əsas təmsilçisi "Müsavat" gizli qrup halından kütləvi partiyaya çevrilməsi dövrünü yaşayırdı. T.Sviyetoxovskinin fikrincə, leqal vəziyyətə keçdiyi ilk həftələr ərzində əsasən sıralarını genişləndirən "Müsavat"ın rəhbərlərinin, görünür, Gəncədəki siyasətçilərlə iş birliyinə qədər konkret fəaliyyət proqramları yox idi. (T.Sviyetoxovski. Göstərilən mənbə, həmin səhifədə).

1917-ci ilin aprelin 15-dən 20-dək Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. N.Yusifbəylinin rəhbərliyi altında Gəncədə olan yenilikçi siyasətçilərin fəallığı bu toplantının siyasi ab-havasını müəyyənləşdirdi. "Azərbaycan ideyasını siyasi bir mətləb" kimi aydınlaşdıran kontret proqrama malik "Ədəmi-mərkəziyyət" firqəsi öz məramına, xüsusən də müsavatçılar arasında çoxlu tərəfdar toplamış oldu.

"...Müsəlman Qafqaziya qurultayında partiyasının proqramını izah edərkən Nəsib bəy - Kim iddia edə bilər ki, biz özümüzü idarəyə səlahiyyətdar bir millət deyilik?! - demək surətiylə qurultaya lazım gələn yolu göstərmişdir" (F.Ağüzüm. "Nəsib bəy Yusifbəyli", Azərbaycan dərgisi, Ankara, 1980).

Qurultayın yekun sənədində qeyd olunurdu ki, müsəlman xalqlarının maraqlarının təmin olunması Rusiyanın ərazi-federativ prinsiplərə əsaslanan demokratik respublika şəklində qurulması ilə gerçəkləşə bilər. Bu, həmçinin digər prinsipial məsələlərdə "Ədəmi-mərkəziyyət"lə "Müsavat"ın ümumi mövqeyi bu iki partiyanın birləşmə prosesinin başlanğıcını qoydu. Hər iki partiyanın liderlərinin böyük uğurla iştirak etdiyi 1 may 1917-ci il tarixində Moskvada keçirilmiş Ümumrusiya müsəlmanları Qurultayında muxtariyyat prinsiplərinə dair onların tezisləri çoxluq tərəfindən müdafiə edilərək Qətnamədə əksini tapmış oldu. Uğurlu nəticələrdən məmnun qalan iki aparıcı siyasi təşkilatın liderləri öz məqsəd ümumiliyini nəzərə alaraq birləşmə prosesini

gerçəkləşdirməyi qərara aldılar. Həmçinin, hər iki qurultaya sədrlik etmiş görkəmli ictimai-siyasi xadimimiz Əlimərdan bəy Topçubaşov da milli məqsədlər naminə bu iki təşkilatın birləşməsi xüsusunda M.Ə.Rəsulzadəyə və N.Yusifbəyliyə məsləhət vermişdir.

1917-ci ilin may ayının axırlarında hər iki təşkilatın birləşərək "Türk Ədəmi-mərkəziyyət firqəsi Müsavat" adlandırılması qərara alındı. İki təşkilatın rəsmi surətdə qovuşması iyunun 20-də birgə Mərkəzi komitənin yaradılması ilə başa çatdı. Mərkəzi komitədə Bakı və Gəncə siyasətçiləri bərabər sayda təmsil olunurdular. Rəsulzadə - Yusifbəyli, Hacınski - Rüstəmbəyov, Vəkilov - Ağayev, M.Axundov - Rəfiyev.

Xüsusi olaraq qeyd edilməlidir ki, hər iki təşkilatı birləşdirən əsas prinsip - ədəmi-mərkəziyyət, özü də dini deyil, milli əsaslarla ədəmi-mərkəziyyət idi ki, siyasi Azərbaycançılığın məğzini məhz bu təşkil edirdi.

Lakin, fərqlər də qalmaqda idi. İki təşkilatın birləşməsi nəticəsində partiyanın sol - Bakı və sağ - Gəncə qanadlarının konturları sezildi. Bu hal Bakı və Gəncə xadimlərinin sonrakı fəaliyyətlərində fərqli siyasi yönlərdən doğan uğursuzluq yaradacaqdı. Bununla yanaşı tərkibin qeyri-yekcinsliyi partiyaya ən müxtəlif tərəf-müqabillərlə uğurlu əməkdaşlığa imkan verən taktiki çeviklik də qazandırmışdı. Azərbaycanın siyasi həyatında "Türk Ədəmi-mərkəziyyət firqəsi Müsavat"ın hakim mövqe tutması artıq şübhə doğurmurdu.

Petroqraddakı bolşevik çevrilişinin baş verməsindən sonra, oktyabrın 26-dan 31-dək Bakıda "Türk Ədəmi-mərkəziyyət firqəsi Müsavat"ın I qurultayı keçirildi. Toplantı irəlidəki siyasi mübarizədə partiyanın strategiya və taktikasını müəyyənləşdirərək onun yeni proqramını qəbul etdi. Bu sənəd N.Yusifbəylinin başçılığı altında siyasətçilərin ədəmi-mərkəziyyət prinsipləri zəminindəki, hələ yaz aylarından siyasi aləmdə və geniş kütlələrdə geniş rezonans və rəğbət doğuran məramnaməsi əsasında tərtib olunmuşdu.



Məramnamənin giriş hissəsində ümümbəşəri, mədəni (sivilizasiya mənasında), milli, fərdi dəyərlərdən bəhs olunaraq "Mədəniyyəti-bəşəriyyə (bəşər sivilizasiyası - Z.M.) milli mədəniyyətlərin məcmuundan ibarət ikən, ən müvafiq və ən təbii hökumətin də hökuməti-milliyyə olması aşkardır. Milli istiqlal və ya muxtariyyətə malik olmayan bir millət hürriyyət mədəniyyətini hifz edə bilməz" - fikirləri aydınlaşdırır.

Proqramda "...Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyət əsası üzərində qurulmuş qoşma (yəni, federativ - Z.M.) xalq cumhuriyyətindən ibarət olmalıdır", "...Muxtariyyətlərdəki hökumət şəklinin qoşma xalq cümhuriyyətlərindən ibarət olması Rusiya xalq cümhuriyyətinin qanuni əsasına (konstitusiya -Z.M.) daxil olub, dövlətcə təhti-təminə alınmalıdır", "...Azərbaycan... məhəlli muxtariyyat almalıdır" kimi tələblər, "Qanun nəzərində cümlə əhali, din, məzhəb və millət fərqi olmayaraq erkək və qadın bərabərdir", "Hər kəs fikrini, təsəvvürünü söyləməkdə və yaxud mətbuat və qeyri vasitələrlə nəşr və elana sərbəstdir", "Pasport üsulu ləğv edilərək istər xaricdə, istər daxildə hər kəsin istədiyi yerə heç kimdən sormadan getməyə haqqı vardır" və sair kimi insan haqqları normaları, həmçinin iqtisadiyyat və maliyyə, torpaq islahatı, işçi, ədliyyə, maarif və digər məsələlər yer almışdı.

Beləliklə, azərbaycanlıların ən iri siyasi təşkilatının proqramında istər demokratik əsaslarla qurulmaq ehtimalı olan Rusiya dövlətinə münasibətdə, istərsə islam aləmi, həmçinin Türk dünyası ilə münasibətdə Azərbaycanın yalnız özünəməxsus olan öz inkişaf haqqlarını, başqa sözlə, Azərbaycançılıq ideyasının gerçəkləşdirilməsi başlıca məqsəd hesab olunurdu.

Həqiqətən də, millətin fiziki müdafiəsindən başlayaraq azad yaşama ideyasına gətirən, "Difai" dən "ədəmi-mərkəziyyət"əcən keçən bu yol tarixi şərəf məsələmizin gerçəkləşməsinə - "mövcudiyyətin və gələcəyin yeganə təməli" (Atatürk) olan Cümhuriyyətin qurulmasına apardı.

*"Yeni Tərcüman" qəzeti, 2007, № 2.*

## Nağı Şeyxzamanlının xatirələrindən

### Nəsib bəy Yusifbəyli

Azərbaycan Cümhuriyyətinin əksinqilab ilə mübarizə idarəsinin rəisliyinə hələ təyin olunmamışdım. Tez-tez Bakıya gedər və təbii ki, hər gedişimdə də Nəsib bəylə görüşürdüm. Nəsib bəy o zamanlar Baş nazir vəzifəsinə keçmişdi. Onu təbrik etmək üçün Gəncədən gəldiyim günün sabahı saat 10-da Nazirlər kabinetinin yerləşdiyi yerə getdim. Dəftərxana müdiri vasitəsilə gəldiyimi və görüşmək istədiyimi bildirdim. Gözləməyi söylədi və saat 11:30-a qədər gözlədim. Sonra yenidən dəftərxana müdirinə "qardaşım, yəqin unutdu" dedim. O, Nəsib bəyin kabinetinə girdi və çıxaraq mənə "unutmadım, gözləsin deyir" dedi. Saat ikiyə qədər gözlədim. Azərbaycanda məmurlar üçün iş vaxtı 8-dən 14-ə qədərdir. Saat 14:00 -da Nəsib bəy kabinetindən çıxdı. Ayağa qalxıb onunla görüşdüm. Ona saatlarla gözləməyimdən heç nə söyləmədim. Ikimiz də ayaq üstündə idik. Mən "Nəsib bəy sabah vəzifənizə gəlincə qədər burada gözləyimmi?" dedim. Nəsib bəyin təbəssümlü çöhrəsinin təbəssümü bir az da artdı və "Yox canım, səni bərabər çıxmamız üçün gözlətdim" dedi. Binadan çıxaraq baş nazirin avtomobilində bərabər onun evinə gəldik. Iki nəfərlik hazırlanmış masanın arxasında oturaraq nahar etdik. Nəsib bəy "Əgər səni gələn kimi qəbul etsəydim doyunca söhbət edə bilməyəcəkdim. İndi həm yemək yeyirik, həm də istədiyimiz qədər söhbət edə bilərik" dedi. Bu zaman vəziyyətini soruşduğum zaman Nəsib bəy "heç bir zaman səhhətimdən şikayət etməmişəm. Allaha şükür ki, sapsağlamam. Mənim sıxıntım həmişə pul sarıdan olub ki, Baş nazir olduqdan sonra ondan da qurtuldum. Seym dövründə Tiflisdə Maarif naziri idim və aldığım maaş məni təmin etməzdi. Həmişə olduğu kimi Gəncədən atamdan pul istəyirdim. Azərbaycan istiqlalını elan etdik. Cümhuriyyətimizin Maarif naziri oldum. Aldığım maaş yenə də məni dolandırmırdı. Parlamentimizdə olsun, partiya daxilində olsun, ümumiyyətlə xalqımızın hər sinfi məni sevir. Hər kəsdən hörmət görməkdəyəm. Elə gün olmur ki, cəmiyyətimizin keçirdikləri gecələrə dəvət olunmayım. Hamısının da dəvətini qəbul edərək iştirak etmək lazımdır. Çoxuna sıxıla-sıxıla az maddi köməklik edirdim. Ancaq, Baş nazir olduqdan sonra bütün bu sıxıntılardan xilas oldum. Belə məsrəflərin hamısı örtülü təxsisatlardan verilir. Sən bilirsən, mən atamın icazəsi ilə bağlarımızdan birini müasir bağ yaratmaq qayəsilə ayırmışdım. Üç ildir milli işlərimizdən bağ ilə məşğul olacaq vaxt tapa bilmədim. Atama bir məktub yazaraq bu il də bağ işi ilə məşğul ola bilməyəcəyimi, yenə əvvəlki kimi qamış alıb basdırmalarını söylədim. Babamdan bu cavabı aldım. Məktubu sənə oxuyuram. Atam məktubda ürəyində nə var hamısını yazıb: "Əziz oğlum, artıq səbrim tükənib, dözə bilmirəm. Hamısını yazacağam. Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim. Ali təhsilini bitirib Gəncəyə qayıdanda artıq hər şeyin rahat olacağını yəqin etdim. Sən Gəncəyə gəlib Bələdiyyədə ərzaq işləri üzrə müdir oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək, Seymin Maarif naziri oldun. Aldığın pul ilə yenə özünü saxlaya bilmədin. Bir neçə dəfə pul istədin - göndərdim. Sonra Azərbaycan istiqlalını elan etdiniz. Gəldin Cümhuriyyətimizin maarif naziri işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə məndən pul istədin. Həmişə göndərirdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. O pullardan göndərdim sənə. Bu gün isə Baş nazirsən, Dövlət başçısısınız, yəni ölkəmizin padşahı olmuşsunuz. Yenə bağının qamışını mən alım?! Sən pul göndərə bilərsənmi?"

Nəsib bəy universitet tələbəsi kimi yay tatilində digər tələbələr kimi Gəncəyə qayıdırdı. Biz onu axşam şəhər klubuna gəldiyimiz zaman qarşılayırdıq. Nəsib bəyin gəlişində daima bir fövqəladəlik olurdu. Digər tələbələr gəldiyi zaman qohum-əqrabaları sevinir, dostları da xoş gəldin deyirlər. Ancaq, Nəsib bəyin gəlişi klubun hər sinfinə mənsub üzvlər arasında sevincə səbəb olurdu. Hər kəs onu axşam yeməyinə dəvət edərdi. Nəsib bəy isə təşəkkür edər və "Söz vermişəm ki, ilk gəldiyim günün axşamı yeməyimi gənclərlə yeməliyəm" deyirdi. Azərbaycanda yemək

vaxtı belə idi. Nahar yeməyi saat 14:00-da, axşam yeməyi isə saat 22:00-da.

## Nəsib bəy haqqında başqalarından eşitdiklərim

Süleyman bəy Məmmədzadə İstanbulda danışırdı ki, 1908-ci ildə Konstitusiyanın elanı zamanı Nəsib bəy iki yerdə nitq söylədi. Bunlardan biri Sultanəhmməddə, biri də körpü üstündə söylənən nitqlərdir. Onun nitqləri maraqla dinlənərək sürəkli alqışlarla qarşılandı. Nəsib bəy tez-tez toplantılarımızda iştirak edir və öz çıxışları ilə seçilirdi. O, bizim istiqlal məktəbimizin müəllimi idi. Xalqımızın hər təbəqəsi onu sevir və nitqlərini dinləyirdi. Onun gəncliyə olan inamı sonsuz idi. Gənclərə çox böyük dəyər verirdi. Nəsib bəy bizim üçün hər şey olduğu kimi biz gənclər də onun üçün hər şey idik. Azərbaycan şairi Almas İldırımın bir şerini xatırladaq:

Göylər deyir:
...Bir nöqtə istinadgah verilsə
Bir civ ilə çevirərdim dünyanı.
Mən deyirəm: od gəmirən gənclik mənə verilsə
Bir vuruşla devirərdim dünyanı.

Bax, Nəsib bəy od gəmirən gəncliyi ovucuna almışdı. Bir sərkərdə yetişdirdiyi ordusuna necə güvənirsə, Nəsib bəy də yetişdirdiyi gənclərə elə güvənirdi. Nəsib bəy o güvəncdən aldığı cəsarət sayəsində məhdud gənclik qüvvəsi ilə Azərbaycanda 100 mindən çox olan rus əsgərləri ilə savaşmış və düşməni məğlub etmişdi. O, bu yoldan Azərbaycan istiqlalını hazırlaya bilmişdi. 1920-ci il martın sonlarına doğru Nəsib bəyi evində ziyarət etmişdim. Bu görüş zamanı biz müxtəlif mövzularda söhbət etdik və sonra söhbətimiz Anadolu İstiqlal Savaşının üzərinə gəlib çıxdı. Bu zaman Nəsib bəy, "gec də olsa, az da olsa Türkiyəyə bir az valyuta hazırlayıb yeznəm Pişnamazzadənin qardaşı oğlu Məmmədəli Əhmədzadə ilə göndərdim" dedi. Pulun miqdarını soruşmadım. O da açıqlamadı. 1961-ci ildə Əhmədzadə ilə Tehranda görüşdüm. Ondan yardım məsələsi haqqında soruşdum. Israrıma baxmayaraq məlumat verməkdən imtina etdi. Mən də daha çox üz vurmadım. Daha sonra əldə etdiyim məlumata görə Əhmədzadə Nəsib bəyin göndərdiyi pulu İstanbula göndərmişdir. O zaman İstanbul ingilis və fransızların işğalı altında idi. O, Ankaraya gedib pulu lazımi yerə təhvil verə bilməmişdi. Artıq bu zaman, yəni 1920-ci il aprelin 27-də Azərbaycanı Moskvanın əmri ilə Qızıl Ordu işğal edir. O, 1920-ci ilin may ayında Azərbaycan dövlət xadimlərinin Gürcüstana keçdiklərini öyrənir. Əhmədzadə əlindəki pullardan min ingilis poundunu İtaliya bankı vasitəilə İstanbuldan Tiflisə Nəsib bəyin adına göndərir. Halbuki, Nəsib bəy Tiflisə gəlib çata bilmir, yəni yolda naməlum şəxslər tərəfindən öldürülür. İstanbula göndərilən bu min ingilis poundunu Nəsib bəyin dostları Gürcüstan səfirimiz Pərviz bəy Vəkillinin vasitəsilə alırlar. Əhmədzadə daha sonra Nəsib bəyin öldürülmüş olduğunu öyrənir. Onun 1920-ci ilin oktyabr ayında Ankara hökumətinə 19 min Türk kağız lirəsi və bir milyon fransız frankı vermiş olduğunu öyrəndim.

## Nəsib bəylə son görüşüm

Milli vətənimiz olan 27 aprel 1920-ci ildə ələ keçən Azərbaycan ziyalıları ruslar tərəfindən məhv edilirdilər. Çekanın azğın cəlladları Bakıda xüsusilə Müsavatçıları məhv etməyə çalışırdılar. Gizli olaraq Nəsib bəylə görüşməyə getmişdim. Bu mənim onunla son görüşüm oldu. O bir neçə yoldaşla birlikdə bir evdə saxlanılırdı. Çox kədərli idim. Çünki, düşmən milli varlığımıza zəhərli bir xəncər saplamışdı. Danışmaq istədikcə gözlərim yaşarırdı. Bir ara hamımız susmuşduq. Nəsib bəyin çöhrəsində kədərli cizgilər aydın hiss olunurdu. Bu sükutu Nəsib bəyin kədərli səsi pozdu: "Azərbaycan istiqlalını qurduq. Ancaq, onu saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güclü qüvvələri ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey varsa, o da bizə təsəlli verməkdədir. Ruslar zülmləri, vəhşilikləri ilə xalqımızı nə qədər əzirlərsə əzsinlər, əbədi olaraq qala bilməzlər. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumundan mənəvi varlığımıza hopmuş hürriyyət

ruhunu söküb ata bilməzlər. Onlar buna nail olmaq üçün vəhşiliyi və qəddarlığı ilə məşhur olan Neronu köməyə çağırsalar da yenə müvəffəq ola bilməzlər" dedi. Nəsib bəyin inam dolu bu sözlərində böyük bir həqiqət var idi. Həmçinin rus bolşevik istilasından bir ay keçməsinə baxmayaraq milli qızıl səhifələr halında keçəcək olan əzəmətli Gəncə üsyanı baş verdi. Doqquz gün, doqquz gecə davam edən və tarixdə nadir təsadüf edilən bu üsyana milli varlığın zalım düşmən qarşısında necə dayandığını gördük. Bu adi bir üsyan deyil, başdan-başa bir qəhrəmanlıq dastanı idi. Şairlərimiz ilhamlarını bu dastandan alırlar.

*Nağı Şeyxzamanlının xatirələri,*
*Bakı, Qartal nəşriyyatı,*
*1997, səh. 227-234.*

* * *

## Paşa Əlioğlu

### Nəsib bəy Yusifbəylinin "Təslim" hekayəsi tapılıb

Görkəmli dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətini yaradanlardan biri olan Nəsib bəy Yusifbəylinin XX əsrin əvvəllərində kitabça halında nəşr edilmiş "Təslim" hekayəsi onu həm də istedadlı yazıçı, ölkəmizdə təhsil, xalqın maariflənməsi problemləri üzərində ciddi düşünən bir ziyalı kimi xarakterizə etməyə imkan verir. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan kitabçanın üzərindəki yazıdan görürük ki, hekayə Gəncədə, mədrəsə kitabxanası nəşriyyatında, Bəradərani-Hacı-Həsənzadə mətbəəsində çap edilib. Əsərin nəşri tarixi göstərilməyib. Onu da qeyd etmək istərdik ki, bu əski çap kitabının adına nə "Azərbaycan kitabı" biblioqrafiysında, nə də sonralar AMEA Əlyazmalar institutunun əməkdaşları tərəfindən bu biblioqrafiyaya edilən əlavələrə rast gəlirik.



Müəllif hekayədə XX əsrin əvvəllərində müxtəlif maneələri aşaraq Gəncədə (eləcə də Azərbaycanın digər yerlərində) bərqərar olmağa başlayan yeni təhsil üsulunu, bununla məşğul olan yeni təfəkkürlü ziyalıları, köhnə təhsil üsulunu təmsil edənlərin bu yeniliklərə qarşı necə müqavimət göstərdiyini təsvir edir.

"Təslim" hekayəsi Gəncədə Şah Abbas məscidinin həyətində yerləşən yeni və köhnə təhsil müəssisələrinin təzadlı mənzərəsinin təsviri ilə başlayır. Məscidin bir tərəfində yeni tikilmiş on iki otaqlı və böyük pəncərəli binada yerləşən məktəbin açılmış pəncərələrindən böyük xəritələr, heyvanata, anatomiyaya dair rəsmlər görünür. Qaranlıq, rütubətli hücrələrdə yerləşən köhnə məktəbin kirli, kiçik pəncərələrindən isə bir şey görmək mümkün deyil, yalnız yarıaçıq qapılardan kirli, paslı samovarlar, yağlı piti küpləri, kirli çamaşırlar, qırıq su qabları nəzərə çarpır. Yeni və köhnə məktəblərin xarici görünüşləri ilə kifayətlənməyən müəllif oxucunun sinif otaqlarının içinə "dəvət edərək" əvvəlcə onu əlində nar çubuğu ilə dərs deyən Molla Mahmud adlı müəllimin tədris üsulu ilə tanış edir. Əski üsul məktəbinin müəllimi son zamanlar hücrəsinə şagirdlərin az gəlməsindən narazıdır, dərs vaxtı həsrətlə ötən zamanları xatırlayır: "Şimdi yigirmi çocuğu keçəməyən bu iki hücrədə əvvəlcə yüzə qədər çocuq ona hər ay yüz rublə təmin ediyordu. Bayramlarda gələn hədiyyələr, kəllələrlə şəkərlər, süpürgə parəsi, daha nələr, daha nələr... sonra şövkətimazisi göz önünə gəliyordu. Qoca bir ordu qarşısındakı sərəskər idi. Kimsə hökm və nüfuzinə qarşı ağzını açıb bir söz söyləyəməzdi. İstədigini dögər, istədigini sögər, istədigini sevərdi. Hər həftə beş-on dəgənək qırardı. Ah o günlər, o günlər!"

Molla Mahmudu qəzəbləndirən odur ki, böyük axund hücrəsinə dəvət edib, ona üsuli-cədid üzrə bir az dərs öyrənməyi, sonra açılacaq yeni məktəblərdən birində müəllim işləməyi təklif etmişdir. Molla Mahmudun 24 yaşlı, üç il gimnaziyada oxumuş oğlunun bu təklifi təqdir etməsi onu daha da qəzəbləndirir. Bu səhnədən məlum olur ki, Molla Mahmud üsuli-cədid məktəblərinin şəriətə zidd olması barədə Xorasan müctəhidlərindən fitva al-

mış, bu xəbəri hər bir məclisdə, hər yerdə, hətta bazarda belə yaymışdır.

Bu yerdə müəllif bir neçə ay sonra cərəyan edən hadisələrə keçir. Yeni tədris üsullu mədrəsənin ümumi iclası təsvir edilir. Bu səhnədə dövrün çağdaş tədris üsulu ilə dərs deyən müəllimlərin kimlərdən ibarət olması, onların tərcümeyi-hallarının bəzi məqamları, dünya görüşləri, öz işlərinə, şagirdlərinə, övladı olduqları xalqa münasibəti diqqəti cəlb edir. Məsələn, müəllimlərdən Nail əfəndi haqqında öyrənirik ki, o İstanbulda doğulub, orada təhsil alıb, sonra Bakıya gələrək bir müddət "İrşad" qəzeti idarəsində çalışdıqdan sonra, Gəncəyə gəlib mədrəsədə dərs deyir. Dil müəllimi Əmrullah əfəndi haqqında isə deyilir ki, o zahiri gözəlliyinə, dəblə geyinməsinə baxmayaraq son dərəcə ciddi, məlumatlı gəncdir. Təhsilini əvvəlcə Gəncədəki "Xeyriyyə" adlı yeni üsul məktəbində, sonra üç il İstanbulda almışdır. Müəllimlərin dünyagörüşünü, hansı fikir, əqidə ilə yaşadıqlarını göstərmək üçün müəllif maraqlı bir üsula əl atır, onların gündəlik oxuduqları qəzet və jurnallardan, daim istifadə etdikləri kitablardan söhbət açır: "Qırmızı bir örtü ilə örtülmüş şu böyük masanın üzərində mükəmməl yazı taqımı, mərhum Sami bəyin "Qamüsül-əlam"ı, "Qamusu-türkü"si, Sədad bəyin rusca-tükcə lüğəti... qəzetələrdən "Həqiqət"dən maada "Səda", "Tərcüman", "Vaxt", "Yıldız", "Bəyanül-həqq", "İdil", "İqdam", "Russkoye slovo" qəzetələri, jurnallardan "Rəsmi kitab", "Molla Nəsrəddin" var idi".

Müəllimləri arasında cərəyan edən söhbət də dövrün mənzərəsini canlandırmaq üçün böyük maraq kəsb edir. Məlum olur ki, mədrəsədə görülən işlər o qədər çoxdur ki, müəllimlər çox yorulur, istirahət etməyə vaxt tapmırlar. İşlərin çoxluğunun səbəbi isə odur ki, başqa millətlər təhsildə xeyli irəli getmişlər, bizdə isə vəziyyət çox bərbaddır, buna görə də müəllimlərin üzərinə ağır bir yük düşür ki, buna tab gətirmək üçün əsl fədakar ziyalı olmaq lazımdır. Rus dili müəllimi Rza bəy bu barədə belə deyir: "Əvvəl əmrdə digər millətlərin müəllimləri bizlərdən daha müntəzəm, daha mükəmməl məktəblərdə ikmali-təhsil etmişlər, üsuli-tədris oxumuşlardır. Bu xüsusda nöqsanları olursa, qolaylıqla



islah edə bilərlər. Pedaqojiyə dair minlərlə əsərləri vardır. Bundan maada lisanları zəngin, əlifbaları mükəmməl, imlaları müəyyən. Məmafih bu xüsuslarda dəxi qüsurları olursa islahı üçün aqademiyaları, əncümi-danisləri və mütəxəssisləri vardır. Məktəblərinin tərəqqisini dövlət düşünüyor, maarif nəzarəti baqıyor, millət qeydinə qalır. İdareyi-bələdiyyələr, mütəəddin cəmiyyətlər təşəbbüsdə bulunuyor...Bizlər... Zavallı bizlər! Bu vəzifələrin həpsini kəndi öhdəmizdə bulunduruyoruz, bu babda bir çox dəfələr söyləmiş olduğum sözləri təkrar edəcəyim: Şu mədrəsədə, şu müqəddəs binada xidmət etmək üçün yalnız müəllim olmaq kafi deyildir, fədakar olmaq lazımdır. Həm də nasıl fədakar...".

İclasda qaldırılan məsələlərdən məlum olur ki, yeni tədris üsuluna cəlb etmək, köhnə üsuldan uzaqlaşdırmaq məqsədi ilə Molla Mahmud bu mədrəsəyə əqaid fənnindən müəllim kimi dəvət edilmişdir. Bir ay ərzində mədrəsə üçün tam yarıtmaz olduğuna, sinfi idarə edə bilmədiyinə görə onun mədrəsədən xaric edilmək məsələsi müzakirəyə qoyulur.

Ümumiyyətlə, iclasın gündəliyində olan məsələlər o zamanın mütərəqqi tədris üsullu mədrəsələrinin fəaliyyətini işıqlandırmaq baxımından böyük maraq kəsb edir. Qaldırılan birinci məsələ nümunəvi dərslərin on beş gündə deyil, həftədə bir dəfə keçirilməsindən, şəhərin digər müəllimlərinin də bu dərslərə dəvət edilməsindən ibarətdir. İkinci məsələ bədən tərbiyəsi dərsləri üçün alətlərin alınması, bu dərslər üçün müəllim tapılmasıdır. Üçüncü məsələni qaldıran kitabxana nəzarətçisi təklif edir ki, qiraət üçün veriləcək kitabları öz sinifləri üçün seçsinlər. Həftədə bir və ya iki dəfə ondan tələb etsinlər, oxunan kitabları şagirdlərin necə qavradığını da mürəbbilər yoxlasınlar...

İclasın sonunda gəlib çıxmış Molla Mahmudun da iştirakı ilə qərar qəbul edilir ki, o, mədərəsədən çıxarılaraq yeni açılacaq şəhər məktəbinə müəllim təyin edilsin. Molla Mahmud bu qərarı eşitdikdə rəngi ağappaq olur, buna qəti etiraz edərək iclası tərk edir. Bundan sonra Molla Mahmudun gecə vaxtı təklikdə şəhəri gəzdiyi zaman, keçirdiyi həyəcanlar, onun ziddiyyətli fikirləri təsvir edilir. Qaranlıq, sükut içərisində irəliləyən Molla Mahmud

axırda belə qərara gəlir ki, iclasda edilən təklifi qəbul etməlidir. Onun bu qərarı köhnə tədris üsulunun yeni, mütərəqqi üsul qarşısında təslim olması kimi səslənir ki, hekayənin adı da bundan götürülmüşdür.

Nəsib bəy Yusifbəylinin "Təslim" hekayəsi müəllifi istedadlı bir nasir kimi dəyərləndirməyə imkan verməklə bərabər, həm də XX əsrin əvvəllərində Azərbaycanda təhsil sahəsində baş vermiş hadisələri, yeniliyin qarşısına çıxan çətinlikləri, ümumiyyətlə dövrün mənzərəsini canlandırmaqda çox maraqlı bir mənbə kimi diqqətimizi cəlb edir.

*"Ulduz", 2004, № 6, səh. 27-28.*

* * *

**N.Ələkbərli**

## II .3. Duel

(bir pərdəli pyes)

*İştirak edirlər:* İsmayıl Murza Qaspinski
Şəfiqə Sultan – onun qızı
Refat – onun oğlu
Nəriman Nərimanov – tələbə
Nəsib bəy Usubbəyov – tələbə
Həsən Səbri Ayvazov – mühərrir
I sekundant – (tələbə, Nəsib bəyin sekundantı)
II sekundant – (tələbə, N. Nərimanovun sekundantı)

### I şəkil

*İsmayıl Murza ilə qızı Şəfiqə Sultan söhbət edirlər.*



**İsmayıl Murza** – Ah qızım, sən bu gün gözümə pis dəyirsən. Nə olub? Nəyin var? Sən gərək özündə çox sirr saxlamayasan. İnsan çox sirrləri saxladıqca ağırlaşır, sustalır və qocalır. Sən sirli adama oxşayırsan...

**Şəfiqə Sultan** – Ata, elə bir sirrim yoxdur. Anam öləndən sonra etiraf edirəm ki, evimiz elə bil kimsəsizləşib. Adam çox olmasına baxmayaraq elə bil ən qiymətli şeyimi salıb itirmişəm. Heç kəs, hətta ata sən də onun yerini vermirsən.

**İsmayıl Murza** – Düz deyirsən qızım. Ana hər bir cocuq üçün ən sevimli bir məxluqdur. Elə mənim də itiyim böyükdür. Zöhrəsiz elə bil evimizə su ələnib. Hara baxıram, onun əl izlərini görürəm. Düşünürəm, əgər Zöhrə olmasaydı, biz "Tərcüman"ın nəşrinə başlaya bilməyəcəkdik. İlk dəfə onun bəzək əşyalarını satıb qəzeti buraxdıq. Sənə elə gəlməsin ki, bu qayğı yalnız səninlə bağlıdır. Zöhrə həm də mənimlədir...

**Şəfiqə Sultan** - Əvvəl elə bilirdim ki, anam daim bizimlə olacaq. Hətta xəstələnəndə belə mən güman eləməzdim ki, onun başına nəsə gəlsin. İndi kayb olandan sonra qalmışam axtara-axtara.

**İsmayıl Murza** – Bu, həyatın qanunudur. İnsan həyatdan gedəndən sonra onun yeri bilinir. Onun əbədiyyətə getməyi ilə yaratdığı boşluğun dərəcəsi aşkarlanır. Gərək adam ölsün ki, biz onun kim olduğuna qiymət verək. Ölüm təkcə unuduluşa deyil, tanışlığa gedən yoldur.

**Şəfiqə Sultan** – Dəyərli fikirdir. Dünya çalxalanır. Ətrafda güclü dəyişikliklər baş verir. Amma belə görünür ki, hər kəsin şəxsi dərd-səri hər şeydən üstündür. Kim deyə bilər ki, sabah nə olacaq.

**İsmayıl Murza** – Düzdür, havadan inqilab iyisi gəlir. Rusiya çaxnaşır. Hökumət Yaponiya ilə də müharibəyə ona görə girdi ki, əfkari-ümumini vacib problemlərdən yayındırsın. İndi hər şey müharibənin necə qurtarmasından asılıdır. Əgər müharibə Rusiya üçün məğlubiyyətlə bitsə inqilab qaçılmaz olacaq.

**Şəfiqə Sultan** – Düzü mən istəmirəm inqilab olsun. İnqilabın dalğaları cəmiyyətin bəzən zir-zibilini üzə çıxarır. Hakimiy-

yətə, siyasi mövqelərə gətirir. Axırı yenə despotizm, yenə də diktatura... yox, inqilab fəlakətlidir. Elə rejim meydana gələ bilər ki, biz daha çara rəhmət oxuyarıq.

**İsmayıl Murza** – Sənin sözündə həqiqət var. Amma o da var ki, inqilab cəmiyyəti cavanlaşdırır, insanları qocaltsa da belə... əsrlər boyu "İlahi, çarı hifz et!" mahnısını oxumaq olmaz. Görürsənmi, Şərq ölkələrində də oyanış, tərpəniş var. Gənc türklər respublika, iranlılar məşrutə tələb edir. Rusiyaya da siyasi, iqtisadi, mədəni islahatlar lazımdır.

**Şəfiqə Sultan** – Nə deyirəm, ata. Qoy sən deyən olsun. Amma indidən artıq Rusiyada milli münaqişələr törənir. Ukraynada, Qafqazda, Volqaboyunda, daha başqa yerlərdə layihələr hazırlanır, tədbirlər tökülür...

**İsmayıl Murza** – (*Ona yaxınlaşıb saçını sığallayır*). Bəsdi, siyasətdən danışdıq. Bu gün müsəlman tələbələrinin Bağçasarayda teatr tamaşası var. Oraya bizim gənc dostlarımız Nəriman bəy, Nəsib bəy də təşrif buyuracaqlar.

**Şəfiqə Sultan** – Biri müəllif kimi, biri də aktyor kimi.

**İsmayıl Murza** – Səni müəlliflər maraqlandırır, yoxsa aktyorlar?

**Şəfiqə Sultan** – O baxır müəllifə, o baxır aktyora. "Nadir şah" əsəri maarifçi əsərdir. Əslində Nadir belə adam olmayıb. Nadiri ideallaşdırmaq yox, ifşa etmək lazım idi. Ona yaxşı bir parodiya yazmaq olardı. Və orada çar Nikolayın cizgilərini vermək mümkün idi.

**İsmayıl Murza** – Onu senzura heç buraxmazdı. Elə bizim qəzetimizi çar senzoru zərrəbinlə oxuyur. Onu nəinki çap etməzdilər, heç tamaşasına da icazə verməzdilər. "Bahadur və Sona" necə, xoşuna gəlir?..

**Şəfiqə Sultan** – İdeya yaxşıdır. Millətləri, dinləri bir-birinə yaxınlaşdırmaq. Amma yazıçı demişkən uçurum dərələri necə aşıb keçmək olar? Qafqazda güclü erməni-müsəlman qarşıdurması yetişir. Mən belə əsərlərin xalqları yaxınlaşdıracağına inanmıram.



**İsmayıl Murza** – Doktor ağıllı insandır. Təklif edərdim ki, "Tərcüman"da haqqında bir material verək.

**Şəfiqə Sultan** – O öz şəxsində bolşevizmi və millətçiliyi birləşdirir. Bu isə qeyri-mümkün bir işdir. Nəsib bəyin intellekti daha geniş, daha işıqlıdır. Onun sosial demokratiya haqqında fikirləri daha cəlbedicidir.

**İsmayıl Murza** – (fikrə gedir) Kim bilir, bu sosial demokratiya haraya gedəcək?..

(*işıq sönür*)

## II şəkil
## 2 gün sonra

*İsmayıl Murza kabinetində oturub nəsə yazır. Həsən Səbri Ayvazov daxil olur.*

**Həsən Səbri** - Murza, mane oldum?!

**İsmayıl Murza** – Gəl, gəl. Mən səni gözləyirdim. Bu nömrəmizin maketi tutulubmu? Materiallar tam hazırdırmı? Siyasi rubrikada nə gedir?

**Həsən Səbri** – Siyasi rubrikada yalnız sizin bir materialınız var. Qalanı xəbərlər, Abbas Fransəvinin "Səyahəti", Qafqaz xəbərləri, elanlar, "Təkamül"ün məsləki...

**İsmayıl Murza** – "Perevodçik" üçün məqalələr və elanlar tərcümə edilibmi? Bu işlə məşğul olan kadr tapdınızmı? Məncə Şəfiqədən başqa bu işlə məşğul olan yox idi.

**Həsən Səbri** – Yavaş-yavaş yoluna düşür. Bu işlə təkcə Şəfiqə deyil, Refat da məşğul olur. Mən də az-az kömək edirəm. Əgər Nəsib bəy bizə işə gəlsəydi, fənalıqdan yaxa qurtarardıq. Onun türkcəsi də, ruscası da mükəmməldir. Hər iki dilə tərcümə edə bilər.

**İsmayıl Murza –** Bunu yaxın günlərdə həll edərik. Kağız məsələsi ilə də məşğul olmaq lazımdır. Kağız ehtiyatı qurtarmaq üzrədir. Kağız bax hansı tacirdə varsa hansı qiymətə olursa olsun təcili alın. Yoxsa qəzet gələn həftədən dayana bilər. Müxbir məktublarını da xülasə edin. Keçən nömrədə getməmişdi. Çalışın gələn nömrədən mətbuat icmalı da verilsin.

**Həsən Səbri –** Murza, bir məsələ barəsində də danışmaq istəyirdim. Müsaidə edərmisiniz? Çox vacibdir.

**İsmayıl Murza –** (*həyəcanlanır*) Nə məsələdir?

**Həsən Səbri –** Murza, dünən axşam Nərlə Nəsib bəy bərk tutaşıblar. Nər ona ağzına gələni deyib. Biabırçılıq törədib. Güc-bəla ilə ayırıblar.

**İsmayıl Murza –** Nə danışırsan? Onun 35 yaşı var. Məgər onun münaqişə, hadisat törədən vaxtıdır. Heç ondan gözləməzdim. Bəs indi iş nə yerdədir? Vəziyyət nərədədir?

**Həsən Səbri –** Murza, sorma, fənadır. Fənadan da fənadır. Nəsib bəy bu gün üçün onu duelə çağırıb!..

**İsmayıl Murza –** Nə? Nə? Şimdi saat neçədir? Duel nə vaxta təyin olunub? Harada olacaq, sekundantlar kimlərdir? Bəs indiyədək niyə yatmısan? Gəlib mənə deyə bilmirdin.

**Həsən Səbri –** Nə bilim. Mən orada olmamışam. Amma kimsə dedi ki, duel Zincirli təpəsində olacaq. Saat 3-də.

**İsmayıl Murza –** (*saata baxır*). Hələ iki saat var. Biz bu duelin qarşısını ala bilərik. (*Fikrə gedir. Sonra əli ilə alnını sığallayır. Sonra ağır-ağır üzünü Həsən Səbriyə çevirir*). Sən bu işdən bir baş açdınmı? Bu iki gənc niyə duelə çıxsın? Niyə bir-birlərini öldürməyə qalxışsınlar?..

**Həsən Səbri –** (*astadan*). Murza, deyəsən qadın söhbətidir.

**İsmayıl Murza –** Nə qadın söhbəti? Nə qadın, hansı qadın? Bu nə vaxtın duelidir? Duelə 100 il, 50 il bundan qabaq çıxardılar. Özü də duel hakimiyyət tərəfindən rəsmən qadağan olunub. (*Həsən Səbrini başı ilə yanına çağırır, pəncərəyə doğru çəkilirlər*).

- Məni başa sal, görüm nə işdir?

**Həsən Səbri –** Nifaq alması, sultanımızdır, Şəfiqə Sultan!..



**İsmayıl Murza –** Belə de, belə de! Bu qız niyə iki cavanı bir-birinə düşmən edib. Ona qulaq burmasını özüm verəcəyəm. Amma indi biz tələsməliyik.

*Bayırdan hay-haray səsi gəlir. Refat qaçaraq içəri daxil olur.*

**Refat –** Ata, bu qanlı döyüşün qarşısını almalıyıq. Onların heç biri ölməməlidir. Bu türk dünyasına böyük zərbə olar. Bunun qarşısını ancaq sən ala bilərsən.

**İsmayıl Murza –** Mən istərəm alım. Onların hər birini öz övladım kimi istəyirəm. Heç sizdən ayırmıram. Amma, birdən sözümü yerə salsalar. Ah, indiki cavanlar. (*yenə saatına baxır*). Saat yarıma ora yetişməliyik.

**Refat –** Ay aman, duelin vaxtını iki saat irəli çəkiblər. biz yetişə bilməyəcəyik.

(*Hamı başılovlu çıxır*)

## III şəkil

*Zincirli təpəsi. Tərəflər duelə hazırlaşır. Sekundantlar tapancaları yoxlayır. Rəqiblərin neçə metr məsafədən atışacaqlarını götür-qoy edirlər. Nəriman Nərimanov və Nəsib bəy Usubbəyov bir birlərindən 20-30 metr aralı oturublar. Bir qaraçı qadın yaxınlaşır. Nəsib bəyin falına baxmaq istəyir. Nəsib bəyi gülmək tutur və qaraçı qadından soruşur:*

- Əlimə baxma, de görüm mən bu gün öldürüləcəyəm ya yox?

**Qaraçı qadın –** Yox, əlinə baxmasam deyə bilmərəm. Ver əlini (*Nəsib bəy sağ əlini ona uzadır*). Of, ömür xəttiniz yaman qısadır. Amma, amma, söz, bu gün ölməyəcəksiniz. Hələ bir igidin ömrü qədər ömrünüz var. (*hırıldayır*)

**Nəsib bəy** – İndi də o kişilərin falına bax. Amma ondan pul alma. Al, bu sənin haqqın (*Bir gümüş manatı onun ovcuna basır*).

*Qaraçı o tərəfə Nərimanın yanına gedir. Bir iki dəqiqədən sonra qayıdır və Nəsib bəyin yanından keçərkən:*

**Qaraçı qadın** – O səndən çox yaşayacaq!..
**N. Usubbəyov** – Nə qədər? (*Özünün də halı dəyişir*).
**Qaraçı qadın** – Nə bilim, beş, on il?!

(*Sekundantlar işlərini yekunlaşdırırlar*)

**1-ci sekundant** – Biz hazır.
**2-ci sekundant** – Biz də hazır.
**Nəsib bəy Usubbəyov** - Cənab Nərimanov, yarağını qaldır. Düz nişan al. Əlin titrəməsin. Yoxsa şansın yoxdur.
**Nəriman Nərimanov** – Narahat olma. Hər şey öz yolunda gedir. Sən kəlmeyi-şəhadətini de. Yoxsa cənnət əvəzinə cəhənnəmə düşərsən. (*tapançanı qaldırıb rəqibinə tuşlayır, bir-iki dəfə silahı aşağı salır, həyəcanlanır*)
**Nəsib bəy Usubbəyov** – Qardaş. Nə gözləyirsən? Furajkanı çıxar, lap elə pencəyini soyun. Cəsarətlə nişan al. Onsuz da məndən beş il çox yaşayacaqsan. Bəlkə də on il!
**Nəriman Nərimanov** – Əşi, az danış. İndi susacaqsan. (*Yenidən tapancasını qaldırıb Nəsib bəyə yönəldir. Silah titrəyir. Ataş açılır. Güllə Nəsib bəyin pencəyinə sürtünüb keçir*).
**2-ci sekundant** – Nəsib bəy, növbə sizindir.

(*Nəsib bəy tapançanı qaldırır. Nərimanın rəngi sapsarıdır. O rəqibinə deyil, Qara dənizdə üfüqdə gedən tənha gəmiyə baxır. Nəsib bəy nə düşünürsə birdən-birə tapançanı göyə yönəldir və atəş açır*)
*Sekundantlar təəccüb içində. N.Nərimanov bir az sakitləşib.*



**N.Nərimanov** – Eh, bu olmadı!..
**N.Yusifbəyli** – Oldu, oldu. getdik. (Furajkasını və plaşını götürür. Cığırla aşağı düşür. Sekundant da onun ardınca yönəlir, qolundan dartaraq)
**1-ci sekundant** – Nəsib bəy, dayanın, siz niyə onu vurmadınız. Axı sizin şansınız var idi. Özü də siz yaxşı atırsınız. Belə də duelmi olar?!
**Nəsib bəy Usubbəyov** – Sizcə mən onu öldürməliydim. Qardaş, axı o həkimdir. Millətə gərək olacaq. O boyda Bakıda vur-tut bir neçə həkim var. Üstəlik o tanınmış yazıçıdır. Yazıçını öldürməkmi olar? O vaxt Dantes Puşkini öldürdü. Hamı ona nifrin yağdırdı. Martınov Lermontov kimi şairi qanına qəltan elədi. Eh, dostum, mən təhər-töhmət yiyəsi ola bilməzdim.
**1-ci sekundant** – Deyəcəklər qorxdu. Söz-söhbət başlanacaq. Min ağzı göyçək var.
**Nəsib bəy Usubbəyov** – Bu məni qayğılandırmır. Deyənlər elə belə də deyirlər. Eh, kim nə deyirsə desin. Vecimə deyil. Kefini pozma. Burada yaxında bir lokanta var. Gedək oturaq. Bir az şənlənək.
**1-ci sekundant** - Nə şənlənmək?! İş görə bilmədik.
**Nəsib bəy Usubbəyov** – Əksinə, gördük. Onu etdik ki, günahsız bir insanı öldürmədik. Yoxsa, vicdanım daim ağrıyardı. Düzdü, Nəriman məni çox əsəbiləşdirdi, mən onu duelə çağırmağa məcbur oldum. Əslində, bizim münaqişəmiz duellik deyildi.

*Gedirlər.*

## IV şəkil

*İsmayıl Murzanın kabineti. İsmayıl Murza öz yerində, N.Nərimanov, N.Usubbəyov qarşı tərəfdə bir-birindən aralı oturublar. Şəfiqə Sultan bir qədər aşağı tərəfdə başı aşağı, kədərli bir görkəmdə əyləşib.*

**Ismayıl Murza** – Hə, indi deyin, cənab tələbələr, siz bir-birinizə nə vermisiniz ki, ala bilmirsiniz. Siz öz vəziyyətinizi XIX əsrin əvvəllərində rus zabitlərinin özünütəsdiq hoqqaları ilə dəyişik salırsınız. Nəriman bəy, siz deyə bilərsinizmi Azəri türklərindən neçə nəfər ali təhsil alıb və almaqdadır?

**N.Nərimanov** – Murza, azdır, təxminən beş-on nəfər.

**İsmayıl Murza** – Bu beş-on nəfərin içində siz də, Nəsib bəy də var. Heç türk millətinə lazımlığınızı düşünmürsünüzmü?! Bu nə çəkişmədir? Tarix, dövr, millət sizə müqəddəs missiya etibar edib. Siz isə bir birinizin əziz canına susayırsınız. Heç sizdən gözləməzdim. Dedikləriniz, yazdıqlarınızla əməlləriniz arasında böyük uçurum var. Nəriman bəy, məgər hadisələri bu həddə gətirib çatdırmaq vacib idi? Nəsib bəy, onu duelə siz çağırmısınız. Birdən o boşluğa gedən güllə sizi haqlayaydı. İnsanın ölümü nədir ki?.. Bizə isə ölülər deyil, dirilər lazımdır. Milləti qaldırmaq, onu gücləndirmək və gələcək döyüşlərə hazırlamaq!

**Nəsib bəy Usubbəyov** – Murza, doğru buyurursunuz. İkimizin də səhvimiz olub. Ola bilsin bu işdə daha çox mən günahkaram. Duel təşəbbüsü məndən oldu...

**Nəriman Nərimanov** – Mən də özümü günahkar hesab edirəm. Ona atəş açmağımı özümə bağışlaya bilmirəm. Birdən dəysəydi... Nə isə... Bir işdi olub.

**İsmayıl Murza** – (*ayağa qalxıb onların yanına gəlir*) Duel nə bizim türk ənənəsinə, nə də islama caizdir. Balalarım, bu gün sizin tutduğunuz əməl bizim böyük düşüncələrimizlə bir araya sığmır. Biz deyirik: "Dildə, fikirdə, əməldə birlik!" Daha demirik iki qardaş bir birinə güllə atsın. Biz tələsməliyik. İşlərimiz çoxdur.

*(Nəsib bəy və Nəriman oturduqları yerdə bir birinə yaxınlaşırlar)*

**İsmayıl Murza** – XX əsr türk xalqlarının həyatında həledici bir əsr olacaq. Hər gün bizə yeni bir dəyişiklik vəd edir. Bizim birliyimiz – diriliyimizdir. Bizim cəbhəmiz birdir: bir bütün olmaq!!! Övladlarım, əl verib barışın. Nəriman sən yaşca böyüksən, birinci addımı sən at! Ümumiyyətlə, ilk addımdan, təşəbbüsdən, iradədən çox şey asılıdır.



*Nəriman Nəsib bəyə doğru addım atır, Nəsib bəy isə ona əl uzadır, görüşürlər.*

**İsmayıl Murza** – İndi haydı övladlarım, iş başına!

*(Nəsiblə Nəriman otağı tərk edirlər. Orada İsmayıl Murza ilə Şəfiqə Sultan qalırlar).*

**İsmayıl Murza** – İndi de görüm. Nə vaxt hərcayi, hərdəmxəyal olmaqdan əl çəkəcəksən. Sən artıq yetkin, ərəmik qızsan. Konkret və düzgün qərar qəbul etməlisən.

**Şəfiqə Sultan** – Qafam indi çox qarışıqdır, ata! Mən düşünməliyəm.

(*Onlar xeyli baxışırlar. İşıq sönür*)

**Aparıcı səsi** – Qaraçının sözü düz çıxdı. Onlar heç biri öz ömrünü yaşamadı. Düşmən məkrinin, düşmən fitnə-felinin qurbanı oldu. Nəsib bəy həqiqətən Nərimandan beş il əvvəl öldü. Özü də sirli-sehirli, müəmmalı bir ölümlə. Elə bir ölümlə ki, Şəfiqə Sultan ona belə bir nida göndərdi: "Sudamısan, torpaqdamısan, Nəsib, ətrafın nur olsun!"

# III ƏLAVƏLƏR

## İsmayıl bəy Qasprinski

### Məsləki-Tərcüman

Zəmanəmizdə türlü məslək və əfkar doğdu. "Tərcüman" məsləki əksər xalqa məlum isə də bəyənməyənlər də bəlkə vardı.

Tərcüman - din və millətə ziyan gəlməmək şərti ilə Rusiyanın və rusların mühibidir. Səadəti vətənin tələbçisidir.

Tərcüman - heç bir millətin, heç bir sinfin, bay və fəqirin haqqını inkar etməmişdir, etməyəcəkdir.

Tərcüman - iyirmi beş sənədən bəri milliyyətçidir, hazırda təşəkkül olunmaqda olan millət firqəsindən başqa bir firqəyə mənsub degildir, olmayacaqdır.

Tərcüman - birinci şurayi-əmtək qərarına binaən millətin hər hansı firqə və hərəkəti-siyasiyeyi daha nafi, daha qurur ilə böylə bulub tanıyacaqdır.

Tərcüman - millət məclisinin, yəni dumanın əksəriyyət rəyini nizamlaya biləcəkdir.

Tərcüman - nafi olmayan nizamilərin fəsix edilməsinə və fəsix edilənə qədər nizama itaəti tələqqi etməyəcəkdir, çünki bilanizam bir gün səlamət olunmaz.

Tərcüman - milliyyəti hər şeydən qiymətli və müqəddəs tutacaqdır, millətin zərərinə qarşı başqa türlü ən böyük faidələr qəbul edəcəkdir, rahat və səadəti millət daxilində izləyəcəkdir.

Tərcüman - hər türlü iş, əhval və ixtilafa həqqaniyyət və mümkünat cəhətindən baxacaqdır.

Tərcüman tövhidi-lisan, tövhidi-əfkar və maarifi-milliyyə məsələlərində qeyrəti-daimidə bulunacaqdır.

Tərcüman - hər nə söylər və yazarsa bu gün də millətin anlayacağı, idrak və qəbul edəcəyi surətdə ərz və bəyan edəcəkdir.

Tərcüman əksər rəfiq və mühərrirlərin müavinəti-ədəbiyyə və məmnuniyyələrinə ümidi vardır.



* * *

## Həsən Səbri Ayvazov

### Həsən Səbri Ayvazovun Xədicə xanım Əlibəyovaya bir məktubu

İlk Azərbaycan qadın jurnalı "İşıq" 97 il bundan əvvəl 1911-ci il yanvarın 22-də iki fədakar insan Mustafa və Xədicə Əlibəyovların təşəbbüsü ilə işıq üzü görmüşdü. Jurnalın naşiri Mustafa bəy Əlibəyov, baş redaktoru və məsul müdiri Xədicə xanım Əlibəyova - Sübhanvediyeva idi. Onlar Tiflisdə tanış olmuş və 1907-ci ildə evlənmişdilər. Xədicə xanım (1884-1958) Tiflisdə mütərəqqi, maarifpərvər ruhani Ələddin Sübhanverdiyevin ailəsində doğulmuşdu. O, Tiflis gimnaziyasında və Zaqafqaziya Mama-Ginekologiya İnstitutunda oxumuşdu. Bakı müsəlman qadın xeyriyyə cəmiyyətinin fəal üzvlərindən olmuş, xeyriyyəçilik işində fərqlənmişdi: 1917-ci il Novruz bayramı münasibətilə təşkil edilmiş bir xeyriyyə marafonunda bir çox görkəmli Azərbaycan qadınları kimi X.Əlibəyovanın da iştirakı qeyd olunur, onun beş manat ianə verdiyi göstərilirdi.

1920-ci il Aprel çevrilişindən sonra Xədicə xanım öz sevimli əri, məşhur vəkil, jurnalist və ictimai xadim M.Əlibəyovla Şəkiyə köçür və 40-cı illərin sonuna qədər orada yaşayır. O, burada həkim işləsə də, savadsızlığın ləğv edilməsində, mədəni və məişət quruculuğunda fəal qadınlardan olmuşdur.

Lakin Xədicə xanımın fəaliyətində ən diqqətəlayiq səhifələrdən biri, bəlkə də birincisi onun "İşıq" jurnalının nəşrində əvəzsiz iştirakıdır. O, jurnalın təkcə baş redaktoru deyildi, eyni zamanda ən məhsuldar yazarı idi.

O, jurnalda Xədicə, X.Əlibəyova, Çayqıraqlı Həyatxanım, Hacıxanım və s. imzalarla çıxış etmişdir. Xədicə xanım dövrünün fəal qadınlarını, o sıradan Şəhrəbanı xanım Şabanzadəni, Nabat və Gülsüm xanım Nərimanovaları, Səryə xanım Anano-

vanı və başqalarını bu jurnala yazmağa cəlb etmişdi. Xədicə xanımın jurnalda "Vəzaifi-beyfiyyə", "İdarədən-əxtar", "Hüququmuz" və s. silsilə məqalələri çap olunmuşdu. (Xədicə xanımın jurnalda imzasız yazıları da var). Jurnalın 1-ci sayında "Həmşirələrimizə" adlı yazıda Xədicə xanım yazırdı:

"Əlbəttə, hər bir müslim və müslimə (yəni müsəlman kişi və qadın - N.Q.) öz mülkiyyət və vətəninin tərəqqisi yolunda mümkün olduğu qədər çalışmağa borcludur. Zatən mənsub olduğumuzdan mübin (aşkar) İslam dəxi bunu icab edər.

Yoxsa nənzələ üz tutan millətimizin halına tamaşa edib durmağa özünə, vicdanıma rəva görməyib nəşrinə başladığım qəzetədə bacarığımız qədər İslam qardaşlarımızı girdabi-cəhalətdən xilas olmağına çalışacağız".

Jurnalın nəşrini ilk təbrik edənlər içərisində yazıçı və müəllim İskəndər bəy Məlikov, ruhanilərdən Hacı Mir Ağa Möhsümzadə, ziyalı qadınlardan Nəcabət xanım Zeynalova, Sürəyya xanım Həsənova və bağqaları var idi. Öz təbrik məktubunda İ.Məlikov yazırdı: "Vücuda gələn mübarək "İşıq" qəzetəsinin əvvəlinci nömrəsi vüsul oldu. Oxudum. Artıq dərəcədə məmnun oldum. Doğrusu, zülmət və cəhaləti-İslam içində qalmış olan ana və bacılarımızın hallarını, onların təlim və tərbiyədən məhrum olmalarını nəzərə alıb məhzun oldum. Qəzetənin vərəqlərini oxuyunca fərəhləndim. Necə fərəhlənməyim ki, zati-aliyələri birinci dəfə olaraq Qafqasyada müdirə və mühərrirə nami ilə meydana çıxdığını görürdüm".

"İşıq"ın dili əsasən sadə və aydın idi. Buna baxmayaraq bu jurnalın dili öz həmkarları tərəfindən tənqid olunmuşdu. Jurnalda Rəhim bəy Məlikov, Y.V.Çəmənzəminli və başqalarının məqalələri işıq üzü görmüşdü. "İşıq" bəzi müəlliflər tərəfindən tənqid olunsa da onun nəşrini təqdir və müdafiə eləyənlərin sayı çox idi.

Məlumdur ki, dil məsələsi XX əsrin əvvəli Azərbaycan mətbuatında ən ağrılı məsələlərdən sayılırdı. Bu məsələ ilə çoxlu mübahisələrin getdiyi və bu məsələlərdə əksər görkəmli ziyalıların iştirak etdiyi məlumdur. "İşıq"ın 1911-ci il 5-ci sayında verilən elanda müəlliflərdən rica ilə deyilir ki, "yazıları mümkün olduqca öz dilimizdə yazıb, ərəb və fars lüğətləri işlətməsinlər. Çünki oxucularımızın çoxu qəzetəmizin dilindən şikayət edirlər..."



Bəzi müəlliflər öz məktub və təbriklərini jurnala rus dilində göndərirdilər. "İşıq"ın redaksiyasına göndərilən bir sıra məktub və məqalələri Xədicə xanım, özü də bəzən rus dilində yazan M.Əlibəyov Azərbaycan dilinə tərcümə edirdilər.

"İşıq"ın şöhrəti Azərbaycan və Qafqaz hüdudlarından çıxıb Krım, Şimali Rusiya, Volqaboyu, Türkistan, İran və Türkiyə hüdudlarını da aşmışdı. Bu, faktik olaraq Şəfiqə xanım Qasprinskayanın nəşr etdiyi "Aləmi-nisvan" jurnalından (1906-1910) sonra türk dünyasında nəşr olunan ikinci qadın jurnalı idi. "İşıq"ın nəşrini İstanbuldan Həsən Səbri Ayvazov, Tiflisdən Məsturə binnət Məcidəlsəltənə Əfşar, Peterburq universitetinin tələbələri Mir Yaqub Mehdiyev və Əsəd bəy Əmirov, Aşqabaddan Xavər xanım Tahirova və b. təbrik etmişlər.

Həsən Səbri Ayvazov (?-1936) məşhur Krım tatar yazıçısı, jurnalisti və ictimai xadimdir. O, "Tərcüman" qəzetinin təsisçisi və baş redaktoru, türk dünyasının öndərlərindən İsmayıl bəy Qasprinskinin ardıcıllarından olmuşdur. "Tərcüman"da xeyli müddət yazı işləri müdirliyini həyata keçirən H.S.Ayvazov "Tərcüman"ın varisi kimi çıxan "Millət" qəzetinin baş redaktoru olmuş, Azərbaycan mətbuatında da çıxış etmiş, 1917-ci ildə "Rusiya Müsəlmanları" partiyası icraiyyə komitəsinin üzvü seçilmişdi. "Nədən bu hala qaldıq" pyesi Bakıda tamaşaya qoyulmuş, "Üsuli tədris və təlim tərbiyə" kitabı Bakıda nəşr edilmişdi (1906). H.S.Ayvazovun Azərbaycanın yaradıcı ziyalıları ilə geniş əlaqələri olmuş, "Tərcüman"da bir çox yazıçı və jurnalistlərimizin yazıları, habelə onlar haqqında məqalələr çap edilmişdi. H.S.Ayvazov Xədicə xanıma məktubla müraciət etdiyi zaman bir çox türk aydınları (Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsuladə və b.) kimi "İttihad və tərəqqi" partiyası tərəfindən İstanbula dəvət olunmuş və orada bulunurdu. 1914-cü ildə vətənə qayıdan H.S.Ayvazov mətbuat fəaliyyətinə davam etmiş, dərs demiş, sovet dövründə repressiya qurbanı olmuşdur.

H.S.Ayvazovun Xədicə xanım Əlibəyovaya təbrik məktubunu ərəb əlifbasından latına çevirməklə oxucuların diqqətinə təqdim edirik.

*İsmətli mənəvi həmşirəm Xədicə xanım!*

*Təhti idarənizdə intişarə başlayan "İşıq"ın ziyası dağları, obaları, dənizləri aşaraq ta İstanbula qədər əks edib buradakı həmşirələrinizi də işıqlandırıyor! Möhtəşəm "İşıq"ın ilk nüsxəsi hər nasılsa əlimə keçdi. Nəzəri-mütaliədən keçirdim.*

*Mündəricatını çox iyi bildim. Heysiyyəti-milliyyə ilə mətbu olan məqalələriniz mənə yenidən ümidlər verdi, qurumağa üz tutmuş ümid mənbələrim yenə təzələndi.*

*Çalışınız, həmşirəm bir xanım arzu edərsə erkək qədər iş görər.*

*Çünki bir erkək nə qədər mətnur, nə dərəcədə mətfunun olsa, yenə qadınların əhvali-ruhiyyəsinə və heysiyyəti-qəlbiyyəsinə haqqilə vaqif olamaz və bunun üçün nə qədər səy etsə də qadınlar üzərinə böyük bir təsir icra edəməz. Siz isə qadınlarımızın əhvali-ruhiyyəsinə o rəncə təşrif edə biləcəyinizdən qadınların tərəqqisi və təkamülü xüsusunda erkəklərdən ziyadə xidmət edə bilirsiniz. "Həmşirələrimə xitab" sərlövhəli məqalənizdə təqib edəcəyiniz məsləki-bəyaniyyə ilə "Tərbiyeyi-ətfal"a dair elmlərindən bəhs edəcəyini bildirmisiniz. Üxt həmşirəm! Ən ziyadə əhəmiyyət veriləcək bir şey varsa o da "tərbiyeyi-ətfal" məsələsidir. Validələrimiz təlim və tərbiyeyi-ətfal elmini haqqıyla öyrənirlərsə cocuqlar yeni istiqbalda həmiyəti-bəşəriyyəyə xidmət edə biləcək bir dərəcədə tərbiyə edirlər və bu sayədə həm cocuqlarının, həm də mənsub olduqları cəmaətin istiqbalını təmin etmiş olur. Artıq nəşrinə başladığımız "İşıq"ı təbrik ilə nisvani-islamı eşqləndirməyinizi qəlbimin ən dərin duyğuları ilə təmin edərəm. Əziz və möhtərəm həmşirəm! İrəlidə vaxt bulduqca ara-sıra qadınlığa və tərbiyeyi-ətfala dair məqalələr yazaram.*

***İstanbul.***
***Həsən Səbri Ayvazov***
***İşıq, 1911, № 8, səh. 6.***



## Qasprinskinin vəsiyyətləri və vəfatı

(Həsən Səbri Ayvazov İ.Qasprinski haqqında)

Böyük İsmayıl bəy Qasprinski həzrətləri vəfatından bir həftə əvvəl sağalmış kimi görünürdü. Otağına girəndə öz yanında otuzdurur, danışır, hətta ara-sıra ibrətamiz lətifələr söylərdi.

Sentyabrın 8-də səhərdən onun xəstəliyi ağırlaşmağa başlasa da şən və şad görünməyə çalışırdı.

Sentyabrın 9-da halım pisdir deyib tez-tez su içməyə başladı. O günü axşam oğulları Refat, Heydər bəyləri, kürəkəni Nəsib bəyi, Şəfiqə və Nigar xanımları və bu sətirlərin müəllifini yanına çağırdı. Dərin-dərin düşündükdən sonra özünün bu halında belə şanını, fikirlərini mühafizə edərək fısıltı ilə yavaşdan danışmağa başladı: "Söyləyəcəyimə diqqət ediniz. Dünəndən bəri özümü fəna və pis hiss edirəm, bu halın nəticəsi bu günlərdə anlaşılacaqdır (sükut). Madam ki, doğulmuşuq... bir gün əlbət öləcəyiz. Doğulmaq təbii olduğu kimi ölmək də təbiidir. Ona görə də nə olur, nə olmaz, mən sizlərə öz vəsiyyətimi söyləmək istərim... Şayəd ölərsəm (inşallah da yaşarım) bu söyləyəcəyim şeylərin icrasını sizlərdən gözlərim.

1. Məzarım Zəncirli mədrəsəsi ətrafında Menli Gəray xanım türbəsi olduğu məzarlığın cənub şərqindəki yüksək bir təpədə qazılsın.

2. Gümüş pulla altı yüz vəsiyyətim var. Bu pul bir adama əmanət olaraq buraxılmışdır. (Refat bəy lazımi anda alacaq). 400 gümüş pulu cənazəm torpağa tapşırıldıqda və qalan 200 gümüş də bir il ərzində bir məktəb ilə bir məscidin faydasına sərf edilsin (üzünü Refata çevirir).

3. "Tərcüman"ı söndürməzlər... övladlarım (sükut).

4. Məndən sonra "Tərcüman"ın baş mühərriri Həsən Səbri Ayvazov olacaqdır. İki ildən bəri mən ona əmanət etməkdəyəm. Sizlər də əmanət ediniz, oğullarım!.. Öz istəyi ilə "Tərcüman"dan getməsə onu kimsə idarədən çıxarmayacaqdır...

5. "Tərcüman"dan qeyri işləri övladlarım və damadlarım (kürəkənlərim) tövsiyə edərlər.

6. Bir ay yarımdan bəri yanımda bulunan Zeynəb bacıma 50 gümüş hədiyyə verirsiniz.

İsmayıl bəyin bu sözləri bizi həddən artıq kədərləndirdi. Gözlərimiz doldu, daxili bir hissiyyat içində donub qaldıq... Bizi bu halda görüb bu sözləri dedi: "Belə bir acı vəziyyətdə sizi görmək istəmirəm. - İnşallah, yavaş-yavaş düzəlirəm..."

Sentyabrın 10-da halı daha da ağırlaşdı. Günorta saat 12 radələrində artıq həyatdan ümidini kəsmiş olduğu səbəbindən Yasin oxunmasını buyurdu. Yasini-Şərif oxunandan başının üstündə olan kəlami-qədimə əl uzadıb üz-gözünə sürtdü, gözlərini yumaraq bu sözləri söylədi: " Ey böyük Tanrım! Meydana gətirmək istədigim bir neçə şeylər də var idi. Fəqət buna malik olmayacağım... Artıq... artıq nə varsa hamısı sənindir, hər şey sənin əlindədir, Allahım!.."

Yenə də həmin günün axşamı bütün oğullarını və kiçik qızı Nigar xanımı yanına çağırıb, hər birini ayrı-ayrı sevdi, oxşadı, öpdü və dedi:

Oğlum Refat! Bundan sonra qardaşlarının hamısının başı sən olacaqsan. "Tərcüman"ı söndürmə! "Tərcüman" daima yanmalıdır. "Tərcüman" - millətdir. Millət 33 ildən bəri onu himayə etdi. Əgər sizlər mənim sözlərimi icra edərsiniz, o zaman millət daima "Tərcüman"ı himayə edəcəkdir.

Bundan sonra İsmayıl əfəndi üzünü o tərəfə çevirdi. Sol əlini iki gün ərzində başı altına necə qoymuşdusa elə də qaldı. Gecə yarısından başının hərarətindən bir qədər əziyyət çəkdiyini söylədi.

İkinci günü sentyabrın 11-də səhər saat 7- yə qədər bu vəziyyətdə qaldı. Gözləri açıq bulunmaqda idi. İsmayıl bəy Qasprinski son nəfəsini verirkən gözlərini bir daha açıb ətrafına baxındı və əbədi olaraq gözlərini yumdu...

*"Dostluq" qəzetinin (Krım) 15 mart 1991-ci il (№-11) tarixli nömrəsindən götürülmüşdür.*



* * *

*Əzizə Cəfərzadə*

## İsmayıl bəy Qaspralı

İsmayıl bəy Qaspralı (Qasprinski) ilə tanışlığım bir qədər qəribə də görünsə "Molla Nəsrəddin" jurnalından başlayıb. Jurnalda ara-sıra Bağçasarayda nəşr olunan "Tərcüman" adlı qəzet və burada yazıları dərc olunan redaktor İsmayıl bəy Qasprinski ilə bağlı yazılar, kiçik xəbərlər, tənqidi parçalar gözümə dəyirdi. Elə güman edirdim ki, sadə azəri türkcəsilə yazan "Molla Nəsrəddin"in redaktoru Cəlil Məmmədquluzadə və onun həmfikirləri ilə bütün türk dünyası üçün anlaşılmalı olan dildə qəzet dərc edən "Tərcüman"ın redaktoru İsmayıl bəy arasında xoşagəlməz bir ideya mübarizəsi gedir. Qaspralı haqqında bundan artıq məlumatım yox idi. Əslində ola bilməzdi, çünki əllinci illərdə "millətçi, pantürkist, panislamis" damğası vurulan İsmayıl bəy Qaspralı haqqında heç bir şey yazılmırdı. Amma elə həmin illərdə "Dirilik" jurnalının 1914-cü ilin 16 sentyabrında çıxan 1-ci nömrəsini vərəqlərkən maraqlı bir materiala rast gəldim. Jurnalın üz qabığında qara çərçivə içərisində İsmayıl bəy Qaspralının şəkli verilmiş, altında "Ustadı-əzəm İsmayıl bəy Qasprinski" yazılmışdı. Altıncı səhifədə isə Əlabbas Müznibin ona həsr olunmuş şeri verilmişdi.

Mətanət, mərhəmət, hümmət təcəssüm
etsə, ey dahi!
Çıxar zatın kibi bir qəhrəman
Dünyaya vallahi!

Doğrusu bu misraları oxuyarkən adam ehtiyatlanırdı. Çünki o zaman nəinki İsmayıl bəy Qaspralının, elə Əlabbas Müznibin özünün də adını çəkmək, xalq düşməni adlanmağa bərabər idi. Maraqlıdır ki, həmin şəkil və ona bənzər yazılar 1914-cü ildə "Molla Nəsrəddin" jurnalında nəşr olunmuşdu. Ürəyim bir az sakitləşdi. Fikirləşdim ki, əgər "Molla Nəsrəddin" uzun illər "sataşdığı" ədib haqında özü nekroloq verirsə, deməli İsmayıl bəy o

qədər də qorxulu adam deyilmiş... hələ 1937-ci il yadımdaydı, həyatlarimizdə qalanan tonqallar və o tonqallarda yandırılan kitablar gözümüzün önündəydi. Böyük Firdovsinin ölümsüz "Şahnamə"sini, yalnız üzərində "xalq düşməni" Ruhulla Axundovun adı olduğuna görə əlimdən alıb həyatimizdə qalanan tonqala atanda mənim 15 yaşım vardı...

1960-cı ildə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda (o zaman fond adlanırdı) çalışdığım zaman "fraqmentlər" adlandırdığımız əlyazma parçaları, vərəqləri arasında bir məktuba rast gəldim. Məktubu "Tərcüman" qəzetinin baş redaktoru İsmayıl bəy Qaspralı yazmışdı. 1907-ci ilin dekabr ayının 29-da Bağçasaraydan Tiflisə "Molla Nəsrəddin" jurnalının redaktoru və naşiri Cəlil Məmmədquluzadəyə göndərmişdi. Məktubda qaldırılan məsələ məni elə çəkdi ki, "Maraqlı bir məktub" başlığı altında kiçik bir məqalə yazdım. İsmayıl bəy Qasprinskinin məktubunun foto surətini də əlavə edib "Azərbaycan" jurnalına təqdim etdim. Məqalə jurnalın 1961-ci il 1-ci nömrəsində çap olundu. Aradan bir az keçmiş o zaman Mərkəzi Komitədə ideologiya üzrə katib işləyən mərhum Şıxəli Qurbanov məni yanına çağırıb dedi ki, yazdığın məqalə ilə bağlı Kazandan məktub almışıq. Orada yazılır ki, Əzizə Cəfərzadə pantürkist, panislamist, millətçi tatar jurnalistini təriflməklə ziyanlı iş görür, onu cəzalandırın. Şıxəli Qurbanov dedi ki, cəza tələbi gülüncdür, amma özünü belə xatalardan qoru. Kazandan məktub yazanın kimliyini isə mənə demədi.

Bu yaxınlarda Türkiyəli alim Məhmət Sarayın 1987-ci ildə Ankarada çap olunmuş "Türk dünyasında egitim reformu və Qaspralı İsmayıl bəy" adlı kitabını oxudum. Orada bu cümlələr xüsusilə diqqətimi çəkdi: "1908-ci ilin şubatında təkrar Misirə gedən İsmayıl bəy, orada təhsildə bulunan və eyni ərəbcə renessans mənasına gələn "Əl-Nəhdah" adlı bir qəzetə çıxarmağa başlamışdır. Kəndisinin və arxadaşlarınını yazdığı türkcə və rusca məqalələri ərəbcə tərcümə edən Battal Taymas, İslam Konqresi fikrini şiddətlə savunmağa başlamış, bu isə digər qəzetəçi arxa*daşlarını hərəkətə keçirməyə yetmişdir*".



Yuxarıda haqqında danışdığım məktubunda da İsmayıl bəy Qaspralı Cəlil Məmmədquluzadəyə Qahirədə "Vozrojdenye" (İ.Qasprinskinin məktubu rus dilindədir) adlı bir jurnal və ya qəzet çap etdirəcəyini bildirməklə xahiş edirdi ki, "Molla Nəsrəddin"də ümimislam dünyası üçün əhəmiyyəti olan məqalə, felyeton və karikaturalardan istifadə edə bilmək üçün ona icazə versin. Məktəb rus dilində yazıldığından o zaman mən "vozrojdenye" sözünü bilmədiyim "ƏL-Nəhdah" deyil, "İntibah" kimi qəbul etmişdim. Qahirəyə gedən və Misirdən bizə qonaq gələn bütün alim və ya başqa ziyalılardan Misir-Qahirə kitabxanalarında "İntibah" adlı, İsmayıl bəy Qaspralının nəşr etdiyi qəzet və yaxud jurnal olub-olmadığını öyrənməyi xahiş edərdim... Və əlbəttə bir cavab ala bilmirdim. Çünki onlar "Əl-Nəhdah"ı deyil, "İntibah"ı arayırdılar. Mən özüm Türkiyədə olduğum zamanlarda məsələnin nə yerdə olduğunu bilmədiyimdən "Əl-Nəhdah"ı axtarmadım. Halbuki!... Yalnız Məhməd Sarayın tədqiqatını oxuyandan sonra mənə - məsələnin nə yerdə olduğu aydınlaşdı.

Bu məsələnin Azərbaycan ədəbiyyatı, xüsusilə Mirzə Cəlil Məmmədquluzadə yaradıcılığı, eləcə də "Molla Nəsrəddin" jurnalının tədqiqi üçün xüsusi əhəmiyyəti vardır. Bu «Molla Nəsrəddin»in başqa yaxın Şərq mətbuatına təsirini və yayılma dairəsini müəyyənləşdirməyə köməklik göstərməklə hər iki ədibin mövzu dairələrini aydınlaşdırar, onların maarif yaymaq, milli azadlıq, istiqlaliyyət, müstəmləkə siyasətinə qarşı mübarizə cəbhəsində müştərək çıxışlarını üzə çıxarar.

Bəs, İsmayıl bəy Qaspralı kim idi və bütün türk dünyası üçün nə etmişdi? Azərbaycan maarifində rolu nəydi ki, Cəlil Məmmədquluzadə, Əlabbas Müznüb və başqa sənətkarlarımız onu bu qədər qiymətləndirirdilər?

İsmayıl bəy Qaspralı 1851-ci ildə Baxçasaray yaxınlığında Avcı kəndində doğulmuşdur. Atası Mustafa ağa Qaspra kəndindən olduğu üçün özünə Qaspralı soyadı götürmüşdür. 1854-cü ildə Sevastopol müharibəsi zamanı Mustafa ağa Baxçasaraya köçmüş və İsmayıl bəy də burada boya-başa çatmışdır. O zaman Baxçasaray Krım türklərinin mədəniyyət mərkəzinə çevrildiyin-

dən İsmayıl ilk təhsilini Ağməsçid şəhərində almış, sonradan Moskvada hərbi litsedə oxumuşdur. Gəncliyindən panislamistlərin türk xalqlarına təhqiramiz münasibətlərinin şahidi olan bu cavan oğlanın qəlbində getdikcə nifrət hissi cücərməyə başlamışdır. 17 yaşlı İsmayıl bəy Qaspralı 1868-ci ildən ilk əmək və maarifpərvər müəllimlik fəaliyyətinə başlamış, Krımdakı Zincirli mədrəsəsində rus dili dərsi demişdir. Orduda xidmət etmiş, müxtəlif mədrəsələrdə, məktəblərdə dərs demiş, dönə-dönə Türkiyəyə getmiş, orada orduya daxil olmaq istəmişsə də rus tərəfdarı sayıldığına görə məqsədinə nail ola bilməmişdir. İsmayıl bəy 1871-74-cü illərdə Avropa səyahəti zamanı Parisdə yaşamış, fransızca mükəmməl öyrənmişdir. Qərb mədəniyyətinin dərin tədqiqinin nəticəsi olaraq "Avropa mədəniyyətinə bir nəzəri-müvazinə" əsərini yazmışdır. 1875-78-ci illərdə Krımda yaşayarkən özünə iş tapa bilməmiş, ümumtürk həyatını öyrənməyə başlamışdır. "Rusiya müsəlmanları" əsəri, eləcə də dönə-dönə çar məmurlarına müraciətdən sonra nəşrinə başladığı müxtəlif qəzet və məcmuələr - "Tonğuc" [8. 5. 1881], "Mirati-cədid" [5.8. 1882] və başqaları o zamankı türkdilli xalqların ziyalılarının nəzərini cəlb etmişdir. Belə gənc ziyalılardan biri də Kazanda məşhur ailələrdən sayılan Akçuralı İsfəndiyar bəyin qızı Zöhrə xanım idi. Ismayıl 1882-ci ildə Baxçasarayda onunla tanış olmuş və evlənmişlər.

Olduqca maarifpərvər, ziyalı olan Zöhrə xanım ərinin maarifçilik fəaliyyətində onun ən yaxın yardımçısı idi. İsmayıl bəylə Zöhrə xanımın qızı Şəfiqə ilk Azərbaycan Demokratik hökumətinin başçılarından biri olan Nəsib bəy Yusifbəyliylə evlənmişdir. Şəfiqə xanım bütün türkdilli xalqlar, o cümlədən, azərbaycanlı gənc analar, qız və gəlinlər üçün örnək idi, məktəblər açır, onlara dərs deyirdi. O, 1919-cu ildə Bakıda da belə bir məktəb açmış, gənc ana və qızların təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Qadının hüquq bərabərliyi, ev, analıq, ailə məsələlərində yeri, vəzifəsi haqqında mühazirələri əvəzsiz idi. Şəfiqə xanımla Nəsib bəy Yusifbəylinin bir qızı olmuşdu ki, ona nənəsi Akçuralı Zöhrə xanımın adını vermişlər. Nəsib bəy Yusifbəylinin əziz yadigarı



olan həmin Zöhrə xanım indi Türkiyədə yaşayır. O, atası Nəsib bəyin anası Şəfiqə xanıma hələ evlənməmişdən yazdığı məhəbbət məktublarının əslini bir neçə başqa sənədlərlə birlikdə mənə təqdim edəndə "onlar (yəni sənədlər, şəkillər) burada (yəni Türkiyədə) qonaq idi, əsl yerləri Azərbaycandır, qoy dönsünlər VƏTƏNƏ"- dedi. Zöhrə xanım anası Şəfiqə xanımla birlikdə didərgin düşən həmvətənlərimizin xeyrinə müsamirələr, ədəbi-bədii gecələr, konsertlər təşkil etmiş, yığılan pulları ehtiyacı olan ailələrə, xüsusilə xaricdə təhsil alan azəri türk tələbələrə paylamışlar.

İsmayıl bəy Qaspralının əsas jurnalistik fəaliyyəti və şöhrəti onun 10 aprel 1883-cü ildən başlayaraq nəşr etdiyi "Tərcüman" qəzeti ilə bağlıdır. O zaman Rusiyada müsəlman xalqlarının sayı 20 milyonu keçibmiş ki, bunlardan da əksəriyyətini türkdilli xalqlar təşkil edirmiş. "Tərcüman"qəzeti bütün Rusiya və Yaxın Şərqdə yaşayan türkdilli xalqlar arasında böyük rəğbətlə qarşılanmışdır. Bu baxımdan xalqımızın didərgin oğullarından "Həyat" və başqa qəzetlərin naşiri, gözəl jurnalist, alim Əhməd bəy Ağaoğlunun "İsmayıl bəy Qasprinski" adlı məqaləsindəki bu sətirlərə diqqət yetirək: "İsmayıl bəy türklüyə aid fəaliyyəti şu düsturu ittihaz etmişdi: fikir, lisan (dil) və hiss birliyi... İsmayıl bəyin təqib etdiyi qayə - türklərə kəndilərini (özlərini) tanıtdırmaq, şüuri-milliyyələrini inkişaf etdirərək, onlarla bir olduqlarını təlqin etməkdən ibarətdi". Məhz elə bu arzusuna çatmaq üçün İsmayıl bəy milli şüuru, mənliyi, birliyi məhv edən cəhalətə qarşı mübarizəyə girmişdi. Odur ki, ilk əvvəl yeni üsullu məktəblər açmağı qarşısına məqsəd qoyubmuş və ona nail olmuşdur. Onun yaratdığı "Üsuli-cədid" məktəbləri bütün türkdilli xalqlar dünyası üçün örnək hesab edilməlidir. "Üsuli-cədid" məktəblərinin o zamankı Rusiyada nə kimi uğur qazandığını bilmək üçün təkcə rus nazirlərindən birinin dediyi bu sözləri xatırlamaq kifayətdir: "300 il ərzində Romanovların tatarlar üçün edə bilmədiyini, üç il ərzində İ.Qasprinski etdi."

Cəhalətə qarşı mübarizə və birlik yaratmaq məqsədilə Qaspralı mətbuatın inkşafına da xüsusi fikir veribdi.

Qasprah yaradıcılığının ciddi tədqiqatçılarından olan Krımər bu münasibətlə yazıbdı: "Rusiya müsəlmanları arasında maarifin ruslardan ziyadə yazıldığını və inkşaf etdiyini söyləyərək nə mübaliğə etmiş, nə də haqsız bir hökm vermiş oluruq."

İsmayıl bəy "dil, fikir və iş birliyi" şüarı ilə türk dünyasında bir müəllim, bir patriarx kimi tanınmışdır. Onun "Üsuli-cədid" məktəbləri, təlim-tərbiyə metodu, yaratdığı onlarla tədqiqat əsərləri, elmi, bədii yazıları, jurnalistik fəaliyyəti Türkiyə və Avropa ölkələrində böyük tədqiqat əsərlərinin mövzusu olmuşdur. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, bu əsərlər təkcə bizim geniş oxucu kütləsinə deyil, hətta elm aləmimizə də məlum deyildir. Onun təlim-tərbiyə metodunun Azərbaycanda açılmış, geniş yayılmış "Üsuli-cədid" məktəblərinə təsiri, yardımı, milli şüurumuzun oyanmasında mövqeyi, xüsusilə "Molla Nəsrəddin", "Dirilik" kimi məcmuələrlə əlaqəsi, Cəlil Məmmədquluzadə yaradıcılığını ərəb dünyasına yayması, həmçinin ailəvi yaxınlığı, münasibətləri haqqında xüsusi danışmaq lazımdır.

Geniş tədqiqatlar mövzusu olan İsmayıl bəy Qasprahnın bütün türkdilli xalqlar üçün əvəzsiz rolu vardır. Bu kiçik məqalədə yalnız biz ensiklopedik məlumata və geniş fəaliyyətə sahib olan şəxsiyyət haqqında bir neçə məlumat verməklə kifayətləndik. Qalanları isə tədqiqatçılarımızın, pedaqoqların, jurnalistlərin və başqalarının işidir.

Yuxarıda dediyimiz kimi Nəsib bəy Yusifbəylinin və Şəfiqə xanımın qızı, İsmayıl bəy Qasprahnın nəvəsi Zöhrə xanım Göygöl hazırda Türkiyədə yaşayır. Elə bil o, özündə doğma Gəncəni, Azərbaycanı yaşadır başdan ayağa. Soyadı - GÖYGÖL. Yaşadığı binanın adı - Gəncə apartman.

*Elm və həyat, 1991,№ 6, səh. 5-9*





## Vətənə dönən ümidlər

Bu dəfə Türkiyə səfərimdə Azərbaycan üçün əziz olan bir neçə qadın ilə tanış oldum. Bunlar xalqımıza unutdurulmağa çalışılmış Əlibəy Hüseynzadənin qızları Səidə və Fərəhəfza xanımlar, Əlimərdan bəy Topçubaşovla Həsən bəy Zərdabinin müştərək nəvəsi Zərifə xanım Kürdəmir, Əhməd Cəfəroğlunun qızı Nazan xanım, Nəsib bəy Yusifbəyovun qızı Zöhrə xanım Göygöl idi. Bu adların çoxu gəncliyə bir şey demir. Amma yaşlı nəsil bilir ki, vaxtilə bu alim, yazıçı və ictimai xadimlərin heç biri haqqında nəinki mətbuatda məlumat vermək, danışmaq, hətta onların adını da çəkmək olmazdı. Bu "xalq düşməni" adlandırılıb sürgün edilmək qorxusu idi.

İndi aşkarlıq, demokratiya imkan vermişdir ki, xalqımızın maarifi, oyanması, istiqlalına qovuşması uğrunda fədakar ədəbi-siyasi-ictimai xadim, alim Əlibəy Hüseynzadə, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Cümhuriyyətinin başçısı Nəsibbəy Yusifbəyovun, dünyanın bir çox akademiyalarının fəxri və həqiqi üzvü, uzun illər İstanbul universitetində kafedra müdiri, professor olmuş Əhməd Cəfəroğlu və başqalarının əsərləri toplanıb nəşrə hazırlanır, haqlarında məqalələr, kitablar, dissertasiyalar yazılır.

Onların, ata vətənini görməsə də, vətən həsrətilə qəlbi kövrək övladları özlərini qürbətdə hiss edir və Türkiyəyə ayaq basan hər bir həmvətəni doğma kimi qarşılayırlar. Bu qadınların hər biri haqqında ayrıca məqalə və oçerk yazmağa dəyər. Amma bu gün mən onlardan yalnız biri, daha doğrusu, bir ana-bala haqqında qısaca danışmaq istəyirəm.

Zöhrə xanım Göygöl. Hələ təxəllüsə - soy adına baxın! Baba yurdu qədim Gəncəni, onun əfsanəvi pəri-qızı - Göy gölü özünə soy adı seçmiş bu nazəndə xanım ata-anası haqqında elə həzin danışırdı ki!... Əlində olan ata arxivinin son yadigarlarını verdi: "Aparın, - dedi,- onlar burada qonaq idi, onların vətəndədir yeri".

Zöhrə xanım Göygöl şairədir, o ağır günlərimizdə, şəhidlərimizə yazdığı mərsiyə adlandırdığı xırdaca şeirini verdi. Anası Şəfiqə xanım haqqında, daha doğrusu, Şəfiqə xanımın vəfatı münasibətilə jurnalda nəşr olunmuş nekroloqu verdi. Aşağıda həmin nekroloqu nəzərinizə çatdırırıq. Kimdir Şəfiqə xanım? İyirmi beş ildən ziyadə "Tərcüman" qəzetini nəşr etdirməklə ümumdünya türkdilli xalqlara xidmət edən, tatarlar üçün o zamanki maarif nazirinin dililə desək, "üç yüz ildə Romanovların etmədiyi" xidməti göstərib; məktəblər, kitabxanalar, maarif ocaqları açan İsmayıl bəy Qaspralının qızı idi Şəfiqə xanım. Krım türklərindən idi, Bağçasarayda boya-başa çatmışdı. Maarifpərvər ziyalı tatar ailəsi Akçuralıların da qızından dünyaya gəlmişdi. Hər iki ziyalı ailə bir ziyalı övlad yetişdirmişdi ki, təkcə türk-tatarları deyil, Azəri türklərinə də böyük xidmətləri olmuşdu. Bu haqda məqalə-nekroloqda məlumat vardır.

Zöhrə xanım Göygöl anasının şəklilə bərabər atası Nəsib bəyin sevdiyi Şəfiqə xanıma gənclikdə yazdığı məhəbbət məktublarının da əslini verdi.

Şəfiqə xanım Qaspralı!.. Zöhrə xanım Göygöl!... Bu sətirlərdə vətənə dönməniz münasibətilə ananın ruhu şad olsun, balanın ürəyi təskinlik tapsın!

Hörmətli oxucular! Bu ilk tanışlıqdır. Tarix heç nəyi unutmur, nə zamansa həqiqət üzə çıxır, haqq yerini tapır.

## Ünlü bir türk qadını Şəfiqə Qaspralı (1886-1975) nekroloq

Görkəmli türk qadınlarında ən tanınmışlarından və böyük türk övladı və ögrətməni (müəllim) Qaspralı İsmayıl (Qasprinski) bəyin qızı olan Şəfiqə Qaspralı 31 avqust 1975 günü arxasında böyük bir boşluq və acı buraxaraq əbədiyyətə və haqqın rəhmətinə qovuşmuşdur. Şəfiqə xanım, ana cəhətindən, Kazan türklərinin tanınmış zəngin və millətsevər ailələrindən Akçora ailəsinə mənsubdur. Anasının adı Zöhrədir.



Şəfiqə xanım daha kiçik yaşdaykən, babasının (atasının), 1883-cü ildən bəri çıxardığı "Tərcüman" qəzetəsində öncə taşraya (xaricə) göndəriləcək abunələrin adreslərini yazmaqla işə başlamış. Hələ 16 yaşında bir ögrenci (şagird) ikən həftəlik "Aləmi-nisvan" (qadınlar aləmi) dərgisini yayınlamışdır.

1906-cı ilində ikən, daha sonra Azərbaycanın Milli Türk hökumətinin başbakanı olaraq tanınmış Yusif Nəsib bəylə evlənmiş. Fəqət sosial və kültürəl çalışmalarından vaz keçməmişdi. Şəfiqə xanımın bu evliliyindən biri qız, digəri erkək, iki cocuğu dünyaya gəlmişdir.

Şəfiqə Qaspralı 1917-ci ildə Krımda toplanan milli qurultayda millət vəkili və Divan üyesi (üzvü) olaraq çalışmış və millətinə xidmət etmişdir. Eyni ilin mayıs ayında Moskvada toplanan bütün Rusiya müsəlmanları birinci konqresinə Krımdan qatılan heyətə iştirak etmişdir. Konqresin yenetim üyeliginə seçilmişdir. Böylece o, dünya müsəlman qadınları arasında ilk siyasi həyata atılıb qarışan və bu yolda millətinə xidmət edən bəxtəvər müsəlman türk qadınlarından biridir.

Şəfiqə xanım, Kurultan hökumətinin təşəbbüsü ilə açılmış müəssisələrdən biri olan Akmesçit Darülmüəllimatına (Akmesçit Qız Ögretim Okulu) müdirə təyin edilmiş. Buna qızlarımızın yazılmaları üçün bizzat köyləri (kəndləri) dolaşaraq təşviq və təlqində bulunmuşdur. Bu suretlər, qadınlarımız arasında təəssübə qarşı ilk mücadiləyi açmış olanlardandır.

Şəfiqə xanım daha sonra Azərbaycanın başkenti (paytaxtı) Bakıya gəlmiş, orada ana okullarına (məktəblərinə) öyrətmən yetişdirmək üçün açılmış olan Öyrətmən Okuluna müdirə təyin edilmişdir. Azərbaycanın 1920 ilində Bolşeviklər tərəfindən işğalı üzərinə, Bakıda Türkiyə səfiri olan mərhum Memduh Şövkət Esendal, Şəfiqə xanımı türk əsirlərinə qataraq cocuqlarıyla birlikdə Türkiyəyə göndərmişdir...

İstanbula yerləşən Şəfiqə Qaspralı, əvvəla Darültam (yetimlər evi) müdirəsi, sonra Qızlar təşkilatında üye olaraq yıllarca çalışmış və millətinə sosial alanda hizmet etmişdir. Bu Yüce Türk Qadını varlığımızın ünlü bir anıtıdır (abidəsidir).

***Kadın dərgisi, 1975.***

* * *

*Rafat Çuvarlinski,*
*Həmid bəy Yusifbəylinin bacısı nəvəsi,*
*Xanlar Bayramov,*
*tədqiqatçı.*

## Həmid bəy Yusifbəyli

Anadan olmasının 130 illiyi

Dövrünün tanınmış şəxsiyyəti, xalqın tərəqqisi, müstəqillik, demokratiya yolunda fədai insan, Azərbaycan Xalq Cümhuriyyətinin Baş Naziri Nəsib bəy Yusifbəylinin böyük qardaşı Həmid bəy Yusifbəyli 1878-ci ildə Gəncə şəhərində maarifpərvər ziyalı ailəsində dünyaya göz açıb. Həmid bəyin ulu babası Yusif bəy Gəncə xanının vəziri olub. Yusif bəyin bacısı Şükufə xanım Cavad xanın həyat yoldaşı idi. 1780-ci ildən 1804-cü ilədək birgə həyat sürmüşlər. Yusifbəylilər həm də xan qızı Xurşudbanu Natəvanla qan qohumudurlar.

Xurşudbanunun anası Bədircahan Bəyim Gəncənin tanınmış xanı Cavad xanın nəvəsi idi.

Həmid bəyin ulu babası Usuf bəy Cavad xanın dəftərxanasında ilk məktəb açıb. Ömrü boyu çalışıb ki, həmvətənləri elmli, təhsilli olsunlar. Bu işin onların bütün nəslinə şəfəq saçıb.

Həmid bəy 1895-ci ildə Gəncədəki klassik gimnaziyanı bitirdikdən sonra 1898-ci ildə "Məktəbi-xeyriyyə"də müəllim işləmişdir. Həmin illərdə atası Yusif bəylə birlikdə siyasi fəaliyyətə başlamış, Azərbaycanın muxtariyyat statusu alması üçün mübarizə aparmışdır.

Həmid bəy hələ XIX əsrin sonunda 1898-ci ildə Gəncədə öz evində Puşkin kitabxanası yaratmış və həmin kitabxana 1899-cu ildə A.S.Puşkinin 100 illik yubileyi münasibəti ilə Gəncə Tatlar məscidinə köçürülmüşdü. Kitabxananın zənginləşməsində görkəmli ziyalılar Ə.Haqverdiyev, S.M.Qənizadə, K.M.Mehmandarov, Ş.A.Rüstəmbəyli, Ş.Ş.Şahmalıyev, Hacı Mirzə Rəfiyev, İ.L.Səyad, Y.İ.Sizenskaya və başqaları köməklik göstərmişlər. Qısa bir zamanda kitabların sayı 700-ü ötmüşdü. Oxucuların sayı 1203 nəfərə çatmış və onlardan 283 nəfəri azərbaycanlı olmuşdu. Burada demək olar ki, əksər rus klassiklərinin əsərləri toplanmışdı və bunların içərisində Karamzinin "Rus dövlətinin tarixi", Belinskinin, Dobrolyubovun, Uşinskinin, Piroqovun, F.Şillerin və başqalarının əsərləri var idi.[1]

Həmid bəyin yaşadığı evdə də 1950-ci ilə kimi çox dəyərli zəngin kitabxana vardı, orada 2000-dən artıq kitab qorunurdu. Bunların içərisində İsmayıl Mirzə Qasprinskinin rus dilinə tərcümə etdiyi Qurani-Kərim daha qiymətliydi. Həmid bəyin kiçik qardaşı Əyyub bəy Yusifbəyli və bacısı Dilşad xanımın uşaqları Gülnar xanım və Rasim bəy Xasməmmədovlar 1949-cu ildə Sibirdə sürgündə olduqda onlara kömək məqsədi ilə həmin kitablar Respublika Elmlər Akademiyasının Gəncə Elmi tədqiqat mərkəzinə satılmışdı. Yeri gəlmişkən Rasim bəy və Gülnar xanım Azərbaycan Xalq Cümhuriyyətini quranlardan biri Xəlil bəy Xasməmmədovun böyük qardaşı Nağı bəyin uşaqları idilər.

Həmid bəyin kitabxanasındakı bəzi kitabların azı iki yüz il tarixi var idi. Akademiyanın Gəncədə olan bazası ləğv ediləndən kitabların əksəriyyəti itib batdı. Az bir hissəsi, yəni 120-dən artıq nüsxə sonralar tapılıb Şahsevənlər məscidində yaradılmış "Xəzinə" adlı kitabxanaya verilmişdi.[2]

Həmid bəy 18 dekabr 1899-cu ildə fəaliyyətinə görə həbs edilərək Tiflis şəhərinə aparılmış və 1900-cü ilin yanvarından başlayaraq 14 ay Metex həbsxanasında, 1904-cü ilin dekabrınadək Türkistanda sürgündə olmuşdur.

---

[1] Gəncədə 1899-cu ildə yaradılmış A.S.Puşkin kitabxanası haqda faktlar Moskvadakı V.İ.Lenin adına kitabxanadan əldə olunmuşdur. "Kirovabadskiy Raboçiy"- 20 sentyabr 1980-ci il.

[2] Bu kitablardan uşaq vaxtı biz götürüb oxuyurduq. Mənim yaddaşımda bu kitabların bir neçəsinin giriş hissəsinin başında rusların dilindən bir epiqraf yazılmışdı: «Велика и обильна наша земля, только в ней порядка нет, приходите и княжите над нами» (Rafat Cuvarlı).

1905-ci ildə Gəncədə "Türk Sosial-Federalist inqilabı komitəsi" adı altında fəaliyyət göstərən bir təşkilat yaranmış, onun intibahnamələri çap olunub yayılmışdı. Bu təşkilat Azərbaycana muxtariyyət və Rusiyanın federativ şəkildə qurulması ideyalarını ortaya qoyan ilk siyasi qüvvə idi. Məhz bu komitənin əsasında "Qeyrət" təşkilatı yaranmışdı. Sənədlərdə "Tatar sosialistlər, federalistlər, inqilabçılar partiyası" adlanan təşkilatın rəhbərliyinə Ələkbər bəy Rəfibəyli, Ə.B.Xasməmmədov, Yusifbəy Yusifbəyli və Həmid bəy Yusifbəyli daxil idilər.

Bu partiyaya sədrlik etmək Həmid bəyə həvalə olunmuşdu.

"Qeyrət" partiyasının yaranmasından bir az sonra "Difai" Partiyası yarandı. Bu partiya xalq arasında qisas partiyası adlandırıldı. Ona görə ki, onların əsas məqsədi erməni vəhşiliklərinə və çar Rusiyasına qarşı mübarizə aparmaq idi. 1905-ci ilin qanlı noyabr günlərində rus əsgərləri, polislər, jandarmlar, dövlət məmurları şəhər əhalisininin kütləvi qırılmasını kənardan seyr edirdilər. Dinc əhalini vəhşicəsinə qıran ermənilər xalqın müdafiə dəstələri tərəfindən sıxışdırılan zaman rus əsgərləri, məmurları, polis və jandarm hər vasitə ilə ermənilərə kömək edir, onların müdafiəsinə qalxırdılar. "Difai" partiyasının rəhbərliyi ilə silah tuta bilən Gəncə camaatı və dağlardan enərək köməyə gələn qəhrəman Dəli Alının silahlı dəstələri Ələkbər bəy Rəfibəylinin rəhbərliyi ilə əhalini müdafiə edərək erməni quldurlarının hücumunu dəf edib, onları geri oturdurlar. Bir sözlə, "Difai" bir çox qırğınların qarşısını ala bilmişdi. Yeri gəlmişkən Həmid bəyin atası Yusif bəy başda olmaqla iki oğlu Həmid bəy və Nəsib bəy "Difai" partiyasının ən fəal üzvlərindən olmuşlar. Hətta bu partiyanın iki iclası Yusif bəyin Gəncədəki evində və biri Hacıkənddə "ləmşə bulağı"nın yanındakı malikanəsində keçirilmişdir. Ələkbər bəyin və Dəli Alının sayəsində Gəncə əhalisinə toxunan olmurdu. Ona görə ki, Dəli Alı evin dostu idi. Bu şəxslər çar hakimiyyəti dairələri tərəfindən dəfələrlə təqiblərə məruz qalsalar da öz mübarizələrindən əl çəkməmiş, əqidələrinə və milli ideyalarına sadiq qalmışlar. Bu isə Gəncənin Azərbaycan Milli hərəkatının mərkəzlərindən olduğunu bir daha sübut edir.



1907-ci ildə Həmid bəyin evində Çar Hökuməti orqanları tərəfindən axtarış aparılır və 24 ədəd kitab tapılaraq ona xəbərdarlıq edilir.

Həmid bəy 1908-ci ildən 1910-cu iləsək ruhani məktəblərində dərs deyib və orada da geniş təbliğat işləri aparıb. 1909-cu ildə o, ruhani məktəbində dərs deyən zaman Nağı bəy Şeyxzamanlının əmisi qızı Səriyyə xanımla ailə qurub və üstündən heç bir il keçmədən yenidən həbs olunub.

1910-cu ildə Qafqaz canişini Vorontsov - Daşkovun hökmü ilə Həmid bəy Qafqazdan 5 illik müddətinə Krıma Baxçasaraya sürgün edilmiş və orada bir müddət qardaşı Nəsib bəyin qayınatası İsmayıl Mirzə Qasprinskinin evində yaşadıqdan sonra İstanbula mühacirət etmişdir. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar II Nikolayın Manifestinə görə Həmid bəy əfv olunur və İstanbuldan doğma vətəninə qayıdır.

Həmid bəy İstanbuldan Gəncəyə qayıdandan sonra 1913-cü ildən 1917-ci iləsək daimi nəzarət altında saxlanılır. 1918-ci ildə Cümhuriyyət qurulandan sonra Həmid bəy siyasi fəaliyyətini dayandırır. 1915-ci ildə oğlu Ənvər bəy dünyaya göz açır. Onun taleyi də uğurlu olmur. Atasını 1920-ci illərdə DTK izlədiyinə görə həyəcan keçirir. Orta məktəbi bitirdikdən sonra soyadını məcburiyyət qarşısında dəyişərək, Yusifbəylidən "Yusibov" edir və 1933-cü ildə Tiflis Rabitə Elektrotexnika İnstitutuna daxil olur. Həmin institututu bitirdikdən sonra təqiblərlə üzləşməmək üçün Rusiyanın İrkutsk şəhərinə üz tutur. 1938-1939-cu illərdə orada böyük mühəndis vəzifəsində işləyir. 1939-1941-ci illərdə Ənvər bəy Tacikistanın Stalinabad şəhərində Rabitə idarəsində baş mühəndis vəzifəsində çalışmışdır. 1941-ci ildə Böyük Vətən müharibəsinə çağırılmış və orada diviziya ilə bərabər əsir düşmüşdür. 1945-ci ildə əsirlikdən sonra həbs edilmişdi. Ənvər bəy bu barədə öz xatirələrində yazır: "Mənə bir neçə ay işkəncələr verdilər və hətta ayaqüstü kabinaya yerləşdirib saatlarla başıma su damcıları buraxdılar. Sonra məni məhkəməyə aparıb 15 il iş kəsərək, Sibirə siyasi məhbus kimi həbsxanaya göndərdilər. 10 il gəncliyim orada keçdi, 1954-cü ildə (L. P.Beriya 1953-cü ilin

iyununda həbs edilmişdi – N.Q.) səhər saat 5-6 radələrində radio ilə eşitdik ki, Lavrenti Beriyanı həbs ediblər. Onun laqerin ortasında heykəli ucalırdı, dustaqlar həmin heykəli yıxmaq istədikdə vışkadan onları güllə-barana tutdular, bir sıra adamın meyidi yerdə qaldı. Üstündən bir neçə saat keçdikdən sonra Laqerin rəhbərliyi xəbər tutdu ki, həqiqətən də Beriyanı həbs ediblər."

Ənvər bəy 1956-cı ildə bəraət aldı, 1989-cu ildə vəfat etdi. Gəncə şəhərində Yusifbəylilər sərdabəsində dəfn edildi.

Həmid bəyin ən yaxın dostları Mirzə Məhəmməd Axundzadə, böyük şairimiz Əhməd Cavad və gözəl ziyalı Cavad bəy Rəfibəyli idi.

Ümumiyyətlə Əhməd Cavad Yusifbəylilər ailəsinə çox yaxın olmuşdur. Bu nəsildə onun əsas dostu Həmid bəy idi. Bu ailənin yaxın qohumu akademik Çingiz Çuvarlı xatırlayırdı ki, dayısı Həmid bəy Əhməd Cavadla kəl arabası ilə Göy-gölə getmişdi və həmin gün Əhməd Cavadın məşhur "Göy-göl" şeri yaranıb. Həmid bəy 1921-ci ildən 1930-cu ilədək Mirzə Fətəli Axundov adına Gəncə türk Pedaqoji texnikumunda dərs demişdir.

Yeri gəlmişkən qeyd edək ki, Həmid bəyin anası Cəmilə xanım Xanbudaqovlar nəslindəndir. Babası Böyük bəy Xanbudaqov 1840-cı illərdə Şəkidən Borsunlu kəndinə gəlmiş və orada məskunlaşmışdır. Onlar M.F.Axundovun anasının yaxın qohumları idilər. Həmid bəyin dayısı Usub bəy Xanbudaqov Qori seminariyasını bitirdikdən sonra Gürcüstanda yaşamış, 1910-cu illərdə o, Qafqazın Tiflisdəki sərdarı (canişini) Vorontsov-Daşkovun dəftərxanasının müdiri olub, 1918-ci ildə Gəncəyə qayıdıb. 1940-cı ildə vəfat edib. Həmid bəyin dayısı oğlu Əyyub Xanbudaqov 1920-ci illərdə Azərbaycan çekasının sədri olub. Sonralar o, Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi işləyib. Məhz buna görə də Həmid bəyə 1930-cu ilədək toxunulmayıb.

Respublikamızın gözəl ziyalılarından biri Cavad bəy Rəfibəyli XX əsrin əvvəlində Gəncə gimnaziyasını bitirdikdən sonra Kiyev universitetində oxumuşdur. 50-ci illərin axırlarında Gəncə 5 nömrəli şəhər məktəbində dərs deyib. Cavad bəy Rəfibəylinin xatirələrindən: "Mən, görkəmli akademik, fəxrimiz Çingiz Çu-



varlının kirvəsiyəm. Yusifbəylilər nəslində Həmid bəylə çox yaxın idim. O, olduqca savadlı və ensiklopedik biliyə malik bir insan idi. Bilmədiyimizi ondan soruşardıq. Həmid bəy Azərbaycan və rus ədəbiyyatını mükəmməl bilirdi. Gəncədə atası Yusif bəylə ilk kitab dükanı açmışdı. O, "Türkan" (Analıq) adlı bir pyes yazmışdı. Həmin dram əsəri Gəncə dram teatrının səhnəsində tamaşaya qoyulub uğur qazanmışdı. Əsər 1931-ci ildə Həmid bəyin evində yoxlanış aparan zaman DTK tərəfindən müsadirə edildi və sonradan əsərin taleyi barədə məlumat verən olmadı".

Həqiqətən 27 fevral 1931-ci ildə Azərbaycan Dövlət Siyasi İdarəsinin 5 nömrəli orderi ilə 28 fevral 1931-ci ildə dayısı Yusif bəy Xanbudaqovun iştirakı ilə Həmid bəyin evində axtarış aparılmış, heç bir şey tapılmadığına baxmayaraq, iki nəfər qonşusu üzünə durduğuna görə antisovet təbliğatı aparması bəhanəsi ilə həbs edilmişdir.

Həmid bəy yazılı izahatında ona qarşı sürülən iddianı rədd etmişdi. Bir il DTK-da saxlanıldıqdan sonra azadlığa buraxılır. Otuzuncu illərdə yüksək vəzifələrdə işləyən öz qohumu Məmməd Çuvarlinski dadına çatır. M.Çuvarlinskiyə görə bir müddət ona dəymirlər. 1932-ci ilin sentyabrında doğma şəhərdə Sənaye Politexnikumuna işə düzəlir və bununla bərabər Gəncədə 15 № li məktəbdə dərs deyir. Həmid bəyin dayısı oğlu Əyyub Xanbudaqov 1937-ci il oktyabr ayının 12-dən 13-ə keçən gecə dahi şairimiz Əhməd Cavadla bir gündə güllələnmişdir. Həmin gün onlarla bir yerdə qətl edilənlər sırasında keçmiş Xalq Maarif komissarı Məhəmməd Çuvarlinski də var idi. 16 iyul 1941-ci ildə Həmid bəy yenə də həbs edilir və "Antisovet əhvalı-ruhiyyəsinə" görə 5 il müddətinə Şimali Qazaxstana sürgün edilməsi barədə qərar çıxarılır. Buna baxmayaraq o, Bakıda həbsxanada saxlanılır. 11 fevral 1942-ci ildə SSRİ-nin Xalq Daxili İşlər Komissarlığının xüsusi iclasının qərarı ilə Həmid bəyin işinə xitam verilsə də onu həbsdən buraxmır və 1942-ci ilin yayında o, həbsxanada vəfat edir. Bütün arxiv sənədlərinə Həmid bəyi dindirən müstəntiqlərin hamısı erməni və ruslar olmuşdur.

(Dövlət Təhlükəsizlik Nazirliyinin arxiv materiallarından istifadə edilib).

* * *

*Sabir Gəncəli*

## Altı bacı – bir tale

Penza tatarı Mühəmmədcan Baişov heç təsəvvürünə belə gətirməzdi ki, onun altı qızının Eynülhəyatın, Umgülsümün, Şəmsi Qəmərin, Məryəmin, Güləndamın və Zeynəbin taleyi Azərbaycanla və Orta Asiya ilə bağlı olacaq. Xırda ticarətçi Mühəmmədcan özü təhsil görməsə də, maarif və mədəniyyətə meyl edən açıq fikirli bir adam idi. O, qızlarını gimnaziyada oxutdurmuş, onları dövrünün tərəqqipərvər ziyalıları sırasına çıxarmışdı.

**Eynülhəyat** xanım 1905-ci ildə gimnaziyanı qızıl medalla bitirib Peterburq Ali Qadın Kursunda oxumuş ilk ali təhsilli riyaziyyatçı müsəlman qızı idi. O, Pulkovo rəsədxanasında işə başlayacaqdı. Atası qızının bu müvəffəqiyyətindən sevindiyi üçün qurban kəsəndə barmağını yaralamışdı. Qanı kəsmək üçün üstünə hörümçək toru basmış və bunun nəticəsində ağır yoluxmadan ölmüşdü. Atasının vaxtsız vəfatı Eynülhəyatın arzusuna mane olmuşdur.

Sonra tale Eynülhəyat xanımı Azərbaycanın ziyalılarından Nəsib bəy Usubbəycvla qovuşdurmuşdur. Azərbaycan Demokratik Cümhuriyyəti qurulanda ailə Bakıya köçmüş, Eynülhəyat xanım maarif işində çalışmış, ilk milli qız gimnaziyasında dərs demiş, maarif nazirliyinin inspektoru olmuşdur.

1920-ci ilin baharında Nəsib bəyin öldürülməsi bu ailənin ocağını söndürdü. Onun birinci nigahdan olan həyat yoldaşı Şəfiqə xanım iki uşağı ilə Türkiyəyə qaçdı. Eynülhəyat xanım bir uşağı ilə Bakıda qaldı. Həmin faciəli günü Azərbaycanın ilk heykəltaraş qadını Zivər xanım Məmmədova xatırlayaraq deyirdi: "Həmin tuthatut, qaça-qaç günlərində Eynülhəyat xanım bizdə



idi. Deyilənə görə bir matros gəlib onu axtarırmış. Bunu Eynülhəyat xanıma dedik. O, çox qətiyyətli, qorxmaz bir qadın idi. Səhərisi özü siyasi şöbəyə gedib demişdi: "Siz məni axtarırsınız? Buyurun, bu mən. Mənim ərim ölüb. Öz maarifçilik işimi davam etdirirəm, xalqın balalarına savad öyrədir, bilik verirəm. Sizə daha nə lazımdır?! Heç yana getmək fikrim də yoxdur. Burada qalıb işləyəcəyəm!..."

Eynülhəyat xanım dediyi kimi də etmiş, Bakı Dövlət Universitetinin nəzdində ilk fəhlə fakültəsi yaratmış, uzun illər riyaziyyatdan dərs demiş, dosent kimi pedaqoji və elmi iş aparmışdır.

Ürəyi maarif, mədəniyyət şövqi ilə coşub çağlayan bu tərəqqipərvər qadının həyatı enişli-yoxuşlu, iztirablı keçmişdir. Ərini itirəndən sonra bircə qızı Bəhriyyəni də fələk ona çox görmüşdü. Daim təqib, etimadsızlıq şəraitində yaşamış, yurdundan-yuvasından didərgin düşmüşdü. 1937-ci ilin təlatümlü günlərində o, canını götürüb Daşkəndə - Zeynəb bacısının yanına qaçmış, burada maliyyə-iqtisadiyyat institutunda müəllim işləmişdi. Ancaq Bakı həsrəti ona dinclik vermirdi. O, 1944-cü ildə birtəhər nəzərlərdən yayınaraq Bakıya qayıdıb Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda öz nəcib işini davam etdirmişdi. Lakin çox keçməmiş o, yenə təqibə məruz qalmış, 1949-cu ildə işdən qovulmuş, Moskvaya qaçmış, sonra Tatarıstanın Mamadış şəhərinə getmiş, buradan da yenə Daşkəndə pənah aparmışdı. Bu üzüntülü yollar səhhətini pozmuşsa da, onun yaşamaq, həyat eşqi tükənməmişdi.

1952-ci ildə yenidən Bakıya dönmüş, cəmi üç il sonra burada keşməkeşli həyatı ilə əbədi vidalaşmışdı.

**Ümgülsüm** Kazanda təhsil almış, məşhur həkim professor Fatix Muxammedyarov ilə ailə qurmuşdur. Əri Orta Asiyada basmaçılara qarşı mübarizədə iştirak etmiş, Kazana qayıtdıqdan sonra Tatarıstanın ilk səhiyyə naziri olmuşdur.

**Şəmsi Qəmər**. Azərbaycanın maarifpərvər qadınlarının cərgəsinə qoşulmuş bu qadının da taleyi keşməkeşli olmuşdur. Onun qızı Validə xanımla söhbət edirəm. O, anası və xalaları haqqında kövrələrək danışır: Anam haqqında o dövrün ziyalıları deyirdilər: Şəmsi Qəmər canlı, yeriyən ensiklopediyadır. O, mü-

kəmməl təhsil almış, Şərq və Avropa mədəniyyəti haqqında geniş təsəvvürə malik idi. Anam ilk pedaqoji fəaliyyətinə Gəncədə başlamışdır. Yadımdadır, deyirdi ki, onun Gəncəyə gəlişini eşidən Xədicə xanım Ağayeva əri Həsənbəylə fayton tutub anamı qarşılamaq üçün dəmiryolu vağzalına getmişdilər. Anam Xədicə xanımın müdir olduğu Adıgözəlov adına Gəncə şəhər qız məktəbində riyaziyyat müəllimi işləmişdir. O, öz bacılarını başına yığıb Gəncənin mədəni həyatında fəal iştirak etmişdi. Güləndam xalam da Gəncədəki "Müqəddəs Nina" qız məktəbini bitirmişdi. O, ali təhsil almaq üçün Kazana getmişdi. 1914-cü ildə nənəm Penzadakı mülkünü satıb Kazana köçmüşdü. Ona görə də anam Kazana getdi. Tale burada onu mədrəsə müəllimi Mirzə Zahidlə qovuşdurdu. Ailəmiz 1930-cu ilədək İrbiti şəhərində yaşadı. Lakin atamı din xadimi olduğu üçün təqib edirdilər. Ona görə biz baş götürüb Daşkəndə qaçdıq. Anam ixtisasını dəyişməli oldu. Tibb bacısı işlədi. Atam çox hazırlıqlı, oxumuş bir adam idi. Ərəb və türk dillərini yaxşı bilirdi. Ona görə də özbək dilində dərs demək ona çətinlik törətmirdi.

Atam 1942-ci, anam isə 1945-ci ildə Daşkənddə ömürlərini başa vurdular. Bakıda yaşayan Güləndam xalam yazdı ki, köç yanımıza gəl. Mənim də taleyim və həyatım o vaxtdan bu şəhərlə bağlandı. Bu zaman xalam Bakının tanınmış təbabət professorlarından idi. O, 1942-ci ildə Bakıya gəlmiş, Sabunçu xəstəxanasında həkim işləmiş, elmi-tədqiqat işi aparmış, uzun müddət Azərbaycan Dövlət Tibb İnstitutunda dərs demişdir.

**Güləndam Baişova-Zeynalova.** Azərbaycanda tibb elminin inkşafında görkəmli xidmətlərinə görə əməkdar həkim, səhiyyə əlaçısı və respublikanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Məryəm də, Zeynəb də bacıları kimi xalqa görkəmli ömür sürmüş, bir həkim və tibb bacısı kimi çalışmışlar.

İndi Baişovların nəsli Bakıda və ölkənin müxtəlif guşələrində qol-budaq atmışlar. Onlar maarifpərvər nənələrinin ənənələrini bu gün də yaşadır, bir həkim, müəllim, alim, memar, ictimai xadim kimi mədəni həyatın müxtəlif sahələrində çalışırlar. Bunun



bir nümunəsi Validə xanımın ailəsidir. Validə xanım Bakıda sənaye institutunda ali təhsil almış, mütəxəssis olmuş, sevib-sevilmiş, beynəlmiləlçi şəhərimizin bir guşəsində özünə isti ocaq düzəltmiş, səadətini də azərbaycanlı gəncin məhəbbətində tapmışdı. Onun Azərbaycanın görkəmli kimya mütəxəssisi, dövlət mükafatı laureatı, respublikanın neft emalı naziri Məmmədağa Məmmədovla qurduğu xoşbəxt ailəsində üç oğul dünyaya göz açmış, böyümüş, Azərbaycanın ali təhsilli, vətənpərvər ürəkli ziyalı övladları olmuşlar.

Validə xanım özü də ictimai həyatda görkəmli mövqe tutmuş, elmlər namizədi alimlik dərəcəsi almış, uzun illər neft-kimya sənayemizin inkişafı işində çalışmışdır.

Ana yurdumuzu özünə vətən seçmiş hər bir millətin övladı bu torpaqda beləcə hörmət-izzət görmüş, qəlbi geniş, süfrəsi açıq Azərbaycan xalqına qaynayıb-qarışmış, özünü onun övladı sanmışdı.

***"Azərbaycan qadını", 1991, № 11-12.- səh. 26-27***

* * *

*N.Qəhrəmanlı*

## Azərbaycanın böyük dostu

Keçən əsrin sonunda Rusiyanın mədəni mühitində yetişmiş, maarif və tərəqqi yolunda böyük qüvvə və əmək sərf etmiş ziyalılardan biri İsmayıl bəy Qasprinskidir (Qaspralıdır).

İ. Qasprinski 1851-ci ildə Krımın Ağməsçid (indi Simferepol) yaxınlığında Avcı köyündə doğulmuşdur. Milliyyətcə Krım tatarıdır. Atası Mustafa Yalta həndəvərindəki Qaspra kəndindən olduğu üçün İsmayıl da bu familiya və təxəllüsü götürmüşdür. 1854-cü ildə onlar Ağməsçidə köçmüş, orada yaşamışlar. Gənc İsmayıl orada ilk təhsilini tamamlamış, Voronej və Moskvada hərbi təhsil almışdır.

O, Krımda bir müddət mədrəsədə dərs demiş, rus dili müəllimi işləmişdir. 1871-1874-cü illərdə Fransada yaşamış burada təhsilini davam etdirmiş, bir çox görkəmli şəxslərlə, o cümlədən İ.S.Turgenevlə tanış olmuşdur. "Avropa mədəniyyətinə bir nəzəri-müvazinə" əsəri Parisdə yaşanılmış təəssüratlar əsasında yazılmışdır.

Sonralar "Tavrida" qəzetində onun "Rusiya müsəlmanları" silsiləsindən yazıları çap edildi.

İ. Qasprinski müxtəlif mövzularda məqalə və kitablar yazmışdır. Bunların bir qismi dərs kitablarıdır. Məsələn, "Qiraəti-türki" 1893-cü ildə Baxçasarayda çap edilmişdi. Bu kitab ziyalının öz adı ilə bağlı olan "üsuli-cədid" məktəbləri üçün dərs vəsaiti kimi nəzərdə tutulmuşdu. Bundan başqa onun mətbəəsində hesab və coğrafiya kitabları da çap edilmişdir. Bu mətbəə uzun müddət Azərbaycan məktəblərini də dərsliklə təmin etmişdi.

Xatırladaq ki, "üsuli-cədid" məktəbləri Rusiyanın bir çox yerlərində, o cümlədən Azərbaycanda da açılmışdı. 1903-cü ildə bütün Rusiyada belə məktəblərin sayı 5 minə çatmışdı. Ümumən, "üsuli-cədid" məktəblərinin Rusiyada müsəlman xalqlarının maariflənməsi işində mühüm rolu olmuşdur. Doğrudur, bu məktəblər bəzən adi mollaxanadan heç nə ilə fərqlənmirdi və buna görə də haqlı olaraq tənqid olunurdu. (M.Ə.Sabirin şeiri buna misal ola bilər).

Bir jurnalist və qələm sahibi kimi İ.Qasprinskinin xidmətləri çoxdur. Onun nəşr etdiyi "Tərcüman" qəzetinin təkcə Krımda deyil, Zaqafqaziyada, Volqaboyunda, Orta Asiyada həmçinin Yaxın və Orta Şərq ölkələrində abunəçiləri vardı.

"Tərcüman", "Əkinçi" bağlandıqdan 6 il sonra, 1883-cü ildə nəşrə başlamış, öz sələfinin ənənəsini davam etdirmiş, ən uzunömürlü qəzetlərdən biri olmuşdur. İsmayıl bəyin vəfatında sonra qəzetin nəşrini oğlu Refat davam etdirmişdir ("Millət" adı ilə).

"Tərcüman"da Azərbaycandakı vəziyyətə aid yazılar da verilirdi. Bir çox halda qəzet "Molla Nəsrəddin" jurnalından yazı və karikaturaları götürüb olduğu kimi çap edirdi: "Molla Nəsrəddin" çıxmağa başlarkən onu ilk təbrik edən qəzetlərdən biri "Tərcüman" olmuşdur. Həmin qəzetin 1907-ci fevral nömrələrindən birində deyilirdi: "Həcviyyata dair dörd məcmuəmiz arasında "Molla Nəsrəddin" birincilikdə davam edir... ...daha çox keçməz "Molla Nəsrəddin"in qədrü-qiyməti məlum olar. Düşmən gülüşü ağırdır. "Molla Nəsrəddin" düşmən deyil, milli dost və müəllimdir; bunun gülüşünə dözmək lazımdır. Çünki şər üçün deyil, xeyir üçün gülməkdədir".



İ.Qasprinski Azərbaycanın bir çox görkəmli ziyalıları ilə, o cümlədən, H.Zərdabi, F.Köçərli, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə və b. ilə yaxın əlaqə saxlayırdı.

Hələ 1906-cı ildə Firudin bəy Köçərli özünün "Azərbaycan dövri mətbuatının qısa icmalı" məqaləsində yazırdı: "Hazırda "Tərcüman" həftədə üç dəfə çıxır. Onun məzmunu xeyli yaxşılaşmış və dili Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Belə ki, indi qəzet az-çox savadı olan azərbaycanlılar tərəfindən asanlıqla oxunur. Ədalət tələb edir ki, "Tərtcüman"ın redaktoru cənab Qasprinskinin xidməti xüsusilə qeyd edilsin, həyatının ağır şəraitdə keçməsinə baxmayaraq o, 25 il ərzində rus müsəlmanlarının maariflənməsi sahəsində qızğın enerji ilə işləmiş və indi də işləməkdədir".

Belə bir qiymət qəzetə təsadüfi verilməmişdi.

İsmayıl bəy Azərbaycanda gedən siyasi-mədəni prosesləri diqqətlə izləyir, yeri gəldikdə öz qəzetində bu proseslərə qiymət verir, təqdir və ya tənqid edirdi. Qəzet Azərbaycan mətbuatına geniş reaksiya verir, mübahisəyə, tənqidi polemikaya xüsusi yer ayırırdı.

"Tərcüman"la "Molla Nəsrəddin"nin əlaqələri geniş mövzudur.

Qəzetin 1908-ci il 28 dekabr tarixli nömrəsində "Mola Nəsrəddin" haqqında deyilir: "...məzah qəzetələri arasında "Molla Nəsrəddin" gözəl bir mövqe tutmuşdur. Dişləyir yazır, hədəfə vurub yazır".

Hələ bir qədər əvvəl, "Molla Nəsrəddin" nəşrə başlayarkən onu ilk təbrik edənlərdən biri də İsmayıl bəy olmuşdur. "Tərcü-

man" özünün 1906-cı il 39-cu nömrəsində "Molla Nəsrəddin"ə uğurlar arzulayırdı.

"Tərcüman" qəzetinin dili türklər və tatarlar, başqırdlar və özbəklər üçün anlaşıqlı idi. Ərəb əlifbasının bu baxımdan imkanları böyükdür. İ.Qasprinski türk ləhcələrinin sadələşdirmək, ortaq türk ədəbi dili yaratmaq, "dildə, fikirdə, işdə birlik" tələb edirdi. Onun siyasi idealları əlçatmaz görünsə də maarifçilik fəaliyyəti çox geniş və səmərəli xarakter daşıyırdı.

İsmayıl bəy Qasprinski geniş biliyə, yüksək savada və mədəniyyətə malik ziyalı kimi şöhrətlənmişdi. O, ərəb, fars, rus və bir çox türk dillərini bilir, danışır və yazırdı. Bir çox ölkələri gəzmiş, Misirdə, Hindistanda, Türkiyədə olmuşdu.

O, Azərbaycan ziyalılarının böyük dostu idi. Qızı Şəfiqə xanım Nəsib bəy Yusifbəyliyə ərə getmişdi. Dəfələrlə Bakıya gəlmiş, bir sıra ziyalılarla məktublaşmışdı. Lakin onun Məhəmmədağa Şaxtaxtlı, Əhməd Ağaoğlu ilə əlifba və imla məsələləri ilə əlaqədar mübahisələri də olub.

İsmayıl bəyin Mirzə Cəlilə yazdığı bir məktub diqqəti cəlb edir. 29 dekabr 1907-ci il tarixli həmin məktubda müəllif Qahirədə çıxardığı qəzet üçün «Molla Nəsrəddin»dəki bəzi illüstrasiya və tənqidi materialların çapına icazə istəyir və niyyətini belə əsaslandırırdı ki, "...bütün en dairələrində müsəlmanlar kəskin və əyani nəsihətə-tənqidə möhtacdırlar".

Azərbaycanda yeni əlifba komitəsinin üzvlərindən biri tədqiqatçı alim olan Xalid Səid Xocayev "Əski əlifba yollarında" kitabında xatırlayır ki, S.Ağamalıoğlu, C.Məmmədquluzadə, V.Xulufludan ibarət heyət 1924-cü ildə Krımda olarkən, "Tərcüman" mətbəəsini və İ.Qasprinskinin evini ziyarət etmişlər.

"Tərcüman" N.Nərimanovun fəaliyyətini xüsusilə diqqətlə izləmiş, onun özü, xeyriyyə fəaliyyəti və əsərlərinin tamaşası haqqında məlumat və rəylər çap etmişdir. N.Nərimanovun bəzi məqalə və yazıları da bu qəzetdə çap olunmuşdu. Hələ 1903-cü ildə Krımda olmuş bir qrup tələbənin içində N.Nərimanov da var idi. O, H.Z.Tağıyevə göndərdiyi məktubunda yazırdı: "Yalnız "Tərcüman" qəzeti ilə İsmayıl bəy Qasprinskinin millətə olan



hörmətlərini bilmək olmaz. Gərəkdir Baxçasaraya gedib düşünəsiniz ki, bu qeyrətli müsəlman kiçik və çirkli Baxçasarayda əyləşib nə işlər edir və millətə nə xidmət göstərir..."

Azərbaycan ədəbiyyatşünaslığında İsmayıl bəyi "tipik burjua millətçisi", panislamist və pantürkist, padşahpərəst, dini itaətkarlıq tərəfdarı və s. kimi qələmə vermək halları da olmuşdur.

Krımda müsəlman qadınları üçün ilk məktəbi İsmayıl Qasprinskinin bacısı açmışdı. Qasprinskilər həm də xeyriyyə işi ilə də tanınmışlar.

Görkəmli jurnalist, pedaqoq, yazıçı və maarifçi olan İsmayıl bəy Qasprinski 1914-cü il sentyabrın 10-da vəfat etmişdir. Onun ölümü Azərbaycanda böyük təəssüf və kədər doğurmuş, Hüseyn Cavid, Əhməd Cavad, Əlipaşa Səbur və b. şairlər onun ölümünə şer həsr etmişdilər.

29-30-cu illərdə tatar xalqının, taleyini Azərbaycanla bağlamış simalar çox olub: Bəkir Çobanzadə, Əziz Übeydillin, Zinnət Zakirov və b. Lakin bunların önündə İsmayıl bəy Qasprinski, Abdulla Tükay kimi maarif mücahidləri getmişlər. Onlar müntəzəm olaraq Azərbaycan ictimai fikri və mədəniyyəti ilə ünsiyyətdə olmuş, faydalanmış və fayda vermişlər.

Qasprinskinin həyat və fəaliyyəti bu qarşılıqlı faydalı ünsiyyətə bariz nümunə idi.

*"Dünyaya qapı" qəzeti, 1990, dekabr, № 2.*

* * *

*N.Qəhrəmanlı*

## "Tərcüman" qəzeti və Azərbaycan

Rusiya türklərini və müsəlmanlarını 31 il (1883-1914) maarif, mədəniyyət və tərəqqi işığı ilə təmin etmiş "Tərcüman" qəzetinin Azərbaycan gerçəkliyi ilə geniş və üzvi bağlılığı olmuşdur. Bu qəzet Azərbaycanın Bakı, Gəncə, Şuşa, Quba, Şəki, Naxçıvan və b. şəhərlərindən müntəzəm reportajlar vermiş, müxbir mək-

tubları çap etmiş, Azərbaycan mədəniyyətini, xüsusən ədəbiyyatını, teatrını, məktəb və mədrəsələrin işini, mətbuat və kitab çapını, qiraətxana və kitabxanaların fəaliyyətini işıqlandırmışdır. Azərbaycanda baş verən tarixi hadisələr, erməni-azərbaycanlı münaqişəsi, ticarət və sənayedə yeniliklər, xeyriyyəçilik, Bakının qonaqları, dumaya seçkilər, inqilabi və milli hərəkat, xüsusən İranda Səttarxan hərəkatı və s. qəzetin müntəzəm işıqlandırdığı mövzulardan olmuşdur.

Erməni-azərbaycanlı münaqişəsini müntəzəm işıqlandıran qəzet, münaqişəni müntəzəm işləmiş, ayrı-ayrı erməni fitnəkarlıqları, müsəlmanlara qarşı törədilən qırğınlar, Tiflisdəki sülh danışıqları və s. haqqında müntəzəm materiallar çap etmişdir. Hələ qırğın başlamazdan xeyli əvvəl "Tərcüman" erməni fitnələri haqqında məlumat yayırdı. Qəzetin 16 yanvar 1904-cü il tarixli sayında Gəncədən (Yelizavetpol) xəbər verilir ki, yanvarın 4-də Sisianov küçəsində minə yaxın adam əlbəyaxa döyüşün iştirakçısı olmuşdur. Motivi belə izah olunur: On yaşlı Camal Kərbəlayı oğlu bazarda satmaq üçün 6 toyuq aparmışdır. Manvel Babacanyan adlı bir ermənininin dükanının yanından keçərkən dükan sahibi Camalı saxlamış, biri 3 manatdan razılığa gəlmiş, lakin toyuqları alaraq pullarını verməmişdir. Oğlan pulunu tələb etdikdə Manvel demişdi ki, toyuqlar oğurluqdur və Camalı döymüşdür. Dava da məhz bu səbəbdən düşübmüş.

"Tərcüman" həmin il 10 sentyabr nömrəsində türklərin "vəhşiliyini və barbarlığını" sübut üçün ermənilərin saxta illüstrasiyalar və fotoşəkillər düzəltdiyinə diqqəti cəlb edirdi. "Tərcüman" həmin nömrəsində yazırdı ki, bu günlərdə xaricdə təşviqat məqsədilə erməni intibahnaməsi çap edilmişdir. Burada Türkiyə ilə yanaşı Rusiya da ittiham olunur. İntibahnamədə rus kazakları tərəfindən mühasirəyə alınmış, ölü və soyundurulmuş ermənilərin saxta şəkilləri verilmişdir. Mətn də biabırçıdır. Fotoşəklin saxtalığı ondan bilinir ki, iki mürəkkəb neqativ müxtəlif planlarda çəkilmiş, rusların sayı da ermənilərin sayından 3 dəfə çoxdur. Əgər fotoşəkildə saxtalıq bu qədər aşkar olmasaydı Avropada bu fotoya sənəd kimi inanardılar.



"Tərcüman" 1 mart 1906-cı il tarixli nömrəsində "Erməni-müsəlman sülh məclisi" yazı dərc etmiş, yazıda hər iki tərəfin mövqeyinə yığcam şərh vermişdi. Məlumatdan bəlli olur ki, məclisi qafqaz canişini İ.İ.Vorontsov-Daşkov və general Malberte aparmış, erməni tərəfindən Artyonov, Xatısov və b. Azərbaycan tərəfindən Əhməd bəy Ağayev, İbrahim ağa Vəkilov, Məhəmməd ağa Şaxtaxtinski, Ə.Topçubaşov çıxış etmişdilər. Qəzetdə canişinin çıxışı bütünlüklə verilmişdir. Erməni vəkili Artyonov qeyd etmişdi ki, "iğtişaşların səbəbi burada çətin aşkar olunsun. O deyirdi ki, bu münaqişə "yalnız erməni qriqoryanlarla şiyə müsəlmanlar arasında olan bir münaqişədir."

Azərbaycan tərəfi bu təxribatçı fikri rədd etmiş və əsas səbəb kimi "Daşnaksütyun" firqəsinin dağıdıcı və terrorçu fəaliyyətini göstərmişdi.

Qəzetdə Şuşadan, Tiflisdən, Qazaxdan, Gəncədən bu mövzuda bir çox materiallar, həmçinin Nəsib bəy Yusifbəylinin "Qafqaziyada erməni-müsəlman hadisatının nəticəsi" adlı məqaləsi dərc olunmuşdu. Başqa bir yazıda qəzetin işlər müdiri Həsən Səbri Ayvazov Peterburqdan qayıtdığı zaman iki erməni ilə tanış olduğunu, bunların fitnəkarlıqla məşğul olaraq birinin özünü Krım xanları nəslindən, digərinin qafqaz müsəlman knyazlarının nümayəndəsi kimi qələmə verdiyini qeyd edərək onları layiqincə ifşa etmişdi. Bu saxta əsilzadələrin, əslində daşnak ermənilərin dediklərinə diqqət edin: "Hökumət bizə rüsxət deyil, istiqlaliyyət verməgə borcludur... Həm Qafqaza, həm Krıma avtonomiya istəməyə gediyoruz. Şayəd hökumət rədd edərsə hökumətə qarşı üsyan edib elani-hərb edəcəyiz. Biz Rusiyada otuz milyon müsəlmanız, Rusiya hökumətindən zərrə qədər qorxmuyoruz" (Tərcüman, 1906, 4 mart, № 22).

"Tərcüman"ın naşiri və baş redaktoru İsmayıl bəy Qasprinski Azərbaycan ədəbiyyatına və mədəniyyətinə dərindən bələd idi. Onun "Ağ gül dəstəsi..." adlı silsilə məqalələrində Azərbaycan şair və ədibləri haqqında maraqlı mülahizələr vardır. O, hələ Tiflisdən Mirzə Fətəli Axundzadə, Ünsizadə qardaşlarını, A.Çernyayevskini və başqalarını tanıyırdı. Onun Həsən bəy Zərdabi, Əli

bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə və b. ilə yazışmaları və təmasları var idi. O, nəinki Azərbaycan ədəbiyyatı tarixi haqqında çıxmış kitablara, xüsusən M.Y.Nersesovun və A.Berjenin toplularına, həmçinin Hüseyn əfəndi Qayıbovun o vaxt hələ çap olunmayan Azərbaycan şairlərinin şeir toplusuna da bələd idi.

Qəzetin 1998-ci il 14 fevral nömrəsində H.Ə.Qaibovun 40 illik fəaliyyətindən böyük məhəbbətlə bəhs olunurdu: "Yanvarın 31-də Zaqafqaz müflisi Hüseyn əfəndi Qayıbovun 40 illik əmək fəaliyəti tamam olub. Bir insan ki, nadir xeyirxahlığa, yüksək mənəviyyata malik şəxsiyyətdir. Allah ona ömür versin!"

İ.Qasprinski Vaqif və Seyid Əzim Şirvaninin şeirlərini "Tərcüman"da çap etdirmiş, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Əbdüssəlam Axundzadə haqqında oçerklər yazmışdır. İsmayıl bəyin "Azərbaycan şeir türküsü", "Qafqaz ardı və Azərbaycan tatarları", "On sənəlik tərəqqi" və s. məqalələrində Azərbaycana olan böyük məhəbbəti görünməkdədir.

"Tərcüman" qəzetində S.M.Qənizadənin "Səyyar tatar əlifbası" dərsliyi (1897) və s. əsərləri müntəzəm reklam olunurdu. S.M.Qənizadə İ. Qasprinskini Orta Asiya səfərində müşaiyət etmiş, üsuli-cədid dərslərindən nümunələr göstərmişdi. İ.Qasprinskinin S.Vəlibəyov, F.Köçərli, Ə.Axundzadə və b. görkəmli müəllim və ziyalılar ilə görüşləri də xüsusi əhəmiyyətə malikdir. F.Köçərli "Tərcüman" səhifələrində dəyərli yazılarla çıxış etmiş, məqalə və kitablarında "Tərcüman"dan və onun yaradıcısı İ.Qasprinskidən böyük hərarətlə bəhs etmişdir.

Sokratın "Təlimi Sokrat" kitabı ilk dəfə F.Köçərlinin tərcüməsində "Tərcüman" nəşriyyatında işıq üzü görmüşdü (1891).

"Tərcüman"ın azərbaycanlı müxbirləri arasında A.Surun, N.Yusifbəylinin, Ö.F.Nemanzadənin və b. ziyalıların adları vardır. Həm məhsuldarlıq, həm də mövzu-problem baxımından Nəsib bəy Yusifbəyli bu sırada birinci yeri tutur. İsmayıl bəy Qasprinskinin kürəkəni və tez bir zamanda yaxın əqidə silahdaşı kimi formalaşmış Nəsib bəyin "Tərcüman"da çalışdığı 4 il (1906-1910) və eləcə də ondan sonra da qəzetdə onlarla məqaləsi çap olunmuşdur. Bunların arasında mətbuat icmalları, çarizm əleyhinə yazılmış problem məqalələr, milli mövzuda araşdırmalar, ədəbi-mədəni xarakterli yazılar vardır.



N.Yusifbəyli öz məqalələrini açıq deyil, N.Y. imzası ilə imzalayırdı. Lakin fikrimizcə onun burada başqa imza ilə və həmçinin imzasız təqdim olunmuş məqalələri də az deyil.

Nəsib bəyin mətbuat haqqında yazıları, xüsusilə tatar mətbuatına yazdığı icmallar türk-tatar mətbuatının tarixini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Bu icmallarda "Vəqt", "Ülfət", "Fikir", "Yulduz" və s. qəzetlərin icmalı verilmiş, siyasi, iqtisadi, dini, hərbi, mədəni və s. məqamlara xüsusi diqqət yetirilmişdir. Müəllifin "Əhvali-siyasiyyə", "Yeni heyəti-vükəla", "Torpaq və müxalifət", "Əhvali-İrana dair", Nijnidə "İctimai müslimin və "Novoye Vremya"ya və s. yazılarında da ictimai fikri maraqlandıran bir çox mətləblərə toxunulur, həmin dövrdə xüsusilə geniş tənqid olunan çatışmazlıqlara kəskin münasibət bildirilirdi.

"Tərcüman" qəzetində istər ümmətçiliyə, istər millətçilik və türkçülüyə xüsusi fikir verilir, bu məsələlər geniş işıqlandırılırdı. Təsadüfi deyil ki, qəzetdə təkcə Rusiya müsəlmanları haqqında deyil. Polşa, Çin müsəlmanları haqqında da məqalələr verilmişdi. "Tərcüman" A.Surun "Çin müsəlmanları" yazısını "İrşad" qəzetindən götürərək çap etmişdi. Burada Misirdə çıxan "Türk" qəzetindən türklər haqqında materiallar alınaraq çap edilirdi.

Qəzetin "Türk" qəzetindən götürülüb çap etdiyi bir məqalədə türk xalqlarının tarixinin elm olaraq diqqətə və öyrənilməyə layiq olduğu, ümumiyyətlə türklərin 30 əsrdir ki, mövcud olduğu, Asiya və Şimali Afrika səltənətlərinin böyük qisminin türklər tərəfindən yaradıldığı qeyd olunur. Məqalədə deyilirdi: "Türk aləmi dünyanın ən nizamçı bir aləmidir ki, bütün Asiya dövlətlərinə, Afrikanın şimalına məlum və hakim ola gəlmişdir. Müharibələrdən, qarışıqlıqdan heç bir vaxt xali qalmamış, dəfə-dəfə yıxılıb yenə qalxmış, bu aləm xidməti Mədinədə dəxi bulunmuşdur ki, Monqolustandakı Arxun yazıları uyğurların "Qutadqu bilik"ləri,

yəni xeyirli bilgiləri Əli Quşçu və Uluq bəylərin elmi-heyətə (astronomiyaya - N.Q.) xidmətləri ilə qarışıb Əlişir Nəvai, Təftəzani, Fərabi və əmsallarının vücudu ilə daha da irəliyə sürülmüşdür. ("Tərcüman", 1903, 13 yanvar).

Qədim Rus dövləti və türk dünyası, qədim rus ədəbi abidələrində türk tematikası, getdikcə aktuallaşan Avroasiya problemi, bir çox alimlərin, son 50 ildə L.N.Qumilyov, O.Süleymenov, M.Avcı və b. alimlərin axtarışları və tədqiqatlarında geniş şərh olunmuş, elmi axtarışların istiqamətini bu vacib səmtə çevirmişdi. Lakin etiraf etmək lazımdır ki, XIX əsrin sonunda - XX əsrin əvvəllərində bu problemin beşiyi başında dayananlardan biri İsmayıl bəy Qasprinski olmuşdur. Bu barədə o, "Tərcüman" da yazdığı məqaləsində: "iki əsr Rusiyada hökm sürmüş Altun Orda tatarlarının rus məişətinə böyük təsirindən bəhs edir, qədim türk əyanlarını rus əyanlarına örnək olduğundan söz açırdı.

Görkəmli mütəfəkkir "Tərcüman"ın 13 aprel 1904-cü il tarixli nömrəsində A.Krımskinin iki cildlik "Müsəlman tarixi" kitabı (1903) haqqında resenziyasında ("Təəssübi-türki") alimin əməyinə yüksək qiymət verir, islamı bəzi şərqşünaslardan fərqli olaraq cəhalət mənbəyi kimi deyil, öz mütərəqqi xarakteri ilə qiymətləndirildiyini qeyd edirdi. Onun fikrincə "qəddarlıq və cəhalət türklərin səciyyəvi cəhəti deyil". Əksinə türklərin bütün tarixi bunun əksini sübur edir.

İ.Qasprinskinin Azərbaycan mütərəqqi din xadimlərinə qayğı ilə yanaşdığını H.Ə.Qayıbovun timsalında qeyd etmişdik. "Tərcüman" 24 sentyabr 1904-cü nömrəsində məlumat verirdi ki, Axund Mir Məhəmməd Kərim ağa Mircəfərzadə Bakı qubernatoru Nakaşidze tərəfindən Bakı qazisi və Bakı quberniya məclisinin sədri təyin olunmuşdur. Qəzetin həmin ilki 34-cü sayında isə Mir Məhəmməd Kərim ağa Mir Cəfərzadənin "Qurani-şərifin təfsiri ilə türk lisanına tatar (Azərbaycan - N.Q.) şivəsi üzrə tərcüməsinin" I cildinin tamamlandığı və II cild üzərində iş getdiyi vurğulanırdı. Qəzetdə daha sonra deyilirdi: "Mir Məhəmməd Kərim ağa cənabları ərəbcədə mahir, ərəbi ədəbiyyata gözəl aşina



və elmi təfsiri də alimi-mühəqqəq. Bakının birinci sinif açıq fikirli münəvvər üləmalarındandır.".

İ.Qasprinskinin Azərbaycanın bəzi fikir adamları mətbuatda müəyyən münaqişələri də olmuşdur. Bunların simasında M.Şaxtaxtinski, R.Əfəndiyev və b. tanınmış şəxslər var idi. Məsələn, o, öz qəzetinin nömrələrindən birində M.Şaxtaxtinski özünü "sultan" adlandırmasına təəccübünü bildirir və yazır: "Əgər redaktor Məhəmməd ağa özünü "ay işığı" və "Çin imperatoru" adlandırsın, kimə nə isti-soyuğu var..."

Məlumdur ki, "Şərqi-rus" qəzetinin 1903-cü il 114-cü sayında Rəşid bəy Əfəndiyevin bir yazısı çap olunmuşdu. (çox ehtimal ki, həmin yazı M.Şaxtaxtinskinin təhriki ilə yazılmışdır - N.Q.) İ.Qasprinski "Tərcüman"ın 9 yanvar 1904-cü il tarixli nömrəsində həmin yazıya cavab olaraq qələmə aldığı "Rəşid əfəndiyə cavab" adlı replikasında yazırdı:

"Cənab Rəşid əfəndi, mən qəzetimi həftədə iki dəfə buraxanda, nə "Şərqi-Rus", nə də sizin "Ayna" (zerkalo) heç rüşeym halında da deyildi".

"Tərcüman"da Azərbaycan həyatına dair, azərbaycanlılarla bağlı çoxlu məlumat və informasiyalar getmişdir ki, tarixi baxımdan bunlar böyük əhəmiyyətə malikdir. Qəzetin 9 avqust 1898-ci il tarixli nömrəsindən öyrənirik ki, əlahəzrət Buxara əmiri Bakıda olarkən "Kaspi" qəzetinin redaktoru Əlimərdan bəy Topçubaşova 3-cü dərəcəli Ulduz, gömrükxananın tərcüməçisi Səfərəli Vəlibəyova 1-ci dərəcəli Gümüş Ulduz, I sahənin pristavı, poruçik Məmmədbəyova II dərəcəli Gümüş Ulduz ordenləri təqdim etmişdir.

Yenə qəzetin həmin tarixli nömrəsindən öyrənirik ki, Rusiya müsəlmanları arasındakı fotoqraf demək olar ki, yoxdur. Yalnız Kokand şəhərində bir müsəlman bu işlə məşğul olurdu. İndi cənab Əliyev və cənab Babayev Bakıda iki fotoqrafiya açmışlar. "Tərcüman" başqa bir sayında (14 yanvar 1905- ci il) qeyd edirdi ki, Bibi Gülşad Xatumbayeva Aşqabad kontoruna VI dərəcəli poçt teleqraf məmuru təyin olunub. Bu, müsəlman qadının poçt xidmətində ilk işidir. Qəzetin 14 yanvar 1896-cı il tarixli sayında

isə Qubadan alınan məlumatda belə deyilir: "Yerli tacir Məhəmməd Rəsul Rəhimov sabun əritmə zavodu açmışdır. Zavod əla və ətirli sabun istehsal edir. Sabunəritmə ustası Kazandan dəvət olunmuşdur".

Azərbaycanda "Tərcüman"la bağlı məqalələr XIX əsrin sonu - XX əsrin əvvəllərində yazılsa da bu qəzetin və onun təsisçisinin həqiqi qiyməti yalnız İsmayıl bəy Qasprinskinin ölümündən dərhal sonra verilmişdir. Bu sahədə birincilik "İqbal" qəzetinə məxsusdur. 1914-cü ildə həmin qəzetdə Qasprinski haqqında çoxlu məqalə, yazı, başsağlığı, nekroloq, xəbər, xatirə və ithaf şerləri çap olunmuşdur. Eyni zamanda "Kaspi" qəzetində Ə.Topçubaşovun və C.Hacıbəyovun, "Bəsirət"də N.Nərimanov, H.İ.Qasımov və İ.Məlikovun yazıları çap olunmuşdu.

Sovet dövründə bu görkəmli şəxsiyyətin adının üstündən ya sükutla keçilmiş, ya da pantürkist, burjua millətçisi kimi adlarla damğalanmışdır. 1990-cı ildə bu sətirlərin müəllifinin, daha sonra Ə.Cəfərzadənin, X.Məmmədovun, A.Bəşirlinin, M.İbrahimovanın, İ.Qasımovun və başqalarının məqalələri çap olunmuşdur. (bu sətirlərin müəllifi 1978-ci ildə çalışdığı Azərbaycan Sovet Ensiklopediyasının III cildi üçün kiçik ensiklopedik məlumat da hazırlamışdı, lakin bu məqalə-arayış məlum səbəblərə görə işıq üzü görmədi). Professor Xeyrulla Məmmədovun yazıları daha çox Qasprinski və Azərbaycan ədəbiyyatı mövzusuna həsr olunmuşdur. 1999-cu ildən tədqiqatçı Aybəniz xanım Kəngərli dövrü mətbuatda və elmi jurnallarda İ.Qasprinski və "Tərcüman" mövzusunda bir çox dəyərli məqalələr çap etdirmişdi. 2004 və 2005-ci illərdə həmin müəllifin "İsmayıl bəy Qasprinski" adlı samballı monoqrafiyası da nəşr olunmuşdur. Həmin kitabda B.Həqqinin "Bəxtiyar İsmayıl bəy" adlı ön sözü, İ.Qasprinskinin tədqiqi tarixindən, İsmayıl bəy Qasprinski və Azərbaycan, ümumtürk ədəbi dili problemi kimi fəsillər, Tərcümanın yubileyi və İ.Qasprinskinin ölümü münasibətilə Azərbaycan mətbuatında dərc olunmuş materiallar və onun ölümünə ithaf şeirləri vardır. Kitabda H.Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə və b. şəxslərlə Qasprinskinin əlaqələri xüsusilə əhatəli işıqlandırılmış, "Dildə, fikirdə, işdə birlik" devizi ilə bağlı məsələlər ön plana çəkilmişdir.



Azərbaycan mətbuatında İ.Qasprinski haqqında məqalə və yazılar tədqiqatçı Mirzə Ənsərli tərəfindən toplanmış, "Qartal" nəşriyyatında 2002-ci ildə nəşr edilmişdir.

Azərbaycanın görkəmli mühacirləri (Ə.Ağaoğlu, M.Ə. Rəsulzadə, X.Xasməmmədov, Ə.Cəfəroğlu və b.) mühacir mətbuatı səhifələrində İsmayıl bəy Qasprinski haqqında dəyərli məqalələr çap etdirmişlər.

Son illərdə Qasprinski və Azərbaycan mövzusuna Kamil Vəli Nərimanoğlu, İlqar Qasımov, Nazim Muradoğlu və b. tədqiqatçıların müracət etməsi və görkəmli mütəfəkkirin xatirəsinə həsr olunmuş konfrans və simpoziumlarda çıxış etmələri də diqqətəlayiqdir. Bu görkəmli şəxsiyyət haqqında çoxlu kitablar, məqalələr, xatirələr yazılsa da işıqlandırılası və tədqiq olunası mövzular da çoxdur.

***(İlk dəfədir çap olunur)***

* * *

## Jurnalist Xanlar Bayramovun Zöhrə xanımla söhbətindən (İstanbul 1992)

*X. Bayramov:* Zöhrə xanım, atanız Bakını tərk etdikdən sonra sizin taleyiniz necə oldu?

*Z. Göygöl:* Aprelin 27-də axşam atam evə gəldi. O, ciblərini tökərək az miqdarda pul çıxartdı. Stolun üstünə qoyub dedi: Fəna bir zaman başlayır, özünüzdən muğayat olun. Olan pullarım isə yalnız bunlardır. Bizimlə vidalaşdıqdan sonra onu rus sürücüsü harasa apardı. O vaxtdan bu vaxtadək atamın üzünü görə bilmədim. Ağır günlərimiz başladı. Demokratik Azərbaycan hökumətinin rəhbərlərinə qarşı bolşeviklər əsl terrora keçmişdilər. Bizi evdən bayıra atdılar. Ev əşyalarımızı daşıyıb apardılar. Anam Şəfiqə xanım kiçik yaşlı uşaqlar üçün kurs açmışdı. Bir müddət də

Məmməd Əmin Rəsulzadənin evində yaşadıq. 1922-ci ilin axırında Bakıdakı türk səfiri Məmməd (Məmduh – N.Q.) Şövkət bəy anamı yanına çağırıb dedi: daha sizin Azərbaycanda qalmağınız mümkün deyil. Mən sizi yaxın günlərdə Türkiyəyə yola salacağam. Səfir babam Qaspralının arkadaşı imiş. O zaman Rusiyadakı türk əsirləri vaqonlarla Batuma daşınırdı. M. Şövkət bəy bizi saxta pasportlarla həmin vaqonlara mindirib bildirdi ki, Batumdan bizi yola salacaqlar. İki həftədən sonra gəlib Batuma çatdıq. Ordan da paraxodla Trabzona gəldik. Trabzonda bir həftə aclıq içində yaşadıq. Bir gün anam küçədə Şəfi bəy Rüstəmbəyli ilə rastlaşdı. Şəfi bəy Azərbaycan parlamentinin üzvü, "Azərbaycan" qəzetinin baş redaktoru idi. O da xaricə qaçmağa məcbur olmuşdu. O, bizim halımıza çox acıdıqdan sonra İstanbula gedən dəstə ilə bizi də yola saldı. Biz gəlib İstanbulda xalamı, anamın böyük bacısını tapdıq, həmin vaxtlar Türkiyənin özündə də vəziyyət son dərəcə ağır idi. Demək olar ki, İstanbul şəhəri ingilis-fransız qoşunlarının əlində idi. Ağır günlər keçirdik. Anam Qırmızı Aypara Cəmiyyətində işə girdi.

*(İlk dəfədir çap olunur)*



## NƏSİB BƏY YUSİFBƏYLİ HAQQINDA MƏQALƏLƏR


1. **M.Ə.Rəsulzadə**. İstila qurbanları. Nəsib bəy Yusifbəyli, Odlu yurt, 1929, № 3. s.110-112. /İstila qurbanları, B.: Azərnəşr, 1993,- s.8-12.
2. **F.Ağüzüm**. Azerbeycan Devlet adamları: Nesib bey Yusifbeyli. Azerbeycan, 1980, Nisan-Haziran, № 234,- s.7-12.
3. **Mövsüm Əliyev**. Nəsib bəy Yusifbəyli. Odlar Yurdu, 1988, noyabr, №21; Azərbaycan Demokratik Respublikası. Bakı, 1992. s. 33-35; Ədəbiyyat qəzeti, 1991. – 22 fevral.
4. **Mövsüm Əliyev**. Nəsib bəy Yusifbəyli. İncəsənət. 1993, 23 sentyabr.
5. **İbrahimov S.**, **Teymurov M**. Nəsib bəy Yusifbəyov. Ədəbiyyat qəzeti, 1991. 22 fevral.
6. **Hafiz Sadıq**. Nəsib bəy Yusifbəyov. Ədalət, 1992. – 8 sentyabr.
7. **Hafiz Sadıq**. Baş nazir necə qətlə yetirildi? Odlar yurdu, 1992. - № 30-31, 13 noyabr.
8. **Hafiz Sadıq**. Rəisül vükəla necə qətlə yetirildi? Müsavat jurnalı, 1994, №2
9. **Azər Abdullayev**. "Odlar yurdu"na məktub. Odlar yurdu, 1992, № 35-36, 31 dekabr.
10. **Şəmistan Nəzirli**. Qarxunlu Əşrəf bəy. Bakı, 1998.
11. **Ataxan Paşayev**. Nəsib bəy Yusifbəyli. Azərbaycan diplomatiyası, 1993, № 1. S.46-47.
12. **Ataxan Paşayev**. Cümhuriyyət hökumətinin ikinci sədri. Azərbaycan, 2003, 1 iyun.
13. **Nazim Mustafa**. Nəsib bəy Yusifbəyli. Xalq qəzeti, 2002, 28 may, № 26.
14. **Aygün Həsənoğlu**. Erməni terrorunun qurbanları. Azərbaycan, 2004. – 10 mart.
15. Nəsib bəy Yusifbəyli. Cümhuriyyət ensiklopediyası cild 2. Bakı 2004

16.**Musa Qasımov, Cavid Hüseynov.** Azərbaycanın baş nazirləri «Adiloğlu», Bakı, 2005.
17. **N.Qəhrəmanlı**. Sevgi və qayğı dolu məktublar. Vəfa jurnalı, 2005. - № 1.
18. **N.Qəhrəmanlı**. Nəsib bəy nümunəsi. 525-ci qəzet, 2006, 24 dekabr.
19. **Sevinc Verdiyeva**. Azərbaycanın ilk maarif naziri. Azərbaycan müəllimi, 2007. – 18 oktyabr.
20. **R.Cuvarlinski**. **X.Bayramov.** Həmid bəy Yusifbəyli. Azərbaycan müəllimi, 2008, 8 fevral, № 5

## BÖLMƏLƏR BARƏDƏ QEYDLƏR

I. "Sevgi və qayğı dolu məktublar" "Vəfa" jurnalında (2005 №1) və "525-ci qəzet"də (2006) çap olunmuş yazılar əsasında işlənmişdir.

Həmid bəy Yusifbəyli **haqqında bölmə** Azərbaycan Respublikası MTN-də saxlanan arxiv-istintaq işi əsasında yazılmışdır.

"Bir daha Nəsib bəy Yusifbəylinin qətli barədə" Mövcud materiallar əsasında işlənmişdir.

"Cuvarlılar" bölməsində Z.Bünyadovun "Qırmızı terror" kitabından, Azərbaycan Sovet Ensiklopediyasından (s.10) çap olunmuş bəzi materiallardan, Ş.Məmmədovanın "Anaların fəryadı" kitabından, şifahi söhbətlərimizdən istifadə edilmişdir.

II. "Təslim" hekayəsini filologiya elmləri namizədi Paşa Əlioğlu transliterasiya edərək mətbuata təqdim etmişdir.

Məktublar bölməsi təkcə Nəsib bəyin Şəfiqə xanıma məktublarından ibarət deyil. Buraya Nəsib bəyin bacısı Şükufə xanımın Şəfiqə xanıma, həmçinin Həmid bəy Yusifbəylinin Şəfiqə xanıma məktubları və s daxildir. Nəsib bəyin **buraya düşməyən** məktublarının bir qismi Türkiyədə və Azərbaycanda dövlət arxivlərində və şəxsi arxivlərdə saxlanılır. Məktubların bir neçəsi Həbləmitoğullarınm kitabından götürülmüşdür.

Çap olunmuş məqalələr. Əsasən 1906-cı ildə "Tərcüman" qəzetində çap olunmuş məqalələri əhatə edir.

**M. Yusifbəylinin çıxışları Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin stenoqramından (Bakı, 1998) verilir. Hökumətin Azərbaycan vətəndaşlarına müraciəti də bu bölmədə verilmişdir.**

M.Ə.Rəsulzadənin məqaləsi təkrar bir neçə mənbədə (Nağı Şeyxzamanlının xatirələri, "İstila qurbanları" toplusu, Ədəbiyyat qəzeti və s.) verilmişdir.

Mövsüm Əliyevin məqaləsi sovet və müstəqillik dövründə Nəsib bəyin ilk elmi tərcümeyi – halıdır. Bax: Odlar yurdu, 1988, №21

Nağı bəy Şeyxzamanlının xatirələri 1998-ci ildə eyni zamanda jurnalist Xanlar Bayramov tərəfindən (Azərbaycan nəşriyyatı, işləyənləri Etibar Nəcəfov və Əkrəm Bağırov) və C.Qasımov və Mirzə Ənsərli tərəfindən (Qartal nəşriyyatı) nəşr edilmişdir. Kitaba daxil edilən hissə C.Qasımov və Mirzə Ənsərli nəşrindən verilir. (s.226-234. Həmin xatirələrdə M.Ə.Rəsulzadənin məqaləsi də təkrar olunmuşdur.)

III Əlavələr

İ.Qasprinskinin "Məsləki-Tərcüman" adlı yazısı qəzetin məramnaməsi olub qəzetin bir çox saylarında getmişdir.

H.S.Ayvazovun Xədicə xanım Əlibəyovaya məktubu "İşıq" dərgisindən (1911, № 8) götürülüb, N.Qəhrəmanlının ön sözülə birlikdə "Azərbaycanda qadın məsələsi" toplusunda (2006) nəşr edilmişdir.

Yazıçı Ə.Cəfərzadənin İ.Qasprah və Zöhrə xanım Göygöl haqqında məqalələri müvafiq olaraq "Elm və həyat" və "Azərbaycan qadını" jurnallarında çap olunmuşdur və Şəfiqə xanım haqqında türk mətbuatından götürülmüş nekroloqu da ilk dəfə "Azərbaycan qadını"na Ə.Cəfərzadə təqdim etmişdir.

## MÜNDƏRİCAT

**I Nazif Qəhrəmanlı**
**Nəsib bəy nümunəsi.** ... 3
Ömür və tale yolu ... 3
Sevgi və qayğı dolu məktublar ... 13
1932 nömrəli istintaq işi ... 18
Fədakar bacı ... 27
Əyyub bəyin acı taleyi. ... 30
Bir daha Nəsib bəy Yusifbəylinin qətli barədə ... 34
Gəncədə bir ünvan ... 44
Cuvarlılar ... 48
**II Nəsib bəy Yusifbəyli** ... 53
**1. Hekayə. Məktublar. Məqalələr. Parlamentdəki çıxışlar** ... 53
Təslim (hekayə) ... 53
Məktublar. (rusca və tərcüməsi) ... 72
Çap olunmuş məqalələr ... 103
Azərbaycan parlamentində çıxışlar ... 131
**2. Haqqında məqalələr, xatirələr, yazılar** ... 173
M.Ə.Rəsulzadə. İstila qurbanları. Nəsib bəy Yusifbəyli ... 173
Mövsüm Əliyev. Nəsib bəy Yusifbəyli ... 177
Nazim Mustafa. Nəsib bəy Yusifbəyli ... 181
Zakir Murad. Nəsib bəy Yusifbəyli və onun "Ədəmi-Mərkəziyyət" firqəsi ... 186
Nağı bəy Şeyxzamanlının xatirələrindən ... 192
Paşa Əlioğlu. Nəsib bəy Yusifbəylinin "Təslim" hekayəsi tapılıb. ... 196
**3. N.Ələkbərli. Duel. Bir pərdəli pyes** ... 200
**III. Əlavələr** ... 210
İsmayıl Qasprinski. Məsləki-Tərcüman ... 210
Həsən Səbri Ayvazov. Xədicə xanıma məktub ... 211
Həsən Səbri Ayvazov. Qasprinskinin vəsiyyətləri və vəfatı ... 215
Əzizə Cəfərzadə. İsmayıl bəy Qasprali ... 217
Ə.Cəfərzadə. Vətənə dönən ümidlər ... 223
Ünlü bir türk qadını Şəfiqə Qasprali ... 224
Rafat Cuvarlinski. Xanlar Bayramov. Həmid bəy Yusifbəyli ... 226
Sabir Gəncəli. Altı bacı – bir tale ... 232
N.Qəhrəmanlı. Azərbaycanın böyük dostu ... 235
N.Qəhrəmanlı. "Tərcüman" qəzeti və Azərbaycan ... 239
X.Bayramov. Zöhrə xanımla görüşlərdən ... 247
**Nəsib bəy haqqında məqalələr** ... 249
**Bölmələr barədə qeydlər** ... 250
**Mündəricat** ... 252





Nəsib bəy Yusifbəyli



Həmid bəy Yusifbəyli



Əyyub bəy Yusifbəyli



Şəfiqə xanım Niyazi və Zöhrə ilə birlikdə



Niyazi və Nəzakət Kürdəmirlər
(Yusifbəylilər)



Türk Ədəmi Mərkəziyyət Partiyası Müsavatın Mərkəzi Komitəsinin üzvləri (1918-ci il). Soldan sağa: Tağı Nağıyev, Məmməd Əli Rəsulzadə, Məmməd Əmin Rəsulzadə, Mirzə Məhəmməd Axundov, Nəsib bəy Yusifbəyli, Kərbəlayı Vəli Mikayılov, Abbasqulu Kazımzadə.



Şükufə xanım uşaqlarla bir yerdə



Eynülhəyat və bacısı Şəmsi Qəmər



Nəsib bəyin «Tərcüman» qəzetində çap olunmuş məqaləsi. Fraqment



Шафига Ханум!

Вы упрекаете меня в противоречиях в моих письмах; следовательно предполагаете, что их не должно быть в Вашем. Посмотрим. Вы пишете: „Моя теория: всякий должен делать и говорить то, что думает и хочет". Далее: „Я раздумывала, как ответить Вам, так ли, как хочется или так, как следует. Решила ответить так, как нужно".

Я думаю, что совершенно лишнее мне доказывать, что Вы в данном случае противоречите самой: эти маленькие выписки достаточно красноречиво говорят об этом.

И так, я получил Ваше „так,

Nəsib bəyin Şəfiqə xanıma məktubu 25 mart 1904- cü il. Odessa




Zərflər, zərflər…



*Akademik Çingiz Cuvarlı*

# Qeydlər üçün

# Müəllif haqqında məlumat



**Nazif Ələkbər oğlu Qəhrəmanlı** – Tənqidçi ədəbiyyatşünas, nasir və publisist, Filologiya elmləri doktoru, Azərbaycan MEA Nizami ad. Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Bakı Qızlar Universitetinin professorudur. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Ədəbi tənqid və ədəbiyyatşünaslığa, ədəbi irsə, mühacir ədəbiyyatına, mətbuatına, türkologiyaya həsr olunmuş bir çox məqalələrin müəllifidir.

Kitabları:

1. Qarasubazardan olan professor (Bəkir Çobanzadə), Azərbaycan EA MMİ, Bakı, 1994.
2. Milli ədəbiyyat tarixçiliyi (genezis, inkişaf və dövrləşdirmə problemləri), Qartal, Bakı, 1997.
3. Mikayıl Rəfili (həyatı və yaradıcılığı), Qartal, Bakı, 1998.
4. Ədəbiyyat tarixçiləri və tarixləri. Təbriz nəşriyyatı, Bakı, 1998.
5. Üç budaq: Əhməd Cavad, Mikayıl Müşfiq, Almas İldırım. Gənclik, Bakı, 1999; Şirvannəşr, 2007.
6. Bir ömrün rəngləri (Səməd Mənsurun həyat və yaradıcılığı), Elm, Bakı, 2000.
7. Köhnə - yeni əlifba (Azərbaycan əlifbasında dəyişmələr) Yurd, 2002.
8. Quba haqqında nəğmələr. Şirvannəşr, 2004.
9. Səkinə xanım Axundzadə - müəllim, teatr xadimi, dramaturq. BAPQS, 2005.
10. Azərbaycanda ədəbi cəmiyyətlər. 1920-30-cu illər. Elm, 2007.
11. Ədəbiyyat nəzəriyyəsi. Dərslik. BQU nəşriyyatı, Bakı, 2008.

*Direktor: **prof. N.B.Məmmədli***

*Kompüter dizayneri: **Namiq Seyidov***
*Səhifələyici: **Aygün Əsgərova***
*Texniki redaktor: **Rövşanə Nizamiqızı***
*Operator çapçı: **Elşad Hacıyev***
*Montajçı: **Rasim Hacıyev***
*Rəssam: **Fikrət Əlioğlu***
*Kompyuterdə yığdı: **Mehriban Cəfərova***

*Yığılmağa verilmiş 15.02.2008.*
*Çapa imzalanmış 05.05.2008.*
*Şərti çap vərəqi 4,2. Sifariş № 189.*
*Kağız formatı 60x84 1/16. Tiraj 300.*

---

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*